Xəzər Universiteti

Prof. Hamlet İsaxanlı
Təsisçi,
Direktorlar və Qəyyumlar Şurasının Sədri

Hamlet İsaxanlı - 75

Humanitar elmlər yeni paradiqmalar kontekstində

Gənc tədqiqatçıların Beynəlxalq elmi konfransı



Konfransın istiqamətləri:

- DİL
- ƏDƏBİYYAT
- TARİX
- MƏDƏNİYYƏT
- TƏHSİL TARİXİ VƏ FƏLSƏFƏSİ

29 Mart, 2023

Xəzər Universiteti, Məhsəti 41
(012) 421 79 16 (228)
dil.ed@khazar.org

XƏZƏR UNİVERSİTETİ

Hamlet İsaxanlı – 75

Humanitar Elmlər Yeni Paradiqmalar Kontekstində

Gənc Tədqiqatçıların Beynəlxalq Elmi Konfransının Materialları

29 Mart 2023

Xəzər Universiteti Nəşriyyatı

Khazar University Press

Bakı 2023

© Xəzər Universiteti Nəşriyyatı, 2023

Bütün hüquqlar qorunur.

Redaktor : Dos. Dilbər Zeynalova

Tərtib edən: fil.ü.f.d. Aynur Qəzənfərqızı

Korrektor: Fərqanə Ələsgərli

Hamlet İsaxanlı–75 Humanitar Elmlər Yeni Paradiqmalar Kontekstində Gənc Tədqiqatçıların Beynəlxalq Elmi Konfransının materialları, Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2023, 190 səh.

ISBN 978-9952-20-160-4

ELMİ HEYƏT

Professor Hamlet İsaxanlı (Xəzər Universiteti, Azərbaycan)

Dosent İradə Xəlilova (Xəzər Universiteti, Azərbaycan)

Professor Məhəmməd Nuriyev (Xəzər Universiteti, Azərbaycan)

Professor İsaxan İsaxanlı (Xəzər Universiteti, Azərbaycan)

Professor Ramazan Qorxmaz (Qafqaz Universitetlər Birliyinin sədri, Türkiyə)

Professor Kaxa Şenqelia (Qafqaz Universiteti, Gürcüstan)

Professor Nadir Məmmədli (AMEA İ.Nəsimi adına Dilçilik İnstitutu, Azərbaycan)

Professor Bəhman Amani (Elm və Texnologiya üzrə Tədqiqat Mərkəzi, İran)

Professor Bahadur Turayev (İpəkyolu Universiteti, Özbəkistan)

Professor Bədirxan Əhmədov (AMEA, N.Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan)

Dosent Elza Səmədli (Xəzər Universiteti, Azərbaycan)

Dosent Dilbər Zeynalova (Xəzər Universiteti, Azərbaycan)

Dosent Səidə Şərifova (Xəzər Universiteti, Azərbaycan)

PhD Azhar Shaldarbekova (L.N.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstan)

Dosent Nəzakət Məmmədli (AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Azərbaycan)

TƏŞKİLAT KOMİTƏSİ

Dilbər Zeynalova (Dillər və ədəbiyyatlar departamentinin müdiri, sədr)

Elza Səmədova (Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı, həmsədr)

Ələvsət Əmirbəyli (Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru, üzv)

Zəminə Ziyayeva (Dillər və ədəbiyyatlar departamentinin müəllimi, üzv)

Aynur Qəzənfərqızı (Dillər və ədəbiyyatlar departamentinin müəllimi, üzv)

Xatirə Yusifova (Dillər və ədəbiyyatlar departamentinin müəllimi, üzv)

Gülşanə Xudiyeva (Dillər və ədəbiyyatlar departamentinin müəllimi, üzv)

Ülvi Babasoy (Dillər və ədəbiyyatlar departamentinin müəllimi, üzv)

Yeqzar Cəfərli (Dillər və ədəbiyyatlar departamentinin müəllimi, üzv)

Qardaşxan Əzizxanlı (Dillər və ədəbiyyatlar departamentinin müəllimi, üzv)

Söhrab Mustafayev (Tarix və arxeologiya departamentinin müəllimi, üzv)

Zülfiyyə Sadıqova (Musiqi və incəsənət departamentinin müdiri, üzv)

Natella Barkaya (Media resursları mərkəzinin müdiri, üzv)

İlkin Əlizadə (İnformasiya texnologiyaları şöbəsinin menecer köməkçisi, üzv)

Aynurə Ağayeva (Ümumi şöbənin koordinatoru, üzv)

Fərqanə Ələsgərli (Dillər və ədəbiyyatlar departamentinin assistenti, üzv)

ƏDƏBİ DİL ÜÇÜN ARXAİKLƏŞƏN QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİ VƏ ONLARIN TARİXİ-LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

fil.ü.f.d. Almaz BƏDƏLOVA
Azərbaycan Dillər Universiteti
Xəzər Universiteti

Özət

Məqalədə Azərbaycan dialektologiyasının tədqiqat tarixi araşdırılmış, dialekt və şivələrin öyrənilməsinin elmi əhəmiyyətindən bəhs edilmişdir. Belə ki, dialekt və şivələrin əsaslı şəkildə tədqiqi Azərbaycan dilinin tarixi leksikasının öyrənilməsində əvəzsiz mənbələrdəndir. Türk və türkdilli tayfalarının Azərbaycan torpaqlarının yerli sakinləri olaraq Azərbaycan dilinin formalaşmasındakı rolu böyükdür. Eyni zamanda Azərbaycanın ayrılmaz bir hissəsi, qədimdən köklü azəri türklərinin yaşayış məskəni olan Qərbi Azərbaycan şivələrinin tarixi – linqvistik xüsusiyyətləri haqqında məlumat məqalədə öz əksini tapır. Ərazinin zəngin fonetik, leksik və qrammatik xüsusiyyətlərindən bəhs edilərək Qərbi Azərbaycan şivələrinin leksikasının tarixi-linqvistik aspektdən araşdırılması tarixi dialektologiya üçün aktual olduğu kimi, linqvistika üçün də diqqət çəkən mövzulardan olduğu oxucuların diqqətinə çatdırılır.

Açar sözlər*:* Qərbi Azərbaycan, dialekt, şivə, türk tayfaları, arxaik sözlər, dil tarixi və s.

Giriş

Azərbaycan dilinin bir sıra inkişafda olan sahələri var ki, onlardan biri də dialektologiya sahəsidir. Bu gün Azərbaycan dilçiliyində dialekt və şivələrin istər ümumi, istərsə də regional aspektdə araşdırılması Azərbaycan dilinin tarixi leksikasının öyrənilməsində əvəzsiz mənbələrdən biridir. Dil tarixi baxımından aktual və zəngin material olan dialekt və şivələrin əsaslı şəkildə tədqiqi bir sıra dil məsələlərin dərin qatlarının aydınlanmasında olduqca əhəmiyyətlidir. Belə ki, ümummilli Lider H.Əliyev "... Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir" (URL-3) fikrindən qaynaqlanaraq belə bir qənaətə gəlmək olar ki, dil də hər bir xalqın varisi olduğu bir mədəni irs nümunəsidir. Onun keçmişini dərindən bilmək və onun keşiyində durmaq hər birimizin borcudur. Bu dil E.Əzizovun təbiri ilə desək, yarandığı zamandan günümüzədək türksistemli dil kimi Azərbaycan ərazisində sakin olmuş əcdadlarımızdan mənəvi sərvət kimi bizə miras qalmışdır. Tarix boyu Azərbaycan ərazisində müxtəlifdilli qəbilələr, tayfalar yaşamış, tarixi hadisələrin gedişindən asılı olaraq ayrı-ayrı dövrlərdə siyasi hökmranlıq müxtəlif tayfa birləşmələrinin tərəfində olmuş, lakin bu etnik müxtəliflik içərisində Azərbaycan dili üçün əsas olmuş türk etnoslarının varlığı da mövcud olmuşdur (E.Əzizov , 2016:13-14).

Azərbaycan dilinin formalaşması və təşəkkül dövrünə qısa nəzər yetirsək , görərik ki, mənbələrdə türk dillərinin oğuz qrupuna daxil olan , XI əsrdə yarandığı deyilən ümumxalq Azərbaycan dili Ə.Dəmirçizadənin qeyd etdiyi kimi daha da qədim dövrlərdə - V-IX əsrlərdə sabitləşmişdir (Ə. Dəmirçizadə ,1979:50). Lakin araşdırmanın daha dərin qatlarına endikçə, maraqlı tarixi faktlar onu deməyə əsas verir ki, Azərbaycan dilinin tarixi daha qədim dövrlərə miladdan əvvəl III minilliklərə gedib çıxır. Söhbət ilk yazı nümunəsi olan Şumer mixi yazılı abidələrindən gedir. Bu abidə üzərində geniş tədqiqat işləri aparan alman alimi Q.Vinkler, fransız alimi E.Reklü, rus alimi L.Reder, türk alimi Ahmet Cavat şumer dilinin türk-turan

dillərindən olduğunu söyləmişlər. L.Reder: "Şumerlərin dili ayrıca bir dildir. ...Yalnız onu qəti demək olar ki, o, iltisaqi dillər ailəsinə daxildir və öz quruluşuna görə ən çox türk dilləri ilə müqayisə edilə bilər." Ahmet Cavat: "Şumer dilinin turani dillərə bənzədiyi artıq qəbul edilmişdir. Şumerlər haqqında ən yeni və mö'təbər əsər nəşr etdirən Voolley şumerlərin morfoloji cəhətdən "əski türkcəyə bənzər" bir dildə danışdıqlarını qəbul edir." "Şumerlər türkdür, şumerlərin türk olduğu məsələsinin çoxlu sübutları var; bizi bu qənaətə gətirən ən güclü subut ikidir: 1) dil sübutu; 2) geoloji və arxeoloji sübut".Şumer mətnləri üzərində uzun müşahidələr aparan, onların türk dili əsasında oxusu sahəsində inandırıcı uğurlar əldə edən T.V.Nüvədili yazır: "O ki qaldı şumer dilinin Azəri Türküsü olması faktına, bu, Mütləq həqiqətdir! Aksiomadır!" Hətta müəllifin fikrincə, bu dilə vaxtilə "şumer" yox, "türk dili" deyilib: "Gördüyünüz kimi, bütün Kitab (müəllif özünün "Əcdad" kitabını nəzərdə tutur – Q.K.) isbat edir ki, Şumer deyilən dil olmayıb tarixdə. Vaxtilə "Bu, türk dilidir!" deyib duran azman alimlərin səsi sonradan yəhudi mənşəli alimlərin (xüsusilə Amerika alimi Noy Samuel Kramerin) bütün cidd-cəhdləri ilə tam batırıldı. Səmt azdırıldı. Çünki gil yazılar açılmamışdan öncə dünya elmi ictimai fikrində onların mütləq Assur, Yəhudi kitabələri olduğu ideyası mövcud idi. Dahi fransız Yulies Oppert buna son zərbə endirdi! Odur ki bu dil sonradan qəsdən "ölüləşdirildi" və yeni "lüğəti" yaradıldı. Lakin Şumer dili təmiz Azəri türküsüdür!" (URL-1).

Bu araşdırmadan belə qənaətə gəlmək olar ki, mənbələrdə Azərbaycan dilinin türk dillərindən biri olması, bəzən türk dili kimi adlandırılması faktı məhz dilin tarixinin şümerlərlə-mixi yazılarla bağlı olmasından xəbər verir.Əgər miladdan III min il əvvəl yazı gil sərlövhələrə köçürülübsə, onda ünsiyyət vasitəsi olan dil daha qədim vaxtlardan yaranmışdır. Yazının yaranması üçün ilk növbədə nitqin şifahi formasının meydana çıxması və onu nəsildən-nəsilə ötürüb yaşatmaq üçün yazıya alınması demək ki, həmin dövrə təsadüf edir.

Əlbəttə dil tarixi olduqca maraqlı və genişdir. Ona görə qısa şəkildə mövzuyla bilavasitə bağlını göstərməklə tədqiqat işinin aktuallığına diqqəti yönəltmək istərdik. Linqvistik aspektdən dialekt və şivələrin leksik qatının tədqiqata cəlb edilməsi qədim tarixi köklərə bağlı olan Azərbaycan dilinin tarixini, etnik kimliyini ortaya qoyulmasında əvəzsiz mənbədir desək yanılmarıq. Baxmayaraq ki , dilin sürətli inkişaf mərhələsi dialekt və şivələrin arxaik fona keçməsinə zəmin yaradır, ancaq tarixi və linqvistik aspektdən aparılan araşdırma dialekt və şivələrdə yatan gizli məqamları aşkara çıxartmaqda böyük əhəmiyyət kəsb edir. Daha konkret desək tarix və linqvistika elmi vasitəsilə biz şivələrin yaranma yollarını, əsas xüsusiyyələrini (fonetikanı,leksikasını morfologiyasını, sitaksisini), areallarını, paralellərini, mənsub oduğu etnosun məşğuliyyətini, adət-ənənələrini müəyyənləşdirib tarixin dərin qatlarına enə bilərik. Məhz dialekt və şivələrin leksikasından məlum olur ki, qədim türk sözləri ədəbi dillə yanaşı dialektlərdə də çoxluq təşkil edir və yaşayır. Dialekt leksikasının zənginləşməsinə xidmət edən bu sözlərin araşdırılması ərazinin etnik mənsubiyyətinin müəyyənləşdirilməsinə xidmət edir. Bu baxımdan Qərbi Azərbaycan şivələrinin leksikasının tarixi-linqvistik xüsusiyyətləri olduqca aktual olub tarixi faktlarla zəngindir. Bu gün ədəbi dil üçün arxaik fona keçmiş bir sıra qədim türk sözləri Qərbi Azərbaycanın dialekt və şivələrində hələ də yaşayır.

Bildiyimiz kimi, dialektologiya dialekt və şivələrin əsas xüsisiyyətlərini-fonetikasını, leksikasını, morfologiyasını,sintaksisini, dialektoloji lüğətlərin yaranmasını, tərtibini öyrənən nəzəri dilçilik sahəsidir. Son dövrlər bu sahənin linqvistik aspektən əsaslı şəkildə araşdırılması nəinki dialektologiyanın eyni zamanda dil tarixinin bir sıra gizli qalan məqamlarını ortaya çıxartmış oldu. Belə ki, dialekt və şivələrin leksikasının tədqiqi göstərir ki, dilin bu üslubi layı Azərbaycan dilində ümumişləklikdən müəyyən qədər tədric olunsa da digər türk

dillərinin leksikasında işləkliyini hələ də qoruyub saxlayır. Bu baxımdan dil materialları ilə zəngin olan şivələrin leksikasının tədqiq olunması zəruri və əhəmiyyətli məsələlərdən biridir. Əlbəttə ki, biz bunu tarixi, təsviri, müqayisəli dialektologiyanın köməyilə müəyyənləşdirə bilərik.

Elmi ədəbiyyatlardan məlum olduğu kimi, dialektlər ədəbi dilə qarşı duran ünsiyyət vasitəsəsi olub müəyyən bir dilin sıx ərazi birliyinə malik, daima və bilavasitə ünsiyyətdə olan məhdud miqdarda adamlar tərəfindən işlədilir. Ədəbi dilin əsasını təşkil edən dialektlərdən fərqli olaraq şivələr isə kiçik ərazi birliyində yaşayan kollektivin ünsiyyəti üçün işlədilən dil variantıdır (Bayramov, 2015: 9). Hal-hazırda Qərbi Azərbaycanın dialekt və şivələrinin müxtəlif aspektlərdən araşdırılması olduqca əhəmiyyətlidir. Qərbi Azərbaycana məxsus olan adət-ənənlərin, mənəvi dəyərlərin, folklor nümunələrinin, nadir və zəngin dil materiallarının, etnoqrafiyasının qorunub saxlanması üçün ərazinin dialekt və şivələrinin tədqiqata cəlb edilməsi mahiyyət etibarilə həm siyasi, həm də elmi baxımdan aktualdır.

Qədim oğuz türklərinin ata-baba məskəni olan, əzəli türk oğlunun diyarı bu gun Ermənistan adlanan - Qərbi Azərbaycan hər birimizin yaralı yeridir. Ermənilər tərəfindən öz ata ocaqlarından sürgün edilən hər bir Qərbi Azərbaycanlı vətən həsrətilə yanır. Ona görə də bu ərazinin hərtərəfli tədqiqi maraqlı elmi faktları orta qoyur, tarixi həqiqətləri üzə çıxarır. Qərbi Azərbaycanın tarixinə qısa nəzər salsaq görərik ki,tarixdən məlum olduğu kimi bu torpaqlar əvvəlcə İrəvan qəzasının, sonra İrəvan əyalətinin, Çuxursəd bəylərbəyliyinin, İrəvan xanlığının inzibati-ərazisinə daxil idi. ...1918-ci ilə kimi Ermənistan adlanan ölkə olmamışdır. Bilavasitə Çar Rusiyasının himayədarlığı, köməyi və dəstəyi ilə indiki Ermənistan ərazisində XIX əsrdə "Erməni vilayəti" yaradılmış, sovet Rusiyasını təsiri, təzyiqi nəticəsində 1918-ci ildə Azərbaycanın tarixi torpaqları hesabına Ermənistan Respublikası yaradılmışdır (Bayramov, 2011:4) "İndiki Ermənistan Azərbaycanın tarixi torpaqlarıdır. Bu torpaqlar Azərbaycandan mərhələ-mərhələ qoparılaraq qondarma erməni respublikası yaradılmış və bu gün xalqımız üçün yad, əlçatmaz, ün yetməz bir yerə çevrilmişdir. Həmin vaxtdan da ermənilər yer adlarımızı dəyişdirərək erməni mənşəli adlarla əvəz etmiş, Azərbaycan türklərinin bu ərazidəki izlərini tarixdən silməyə çalışmışlar " (Bayramov, 2002:6) fikrinin müəllifi İ.Bayramov həyatının böyük bir hissəsini Qərbi Azərbaycanın toponimlərinin araşdırılmasına həsr etmişdir. Müəllifin 2002-ci ildə nəşr etdirdiyi "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" (Bayramov, 2002), 2005-ci ildə işıq üzü görən "Qərbi Azərbaycanın toponimlər sistemi" kitabları Qərbi Azərbaycan haqqında yazılan dəyərli əsərlərdəndir (Bayramov, 2005). Bununla yanaşı Qərbi Azərbaycan haqqında bir sıra araşdırmacılar da tədqiqat işləri apararaq öz töhvələrini vermişlər. Belə ki, B.Budaqov, Q.Qeybbullayev, H.Mirzəyev, V.Əliyev, Ə.Ələkbərli, A.Bayramov, S.Saqıqova, K.Səmədova və başqaları Qərbi Azərbaycan toponimlərini fundamental şəkildə araşdırmışlar.

Qərbi Azərbaycan şivələrinin araşdılma tarixi ilk dəfə XX əsrin 60-cı illərindən İ.M.Məmmədov tərəfindən başlamışdır. O, müxtəlif illərdə Azərbaycan dilinin Ermənistan şivələri haqqında bir sıra silsilə tədqiqat işləri aparmış ərazinin şivələrində isim düzəldən qeyri-məhsuldar şəkilçiləri, şivələrin fonetik xüsusiyyətlərini, şivələrdəki sifətləri, felləri, bəzi sözlər və arxaizmləri araşdırmışdır (Məmmədov 1965, 1966,1967,1973). 1982-ci ildə "Ermənistan SSR ərazisindəki Azərbaycan şivələrində ismin halları" adlı namizədlik dissertasiyasının müəllifi Y.Camalov da Qərbi Azərbaycan şivələri barədə öz töhvəsini vermişdir (Camalov, 1979). Qərbi Azərbaycanın bir sıra rayonlarının şivələri də tədqiqata cəlb edilmişdir. Belə ki, 1954-cü ildə Z.M.Vəliyev Basarkeçər rayonunun şivələrini, 1959-cu ildə A.Q.Həsənov Nüvədi şivələrini, 1965-ci ildə Ə.İ.Əliyev Meğri şivələrini, 1966-cı ildə

Q.Bağırov Sisyan rayonunun şivələrini, həmin ildə N. Rzayev İrəvan şivələrini, 1968-ci ildə Ş.Kərimov Krasnoselo və İcevan rayonlarının şivələrini, 1970-ci ildə C.Ə.Cəfərov Əştərək rayonunun Hamamlı kənd şivələrini, 1985-ci ildə F.Babayev Masis rayonunun şivələrini, 2000-ci ildə A.Bayramov Ağbaba, Şörəyel, Pəmbək bölgələrinin şivələrini, 2003-cü ildə H.Mirzəyev Dərələyəz şivələrini, 2007-ci ildə A.Qurbanov Çüçəkənd şivəsini araşdırmışlar (Bayramov, 2011:8-18). Qərbi Azərbaycan şivələrinin öyrənilməsində İ.Bayramovun "Qərbi Azərbaycan şivələrinin leksikası" (2010) Ə.Ələkbərlinin "Qərbi Azərbaycanın dialektoloji lüğəti" (2009), S.Sadıqova " Azərbaycan ədəbi dilinin arxaik morfemləri (Qərbi Azərbaycan şivələri ilə müqayisədə)" (2018) əsərləri də olduqca əhəmiyyətli tədqiqat işlərindəndir (Bayramov, 2011; Ələkbərli, 2009; Sadıqova, 2018)

Deyilənləri ümumiləşdirərək onu deyə bilərik, türklərin qədim yaşayış məskəni olan Qərbi Azərbaycan şivələri barədə görülən işlər bu günki elmi-tədqiqat işimiz üçün mənbə rolu oynayan qiymətli əsərlərdir. Baxmayaraq ki, ərazinin şivələri ilə əlaqədar xeyli işlər görülmüşdür, ancaq hələ deyiləsi, sübut olunası faktlar Qərbi Azərbaycan şivələrinin dərin qatlarında yatır.

Ədəbi dil ümumxalq dili əsasında formalaşmış, normativləşmiş, cilalanmış bir dildir. Ədəbi dili sabitləşdirib sistem halına salan xüsusiyyətlərdən birincisi onun dilin digər üslubi laylarından fərqli olaraq normalar çərçivəsində işlədilməsidir. Yəni, dildə olan səslərdən, sözlərdən düzgün istifadə və bunların dildə müəyyən qrammatik status qazanması normalar vasitəsilə həyata keçirilir və bu normalar da ədəbi dili formalaşdırır. Eyni zamanda ədəbi dili səciyyələndirən başlıca əlamətdar cəhətlər onun zəngin lüğət tərkibinə, mükəmməl qrammatik struktura və üslublar sisteminə malik olmasıdır (Sadıqova, 2018:18).

Şifahi formada yaranıb yazıda sabitləşən ədəbi dil hər bir xalqın mədəniyyətini, adət-ənənələrini, həyat tərzini, dünya görüşünü, məşğuliyyətini, düşüncə tərzini, dil materiallarının milli-mədəni qatlarını özündə yaşadaraq gələcək nəsillərə də ötürmüşdür. Ədəbi dil mədəni bir proses olub hər bir xalqın zərurət nəticəsində yaratdığı tarixi bir hadisədir. Düzdü bir sıra alimlər ədəbi dilin yaranmasını yazı ilə əlaqələndirir və IX-XI əsrlərləri yazının yaranma tarixi kimi göstərirlər. Ancaq görkəmli dilçi alim Ə.Dəmirçizadə "... ədəbi dil dedikdə, ancaq yazılı dili anlamışlar, şifahi ədəbi dilin də ola biləcəyini ağıllarına belə gətirməmişlər. Buna görə də ədəbi dil və onun inkişafı dedikdə, ancaq yazılı ədəbiyyatın, yazılı sənədlərin, nəhayət, kitabələrin dilini tədqiq etməkdən uzağa getməmişlər. Belə anlayış nəticəsində "yazısı olmayan xalqların ədəbi dili olmaz" kimi yanlış anlayış meydana çıxmış, yaxud bu və ya digər xalqın ədəbi dilinin başlanğıcı həmin xalqın yazıya malik olduğu dövrdən hesab edilmişdir" fikrini irəli sürərək şifahi ədəbi dilin mahiyyətini, vacibliyini ortaya qoyur (Dəmirçizadə,1979: 9). Onu da qeyd edək ki, Ə.Dəmirçizadə ədəbi dilin ümümxalq dili, Azərbaycan dili və dövlət dili kimi sosialist milli dil əsasında formalaşaraq inkişaf etdiyini bildirir (Dəmirçizadə,1979:100). Əlbəttə ədəbi dilin tarixi bir ayrı tədqiqatın geniş mövzusudur və bir sıra tədqatçıların (Axundov, Hacıyev, Qurbanov, Xudiyev, Kazımov) tədqiqat obyekti olmuşdur. Ədəbi dil tarixi haqqında məlumat verməyimizin də məqsəd dialekt və şivələrin ədəbi dilin tarixinin araşdırılmasındakı rolunun zəruliliyini göstərməkdir. Mənbələrdən də məlum olduğu kimi, hər hansı bir dilin tarixini öyrənərkən, xüsusən müəyyən dövrlərin yazılı mənbələrində təsadüf olunan bir sıra xüsusiyyətləri aydınlaşdırmaq üçün şivə materialları ilə yazılı mənbələrin materiallarını tutuşdurmaq zəruridir (Dəmirçizadə,1979: 40). Bu fakt ümümxalq dili əsasında formalaşmış ədəbi dilin dialekt və şivələrlə qarşılıqlı əlaqədə olmasını göstərir. Baxmayaraq ki, ədəbi dil və dialektlər fərqli xüsusiyyətlərə malikdir, ancaq eyni zamanda bir-biri ilə sıx əlaqədə olub bir-birlərinə təsir edir və bu təsir ədəbi dilin

zənginləşməsinə müəyyən qədər xidmət edir. Dilçilikdən də məlum olduğu kimi, hal-hazırda dilin zənginləşməsində dialekt və şivələr aktivliyini müəyyən qədər itirmişdir, lakin ədəbi dilin zənginləşməsi uzun müddət dialekt və şivələrin hesabına da baş vermişdir. Ədəbi dil tarixi üçün baza rolunu oynayan dialektlər və şivələrdə yaşayan leksikanın araşdırılması olduqca əhəmiyyətlidir, zəruridir. Bu baxımdan Qərbi Azərbaycan şivələrinin leksikasının tarixi-linqvistik baxımdan araşdırılması böyük əhəmiyyət daşıyır. Deyərdik ki, dil daim inkişafda olub dəyişkən olduğu üçün bu gün ədəbi dil üçün arxaikləşmiş bir sıra qədim türk sözləri həmin şivələrdə qorunur və yaşayır. Ədəbi dil üçün istər fonetik, istər semantik cəhətdən arxaikləşmiş şivələrin spesifik xüsusiyyətlərin araşdırılması nəinki dilimizin dərinliklərini eyni zamanda digər türk dilləri ilə paralellərinin müəyyən etməyə şərait yaradır.

Azərbaycanın ayrılmaz tərkib hissələrindən olan Qərbi Azərbaycan ta qədimdən köklü azəri türklərinin yaşayış məskəni olduğu üçün ərazinin şivələri zəngin fonetik, leksik və qrammatik xüsusiyyətlərə malikdir. Dilçi alimlərin şivələr üzərindəki araşdırmaları onu göstərir ki, Qərbi Azərbaycan şivələrində Azərbaycan dilinin nəinki cənub, qərb dialektlətinin, eyni zamanda şərq dialektlərinin də müəyyən xüsusiyyətləri rast gəlinir. Bu da ərazinin şivələrinin işlənmə arealının geniş olduğunu göstərmiş olur. Çox güman ki, bu departasiya ilə əlaqədar olaraq insanların müxtəlif ərazilərdə məskunlaşması nəticəsində meydana çıxmışdır.

Qərbi Azərbaycan şivələrinin Azərbaycan dialektlərindəki yerinə baxsaq görərik ki, hələ əsrin əvvəllərində M.Şirəliyev Azərbaycanı qarış-qarış gəzərək Azərbaycan dilinin dialekt və şivələrini tarixi-coğrafi prinsip əsasında dörd bölgüdə qruplaşdırmış və Qərbi Azərbaycan şivələrindən yalnız İrəvan şivəsini cənub qrupu dialekt və şivələrinə daxil edilmişdir (Şirəliyev, 2008: 16-17).

Azərbaycan dili şivələrinin təsnifi ilə sistemli məşğul olan E.Əziziov Qərbi Azərbaycanın Göyçə, Zəngəzur, Dərələyəz, Vedibasar, Zəngibasar, Pəmbək, Loru şivələrini Azərbaycan dili şivələrinin arealları içərisində göstərərək bu ərazidə yaşayanların şivəsini qərb ləhcəsinin Qazax-Borçalı şivələrinə uyğun olduğunu qeyd edir (Əzizov, 2016: 305). H.Mirzəyev də E.Əzizov kimi ərazinin şivələrini qərb və cənub ləhçələri arasında keçid xarakterli olduğunu bildirir (Mirzəyev, 2003:304). Qərbi Azərbaycanın böyük bir ərazi olduğunu və burada yaşayan azərbaycnlıların müxtəlif şivələrdə danışdığını qeyd edən C.Cəfərov isə Dərə Ələyəz, İrəvan, Mığrı, Vedi cənub ləhçəsinə, Göyçə, Qaraqoyunlu, Ağbaba, Pəmbək qərb ləhcəsinə daxil etmişdir (Sadıqova, 2018:160). Qərbi Azərbaycan şivələrində arxaik morfemləri araşdıran S.Sadqıqova da Ağbaba, Göyçə, Dağ Borçalısı şivələrinin əsasən cənub, qismən qərb ləhcəsinin, Zəngəzur şivələrinin qərb, Meğri şivəsini qismən şərq ləhcəsinin xüsusiyyətlərini daşıdığını qeyd edir (Sadıqova, 2018:46).

İ.Bayramov Qərbi Azərbaycan şivələri dedikdə indiki Ermənistanın Ağbaba, Basarkeçər, Çəmbərək, Karvansaray, Barana, Böyük Qarakilsə, Calaloğlu, Qarakilsə, Kalinino, Qafan, Gorus, Meğri, Kəvər, Dərələyəz, İrəvan, Vedi, Zəngibasar, Əştərək, Hamamlı şivələrini nəzərdə tutur (Camalov,1979 səh.3). Tədqiqatçı Çəmbərək, Karvansaray, Basarkeçər, Böyük Qarakilsə, Dağ Borçalısı, Ağbaba, Quqark rayonlarının şivələrini qərb qrup ləhcələrinə, Dərələyəz, İrəvan, Zəngibasar, Vedibasar, Qarakilsə, Meğri, Qafan rayonlarının şivəsini cənub qrup ləhcələrinə uyğun gəldiyini göstərir (Bayramov, 2011:22).

Eyni zamanda İ.Bayramov ərazinin şivələrinin tədqiqini aşağıdakı kimi qruplaşdırmışdır: 1. Qərbi Azərbaycanın, yəni indiki Ermənistanın ərazilərindəki şivələrin ümumi şəkildə tədqiqi; 2. Qərbi Azərbaycanın ayrı-ayrı bölgələrinin şivələrinin tədqiqi;3. Konkret bir kəndin

şivəsinin tədqiqi. Fikrimizcə, bu bölgü üzrə şivələrin tədqiqi daha sistemli və dəqiq elmi nəticələrin əldə edilməsinə zəmin yaradacaq.

Qərbi Azərbaycan şivələrinin leksikasının tarixi-linqvistik aspektdən araşdırılması tarixi dialektologiya üçün aktual olduğu kimi, linqvistika üçün də diqqət çəkən mövzulardadır. Belə ki, ərazinin şivələrinin leksikasında hələ işləkliyini qoruyub saxlayan sözlər bir zamanlar ədəbi dil üçün də işlək olmuşdur. Lakin mədəni, iqtisadi, coğrafi, ictimai-siyasi şəraitlə əlaqədar olaraq baş verən dəyişiklik ədəbi dildə bu kimi leksik vahidlərin arxaikləşməsinə gətirib çıxartmışdır. Bu haqda M.Şirəliyev yazır: "... arxaik sözlər ədəbi dildən sürətlə çıxdığı halda dialekt və şivələrimizin lüğət tərkibində bunlaruzun müddət qalır. Arxaik sözləri müəyyənləşdirməkdə, mənalarını dəqiqləşdirməkdə bir tərəfdən qədim yazılı abidələrimiz, keçmiş dövr yazıçılarımızın əsərləri, digər tərəfdən də türk dillərinin materialları köməyə gəlir" (Şirəliyev. 2008:325).

Əlbəttə deyilənləri nəzərə alaraq məqsədimizin ədəbi dilin yaranmasında, inkişaf edib zənginləşməsində böyük rol oynayan bu sözlərin (qədim türk sözlərinin –A.B.) dialekt və şivələrdəki izlərini araşdırmaq və qərb ləhcəsindəki hansı semantik çalarda işləndiyini müəyyənləşdirməkdi. Ədəbi dil üçün arxaikləşmiş sözlərdən bir neçəsini nümunə olaraq göstərmək istərdik.

Adax. Vedi və Zəngibasar şivələrində rast gəlinən bu söz "uşağın ilk addımı" (Bayramov, 2011:32) mənası işlənir. Bu məna ədəbi dildə demək olar ki, tamimilə arxaikləşmişdir. Belə ki, ədəbi dildə ad, nişan mənasında işlənilir. Çox güman ki, adaxlamaq sözünün kökündəki adax sözü də bu semantik mənadadır Azərbaycanın Ağcəbədi, Ağdam, Bərdə, Gəncə, Göyçay, Qazax, Şəmkir, Şuşa, Tərtər rayonlarında da "uşağın ilk addımları" mənasında işləndiyi məlumdur (Azərbaycan dialektoloji lüğəti,2007:12). Qədim türk dilləri lüğətində adax sözü adaq formasında rast gəlinir, mənası ayaq deməkdir (Древнетюрский словарь, 1969:8). E.M.Murzayev də adak sözünün ayaq lekseminin bir variantı olduğunu qeyd edir (Мурзаев 1984:39). Fikrimizcə, Vedi və Zəngibasar şivələrində işlənən adax sözünün daşıdığı semantik çalar qədim türk dilləri ilə eyniyət təşkil edir.

Balxı. Qərbi Azərbaycanın Dərələyəz şivələrində rast gəlinir. "Maymaq, bacarıqsız" mənasını ifadə edir (Bayramov, 2011:57). Azərbaycanın Borçalı və Qazax şivələrində tənbəl, maymaq mənalarında işlənir (Azərbaycan dialektoloji lüğəti, 2007: 38). Ədəbi dil üçün tamamilə arxaikləşmiş leksik vahidlərdəndir.

Cırrı. Bu söz Qarakilsə şivələrində "yağlı"(süd) mənasında işlənir (Bayramov, 2011:86).Ədəbi dil üçün tamimələ arxaikləşmiş leksik vahidlərdəndir.

Donux. Çəmbərək şivəsində rast gəlinir və "etinadsız" mənasını ifadə edir (Bayramov, 2011:134). Mingəçevir şivələrində donux "key" mənasında işlənir (Azərbaycan dialektoloji lüğəti, 2007:141). Düşünürəm ki, Mingəçevir şivələrində donux formasında işlənmiş söz Qərbi Azərbaycanın Ağbaba, Çəmbərək, Əştərək, Kalinino, Vedi, Zəngibasar ərazilərinlərində işlənən *dunux* sözünün başqa bir fonetik formasıdır. Belə ki, bölgələrin dialekt dilinin fonetik tərkibinə əsasəsn sözlərin ilk hecalarında o-u səs əvəzlənməsi baş versə də semantik mənaca eynidir .Yəni hər ikisi "gec başa düşən, qanmaz, key" mənasını bildirir.

Eyzan. Bu söz Çəmbərək, Dərələyəz şivələrində "eyni, olduğu kimi" mənalarını bildirir (Bayramov, 2011:143). Azərbaycanın Füzuli, Mingəçevir, Zərdab şivələrində həmişə, daima semantik mənada işlənir (Azərbaycan dialektoloji lüğəti, 2007:153). Füzuli yaradıcılığında da bu leksik vahidə rast gəlinir : Bu işi eyzan sən görürsən (Füzuli) (Azərbaycan dialektoloji lüğəti, 2007:153).Ağdam, Bərdə, Cəlilabad, Gədəbəy, Xocavənd, Kürdəmir, Qazax, Salyan bölgələrində tamamilə, bütünlüklə, başdan-başa mənalarında qeydə alınmışdır – Bıra eyzan

güllüx'dü (Qazax); – Eyzan dədəsinoxşo:r <dədəsinə oxşayır> o gədə (Gədəbəy); – Eyzan gül-çiçəkdi bizim bağlar (Kürdəmir). Bu söz Bakı, Astara, Lənkaran şivələrində eyzən formasında rast gəlinir (Azərbaycan dialektoloji lüğəti, 2007:153).

Güdyan. Bu söz mənəbələrdə güdyanı formasında rast gəlinir. Düşünürəm ki, güdyan sözü ilə güdyanı sözü eyniköklüdür. Qərbi Azərbaycanın Çəmbərək şivəsində işlənərək çovdar mənasını bildirsə də (Bayramov, 2011:165) güdyan sözünün Böyük Qarakilsə (Azərbaycan dialektoloji lüğəti, 2007:188) və Qazax şivələrində (URL-2) " hiyləgər" mənasında işləndiyi mənbələrdə qeyd edilir

Qıbır. Qərbi Azərbaycanın Meğri şivəsində qıbır sözü hirs mənasında işlənir (Bayramov, 2011: 240). Ədəbi dildə belə bir söz hal-hazırda yoxdur. Demək ki, bu söz ədəbi dil üçün tamamilə arxaikləşmişdir.

Zırı. İrəvan, Dərələyəz, Qəmərli, Üçkilsə, Vedi, Zəngibasar şivələrində yekə, iri, böyük, yekəpər, Çəmbərək şivəsində isə həm yekə, iri, böyük, yekəpər, həm də qanmaz, qandırmayan mənasında işləndiyi məlumdur (Bayramov, 2011:423). Ağdam, Cəbrayıl, Mingəçevir, Şəki, Ucar, Zəngilan rayonlarında da zırı sözü bu mənanı mühafizə edir. (URL-2).Bununla yanaşı zırı sözü Başkeçid, Qazax rayonlarında erkək eşşək mənasında işlənir (URL-2). Araşdırma zamanı bu sözün tamamilə mənasının Basarkeçər rayonunda işləndiyinin şahidi olduq : *Qarpız zır kaldı, heş yeməx' də olmur;*

Ə.Ələkbərli isə zır sözünün qanmaz mənasında işləndiyini yazır (Ələkbərli 2009:189)

Nəticə

Qərbi Azərbaycan şivələrinin leksikası ilə bağlı aparılan araşdırmadan əldə edilən nəticələrə əsasən deyə bilərik ki, Qərbi Azərvaycan qədim türk diyarı olub Azərbaycanın ayrılmaz hissələrindən biridir. Qərbi Azərbaycan şivələri Azərbaycan dilinin dialekt və şivələrinin tərkib hissəsidir. Aktuallığı ilə diqqət çəkən Qərbi Azərbaycan şivələri XX əsrin 50-ci illərdən üzü bu yana tədqiq olunur. Ona görə də Qərbi Azərbaycan şivələrində artıq bir sistemlilik müşahidə edilir. Cənub, qərb və qismən şərq ləhcələrinin xüsusiyyətlərini daşıyan Qərbi Azərbaycan şivələrinin leksikası Azərbaycan ədəbi dilində hələ də yaşayır. Bu da onu deməyə əsas verir ki , Qərbi Azərbaycan şivələri zəngin leksikasiya malikdir. Ərazinin dialekt və şivələri ta qədim dövrlərdən yaranmış və uzun bir inkişaf mərhələləri keçmişdir. Ona görə də məhz bu leksikanın araşdırılması olduqca böyük elmi əhəmiyyət kəsb edir. Tədqiqat nəticəsində aydın olur ki, ərazinin leksikasının bir qismi ədəbi dil üçün ya tam, ya da qismən arxaikləşmişdi.

Qaynaqlar

❖ AXUNDOV, Ağamusa. Azərbaycan dilinin dialektoloji lüğəti (2007) Bakı: "Şərq-Qərb"

❖ BAYRAMOV, İbrahim. (2015) *Azərbaycan dialektologiyasının əsasları.* Dərs vəsaiti.Bakı:ADPU nəşriyyatı.

❖ BAYRAMOV, İbrahim. (2002). *Qərbi Azərbaycanın türk mənşəli toponimləri,*.Bakı:Elm.

❖ BAYRAMOV, İbrahim. (2005). *Qərbi Azərbaycanın toponimlər sistemi*, Bakı:Elm.

❖ BAYRAMOV, İbrahim. (2011). *Qərbi Azərbaycan şivələrinin leksikası (dərs vəsaiti).* Bakı:Elm və təhsil.

❖ CAMALOV, Yadigar. (1979). Ermənistan SSR ərazisindəki Azərbaycan şivələrində ismin hallarının sintaksisi//*Azərbaycan SSR EA xəbərləri,ədəbiyyat, dil və incəsənət seriyası, №4,* səh.108-112

❖ CƏFƏROV, Cəfər. (2016).*Müasir Azərbaycan dili (leksikologiya, morfologiya, sintaksis məsələləri)*. Bakı:Orxan

❖ DƏMİRÇİZADƏ, Əbdüləzəl. (1979).*Azərbaycan ədəbi dilinin tarixi.* I hissə. Bakı:Maarif.

❖ ТЕНИШОВ, Александр Шербак, (1969).*Древнетюрский словарь* Ленинград:Наука

❖ ƏLİYEV, Heydər (2004) *Milli varlığımızın mötəbər qaynağı. Dədə Qorqud dünyası.*Məqalələr.Bakı :Öndər nəşriyyatı

❖ ƏLƏKBƏRLİ, Əziz. (2009*). Qərbi Azərbaycan dialektoloji lüğəti.I kitab. İrəvan çuxuru.* Bakı: Ağrıdağ

❖ ƏZİZOV, Elbrus. (2016) . *Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı.* Dərs vəsaiti.II nəşr. Bakı:Elm və həyat

❖ MƏMMƏDOV, İsmayıl . (1965). Ermənistan SSR-də Azərbaycan şivələrində isim düzəldən qeyri-məhsuldar şəkilçilər.*M.F.Axundov adına APDİ-nin professor-müəllim heyyətinin elmi konfransında etdikləri məruzələrin tezisləri.* səh. 35-38

❖ MƏMMƏDOV, İsmayıl. (1966). Azərbaycan dilinin Ermənistan qrupu şivələrinin bəzi fonetik xüsusiyyətləri//*APDİ-nin elmi əsərləri, dil və ədəbiyyat seriyası,* №2. səh. 69-105

❖ MƏMMƏDOV, İsmayıl. (1967).Azərbaycan dilinin Ermənistan qrupu şivələrində sifətlər / *M.F.Axundov adına APDİ-nin professor müəllim heyətinin 1965-ci il elmi işlərinin yekununa həsr edilmiş elmi konfransının materialları,*.səh.137-138.

❖ MƏMMƏDOV, İsmayıl. (1973). Ermənistan SSR ərazisində Azərbaycan dili şivələrində arxaizmlər. /*Тезисы докладов X научной сесии, посвященной итогом научно-исследовательских работ республики по координируемым АН Азерб.ССР проблемами естественных и общеестественных наук за 1972 год,/ Баку,15-16 мая.1973*, Баку: Элм. стр.77-79

❖ MİRZƏYEV, Həsən. (2003). *Dərələyəz mahalının toponimləri və şivə sözləri.* Bakı: Ağrıdağ

❖ МУРЗАЕВ, Эдуард. (1984).Словарь народных географических терминов, М.: Мысль,

❖ SADIQOVA, Sevinc. (2018).*Azərbaycan ədəbi dilinin arxaik morfemləri (Qərbi Azərbaycan şivələri ilə müqayisədə)*.Bakı:.ADPU.

❖ ŞİRƏLİYEV, Məmmədağa. (2008).*Azərbaycan dialektologiyasının əsasları*. Bakı: Şərq-Qərb.

- URL-1. Mixi yazı. https://az.wikipedia.org/wiki/Mixi_yaz%C4%B1
- URL-2. Azərbaycan dilinin dialektoloji lüğəti https://obastan.com/g%C3%BCdyan%C4%B1/562626/?l=az
- URL-3. Bayramlı N. *Tariximizi və mədəniyyətimizi tanıdaq.* https://www.yeniazerbaycan.com/MEDIA_e79458_az.html

Abstarct

In the article, the research history of Azerbaijani dialectology was investigated, and the scientific importance of the study of dialects and dialects was discussed. Thus, the fundamental study of dialects and dialects is one of the indispensable sources in the study of the historical lexicon of the Azerbaijani language. The role of Turkic and Turkic-speaking tribes as local inhabitants of Azerbaijani lands in the formation of the Azerbaijani language is great. At the same time, information about the historical-linguistic characteristics of West Azerbaijani dialects, which are an inseparable part of Azerbaijan and the home of the Azeri Turks from ancient times, is reflected in the article. By mentioning the rich phonetic, lexical and grammatical features of the area, the study of the lexicon of West Azerbaijani dialects from the historical-linguistic aspect is brought to the attention of the readers, which is relevant for historical dialectology as well as for linguistics

Key words: Western Azerbaijan, dialect, dialect, Turkic tribes, archaic words, language history, etc.

“SƏS-KÜY VƏ QƏZƏB” ROMANINDA ŞÜUR AXINI

Aytən QURBANOVA
Xəzər Universiteti
Elmi rəhbər: fil.ü.f.d. Ülvi Babasoy

Özət

Şüur axını modernizmə xas olan xüsusiyyətdir. Yazıçı qəhrəmanın beyninə girib, beynini idarə edir. Şüuru, təfəkkürü ilə aparır. Fəlsəfə kimi danışır, lakin fəlsəfə kimi səslənmir. Qəhrəmanın həyatından çıxış edərək danışır. Milan Kunderanın “Var olmağın dözülməz yüngüllüyü” əsərində Tomaşdan yazsa da, amma Tomaşın həyatı əsasında danışır, bəhs edir.

Şüur axını ilk dəfə William James tərəfindən işlənmişdir. Onun ədəbiyyatdakı bariz və ilkin nümunələrindən biri kimi James Joycenin “Ulysses” romanını göstərmək olar. William Folkner də şüur axınından geniş istifadə etmişdir.

Modernist romanın məşhur müəlliflərindən olan Virciniya Vulfu da nümunə kimi göstərə bilərik ki, özünün şedevri “Missis Dellovey” əsərini “şüur axını” metodu ilə yazıb. Virsiniya Vulf “Modern roman” yazısında John Galswortly kimi yazarları önəmli olmayan məlumatlardan bəhs etməklə günahlandırır. Deyə bilərik ki, bu yazarlar qəhrəmanlarının daxili dünyasını qabarıq halda göstərməmişlər. Söz düşmüşkən Virsiniya Vulfun “ Missis Dallovay” əsərinə baxdığımızda romanın əsasını təşkil edən element qəhrəmanların daxili aləmi, şüurunun necə işləndiyidir. (Virginia Woolf. Mrs. Dollaway, İstanbul, İletişim yayınları).

İnsan beyni eyni vaxtda birdən çox düşüncəylə məşğul ola, zehnində eyni vaxtda keçmişi və indini birləşdirə bilər. Eyni anda fərqli düşüncələri, fərqli zamanlara aid hadisələri istifadə etmək ehtiyacından şüur axını metodu yaranıb.

Modernist yazıçılar müasir yeniliklər tətbiq etməklə oxucunu düşündürürdülər. Folkner də həmçinin bu yola əl atmışdı. Hadisələrin xronoloji gedişini tərsinə çevirmiş və şüur axınından istifadə edərək personajlarının düşüncələrini izləməyin yeni yollarını göstərmişdir.

Açar sözlər: şüur, zaman, saat

Giriş

Rusiyalı yazıçı, filoloq Andrey Astvasaturovun dili ilə desək Folkner oxuculara panoromasız əsər təqdim edib, konkret məqamları qeyd edir, bütöv mənzərəni qurmaq oxuculara tapşırılır, bununla da reallığın kənarında deyil, içində olub iştirakçıya çevrilirik.

Campson ailəsi Yakapatawpha da yaşamışlar. Eynilə “Döşeğimde ölürken” əsərində də Bundren ailəsi də Yakapatawpha da pambıqçılıq və heyvandarlıqla keçinən yoxsul ağdərililərdəndir. Yoknapatawpha, Folknerin doğma şəhəri Lafayette kimi uydurma ərazidir. "Folknerin mifik dünyası" kimi təsvir edilən Yoknapatawpha 2400 kvadrat mil ərazini əhatə edir və Şimali Missisipi təpələri ilə çay yatağının qara torpaqları arasında yerləşir. Uilyam Folkner 15611 əhalisi olan bu əraziyə sahibdir və vətəndaşlarının əksəriyyəti qaradərilidir.

Folkner romanın ən başında bizə bəlli edir ki, çalışacağımız məsələ zaman məsələsidir. Tədqiqat romana bütün bu aspektlərdən baxmağa çalışacaq.

“Səs-küy və qəzəb” Campson ailəsinin ən kiçik oğlu Benjinin 7 aprel 1928- də keçən təhkiyəsi ilə başlayır. İlk hissə oxucuya çox çətin gələ bilər. Belə baxanda oxucunu da qınamalı deyil. Roman olduqca mürəkkəb struktura malikdir. Süjet xətti qarışıq olduğuna görə ağır gəlir. Bununla belə, Folknerin ədəbi dilindəki özünəməxsusluq oxucuların hadisələri

lazımınca qavramalarına mane olurdu. Çünki Folkner əsərlərində təhkiyə üsuluna üstünlük verirdi və bu da təsvir edilən hadisələrin oxucular tərəfindən asanlıqla başa düşülməsinə imkan vermirdi. Hətta kimsə ona deyəndə ki, əsərlərinizi anlamıram, Folkner onlara yenidən oxumalarını tövsiyə edirdi. Özü də yazdığını başa düşməyəndə, başa düşənə qədər oxuduğunu deyirdi. Yenidən əsərə qayıdaq.

Benji:

Benji ədəbiyyat tarixindəki ən qəribə xarakterlərdən biri idi. Yazıçı romanın ilk hissəsində əqli qüsurlu bir personajın şüurunu üzə çıxarıb zaman məntiqi ilə yanaşı süjet xəttini pozaraq, oxucunu çətin mütaliə təcrübəsinə sürükləyən bir əsər ortaya qoyur. Benjinin zaman anlayışı yox idi fikri ilə razılaşa bilərik. Məsələn, Luster ilə hasardan keçərkən mismar vurulması onu keçmişdə bacısı Caddy ilə birlikdə olduğu, yenidən mismarlandığı dövrə qaytarır. Həmin soyuq gündə, Caddy "əllərini cibinə sal" dedikdə, Versh və Maury dayı başqa bir soyuq günə gedirlər və orada Caddyin məktəbdən gəlməsini gözləyirlər. Benji Campson modernist ədəbiyyatın və modernizmin bir simgəsidir.

Quantin:

Zaman: 2 iyun 1910.

İkinci hissədə də təhkiyəçi Campson ailəsinə məxsus Quantindir. O da fərqli baxış açısına malik personajlardandır. Onun üçün zaman hissi çox güclüdür.

2 iyun 1910 il günü oynarkən həm pəncərəyə düşən kölgədən, həm də saatın səsindən günün hansı hissəsində olduğunu bilir.

" Pəncərənin kölgəsi pərdənin üstünə düşdüyü zaman yeddi ilə səkkiz arası idi, sonra zamanın içində özümü tapdım, saatı eşidəndə" (Foulkner, 2004: 68)

Saatlara qarşı bu qədər hissiyat axırda onda zamana qarşı nifrət yaradır. Çünki zaman keçdikcə bacısı Caddy ilə yaşadığı xoş günlər geridə qalırdı. Quantinin ehtiyacı olan şey zamanı dayandırmaq idi. Birinci saatı tərs çevirir ki, hiss etməsin zamanın gedişini, lakin nə fayda. Başlayır saatı qırmağa. Ancaq yenə də zamanı dayandırmaq müşkül məsələdir.

" Şkafın yanına gedib, üzü aşağı olan saatı götürdüm. Şüşəsini qırıb külqabıya yığdım. Saat və dəqiqə əqrəblərini bükdüm. Saat yenə də döyünür. Başqa nə edə bilər… Saatı qoyub Shrevenin otağına keçdim" (Folkner, 2004: 72)

Quantin bacısı Caddyı çox sevirdi. Yüngül həyat tərzi keçirən Caddy Daltondan hamilə qalır, üzüqaralığını gizlətmək üçün Herbert adlı biri ilə evləndirilir. Quantin də bu evliliyə razı deyildi. Herbert isə Caddy hamilə olduğunu öyrəndiyi gecə onu evdən qovur. Caddyın anası üçün bu utanc verici hadisə idi. Oxuduğumuz əsərlərdə də bəzilərində də görürük ki, qadınların əksəriyyəti şöhrətpərəst olurlar. Ana obrazı olan Mrs Cahline də onların bariz nümunəsi idi. Belə ki, sırf adına görə oğlu Quantini Harvardda təhsil alması üçün torpaq sahələrini satır. Hətta bu torpaq sahəsi Benjinin xoşladığı üç şeydən biri idi.

" Harvard elə gözəl səslənir ki… Gözəl səs üçün 40 akr torpaq elə də böyük qiymət deyil. Gözəl, cansız səs Benjinin çəmənliyini gözəl ölü səsə dəyişirik".

Həyatdan da buna nümunə kimi xatirələrimizi boş şöhrətə qurban verməyimizi göstərə bilərik.

Quantin bacısına çarə tapmaq istəyirdi. Buna görə də uşağın ondan olduğunu bildirərək bacısının ayıbını gizlətmək istəyir. Amma atası buna inanmır. Qardaşının intihar xəbərini eşidən Caddy doğulacaq körpənin adını Quentin qoyur cinsiyyətə önəm vermədən. Caddyın qızı dünyaya gəlir və Caddy övladını Campsonlara verərək Cefersonu tərk edir.

Jason:

Folkner “Səs-küy və qəzəb” in üçüncü fəslini Campson qardaşlarından biri olan Jason Campsona aid edib. Jasonun təhkiyəsi Benji və Lusterin həyətdə gəzməsi ilə başlayan hissədən bir gün əvvəl, yəni 6 aprel 1928-də baş verib. Bu hissənin dili digər hissələrə baxanda rahat və anlaşıqlı idi. Əsərdə Jasonun səsini daha çox eşidirik. Jason anası tərəfindən çox sevilən, ancaq pul düşkünü olan məsuliyyətsiz xarakterdir. O pula görə bacısını atasının qəbrini ziyarət etməsi üçün ondan pul alır. Bacısının qızı üçün göndərdiyi pulu özünə götürür. Sonda isə Caddyın qızı Quantin öz pulunu dayısından alıb qaça bilir.

Sanki Folkner bu surəti bizə daha çox açıb göstərmişdir. Necəki Viktor Hüqo “Paris Notr-Dam” əsərində çirkinliyin bədii estetikasını çirkin olan bir şeyin gözəl ola biləcəyini bizlərə vurğulayıbsa, Folkner də eynilə çirkin bir surəti bizə çox gözəl şəkildə izah edib.

Nəticə

Uilyam Folkner demək olar ki, heç bir dil qaydasına əməl etmədən bütün cümlələri, dioloqları ard-arda dözüb. Sanki söz yığımıdır. Oxuduqca yavaş-yavaş məğzi dərk edə bilirsən. Hətta düşünürəm ki, əsərə başlamadan qabaq onun haqqında yazılan təhlillərə baxmaq lazımdır. Çünki əsərin dili də çətindir və üstünə heç bir məlumatın olmadan bu əsərə başlayanda yazılanları başa düşmürsən. Yazıçı qayda pozuntusuna çox yer verib.

Araşdırmalarımda Folknerin əsərin süjetini yuxuda gördüyü deyimi ilə də rastlaşdım.

“ Çayda dörd uşaq- bir bacı, üç qardaş oynayırdı. Onların yanında qaradərili nökər oğlan var idi. Çay bacını aparır, qardaşlar olduqları yerdə qalır”.

Qaradərili (zənci) demişkən əsərdə maraqlı məqam da qarşıma çıxdı. Romanda “qaradərililərin ağdərililərin qulluğunda durması” mifi yox edilib. Necəmi? Dilsey adlı qaradərili qulluqçu obrazı ilə. O burada hamıya əmr edir, ev sahibləri ondan çəkinirdilər. Yazar irqi ayrıseçkilik etmədən bu əsəri bizə təqdim edib. Bəlkə də bunun səbəbi onun öz mifik şəhəri olan Yakapatawphada da vətandaşlarının əksəriyyətinin qaradərili olmasıdır.

Qaynaqlar

- FAULKNER, William (2011). “Ses ve Öfke”. İstanbul: YKY Yayınları.
- FAULKNER, William (2012). “Döşeğimde Ölürken”. İstanbul: İletişim Yayınları.
- HASANUSTA, Ümit. (2011). “William Faulkner’ın Ses ve Öfke Eserinde Zaman ve Bilinç Kavramları”. İstanbul.
- ÖZDEMİR, İlknur (2012). “ Mrs. Dalloway”. İstanbul: Kırmızı kedi yayın evi.
- SAĞLAM CAN, Esengül və CAN Muhammed. (2018). “ÇOK SESLİ BİR TRAJEDİ: DÖŞEĞİMDE ÖLÜRKEN”.
- URL-1. “ WILLIAM FAULKNER’IN SARTORİS İSİMLİ ESERİNDE YANSITILAN YEREL KÜLTÜRE BAKIŞ”. https://dergipark.org.tr/tr/pub/tusbd/issue/59281/814465
- URL-2. “Ədəbiyyatda feminist inqilabı edən qadın- Virciniya Vulf”. http://az.baku-art.com/az/edebiyyatda-feminist-inqilabi-eden-qad-n-virciniya-vulf

Abstract

Stream of consciousness is a characteristic of modernism. The writer enters the hero's mind and controls his mind. He leads the consciousness with his thinking. It talks like philosophy, but it doesn't sound like philosophy. He talks about the life of the hero. In Milan Kundera's work "The Unbearable Lightness of Being", he writes about Tomas, but he speaks and talks based on Tomas's life. Stream of consciousness was first developed by William James. James Joyce's novel "Ulysses" can be cited as one of its clear and early examples in literature. William Faulkner also made extensive use of stream of consciousness.

We can show Virginia Woolf, one of the famous authors of the modernist novel, as an example, who wrote her masterpiece "Mrs. Dalloway" using the "stream of consciousness" method. Virginia Woolf, in The Modern Novel, accuses writers like John Galswortly of telling irrelevant information. We can say that these authors did not clearly show the inner world of their heroes. Speaking of which, when we look at Virginia Woolf's "Mrs. Dalloway", the main element of the novel is the inner world of the heroes, how their minds are worked. (Virginia Woolf. Mrs. Dollaway, İstanbul, İletişim yayınları).

The human brain can handle more than one thought at the same time, combining the past and the present in the mind at the same time. The stream of consciousness method was born from the need to use different thoughts and events from different times at the same time. Modernist writers made the reader think by applying modern innovations. Faulkner also took this path. He reversed the chronological course of events and showed new ways to follow the thoughts of his characters using stream of consciousness.

Key words: consciousness, time, hour**.**

NATIONAL FEATURES OF THE NAURYZ HOLIDAY IN KAZAKHSTAN: «KORISU» -A MANIFESTATION OF FRIENDSHIP AND HARMONY IN RELATIONS

PhD Azhar SHALDARBEKOVA/Qazaxıstan
Eurasian National University by the
name of L.N.Gumilev

Abstract

Nauryz is a very important holiday for Kazakh people. It marks the beginning of a new year. This is one of the biggest holidays in our national calendar. As you know, Nauryz is the 3rd month in the Kazakh calendar. This is the first month of spring. İt shows how important this event is for the culture of Kazakhs. After the collapse of the Soviet Union, in the early years of independent Kazakhstan, the celebration of Nauryz became a symbol of the independence of the young state. Thanks to the celebration of Nauryz, the Kazakh people were able to restore traditions, historical memory as a whole.

In the first part of my article, I will try to describe the significance of the celebration of Nauryz for the Kazakh people. In the second part I will try to highlight the Kazakh tradition of Korisu (translated from Kazakh means "to see", "to meet"), which marks the arrival of spring and is the beginning of the celebration of Nauryz. Due to the fact that the territory of Kazakhstan is very vast and has different climatic zones, Nauryz is celebrated here for thirty days - one month. Actually, in North Kazakhstan where do I live now Nauryz is celebrated in April. Since the spring's warm weather comes here in Astana in April.

This research more has an informative character. It contains practical examples of the Nauryz holiday. This is due to the fact that both the history and ethnography of Kazakhstan are currently at the stage of formation. We have more practical material than theoretical. We hope that this practical material will become a source for future research.

Key words: Nauryz holiday, folkloric tradition, Kazakhstan

Nauryz is a holiday of friendship, unity and mutual understanding.

As a result of climatic conditions of Kazakhstan the main form of environmental management and population life support throughout three millennia was the nomadic cattle breeding — a special sort of making economy at which prevailing occupation is the extensive mobile cattle breeding, and the most part of the population is involved in seasonal movements.

In addition, there were large cities on the territory of Kazakhstan where trade was conducted. The urban population was engaged in agriculture, handcrafts and trade. In the settled regions, people growing crops, vegetables and fruits. Kazakhs spent their whole lives in natural conditions, moving from one place to another in the open air on horses and carts. The main dwelling of the Kazakhs is a yurt with an open dome - SHANYRAK. The Kazakhs were moving through an open space – the Great Steppe. They knew astronomy well – they determined their path by the stars (Kaliyev, 1994: 26).

The beginning of New Year according to the Kazakh calendar takes place in the spring. Spring is the beginning of a New year, a new life in the Great Steppe. The snow melts, the sun shines, the cattle are driven out to the steppe, where green grass reappears. So, since ancient

times, Kazakhs have been happy about the onset of warmth and spring sunny weather. Cattle were also added in the spring - cows, sheep, mares gave new offspring. Young cattle appeared, which also pleased the Kazakh cattle breeder. Nauryz was a great joy for the Kazakh people, a celebration of new life, prosperity. However, for about 70 years this holiday was not celebrated, this holiday was nearly forgotten by people.

The October Revolution and the Communists power led to a great tragedy for the Kazakh people. Tragic events took place in the history of Kazakhstan. The Kazakh people are being forced to abandon nomadic cattle breeding. Cattle were taken away and Kazakhs forced to engage in farming.

According to official sources, in 1920-1930, the population of Kazakhstan decreased by about 4 million people. The people were not only physically exterminated, the Kazakhs began to lose their native language, history, and culture. During the Soviet period, only events important to the Communist Party were officially celebrated. Birthdays of leaders, New Year according to the Gregorian calendar, the date of the revolution, Victory in World War II. In the spring, only one holiday was celebrated – Women's Day on March 8. In December 1991, Kazakhstan became an independent state. The revival of national holidays begins from that time. However, interestingly, the celebration of Nauryz began earlier than this date. According to media sources, the first celebration of Nauryz took place in 1988. This is due to the fact that the Communist Party made an attempt to mitigate the situation in Kazakhstan related to the popular unrest in December 1986 in the city of Almaty. According to official state magazines and newspapers the celebration of Nauryz in 1988 in Kazakhstan took place on a large scale. Festive events were held in all major cities of the country, as well as in regional centers and villages. For the Kazakh people, it had a special meaning: recognition of national identity, recognition of the national language, recognition of national history, traditions, national games, songs, national cuisine, etc. For the first time in many years, yurts were assembled on the squares, Kokpar races, competitions in national types of wrestling "Kazaksha Kures" were held, Kazakh folk songs were sung (Kaliyev, 1994: 31). It was a big splash of national culture. The celebration of Nauryz along with the concepts of Peace, Harmony, Friendship has become a symbol of the revival of national consiousness!

Nauryz is a holiday of Spring and the beginning of a new life. In this regard, it has a special meaning for all Kazakhs. This holiday has also become a holiday of Love and Harmony. It has become a tradition among the Kazakh people to hold weddings and other wedding traditions this time. Kazakhs parents are in a hurry to start wedding celebrations by the beginning of the Nauryz holiday. Then, having gathered all the relatives, they carry out the Betashar traditions and invite all the relatives to a celebration - a big wedding. Kazakhs believe that such a union of young people will be strong, the family will be happy, many healthy children will be born.

Nauryz has become a holiday of unity, friendship and hospitality in Kazakh towns and villages. Here people go to visit without an invitation, even to strangers. During Nauryz, a festive atmosphere reigns at home. Children put on new beautiful dresses and clothes, a table is set (dastarkhan). Women prepare national dishes: kazy karta (horse meat), bauyrsak (flour product), kurt mai irimshik (fermented dairy products). The main dish of Nauryz is Nauryz Kozhe.

Nauryz kozhe

This is the main dish, that is prepared during Nauryz. Since the Kazakhs were mainly engaged in cattle breeding, the main ingredients here are: meat (horse meat, lamb) and sour-milk products (Kenjeahmetuli, 2007: 51)

After all, the main wish that the Kazakhs say on this day congratulating each other on the holiday is “AK MOL BOLSYN”, which in Kazakh means “Let there be a lot of White (milk)”. In order to have a lot of white milk, you need a lot of healthy cattle, in order to have a lot of cattle, you need the land to be fertile, there should be a lot of grass, a lot of sunshine and enough water to drink the cattle. As we can see, the Kazakh people lived side by side with nature and treated nature with great attention and care.

Nauryz Kozhe is called the “Milk Festival”. Nauryz is a holiday of nature, Mother Earth, all life on earth, the day of the equinox. In the understanding of the Kazakhs, “In March, the sun, the moon and the Pleiades star become in the sky in one line, the equinox comes.” The winter frosts are leaving, the cattle is bearing offspring, the earth is waking up. Birds fly in, animals wake up from hibernation. The Kazakhs called such a holy day "Great Day" - "Ulys kun" (Kenjeahmetuli, 2007: 11)

It is believed, that the components of "Nauryz kozhe" symbolize wisdom, health, wealth, protection of the sky. According to ancient beliefs, this dish should be tasted in seven houses, and be sure to treat your dear guests to it yourself. The 7 ingredients are water, meat, grains (wheat, corn, rice, etc.), dairy products, fat, salt. It should be noted, that in different regions of the country, nauryz kozhe is prepared according to their own recipe, which is characteristic of the traditions of their region. The 7 ingredients of nauryz kozhe symbolize wealth, prosperity, happiness and unity.

The Korisu tradition

"Korisu kuni" is celebrated by the Kazakh people on March 14. After a long winter, when the roads are cleared of snow and the spring sun shines, the villagers greet their elders from the very early morning, go around the houses of their relatives and friends. Neighbors and relatives congratulate each other on the successful arrival of spring and, when greeting, they usually say: “Zhasyn kutty bolsyn!” (“With another year!”), “Zhasyna zhas kosylyp, gumurun uzak bolgai!” (“Long life to you!”). On this day, it is customary to forgive each other all past grievances and forget misunderstandings. Residents are in a good mood, put on clean clothes, visit relatives and friends to express good wishes. There is a proverb among the people “Ayga zhetpes asyndy auldastan ayama”, which means “Food, which is not enough for a month, do not regret for neighbors”. On the day of the celebration, rich tables are laid and guests are waiting.

According to experts, this tradition is found among the Mongols and Tuvans.

According to the scientist Andrei ASTAFYEV, who studied the history of the Mangistau region for many years, "The origins of the Kazakh holiday Korisu (Amal) are found among the Mongolian and Tuvan people."

Mangystau residents celebrate Nauryz twice a year (March 14 and 22). Andrei Astafiev explained this holiday from a scientific point of view. He studied the history of our region for a long time and came to the conclusion that the Amal holiday has Mongolian and Tuvan roots. According to the legends of the Adai family, people came to the Ustyurt plateau and the Mangistau peninsula from the east. Perhaps from there they brought with them a different calendar system of reference. According to the Mongolian calendar, weeks are counted in nines, and it begins on December 22. Nine days were grouped into four temperature cycles,

coinciding with the four seasons of the solar year (spring-summer-autumn-winter). The beginning of the new year was considered from the winter solstice, after which the length of the day begins to increase. Winter cold nine days, the time of "birth" and "dying" of frost were counted from December 23 to March 14. From March 14, spring came - the time for the "growing up" of the leaves and the singing of the cuckoo. Following the beginning of spring, the vernal equinox was celebrated on the ninth day," says Zh. Zhaksygaliev.

Shagan (Tsagaan Sar) is a traditional Mongolian New Year holiday. This day is called "Tsagaan Sar" and "Ak Ai" in Kazakh by the Mongols as the beginning of the year. Since ancient times, the Mongols celebrated the first day of spring as the New Year, according to the ancient calendar, as a sign of survival from the harsh winter and the arrival of spring. The holiday of Shagan (Tsagaan Sar) is celebrated differently by Kazakhs in different regions. For example, Kazakhs in China call it Shagan holiday, while Kazakhs in Mongolia call it Sagan sar.

The first day of the spring holiday in Mongolia is a traditional holiday called Zolgokh. This holiday is a tradition of welcoming and meeting the Mongolian people on the first day of the new year. On this day, everyone puts on their national costumes, shakes hands with the old people. "Zolgokh" is a tradition that occurs at the birth of the main month. It was believed that on the first day of the New Year, if a guest came to the house, gathered and said hello, the house would have a happy year. The well-known chronicler, historian Asylbek Baitanovich says that the Zolgokh holiday coincides with the Korisu holiday in the western region.

Tuvan holiday Cholukshuur is an ancient tradition similar to the Korisu holiday

A similar holiday can be found among the Buryat and Tuvan peoples. They called this tradition Cholukshuur. As the meaning of the word implies, this holiday is also the time when people meet, greet and greet each other.

According to a Russian scientist, the Tuvans made the greeting "cholukshuur" when they visited each other's houses. On this day, only white dishes, dairy products and beef are on the table. White food was valued as a symbol of the Turkic-Mongolian peoples who accompanied nomadic cattle. Obviously, the above-mentioned holidays of the Turkic-Mongolian peoples "Korisu", "Cholukshuur", "Zolgokh" are dedicated to dignity and respect. On the eve of these holidays, people put on national costumes, greet each other cordially and respectfully. They set the table, gather relatives and celebrate the New Year.

The Turkic-Mongolian people have long been engaged in nomadic animal husbandry. That's why they put white dishes and animal products on the table. The first way to meet is to meet. It was done by hugging and embracing each other. People wished each other only good wishes. Young people greeted adults. He got rid of the evils of the old year and was happy with the new year. On this ancient day, national games were played and festive entertainment was held. People put on their best clothes, forgot about their grievances, and on the day of the meeting people met each other.

In the conclusion, we need to study the history of the feast of Korisu (amal) and the origin of this tradition. It is unlikely to be one of the calendar holidays of our ancestors, which dates back to the Sak, Gun. It is necessary to fully reveal the historical significance of the tradition and create conditions for the celebration in the Turkic world.

Bibliography

❖ ALIMKULOV, E. (1994). Kuyeu keltir, kiz uzat, toyindi kil. Almaty: Sanat
❖ ERGALI, Serik. (2011).Nau men Yrys: payimdama. Almaty: Kazygurt
❖ JANKEBAYEVA, M. (2011).Tarbiye tagylymy. Kazak memlekettik kyzdar pedagogikalyk universitetinin tajiribesinen. Almaty: KazMemPiU
❖ KALIYEV, S. (1994) Kazak halkinin salt dasturleri. Almaty: Rauan
❖ KENJEAHMETULI, S. (2007). Kazak halkinin salt dasturleri, Almaty: Almatykitap
❖ OMIRZAKPOV, T. (2001). Ulus kun kitabi. Astana: Ruhaniyat kitabi
❖ UAHATOV, B. (1974) Kazak halk olenderi. Almaty: Gylym
❖ URL-1. Altinbek Kumirzak. (2019) «Корису-древний обычай тюрко-монголов» https://e-history.kz/ru/news/show/4184/

Özət

Novruz qazax xalqı üçün çox mühüm bayramdır. Yeni ilin başlanğıcını qeyd edir. Bu, milli təqvimimizdə ən böyük bayramlardan biridir. Bildiyiniz kimi, Novruz Qazax təqvimində 3-cü aydır. Bu yazın ilk ayıdır. Bu, bu hadisənin qazaxların mədəniyyəti üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Sovet İttifaqının dağılmasından sonra, müstəqil Qazaxıstanın ilk illərində Novruz bayramının qeyd edilməsi gənc dövlətin müstəqilliyinin simvoluna çevrildi. Novruz bayramının qeyd edilməsi sayəsində qazax xalqı adət-ənənələrini, bütövlükdə tarixi yaddaşını bərpa edə bildi.

Məqaləmin birinci hissəsində qazax xalqı üçün Novruz bayramının əhəmiyyətini təsvir etməyə çalışacağam. İkinci hissədə yazın gəlişini qeyd edən və Novruz bayramının başlanğıcı olan qazaxların Korisu ənənəsini (qazax dilindən tərcümədə "görmək", "görüşmək" deməkdir) vurğulamağa çalışacağam. Qazaxıstan ərazisi çox geniş olduğuna və müxtəlif iqlim qurşaqlarına malik olduğuna görə Novruz bayramı burada otuz gün - bir ay qeyd olunur. Əslində indi yaşadığım Şimali Qazaxıstanda aprel ayında Novruz bayramı qeyd olunur. Astanada baharın isti havası apreldə gəldiyindən.

Bu tədqiqat daha çox informativ xarakter daşıyır. Orada Novruz bayramının praktiki nümunələri var. Bu onunla bağlıdır ki, Qazaxıstanın həm tarixi, həm də etnoqrafiyası hazırda formalaşma mərhələsindədir. Bizdə nəzəri materialdan daha çox praktik material var. Ümid edirik ki, bu praktik material gələcək tədqiqatlar üçün mənbəyə çevriləcəkdir.

Açar sözlər: Nauryz bayramı, folklor ənənəsi, Qazaxıstan

İOHANN VOLFQANQ HÖTE: "GƏNC VERTERİN İZTİRABLARI"

Cəmilə ƏLİYEVA
Xəzər Universiteti, magistrant
Elmi rəhbər: dos. Xatirə Yusifova

Özət

Bu roman İohann Volfqanq Hötenin 1774 – cü ildə məktublar formasında yazdığı sentimental romandır. Romanda alman reallığının fonunda özünə sui – qəsd edən qəhrəmanın faciəli həyatı təsvir edilir. İlk baxışdan roman adi bir uğursuz sevgi hekayəsinə bənzəyir, amma romanı oxumağa davam etdikcə tək məsələnin bu olmadığını görürük. Çox hissiyata qapanan gənc Verter Lotta adlı bir qızı sevir, lakin Lotta evlidir. Bunu bilən Verter sevdasının baş tutmayacağını bilsə də ümidini itirmir. Çəkdiyi əzablarla birgə yaşayır. Verterin qardaşı Vilhelmə yazdığı məktublarında Höte insan qəlbinin gizli hissələrini çox ustalıqla qələmə alıb. Əsərdə Verterlə Albert arasında intihar edən insan haqqında dialoqlar verilib. Albert bunu zəiflik, Verter isə güclü olmaqdan irəli gəldiyini deyir. Əsərə sevgidən çox, bir intihar hekayəsi kimi baxılmalıdır. İntihar edən kəsə cəmiyyətin baxışı, onun intihardan öncəki həyatı, iztirabları və s. kimi məsələlər əsərdə qeyd olunub.

Açar sözlər: qorxu, azadlıq, yaşamağın mənası, psixologiya, sevgi, kədər, məhəbbət

Giriş

Əsərin möhtəşəmliyi onun gənc qəlbin emosiyaları və cəmiyyətin dəyərləri arasında olan dialoqunu göstərməsindədir. Belə bir təcrübə yaşamaq və cavabsız sevgiyə düçar olmaq həqiqətən də bədbəxtlik kimi qiymətləndirilə bilər. Verterin davranışları, emosiyaları və hissləri özünəməxsusdur. O, hamı kimi deyil. Verterin iztirablarına, özü də gənc yaşlarında səbəb olan onun sevgisi oldu. Verter özünü Albertin tapançası ilə öldürəndən sonra ondan həm öz qisasını almış olur, həm də hisləri görməməzlikdən gələn ictimai quruluşa öz etirazını bildirir.

Höte Verterin keçirdiyi bütün çılğın, romantik hissləri insanın qəlbini parçalayacaq şəkildə təsvir edir. Verter təkcə sevgilisinə qovuşa bilmədiyi üçün yox, həm də mənəvi gerilik ucbatından ölüm yolunu seçir. Verter məktublarında Vilhelmə təbiəti, yeni tanışdığı insanları ona söyləyir. Əslində, başlarda bu qədər duyğulu, hissiyatlı bir oğlan varmı deyə düşündüm Verteri oxuyarkən. Cəmiyyətin duyğusuzluğunu qınayırdı. O, Lottanı hər şeydən çox sevir və onunla qürur duyurdu. Və onun hərkəs tərəfindən mükəmməl varlıq olaraq qəbul olunmasını arzulayırdı. Fəqət sevdiyi qadın ona aid deyildi və bu da Verteri yavaş – yavaş tükədirdi. Belə ki, artıq ölümdən belə qorxmurdu. Verterin belə sevgisinə qarşılıq isə Lotta sadəcə onun dostluğunu istəyirdi. Bu dünyada sevgisinə qarşılıq tapa bilməyəcəyini anlayan Verter Lotta ilə digər dünyada qovuşacağından əmindir və bu səbəbdən intihar edir: " *bu andan etibarən sən mənimsən! Mənim ey, Lotta! Mən öndən gedirəm!"*

Yazıçı burada qəhrəmanı öldürərkən demək istədiyi bir şey vardır. Bu ölüm ruhun bədəndən çıxması, həyatına bir son vermə kimi bir ölüm deyil. Burada qəhrəmanı öldürərkən əslində ürəyini öldürür. Çünki bu eşq acısı onun üçün ölümdən betər idi. Verter Lottanı tanrılaşdırır. Lotta ilə altında vaxt keçirdiyi ağac kəsilir və Lottanı ona xatırladan hər şey ortadan qalxır, ən gözəl anlar torpağa gömülür sanki. Daha sonra da Lotta ilə vaxt keçirdiyi

söyüd ağacı sular altında qalır. Üstünə də Lotta Albertin istəyi ilə Verterə məsafə qoyur. Beləliklə, Verter Lottanı yavaş – yavaş itirir.

Romanın əvvəlində də Verter ruhsal sıxıntılardan təbiətə və sadə bir yaşama qaçır. Verter romantikdir. Təbiətdə Verterin duyğu dəyişmələrinə ayaq uydurur. O xoşbəxtkən kitabın əvvəlində çiçəklər açır, o depressiyada olarkən ağaclar kəsilir, ətrafı sel basır.

Verter Lottanın nişalısı olmasına rəğmən onunla görüşür və bunu uyğun görməyən cəmiyyət onu qınayır. Toplum baskısı Verterin zamanla daha da pisləşməsinə gətirib çıxardır. Verter bir məktubunda Vilhelmə yazır: "*bir daha oyanmama arzusu, hətta ümidiylə yatağa girirəm*". Mental olaraq elə bir evrəyə gəlir ki, özünə zərər vermir, amma canının yanması da vecinə olmurdu.

Əsəri bitirəndən sonra düşündüm ki, əgər onlar qovuşsaydılar necə olardı? Verter xoşbəxt olacaqdımı? Məncə, yox. Bir xəyala çata bilməmək necə xəyal qırıqlığı yaşadırsa, həmin xəyala çatmaq, reallaşdırmağın da etkisi çox tez bitir. Bəzi şeylər xəyal olduğu üçün gözəldir, özəldir. Bəlkə də onlar qovuşsa idi əsər bu qədər mükəmməl olmayacaqdır. Bir növ mənə bu əsər "Leyli və Məcnun" , "Fərhad və Şirin" i xatırlatdı.

Əsərdə olan cümlələr, fikirlər o qədər estetikdir ki, onların dərinliyi, gözəlliyi insanı cəlb edir. İstər – istəməz Verterin düşüncələrində özünü tapır. Və əsərin məktublar şəklində yazılması görürük ki, bu da əsəri daha çox real hiss etdirir. Elə bu səbəbdəndir ki, o dövrdə bu əsəri oxuyan gənclər meloxonik vəziyyətə düşüb sevgiləri uğrunda əzab çəkiblər. Verter obrazının timsalında biz Höteni görürük. Verter Hötenin prototipidir. Çünki Höteni araşdıran zaman, bioqrafiyasına baxan zaman görürük ki, onun özü də gəncliyində bir qıza güclü sevgi hissi duyub. Və bunun timsalında Verterin gözündən Lotta obrazını yaratmışdı. Ümumiyyətlə, obrazın ruh halı dəyişkəndir. Biz Verterin bir neçə halın görürük. Lottanı sevməzdən öncə ruhunu sakitləşdirmək üçün təbiətin qoynuna çəkilir. Burada rəssamlıq fəaliyyəti ilə məşğul olur. Lottanı sevdikdən sonra isə rəsmdən qopacaq qədər divanə bir hala düşür. Digər duyğusal halı isə Lottanın nişanlısı Albert ilə tanışlığından sonra başlayır. Artıq o bu zaman depressiv bir vəziyyətə düşür. Verter sayəsində biz platonik sevginin nəticələrini görürük. Verter ümimiyyətlə, cəmiyyətdəki boşluqlardan yorulmuş, ətrafda olan standart anlayışlardan kənar bir obraz idi. O özünün və xəyallarının olduğu başqa bir dünya yaratmışdı. Və bu dünyada özü ilə ancaq Lottanı təsəvvür edirdi. Özünə uyğun şəkildə görürdü. Əslində Verterin əzabı fərdi deyildi. Cəmiyyətin vəd etdiyi yaşam tərzinin təzahürü kimi meydana çıxır. Bunu başqa sözlə belə deyə bilərəm ki, Lotta özü də Verterə qarşı boş deyildi, lakin dostyana sevgisinin gerçək sevgiyə çevriləcəyindən qorxurdu. Bunun da səbəbi o idi ki, o, Albertlə nişanlı idi. Və bunlara dözməyən Verter intihar edir. Çünki onun təbiətində belə qısıltmalara yer yox idi. Ona absürd gəlirdi. O, qəlbi və ağlı arasında getdiyi yolda qəlbinə məğlub olur. O, eşqinin qarşılıqsız olması ilə yaranan məğlubiyyəti həzm edə bilmir. Və intihar edir.

Qaynaqlar

- İOHANN, Volfqanq Höte.(2014). "Gənc Verterin iztirabları". (çev. S.Şamilov) Bakı: Qanun Nəşriyyatı.
- URL – 1 İohann Volfqanq Höte https://medeniyyet.az/page/news/40415/Iohann-Volfqanq-Hote-.html
- URL – 2 https://en.wikipedia.org/wiki/The_Sorrows_of_Young_Werther

Abstract

This novel is a sentimental novel written by Goethe in the form of letters in 1774. The novel describes the tragic life of the hero who committed suicide against the backdrop of German reality. At first glance, the novel looks like an ordinary failed love story, but as we continue to read the novel, we see that this is not the only issue. Werther, a very emotional young man, loves a girl named Lotta, but she is married. Knowing this, Werther does not lose hope even though he knows that his love will not come true. He lives with his sufferings. In the letters written by Werther to his brother Wilhelm, Goethe very skillfully wrote down the secret parts of the human heart. Dialogues between Werther and Albert about a person who committed suicide were given in the work. Albert says it comes from weakness and Werther says it comes from being strong. The work should be seen as suicide story rather than a love story. Society's view of the person who commits suicide, his life before suicide, his sufferings, etc. such issues are mentioned in the work.

Key words: fear, freedom, meaning – of – life, psychology, love, affection, sorrow.

AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA DİVAN ƏDƏBİYYATINA XAS POETİK FİQURLAR

Emin ZEYNALOV
Bakı Avrasiya Universiteti, bakalavr
Elmi rəhbər: prof. Fərəh Cəlil

Özət

XIX əsr bütövlükdə aşıq sənəti və ənənəsinin tam formalaşdığı, məhsuldar olduğu dövrdür. Bu dövrdə aşıq şeirinin çox cəhətli xüsusiyyətləri sabitləşir, dastançılıq və məclis sənətkarlığı intibah dövrünü yaşayırdı. Ona görə ki, XIX əsrin payına Göyçə ədəbi mühitinin nəhəng sənətkarı Aşıq Ələsgər kimi ustad düşmüşdür. Ustad aşıq hər şeydən əvvəl dövrünün tələbinə uyğun olmaqla yanaşı həm də klassik ənənəni öz poetik dünyasında əks etdirirdi. Məqalədə toxunulan əsas məsələ Aşıq Ələsgərin divan ədəbiyyatında istifadə edilən poetik fiqurları aşıq ədəbiyyatına özünəməxsus ifadə tərzi ilə gətirməsidir. Klassik Şərq ədəbiyyatında elə poetik fiqurlar vardır ki, ondan istifadə etmək bacarığı və istedadı hər qələm sahibinə nəsib olmur. Həmin bədii təsvir üslubundan istifadə yüksək sənətkarlıq qüdrəti tələb edir. Dərin biliyə, yaradıcılıq istedadına malik olmadan həmin ifadə tərzinə girişmək mümkünsüzdür. Odur ki, Ələsgər istedadı və dünyagörüşü onlardan yerində və asanlıqla istifadə etmək qüdrətinə malik idi.

Bu yazıda XIX əsr aşıqlıq sənətinin zirvəsində duran azman sənətkar Aşıq Ələsgər yaradıcılığında geniş istifadə edilən dini-təsəvvüfi şeirlər və klassik divan ədəbiyyatına məxsus poetik fiqurlar təhlil ediləcəkdir.

Açar sözlər: Aşıq Ələsgər, aşıq yaradıcılığı, poetizm

Giriş

Divan ədəbiyyatına məxsus bəzi dini-fəlsəfi görüşlər sonralar aşıq yaradıcılığında, aşıq şeirlərində də təzahür edir. Bu anlamda Aşıq Ələsgərin poetik təfəkküründün incəliklərini, hansı əhval-ruhiyyənin daşıyıcısı olduğunu bilmək üçün onun yaradıcılığındakı bütün detallar diqqətlə izlənilməlidir. Aşıq Ələsgər şeirlərində işlənən bütün elementlər bir-birini elə tamamlayır ki, bədii fikrin açılması üçün ciddi və diqqətli tədqiqat gərəkdir. Bu da sənətkarın sözə yüksək sənət və sənətkarlıq mövqeyindən yanaşması ilə bağlıdır. Bəzi mənbələrdə Aşıq Ələsgərin sufi-irfani dünyagörüşü, klassik ənənələrə bağlı olmaması fikirlərinə rast gəlirik. Görkəmli folklorşünas M.H. Təhmasib yazır: "Sufi-hürifi terminologiyasından hətta Aşıq Ələsgərin, Şəmkirli Aşıq Hüseyn kimi belə təsirlərdən uzaq olan görkəmli aşıqlarımız da heç fərqinə varmadan istifadə etmişlər." [Təhmasib, 1972: 364] Əgər Aşıq Ələsgər sufi fikirləri fərqinə varmadan söyləsəydi:

"Firdovsi, Füzuli, Hafiz, Nəsimi
Onlar da yazdığı ayə məndədir." [Ələsgərli, 2004: 90]

misralarını demək qüdrətinə malik olmazdı. Müəllif "onlar da yazdığı" dedikdə yəni həmin şairlərin dünyagörüşünə, fikirlərinə yaxından bələd olduğunu demək istəyib. Belə ki, Göyçə ədəbi mühitinin azman sənətkarı özünə qədərki şeir janrlarından, forma və şəkillərindən istifadə etməklə yanaşı, həm də novator şair kimi yeni şeir şəkilləri də yaratmışdır. Onun poeziyası öz ictimai dəyərini, forma və məzmun gözəlliklərini bu gün də saxlayır. Onun

klassik şərq poeziyasından yaradıcı şəkildə faydalanması sufizmlə bağlı poetik anlayışları əxz etməsi inkaredilməz faktlarla təsdiqlənib. Bir nümunə olaraq qeyd edə bilərik ki, sufi dünyagörüşündə "Şah" dedikdə Allah nəzərdə tutulur. Bu anlamda Aşıq Ələsgər yaradıcılığında "Şahlar-şahı", "Şahi-mərdan", "Pirim" deyə ifadələrə sıx-sıx rast gəlirik.

"...Pir mana göstərdi şah məqamını,
Gördüm cəmdi çox calalı qabaqda." [Ələsgərli, 2004: 59].

Klassik şərq ədəbiyyatında elə poetik fiqurlar var ki, onlardan istifadə etmək xüsusi yaradıcılıq istedadı tələb edir. Sənətkarın dərin biliyi, geniş dünyagörüşü olmasa bu cür poetik ifadə tərzinin olması mümkünsüzdür. Klassik şərq poeziyasında çox sıx-sıx rast gəlinən, lakin aşıq poeziyası üçün o qədər də səciyyəvi olmayan poetik fiqurlardan biri Eyhamül-vəsldir. Eyhamül-vəslin mənası birləşmə yolu ilə işarədir. Yəni şair fikri və ya sözü hərflərin birləşməsi ilə verir.

"... İsmin üç hərf ilə eylərəm aşkar:
Biri "kaf"dı, biri "lam"dı, biri–"sad" [Ələsgərli, 2004: 32]

"Ələsgərin xəddi çıxdı çal indi,
"He"yi "ye"yə, "dal"ı "re"yə çal indi,..." [Ələsgərli, 2004: 102]

İlk nümunədən görünür ki, şair " kaf, lam, sad" deməklə **"كلص"** – Gilas adına – hansısa gözəlin adına işarə edir. İkinci nümunədə isə "he, ye, dal, re" hərfləri **"حيدر"** – Heydər sözünü yaradaraq imam Əlinin adlarından birini demiş olur.

Klassik şərq poeziyasında çox istifadə edilən poetik fiqurlardan biri də tənasübdür. "Türlü bilim terimleri, mitoloji, tarih ve mesnevî kahramanları, hayvan, bitki ve çiçek adları vs. Yaygın tenâsüb konularındandır." [Pala, 2002: 461]. Tənasüb poetik fiqurunda iki və daha artıq obraz yanaşı işlədilir. Bu, aşıq Ələsgər yaradıcılığında da geniş istifadə edilib.

"Fərhad gördü, sevdi Şirin camalın,
Şirin dost əlindən şirin cam alın...." [Ələsgərli, 2004: 41]

"... Namusu gözləyib, nanı bilməsə,
Əli Zülfüqarı kəssin belini!" [Ələsgərli, 2004: 82]

"Mansırın toxmağı, İsrafil suru,
Kəbənin Zəm-zəmi, Musanın turu ..." [Ələsgərli, 2004: 163]

İlk nümunə şərq əfsanəsi olan "Xosrov və Şirin" də olan obrazlardır. Fərhad deyəndə ilk olaraq Şirin, Bisütun kimi adlar düşünürük. Şair də burada Fərhad və Şirini paralel işlədərək tənasüb poetik fiquru yaratmışdır. İkinci nümunədə Həzrət Əli və ona məxsus ikiağızlı qılıncın (Zülfüqar) paralel işlənməsi ilə tənasüb poetik fiquru yaranmış olur. Üçüncü nümunədə isə işlənən "Toxmaq", "pambıq atan" mənası verir və bu nümunədə "həllac" sözünə işarə ilə "ənəlhəq" ifadəsini söyləyən Mənsur Həllac anılır. "İsrafil suru" mənəvi oyanış və özünü başa düşməyə çağırış kimi səslənir.

Aşıq Ələsgər yaradıcılığında istifadə edilən klassik şərq poeziyasına məxsus fiqurlardan biri də təlmihdir. Şair təlmih poetik fiqurunu Qur'andakı dini rəvayətlərə və ya oradakı hər

hansı bir motivə, dini şəxsiyyətlərə və s işarə edərək yaradır. Məsələn: Hər hansı bir peyğəmbərin daşlarla danışması, körpə uşağın danışması və Yusifin haqlı olduğunu söyləməsi, İsanın ölü diriltməsi, Musa peyğəmbərin əsasının ilan olması, İbrahim peyğəmbərin odda yanmaması, İsmayılı bıçağın kəsməməsi və s təlmihə dair mükəmməl nümunələr hesab edilir.

"Onun bu gəlməyi, gör, nəyə bənzər,
Nə xana, sultana, nə bəyə bənzər,
Misirdən gəlmiş bir köynəyə bənzər,
Kənanda Yaquba dərman gəlibdir." [Ələsgərli, 2004: 50]

Şair burada Qur'ana müraciət edib, Yusif peyğəmbərin Misirdən atası üçün peyğəmbərlik irsinin nişanəsi olan köynəyi gözlərinə şəfa vermək üçün göndərməsi məsələsinə toxunub. Yaqub peyğəmbər bu köynəyi gözlərinə sürtərək yenidən görür və Yusifin görüşünə Misirə gedir. Bu bənd həddindən artıq poetik fiqurlarla zəngindir. Şair "Kənan" və "Yaqub" sözlərini paralel işlədərək tənasüb poetik fiqurunu da yaratmış olur. Həmçinin şair özünü Yaqub peyğəmbərə, öz torpağını isə Kənana (Yaqub peyğəmbərin torpağı) bənzədərək açıq istiarə poetik fiquru da yaradıb. Digər bir poetik fiqur olan təşbehi-əks fiquru da şeirə zənginlik qatır. Belə ki, şeirlərdə gözəllərin gəlişi xana, sultana, bənzəsə də şair bu gözəlin gəlişini daha üstün varlığa bənzədiyini qeyd edir.

İbtida "əlif"dən dərsim almışam,
Ələst aləmində demişəm "bəli".
Həqiqətdən iki gözəl sevmişəm,
Birisi Məhəmməd, birisi Əli [Ələsgərli, 2004: 26].

Bu nümunədə də Qur'an rəvayətinə işarə görünür. "Ələst aləmi" ifadəsi "bəzmi-ələst" rəvayətinə işarədir. Rəvayətə görə Ələst aləmində Allahın "Mən sizin rəbbinizəmmi?" sualına bütün ruhlar "bəli" cavabını vermişlər. Məhərrəm Hüseynov haqlı olaraq yazır "Ələstu Birəb-bikum-Qalu-Bəla" ("Mən sizin Rəbbiniz deyiləmmi? – Bəli!) ki, bunu da təsəvvüf əhli Allahla ruhların qədimi vəhdəti andı kimi qiymətləndirir." [Hüseynov, 2017: 141]. Bu bənddə şair həmçinin "Əlif" deyərkən sufi-hürufi dünyagörüşündəki Allahı nəzərdə tutaraq simvol poetik fiquru da yaratmışdır. Sufi-hürufi dünyagörüşündə Əlif (ا) Allahı və ya gözəlin qəddini simvolizə edir.

Aşıq Ələsgər yaradıcılığında xüsusən də qıfılbəndlərində işlənən poetik fiqurlardan biri də lüğəzdir. Lüğəz bildiyimiz folklor janrı olan tapmacadır. Lakin onu tapmacadan ayıran özəl xüsusiyyəti müəllifli olmasıdır. Səadət Şıxıyeva haqlı olaraq yazır ki "Azərbaycan və ümumiyyətlə, türk şeirinə gəlişi Nəsiminin adı ilə bağlı olan bir çox poetik fiqur və şeir şəkilləri sonralar aşıq ədəbiyyatında da yer almış və ara-sıra dünyəvi məzmunla bağlanmışdır. Nəsimi yaradıcılığında qəzəlin qəlibində yaradılan müsəmmət, təqsim, rəddül-əcz, rübai formasında ifadəsini tapan lüğəz kimi poetik fiqurlara aşıq şeirində rast gəlinir." [Şıxıyeva, 2019: 129]. Demək lüğəz poetik fiquru divan ədəbiyyatı ilə yanaşı aşıq yaradıcılığında da özünə yer tapmışdır.

Məğrurluq eyləyib ustadam deyən,
O hansı ağacdı, tağı yeddidi?

O ağacdan bir quş yuva salıbdı,
Çarpaz sinəsinin dağı yeddidi [Ələsgərli, 1988: 79].
Yaxud
Altı gündə dünya neçə don geydi,
Nə üstə əyləşdi, bərqərar oldu?
Əvvəli kim oldu ərşin bənnası?
Ulduzlar nə təhər yerbəyer oldu? [Ələsgərli, 2004: 166].

Aşıq Ələsgər yaradıcılığında ənənəvi Şərq poetikasında geniş yayılmış fiqurlardan biri olan iqtibas da geniş istifadə edilmişdir. "Bəlağətə dair əsərlərdə iqtibas deyilərkən şeirdə ayət və yaxud hədisdən istifadə nəzərdə tutur. İqtibas edilən ayət və hədis ərəbcə də ola bilər, türkcəyə də çevrilə bilər" [Şıxıyeva, 2019: 269]. Şairin yaradıcılığında Qurandan və özünə qədərki görkəmli şairlərin şeirlərindən iqtibaslar verilmişdir.

"Bismillahir-rəhmanir-rəhim!" – deyib,
Sidq ilə çağırram Şahi-Heydəri.
Xişmə gəlib, bir əlində götürdü
Səksən min batmanlıq dəri-Xeybəri [Ələsgərli, 2004: 26].

İlk misrada verilən Quranda başlanğıcı bildirən və bütün surələrin əvvəlində işlənən bu ifadəni ərəbcə yəni olduğu kimi verməsi iqtibas adlanır. Ələsgər yaradıcılığında iqtibas iki yöndə özünü göstərir: 1) Quranda olan hər hansı hissəni olduğu kimi çatdırmaq, 2) klassik şairlərin işlətdiyi ifadələri öz yaradıcılığında işlətməklə. Bir şairin başqa bir şairin şeirindən bir parçanı öz şeirinin içində verməsi təzmin adlanır. Təzmində iqtibasdan fərqli olaraq sitat kimi verilən söz ayə və ya hədis deyil, şeir olmalıdır.

Götürüb süzəni, minəndə ata,
Fələk "Əhsən!" deyir boya, büsata [Ələsgərli, 2004:].

Göründüyü kimi şair burada "Fələk "Əhsən!" deyir" ifadəsini Əbdülqasım Firdovsinin "Şahnamə" əsərində işlənən misranın bir hissəsini götürüb və özünəməxsus poetik şəkildə çatdırıb. Həmin misranın bütöv variantı belədir: "Fələk əhsən deyir, mələk mərhəba!"

Aşıq Ələsgərin söz sənətinin keyfiyyətini artıran poetik fiqurlardan biri də cinasdır. Cinas şairdən dərin bilik, zəngin dünyagörüşü, dilin incəliklərinə yaxından bələd olmaq tələb edir. Bununla yanaşı şairin həmin sözləri bənd daxilində yerləşdirməsi də yüksək sənətkarlıq tələb edir. Şair həm məna dolğunluğu, həm də tələffüz gözəlliyi üçün cinasdan xeyli faydalanmışdır. Səadət Şıxıyeva qeyd edir ki, "Sonralar aşıq şeirində özünə yer alan sabitləşən və işlənmə tezliyi ilə başqa ifadə vasitələrini üstələyən cinasın ilk örnəkləri divan ədəbiyyatında yaranmışdır" [Şıxıyeva, 2019: 130]. Cinas qafiyə təcnis şeir şəkillərində işləndiyindən şairin təcnislərində buna sıx -sıx rast gəlmək olar.

Geyibdir qəddinə yar alacanı,
At müjgan oxunu, yarala canı.
İstər Ələsgərdən yar ala canı,
Tökəndə zülflərin a yana, yana [Aşıq Ələsgər, 2004: 90].

İlk misrada “ yar alacanı” ifadəsindəki “alaca” sözü alabəzək mənasında işlənib. Yəni yar alabəzək paltar geyinib. Şair sözü daha poetik şəkildə çatdırmaq və cinas yaratmaq üçün “ca” çoxaltma dərəcəsindən istifadə edib. İkinci misradakı “yarala canı” ifadəsi canı incitmək, yaralamaq mənası yaradır. Üçüncü misradakı “yar ala canı” isə aşiqin canını öz yarı alsın kimi başa düşülür. Digər bir nümunəyə diqqət edək:

Yazıq Ələsgəri oda salıbdı,
Fələk gözdən salıb, o da salıbdı.
Çeşmə kənarında oda salıbdı,
Cumub sona kimi ay üzə, üzə [Ələsgərli, 2004:].

Birinci misrada işlənən “oda salıbdır” ifadəsi frazeoloji birləşmə kimi yandırmaq mənasında işlənib. İkinci misradakı “o da salıbdır” ifadəsi yəni həmin gözəl də məni öz nəzərindən salıb mənasını verir. Üçüncü misrada işlənən “oda salıbdır” ifadəsindəki oda sözü ev mənasında işlənib yəni ev qurubdur mənasını verir.

Klassik bədii ənənəyə söykənən Aşıq Ələsgər poeziyasında Nəsimi yaradıcılığından da götürülmüş bəzi sufi-poetik anlayışlar vardır. Ümumiyyətlə Nəsimi yaradıcılığından aşıq ədəbiyyatına keçmiş şeir forması kimi “Əlif-lam” və “Tərs əlifba” formalarını göstərə bilərik. Demək “ “Əlif-lam” şeiri heç şübhəsiz Nəsiminin eyniadlı şeirinin təsirindən meydana gəlmişdir” [Hüseynov, 2017: 134]. Əlif-lam şeiri divan ədəbiyyatı şairləri arasında geniş yayılsa da Ələsgər hətta Ələsgərə qədər ki, ustad aşıqlar – Miskin Abdal, Aşıq Şenlik, Aşıq Alı da Nəsimi yaradıcılığından bəhrələnərək Əlif-lam formasında şeirlər yazmışdır. Bütün “Əlif-lam” şeirləri dini-təsəvvüf ideyalarını özündə birləşdirir və ilk hərfi Əlif (ا)– Allah kəlməsi ilə başlayır.

İbtidada “əlif” – Allah,
“Be” – birliyə dəlalətdi.
“Te” – təkdi vahidi-yekta,
Arif bu elmə bələddi [Ələsgərli, 2004: 23].

“Kaf” – “kun” ilə tutub qərar,
“Lam” – lal, necə hesab verər,
“Mim” – möminə yol göstərər,
İsmi-paki Məhəmməddi [Ələsgərli, 2004: 23].

Ələsgər “Əlif-lam” şeir formasının yaratdığı imkanlardan yaradıcı şəkildə istifadə edərək tənasüb , eyham və simvol poetik fiqurlarını yaratmışdır. Əlif deyərkən ilk olaraq ağlımıza gözəlin qəddi gəlirsə həm də bu sufi-hürufi dünyagörüşündə ilk hərf kimi Allahı simvolizə edir. Şair sonra isə Allahın adını çəkərək “əlif”ə paralel anlayış işlədərək tənasüb poetik fiqurunu da yaratmış oldu. Beləliklə şair bir misrada iki poetik fiquru işlədib. Gəraylının digər bəndində isə şair “Kun” sözünü işlətməklə “ Kun fəkunə” surəsinə işarə edərək təlmih fiquru yaradıb. Qur’anın bu surəsində sözün, ilahi kəlamın qüdrətinə inam ifadəsini tapıb: “Ol deyərsə, olar...” Bəndin üçüncü misrasında şair yenə “Mim” hərfini deməklə hürufi baxışında Məhəmməd peyğəmbəri nəzərdə tutaraq simvol yaratmışdır. Sonuncu misrada Məhəmməd peyğəmbərin adını çəkməklə isə tənasüb poetik fiqurunu yaratmışdır

Göyçə ədəbi mühitinin azman sənətkarı Aşıq Ələsgər obrazlılığa xidmət edən bədii ifadə vasitələri, zəngin məcazlar sistemi və Şərq divan ədəbiyyatına məxsus poetik fiqurlardan məharətlə istifadə etmişdir. Aşıq Ələsgərdə sözün poetikasının gözəlliyi onun bədii formasının tilsimindədir ki, onu açmaq olduqca çətindir. Müəyyən dünyagörüşünə malik olmadan, dinin sirlərini anlamadan, ümumiyyətlə Şərq fikrini və poetikasını bilmədən ustad sənətkarın söz aləminə daxil olmaq mümkünsüzdür. Hərflərin rəmzi mənalarına vaqif olmayanlar aşığın yaratdığı poetik-üslubi fiqurların bədii-fəlsəfi mahiyyətini çətinliklə qavraya bilirlər.

Qaynaqlar

❖ ƏLƏSGƏRLİ, İ. (1988). *Aşıq Ələsgər. Seçilmiş əsərləri*. Şeirlər. Bakı: Yazıçı.

❖ ƏLƏSGƏRLİ, İ. (2004). *Aşıq Ələsgər. Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb.

❖ HÜSEYNOV, Məhərrəm. (2017). *Aşıq Ələsgərin söz ümmanı*. Bakı: Elm və təhsil. 314 s.

❖ PALA, İskender. (2002). *Ansiklopedik Divan Şiiri Sözlüğü*. İstanbul: Olum yayınları. 511s.

❖ ŞIXIYEVA, Səadət. (2019). Nəsiminin lirikası: irfani mündəricə və poetik zinətlər. Bakı: Elm və təhsil. 320 s.

❖ TƏHMASİB, Məhəmməd Hüseyn. (1972). Azərbaycan xalq dastanları. Bakı: Elm. 399 s.

Abstract

The 19th century as a whole was the period when the art and tradition of ashiq was fully formed and fruitful. In this period, the multi-faceted characteristics of love poetry became stable, and the art of storytelling and assembly experienced a renaissance period. Because the 19th century was blessed with a great artist of the Goyche literary environment, Ashiq Alasgar. Ustad Ashiq first of all corresponded to the requirements of his time and also reflected the classical tradition in his poetic world. The main issue touched upon in the article is that Ashiq Alasgar brought the poetic figures used in divan literature to Ashiq literature with a unique expression style. In the classical Eastern literature, there are such poetic figures that not every pen holder has the ability and talent to use them. Using that style of artistic representation requires a high degree of artistry. It is impossible to engage in that style of expression without having deep knowledge and creative talent. Therefore, Alasgar's talent and worldview had the power to use them on the spot and easily.

In this article, religious-mystic poems and poetic figures belonging to classical divan literature, which are widely used in the work of Azman artist Ashiq Alasgar, who is at the peak of the art of love in the 19th century, will be analyzed.

Keywords: Ashiq Alasgar, Ashiq creativity, poeticism

THE IMPACT OF HISTORY ON POLITICAL DECISION-MAKING AND SECURITY: THE CASE OF RUSSIA-UKRAINE CONFLICT

Əliş NİFTƏLİYEV
Exeter Universiteti (İngiltərə)
Kozminski Universiteti (Polşa)
Supervisor: dos.Xatirə Yusifova

Abstract

Politics, as well as security policy, are significantly influenced by history. While making crucial decisions regarding the future, policymakers can learn critical lessons and gain new perspectives from the past. But historical interpretations and stories can also be employed to advance political objectives and prolong controversies. Despite its significance, history is sometimes disregarded in the study of international relations. It should therefore be carefully examined in the context of security studies and the formulation of foreign policy.

As in most of the conflicts studied by academics, the role of history is not mentioned enough in the Russo-Ukrainian war. This conflict is widely characterized by Russia's security concerns, its expansionist policies and the competition of power between NATO and Russia. However, it must be noted that the role of history and historical memory of Russia must be carefully studied to understand this conflict better. Often, Putin regards Ukraine as the origin of the Russian people (Kissinger, 2014). He also considers the collapse of the Soviet Union as the geopolitical disaster of the 20th century (NBC, 2005). Therefore, we can argue that the decision-making of the Kremlin is not only dependent on security threats or balance of power, but also on the identity, culture and history of Russia in the region.

This paper will examine the impact of history on political decision-making and security, with a focus on how historical memory and interpretations influence the choices that policymakers make. It will explore how the use of historical analogies and narratives can shape foreign policy, and how historical grievances can contribute to security threats and conflicts. To prove the arguments in the paper, I will be using the Russia-Ukraine conflict as the case study. By examining the complex relationship between history and politics, this paper seeks to deepen our understanding of how the past continues to shape the present and future of international relations. Firstly, I will talk about the theoretical approach to the role of history. Secondly, the case study will be utilised for this paper. Finally, the analysis will be done by comparing the theory to the case study's findings.

Keywords: security studies, political decision-making, history, collective memory, war and conflict

How does history affect security concerns and political decision-making?

To make decisions in foreign policy, we usually need some learning. Usually, these learnings come from the past or from the analysis of the current situation. If we were to look at events from a neorealist perspective, we would focus on the attributes such as the balance of power, if there is any rise of military power in the region, and what are the intentions of other countries. Such elements may help us analyse the current situation and based on this analysis states to formulate their policies. However, it does not fully tell us if the military build-up is for defensive or aggressive purposes. This topic is frequently discussed in two different neorealist schools: defensive and offensive realism. Defensive school originates from the work of Walt'z "Theory of International Politics", where he argues that states increase their power for their security (Waltz, 1979). Offensive realism's origin lies in Mearsheimer's book "The Tragedy of Great Power Politics", he contends that states try to gain more power for achieving hegemony in their region (Mearshimer, 2011).

Although this divide might give two detailed theories to analyse the current situation of states and regional security matters, this does not tell us enough about states' intentions, as we lack learning of their previous behaviour. Therefore, the divide between neorealist schools is also the shortage of it, where they don't consider one's history and culture as possible variables affecting policy making. The history of one country is a learning experience and this experience can shape decisions. For example, the close cooperation and peaceful relations between the EU countries can be seen as a result of economic benefits or dependency on each other, as argued by liberal theorists. However, there is a historical side to it. The union was originally formed as a purely economic union to make sure close cooperation among Western European countries (Gabel, 2023).This was the result of World War II and the start of the Cold War. To explain this better, the past problems among the Western European countries were part of history, which is a learning experience for countries. This experience was information for future decisions on how they can prevent these problems. As a result, European Coal and Steel Community and then European Economic Community were established, which later turned into European Union (Gabel, 2023).

An example of the European Union can be interpreted differently by realist and liberalist schools. However, looking at the event from a constructivist perspective can tell us more about the historical and cultural side of the decision-making process. As constructivism focuses on identities, interests and norms, this theory can help us understand the role of history better. Their main argument is that ideational factors determine the interests and identities of the actors (Finnemore & Sikkink, 2001). If we were to base our assumption on this argument, then the establishment of the EU is not only of economic interests but also ideological factors. The role of democracy, the free market economy, freedom of movement and many more factors like this may have caused the creation of the EU. Therefore, the idea of the EU also helps to form the foreign policies of these states among each other. The history of cooperation among these actors gives them the assumption that softer and more cooperative foreign policies can be deployed, as it will benefit them. To prove the effect of history further, I will analyse the Russian-Ukrainian war and explain how the war is not only because of material factors but the mix of historical, cultural and security issues.

The Case Study: the Russian-Ukrainian Conflict

From the start of this conflict in 2014, Russian aggression was regarded as an attempt to increase power, restore the power of the Soviet Union and response to the increasing threat of NATO expansion (Luxmoore, 2014). The reason for such root causing can be linked to the policies of Russia under Putin. Since his presidency in 2000, Russia became more assertive in its attitude towards the West and more aggressive in its foreign policies (Monaghan, 2014). Its participation in the Syrian civil war, the August war in Georgia in 2008, the Crimean crisis in 2014 and the recent war in 2022 are a few examples of aggressive foreign policy decisions. Russia's tense relationship with the West is associated with the balance of power and security. However, realists miss an important point about history. History can be an important factor in the uneasy relationship with the West and the invasion of Ukraine. There are a few reasons for that.

Russia can be considered a great power in its region and in the world. However, after the collapse of the Soviet Union, Russia's image was hurt in its earlier years of establishment, as it was economically weak, there was a civil war and the corruption in the government did not produce good results. With Putin's presidency, this changed and Russia became powerful in less than a decade and was able to pursue the wholescale war in Georgia in 2008. This showed that Russia wanted to protect its great power status and prevent other actors from intervening in the region. Russia's great power identity is historical and not only Putin and his elites, but also the people of Russia embrace this identity. Therefore, the election of Putin as

president was no coincidence either, as the people wanted to see a stronger Russia again. Another proof of the impact of history lies in Putin's words, as he regarded the collapse of the Soviet Union as the geopolitical disaster of the 20th century (NBC, 2005). Furthermore, he called this the demise of historical Russia (Osborn & Ostroukh, 2021). These statements tell a lot about Putin's decision and Russia's foreign policy towards former communist countries. It shows the historical feelings and the decisions fuelled by historical memory. This can be backed up by Kissinger's argument that Russia does not consider Ukraine a foreign country and its history originate from Kievan-Rus (Kissinger, 2014).

The expansion of NATO, Georgia and Ukraine's close relationship with the West are other examples of historical variables. NATO was established during the Cold War to fight against the communist influence of the Soviet Union in Europe (Haglund, 2023). After the collapse of the USSR, NATO was still in place and one of the promises to Russia was that NATO was not supposed to expand beyond its current countries (Euronews, 2014). However, this promise was not upheld and instead it started to integrate former Warsaw Pact countries into the alliance. Given the historically hostile relations between Russia and NATO, such actions can be perceived as provocative by the Russian leadership. On the other hand, Russia could have joined NATO and contributed to the united European security. However, the role of history is apparent here. The previous interaction of Russia and NATO is knowledge of the current situation and it is utilised by the leaders to make decisions. Therefore, NATO's possible expansion into Georgia and Ukraine is not only perceived as the loss of power or a direct security threat, but also the broken promise of NATO.

Analysis

By using the theoretical views of neorealists and constructivists on the Russian-Ukrainian war, it is possible to argue that the role of history is significantly undermined in the academic literature. The conflict could be caused by the power competition and security issues in the region, however, the role of history is apparent in this conflict as suggested by the case study. Politicians do not always make rational decisions and sometimes these decisions can be driven by factors like identity, culture and history. Therefore it is possible to conclude that history has an effect on political decision-making and the role of history should be further addressed in academic research to understand it better.

Conclusion

This article looked at how history affects security and political decision-making. National identities, collective memories, and strategic cultures are fundamentally shaped by history, and these factors have an impact on how states engage with one another in the international system. Political discourse and actions regarding foreign policy are frequently influenced by historical narratives and comparisons, particularly during times of crisis or conflict. The article illustrated the intricate and varied ways that history affects political choice-making and security by reviewing the case study of the Russian-Ukrainian war. To successfully address security issues and encourage state collaboration, the article underlined the significance of knowing the historical backdrop of modern international relations.

Qaynaqlar

- Euronews. (2014). *Full video: Putin's address on Crimea joining Russia, signing ceremony*. Retrieved May 5, 2021, from https://www.youtube.com/watch?v=Ayu3Ecdbl0Q

❖ Finnemore, M., & Sikkink, K. (2001). Taking Stock: The Constructivist Research Program in International Relations and Comparative Politics. *Annual Review of Political Science*, 391-416.

❖ Gabel, M. J. (2023, March 10). *European Union*. Retrieved from Britannica: https://www.britannica.com/topic/European-Union

❖ Haglund, D. G. (2023, March 9). *North Atlantic Treaty Organization*. Retrieved from Britannica: https://www.britannica.com/topic/North-Atlantic-Treaty-Organization

❖ Kissinger, H. (2014). *To settle the Ukraine crisis, start at the end*. Retrieved May 5, 2021, from https://www.washingtonpost.com/opinions/henry-kissinger-to-settle-the-ukraine-crisis-start-at-the-end/2014/03/05/46dad868-a496-11e3-8466-d34c451760b9_story.html

❖ Luxmoore, M. (2014). DEFENSIVE IMPERIALISM: THE EVOLUTION OF RUSSIA'S REGIONAL FOREIGN POLICY. *International Journal on World Peace, 31*(2), 73-112

❖ Mearshimer, J. J. (2011). *The Tragedy of Great Power Politics* (1st edition ed.). New York: W. W. Norton & Company.

❖ Monaghan, A. (2014, October). *Defibrillating the Vertikal? Putin and Russian Grand Strategy*. Retrieved April 28, 2021, from https://www.chathamhouse.org/sites/default/files/field/field_document/20141024DefibrillatingVertikal.pdf

❖ NBC. (2005). *Putin: Soviet collapse a 'genuine tragedy'*. Retrieved May 5, 2021, from https://www.nbcnews.com/id/wbna7632057

❖ Osborn, A., & Ostroukh, A. (2021, December 12). *Putin rues Soviet collapse as demise of 'historical Russia'*. Retrieved from Reuters: https://www.reuters.com/world/europe/putin-rues-soviet-collapse-demise-historical-russia-2021-12-12/

❖ Tsygankov, A. P. (2006). Projecting Confidence, Not Fear: Russia's Post-Imperial Assertiveness. *Orbis, 50*(4), 677-690.

❖ Tsygankov, A. P. (2016). *Russia's Foreign Policy: Change and Continuity in National Identity* (4th ed.). Lanham: Rowman & Littlefield.

❖ Waltz, K. (1979). *Theory of International Politics* (1st Edition ed.). Reading: Addison-Wesley

Özət

Bu məqalə tarixin siyasi qərarların qəbulu və təhlükəsizliyə təsirini araşdırır. Tarix milli kimliklərin, kollektiv yaddaşların və strateji mədəniyyətlərin formalaşmasında həlledici rol oynayır ki, bu da öz növbəsində beynəlxalq sistemdə dövlətlərin bir-biri ilə qarşılıqlı

əlaqəsinə təsir göstərir. Tarixi rəvayətlər və analogiyalar çox vaxt siyasi diskursa məlumat verir və xüsusilə böhran və ya münaqişə zamanı xarici siyasət qərarlarını formalaşdırır. Tarixi nümunələri təhlil edərək, məqalə tarixin siyasi qərarların qəbuluna və təhlükəsizliyə təsir göstərdiyi mürəkkəb və çoxşaxəli yolları vurğulayır. Nəhayət, məqalədə təhlükəsizlik çağırışlarının effektiv həlli və dövlətlər arasında əməkdaşlığın təşviq edilməsi üçün müasir beynəlxalq münasibətlərin tarixi kontekstinin dərk edilməsinin vacibliyi vurğulanır.

Açar sözlər: təhlükəsizlik elmləri, siyasi qərar vermə, tarix, kollektiv yaddaş, müharibə və münaqişə

OĞUZ ATAYIN "TUTUNAMAYANLAR" ƏSƏRİ KOKTEYL ROMAN KİMİ

Əsmər ƏLİYEVA
Xəzər Universiteti, bakalavr
Elmi rəhbər: fil.ü.f.d. Ülvi Babasoy

Özət

Tutunamayanlar romanı fərqli üslubların və bədii növlərin (musiqi, teatr, şeir, hekayə, publisist mətn, vs.) bir-birilə toqquşması və birləşib bir bütün halına gəldiyi kokteyl əsərdir. Oğuz Atayın "Tutunamayanlar" əsərində kokteyl roman göstəricisi olaraq bir çox mətn nümunələri mövcuddur. Nümunələr müxtəlif növlərdə təzahür edir- şeirlər, hekayələr, dini mövzular,tarixi abidə yazıları, teatr səhnələri və bir neçə publisistik mətnlə. Bu üslub digər adıyla çoxsəsli roman da adlanır. Baxtinə görə"Heteroglossia (yunanca "hetero"- "fərqli" , "glossia" isə "səs" deməkdir), Bu, müəyyən bir milli dil daxilində mövcud olan nitq forma və növlərinin təbəqələşməsi və münaqişəsidir". " (Baxtin, 2001: 17). Milliyətcə eyni olan toplumun, ortaq bir dil içində sinfi fərqlərinin ədəbi və bədii dilin növləri vasitəsilə qarşı-qarşıya gəlməsidir. Əsərdə də toplumun fərqli qisimlərinə aid mətn parçaları mövcuddur. Bu mətnlər vasitəsilə yazıçı fərqli düşüncələri bir-birilə toqquşdurur və aralarındakı fərqləri, cəmiyyətin, idarə etmə sisteminin, baş verən inqilab nəticəsində gedən proseslərin, sol və sağ ideologiyasının problemlərini üzə çıxarır. Tutunamayanlarda bu problemlərin ifadə şəkli olan ironiya, istehza, qara yumor, zarafat bir-birilə ahəngdar şəkildə bütün təşkil edir. Oğuz Atay yumora, istehzaya çevirdiyi bu problemlər üçün həll yolu vermir. Baxtinə görə

"1. Müəllifdən birbaşa ədəbi-bədii povest (bütün variantlarında);

2. Müxtəlif gündəlik povest (skaz);

3. Gündəlik hekayənin müxtəlif yarımədəbi (yazılı) formalarının (məktub, gündəlik və s.) formalaşması;

4. Ədəbi, lakin bədii olmayan müəllifdən qaynaqlanan ifadənin müxtəlif formaları (əxlaqi, fəlsəfi və ya elmi ifadələr, natiqlik, etnoqrafik təsvirlər, yazılı razılaşmalar və s.);

5. Personajların stilistik fərdiləşdirilmiş nitqi.

Bu heterojen formal ansambllar romanın tərkib hissəsinə çevrildiyi andan birləşərək strukturlaşdırılmış bədii sistem yaradır və bütövlükdə əsərin ali üslub vəhdətinin hökmranlığı altına düşür. (Baxtin, 2001; 37)

Baxtinin heteroglossia üçün tələb etdiyi və əsərin bütünlüyünü tamamlayan ünsürlər romanda öz əksini tapmışdır. "Roman digər janrları əritmədən öz daxilində ehtiva edərkən; onlardan qidalanaraq inkişafını davam etdirir."(Ergeç, 2018; 64). Roman sadə anlatım ilə hekayəsini davam etdirərkən, bədii ədəbiyyatın eyni zamanda sənətin (teatr, musiqi, vs.) digər növlərindən istifadə edilməsi ilə çoxsəsli-kokteyl romana çevrilir.

Açar sözlər: Kokteyl, heteroglossia, Baxtin, Oğuz Atay

Kokteyl roman yaradan ünsürlər

Romanda "Dün, Bugün, Yarın" başlığı altında Selimin yazdığı amma Süleyman Kargı imzasıyla şeirlər toplusu vardır. "Sonunda bir de, benim ağzımdan yazılmış 'Açıklamalar' var. Beni karıştırmadan içi rahat edemedi. 'Sen filozofsun' dedi. ''Açıklamaları seni yapmış görünmen gerekiyor. Böylece hiç bir şeyi farkında olmazlar. Atlatırız onları.' Onlar, onlar diye tutturmuştu. Okursan göreceksin." (Atay, 2022; 113)

“Selim İşığın ikinci mahnısının 134-cü misrasının açıqlamasında, Düzgen Silik ve onun altı dostunun (Orkan Talmug, Salgan Saçak, Durman Elger, Yılgın Mete, Gökçin Karma, Kutbay Çalık) Ortu Alga Toplum Koruculuğu (Polis Müdirliyi) arxivində kimlik məlumatlarına yer verilməkdədir” (Ergeç, 2018; 65)

Durman Elger belə təsvir edilir:

“Orta boylu, tıknaz yapılı, kumral, yaşıl(yeşil) gözlü (gözünde uzak görmezlik-miyopluk var), evli, üç çocuklu, az aksak (sol bacağındakı bir kargı yarasından), otacılıkla uğraşır, yaratıkotacılığı (baytarlık) da yapar. Bilgesevi (felsefe) ve güzelçizi (resim), uğraşları arasındadır. Yedi kişi içinde toprağı olan tek ağadır. Bir de at uşağı var” (Atay, 2022; 185)

Sənəddə göstərilən yazı dili əsərdə ümumi işlədilən yazı dilindən fərqlənir. Əsər boyunca müasir Türkiyə türkcəsi işlənməsinə baxmayaraq, bu sənədlərin hər birində əski Türkiyə türkcəsindən istifadə olunmuşdur. “Yaratıkotacılığı”, “Bilgesevi”, “güzelçizi”. Digər tərəfdən sənədin iki şəxs tərəfindən anlatımını duymaq mümkündür. Mötərizələr daxilində verilən fikirlər Selimin dilindən duyulur. Cümlədəki fikirləri aydınlığa qovuşdurur.

““Dil inqilabı ilə ortaya çıxan sözləri Öztürkcələşdirmə çalışmaları olan “zorbilim, “sakalsaçkeser”, “yaratıkotacılık”, "Düzgen", "Orkan", "Salgan", "Durman", "Kutbay", "Gökçeyazın" kimi uydurma sözlərlə ironik tənqid edərkən; O, romana diskurs və janr baxımından heteroqlot quruluş verib. ” (Ergeç, 2018;66)

Bu uydurma sözlər əsər boyunca bəlli yerlərdə özünü göstərir. Sözlərin şəkilçilər vasitəsilə uzadılması, sözlərin yanaşı işlənməsi ironik bir hal alır.

Romanın 509-cu misrasında xəyali bir teatr gerçəkləşir. Selimin yuxusunda tarixi şəxsiyyətlər, qurmaca insanlarla bir teatr səhnəciyi oynayır.

“ABDÜLHAKHAMİT: Elli kadar Türk büyüğü (ve Osmanlı büyüğü sesleri) burada toplanmış bulunuyoruz (toplantı değil içtima sesleri). Sözümü kesmeyin. Ben elimden geldiği kadar Türkçeleştirilmişgibigillerden biri olarak davranmaya çalışıyorum. Lehavle.

SUFLÖR: Müzekkerdir: Lahavle.

ABDÜLKADİR: Burjuvalar, burjuvalar.

MAKSİM GORKİ: Küçük.

ALPASLAN: Sekiz yüz seksen yaşında olmam ve Malazgirt vaziyeti dolayısıyla ve en yaşlı üye sıfatıyla oturumu açıyorum.

HİTLER: Türk misafirperverliğinin bir örneğini daha gösterdiniz. Bu vesileyle, ölmüş bulunanlar için sizleri beş dakikalık saygı duruşuna çağırıyorum. (Rüya zaman birimiyle dört milisaniye süren beş dakikalık saygı duruşu)

KALABALIK: (Gülmeyelim sesleri).

HİTLER: Teşekkür ederim.

TERCÜMAN: Danke sehr.” (Atay, 2022: 232)

“Sanki bir teatrda imiş kimi, xəyali adlarla insani və siyasi varoluşun bütün şərtlərini yenidən yaratmış və bunları bütün insanların gülməsi ilə qarşı-qarşıya qoymuşdur..” (Baxtin, 2001: 131)

Maksim Qorki, Hitler, Abdülhakhamit, Füzuli, Baki, Nedim, Namık Kemal, Alpaslan kimi fərqli zaman və coğrafiyada olan tarixi şəxsiyyətlər və Selim, Suflör, Burhan, Şükrü kimi xəyali peesonajlar yer alır. Bu personajların əsərdə bir araya gətirilməsi heteroglossia atmosferi yaradır. Yazar bu tarixi və xəyali şəxslərlə müəyyən şəxsləri və hadisələri işarə edir. Bu teatr səhnəsi əsər daxilində heteroglossia yaratmışdır. Birinci hissədə hekayə formatında irəliləyir, ikinci hissədə teatr səhnəsi, üçüncü hissədə isə Füzuli, Baki, Nedimin vasitəsilə musiqi, şeir mövcuddur.

Romanda “İlmihal” başlığı altında yetmiş yeddi hissədən ibarət kitab vardır. Kitabı yazmağa Orkanla Salgan başlayıblar. Onların ölümündən sonra şagirdləri kitaba əlavələr etmiş, kitabı bugünki vəziyyətinə gətirmişlər. Kitab üç hissədən ibarətdir: “Hilkat”, “Hadisat”, “Tatbikat”.

“HADİSAT

.....

BAB 27

1. Peygamberin, Anadolu’ya vâsıl olduklarında memleket, bilcümle harâbat ve cehalet ile mahmul idi. Onlar geldiler, mütalâa eylediler, şifa verdiler, nizam vaz eylediler, medeniyyet ithal eylediler.

2. Çünkü onlarda, Merkezî Asya’nın bilumum hikmet, safvet, itidal, haşmet ve istikrarı mevcut idi. İlimle meşbu idiler.

3. Ve onlar geldiklerinde itibar ile karşılanmadılar. Uzun ve meşakkatli bir azimetin âkibetinde, sûretleri perişân, libası cümle küçük mahlûkat ile mülemma idi.

4. Mahalli halk, bu hâl-i pürmelâli görüp de istihza ve muaheze ettiler; fakat Peygamberin, daha önce aniden ortaya çıkmış bütün peygamberin gibi kendilerinin dahi istiskale mazhar olacaklarını bilip de ândan yüz çevirerek, Melekûtu ianeye çağırdılar. Bu vaziyet, ahali tarafından yanlış tefsir olunup, orada hazır bulunan bilumum Sivaslılar, onlara nakden ianeye başladılar.

Peygamberin’in üstü başı da böyle bir muamele ve tefsire müsait idi.” (Atay, 2022: 207-208)

Nümunədən də göründüyü üzrə İslamla bağlı, Peyğəmbər haqqında söyləmlər verilmiş, dini üslubda yazılmış mətndir. Bu mətnlərin işlənməsi də əsəri kokteyl-heterojen roman adlandırmağa imkan yaradır. Bu kitabların adlarında və mətn için işlənmiş sözlər (Tatbikat, hadisat, hilkat, peyğəmbər, Nur-ül Hak, Heyet-I Peygamberiye mes’uldür vs.) Romana ayrı bir yazı və dil üslubu qatır.

Kitab Turgut Özbenin yaxın dostu Selimin intiharına anlam verə bilməyən, Turgutun bunun səbəbini araşdırmağa başlaması ilə başlayır. Bu yolda Turgut təkcə Selimin daxili dünyası ilə tanış olmaqla qalmır, özünü də tanımağa monoton davam edən həyatının rəngsiz və mənasız olduğunu görür. “Turgut olduğu məkanı qaranlıq təsvir edərkən, əslində, otaq bir növ onun əhvalının göstəricisidir: qaranlıqda və depressiyadadır.” (Eyvazlı və Babasoy, 2022: 433).

Nəticə

Turgut Selimin intiharı ilə həyata dönür, əslində yaşamağı nə qədər çox sevdiyini anlayır. Selimin vəfatına buna görə anlam verə bilmir ki, insan niyə həyatından imtina etsin? Turgut qaranlıq dünyasından çıxır, özünü Don Kixot elan edir, Olric isə onun köməkçisi-Sanço olur. Selim hansı düşüncəyə tutunmağa çalışsada, onun arxasında yatan anlamsızlığı görən, modern həyata tutuna bilməyən aydın şəxsiyyətdir. Romanda bütün personajların hekayələri fərqli personajların dilindən duyulur. Bu da romana çoxsəslilik qatan ünsürlərdən biridir. Personajlar yazarın dilindən danışmır, öz düşüncələrini məktublar, sənədlər ya da hekayə anlatıcısı olaraq duyurur. Ədəbiyyatla, sənətlə, tarixi hadisə, dinlə bağlı hissələr bir-birinə maneə törətmir, əsəri bütünləşdirir.

Qaynaqlar

- ATAY, Oğuz. (2022) *Tutunamayanlar*, İstanbul, İleştişim yayınları
- BAXTİN, Mixail. (2001) *Karnavaldan romana,* (çev. Cem Soydemir). İstanbul: Ayrıntı yayınları
- ERGEÇ, Zehra. (2018), *Bahtinin diyaloji kuramı çerçevesinde modern Türk romanına bir yaklaşım.* Adana
- EYVAZLI, Vəfa və Babasoy Ülvi. (2022). *Qloballaşma dövründə Türk dünyası: Çağırışlar, perspektivlər beynəlxalq tələbə elmi konfransının materilları*. Bakı

Abstract

In Oğuz Atay's work called Tutunamayanlar, there are many text examples in the style of a cocktail novel. Examples appear in a variety of genres - poems, stories, religious themes, historical monuments, theater scenes and a few journalistic texts. This genre is also called polyphonic novel. According to Bakhtin, "Heteroglossia (from the Greek "hetero" - "different" and "glossia", meaning "sound") is the stratification and lack of word types and forms that exist in a particular national language." (Bakhtin, 2001; 17). It is the confrontation of the class differences of the nationally identical society in a common language through literary and artistic language types. In the work, there are text fragments related to different segments of the society. Through these texts, the author clashes different ideas with each other and reveals the differences between them, the problems of the society, the administrative system, the processes experienced as a result of the revolution, and left and right ideologies. Irony, sarcasm, dark humor and jokes, which are the expression of these problems in those who cannot be understood, form a harmonious whole. Oğuz Atay does not find a solution to these problems, which he turns into humor and irony. According to Baxtin:

1. Direct literary-artistic narrative from the author (in all its variants);
2. Various everyday narrative (skaz);
3. Formation of various semi-literary (written) forms of everyday narrative (letter, diary, etc.);
4. Various forms of literary but non-artistic author-sourced expression (moral, philosophical or scientific expressions, oratory, ethnographical descriptions, written agreements, etc.);
5. The stylistically individualized speech of the characters.

These heterogeneous formal ensembles, from the moment they become part of the novel, combine to form a structured artistic system and as a whole are dominated by the higher stylistic unity of the work. (Bakhtin, 2001; 37)

The elements that Bakhtin needs for heteroglossia and complete the whole work are reflected in the novel. "The novel gives place to other genres without melting them; it continues its development by feeding on them." (Ergeç, 2018; 64)

While the novel continues its story with a simple narrative, the fiction also turns into a polyphonic cocktail novel by making use of other art genres (theatre, music, etc.).

Key words: cocktail, heteroglossia, Bakhtin, Oğuz Atay**.**

JEROME DAVİD SALİNGERİN "ÇOVDARLIQDA UÇURUMDAN QORUYAN" ROMANINDA HOLDEN XARAKTERİNİN KÖLGƏ ARXETİPİ

Fatimə ABDULLAYEVA
Xəzər Universiteti, bakalavr
Elmi rəhbər: fil.ü.f.d. Ülvi Babasoy

Özət

"Çovdarlıqda uçurumdan qoruyan" Amerika romanı və ekzistensial "Yaşlanma Gəlişi" hekayəsidir ki, bu da həm xüsusi bir sevimli fikirli gənc hekayəçinin sərgüzəştləri, həm də cəmiyyət və müasir həyat haqqında yüksək dərəcədə əlaqəli mövzular və simvollardan bəhs edən universal əsərdir. Amerikada. J.D.Salinger müharibədən sonra məcburi depressiya və post-travmatik stress pozğunluğunu institutlaşdırmışdı. Xəstəxanadan çıxdıqdan sonra o, "Çovdarda uçurumdan qoruyan" mövzusunda tənqidi bir işə başladı, depressiya, cinsiyyət, şəxsiyyət, yadlaşma, hissləri ifadə etmə və emal etmə çətinlikləri, intihar, homoseksuallıq kimi mühüm, lakin danışmaq çətin olan insan problemləri ilə məşğul olur. Holdenin daim saxtakarlıqla dolu insanlarla dolu dağılmış cəmiyyətdə necə sabitlik və qəbul tapmağa çalışdığını göstərir. Holden, insan təmaslarında gözəlliyi axtarmaq üçün qanuni istəyi olduğu üçün büdrəyir, buna baxmayaraq, onu belə çirkinliklər dünyasında tapa bilmir. Holdeni bütün ədəbiyyatın ən tənha personajlarından biri edən də budur. "Çovdarda uçurumdan qoruyan" böyümək və insan vəziyyəti haqqında düşünmək haqqında güclü, əsəbi və intellektual təxribatçı bir romandır.

Açar sözlər: Qorxu, Yetkinlik, Saxtalıq, Təklik, Məsumluq, travma, cinsi istismar

Giriş

Əsər yeniyetmə Holdenin həyatının cəmi 3 günündən bəhs edir. Hadisələr onun oxuduğu kollecdən qovulmasıyla başlayır. Buna qədər isə daha bir neçə məktəbdən qovulmuş yeniyetmə ailəsi ilə üz-üzə gəlməmək üçün bu dəfə faktı gizlədir. Əvvəlcə keçmiş müəllimi Spenserin yanına gedir, amma müəllimin danışıqlarından bezib kollec yataqxanasına qayıdır. Burada isə qızların sevimlisi olan Stradlaterlə mübahisəsi düşdüyündən yataqxananı da tərk edir. Nyu-York küçələrini sərxoş halda dolaşan Holden tanışları ilə rastlaşır. Hər kəsin süni səmimiyyətini görüb nifrət edən yeniyetmə hoteldə otaq tutur və bir qadını bura dəvət edir. Lakin son anda əlavə pul ödəyərək qadınla əlaqədən imtina edir. Holden əsər boyu nə isə axtarır, hətta zen-buddizm fəlsəfəsinə yön çevirir. Öz cəmiyyətinin ideologiyası ilə bu fəlsəfəni qarşılaşdırır, Şərq-Qərb dəyərlərinin sintezində nicat axtarır. Sonra köhnə qız dostu Sallini konki sürməyə dəvət edən oğlan axırda onu da təhqir edir. Holden Yeni il gecəsi ona pul vermiş kiçik bacısını görmək üçün gizlicə evə yollanır. Müəllimi olmuş Antolinin evinə böyük ümidlərlə yollanan yeniyetmə onunla görüşdən sarsılaraq gecəyarısı buranı tərk edir və qərara alır ki, ümumiyyətlə insanlarla əlaqə saxlanıla bilinməyən bir məkanda yaşamaq lazımdır. Bu planı yerinə yetirməzdən əvvəl isə o, tək səmimi gördüyü insana- kiçik bacısına borclu olduğu pulu verməlidir. Bacısına tez-tez əsəbiləşsə də, məsumluğuna görə yeganə hörmət etdiyi adam da elə odur. Bacısı isə Holdenlə birgə getməyə - cəmiyyətdən uzaqlaşmağa hazırlaşır. Holden bacısına pis nümunə olduğunu düşünərək heç yerə getməyəcəyini söyləyib onu əyləncəli parka aparır. Bacısının burada necə əyləndiyinə tamaşa edən Holden, özünü o qədər xoşbəxt hiss edir ki, hətta sevincdən ağlamaq istəyir. Roman payızda Holdenin yenidən məktəbə gedəcəyi proqnozu ilə bitir. Əsərdə adıçəkilən Alli isə

Holdenin kiçik yaşlarında ölən qardaşıdır və bu ölümün yeniyetməyə necə təsir etdiyi üzə çıxır. Holdenin qardaşının boks əlcəyinə yazdığı inşa əslində həzin bir xatirə mövzusudur. Böyük qardaşına isə Hollivuda ssenarilər yazdığına görə nifrət edir. Onun fikrincə, pul qarşılığında yazı, yalandan ibarət ola bilər. Elə gözəl pianino ifaçısı olan qıza da bu baxımdan yanaşır. Əsər boyu yeniyetmə oğlanın qarşılaşdığı adamlara qəribə münasibəti və mülahizələri ilə tanış oluruq. Məsələn, təsadüfən məktəb yoldaşı Ernestin anası ilə qatarda rastlaşır. Oğlundan zəhləsi getsə də, var gücü ilə Ernestin necə yaxşı adam olduğunu sübut etməyə çalışır. Taksi sürücüsüylə qışda ördəklərin hara uçduqları haqqında uzun-uzadı söhbət edir. Onun kollec, ailə, insanlar haqqında yanaşmaları yeniyetmə fəlsəfəsi ilə yanaşı, əslində həm də real mənzərədən doğur - insanlar səmimi deyil.

Cerome David Salinger romanında günahsızlığı qoruya bilməyən cəmiyyətlə bağlı sərt tənqidi ifadə edir. Roman depressiya, yadlaşma və ünsiyyət problemləri kimi mühüm məsələlərdən bəhs edir. Saxtakarlıq, uşaqlıq məsumluğu, cinsiyyət və şəxsiyyət mövzuları Çovdarda Tutanı güclü və təxribatçı bir roman edir. (URL-1)Baş qəhrəman Holden onu ruhi instituta bağlayan hadisələri danışarkən zamanı dayandırmaq, saflıq və məsumluqdan yapışmaq istəyir. O, olduqca səthi, materialist və pozulmuş böyüklər dünyasına aid olmaq fikrinə dözə bilməz. Onun yeganə arzusu günahsız uşaqları bu qəddar dünyanın bir parçası olmaqdan xilas etməkdir. O, ideal məşğuliyyətini qəhrəmancasına belə təsvir edir:

"– Sən bu mahnını bilirsən: «Oğlan qızı tutmuş olsa, çovdarlıqdan keçən zaman...» –Düz demədin, o belədir: «Qız oğlana ürcah olsa, çovdarlıqdan keçən zaman...» –Fibi dedi.

– Özü də bu mahnı yox, şeirdir. Robert Bernsin şeiridir.

– Mən də bilirəm ki, Robert Bernsin şeiridir. Düz deyirdi. Doğrudan da, şeirdə «ürcah olsa» idi. Mən bunu tamam unutmuşdum. – Mən onu «oğlan qızı tutmuş olsa» kimi bilirdim, – dedim. – Nə isə, bilirsən, bu şeiri yadıma salanda gözümün qabağında belə bir səhnə gəlib durur: bütün körpə uşaqlar axşamçağı yığışıb intəhasız bir çovdar çölündə qaçdı-tutdu oynayırlar. Milyon-milyon körpə uşaq, ətrafda bircə nəfər də – yəni böyükləri deyirəm – yoxdur, tək mənəm. Mən də uca, sərt qayanın lap qırağında dayanmışam. Və mənim işim, bu qayanın kənarındakı uçuruma yaxınlaşan uşaqları tutmaqdır. Axı onlar qaçdı-tutdu oynayanda gözləri ayaqlarının altını görmür, hara qaçdıqlarını veclərinə də almırlar. Ona görə də uçuruma yaxınlaşanları o dəqiqə qaçıb tuturam ki, ora yıxılmasınlar. Bütün günü işim ancaq bu olur: çovdar düzündə uşaqları uçurumdan qorumaq! Bilirəm, bu da bir cür sarsaqlıqdır, ancaq ürəyimə yatan yeganə bir peşə varsa, o da budur. Nə bilim, bəlkə, bu da bir cür axmaqlıqdır" (Selincer, 2020; 210).

Bu, Holdenin bacısı Fibi ilə danışdığı romanın adına birbaşa istinaddır. Həyatda gələcək ambisiyaları haqqında. Daha əvvəl qeyd etmişdik ki, Holden özünü fərqli hiss edir və bu fərq məsumluğun müdafiəçisi olan istək şəklində gəlir. Onun bacısına verdiyi cavab bizim onun haqqında məlumatımıza istinad edir; ətrafının və real dünyanın fəsadları ilə üzləşməkdənsə, yaratdığı dünya haqqında öz xəyali duyumuna çəkilməyi seçir. O hesab edir ki, digər insanlar etibarsızdır və skeptisizm dərəcəsinə qədər həddən artıq sadələşdirilmişdir, burada fantaziya dünyasının böyük hissəsi uşaqların saf və aydın, lakin böyüklərin dayaz və ikitərəfli olması anlayışından asılı idi. O, Holden kimi sadəliyi və məsumluğu olan bir yeniyetmə olan Phoebe ilə çəkdiyi əzabları danışa bilər ki, onlar dünyaya eyni baxışları paylaşa bilsinlər. O, bu həqiqəti özü də tanıyır, o qədər ki, öz baxışının "dəli" olduğunu etiraf edir, lakin daha praktik və real bir şey yarada, düşünə bilmir; dünyanı başqa cür görməyə cəhd edərkən ona problem yaradan bir bucaqlı baxışı var. Çovdarın təxəyyül meydanında olan Tutucu onun saflığına və məsumluğuna, inancının paslanmayan, saf bir gənclik olduğuna işarə edir və arzusu bu ruhu

müdafiə etməkdir. Üstəlik, bu, onun dünya ilə böyük əlaqəsini və ətrafı haqqında yetişməmiş fikrini ortaya qoyur.

Bu hekayəni bu qədər diqqətəlayiq edən onun ideallaşdırılmış keçmişə bağlılığı və bu ideallaşdırılmış keçmişi daha faydalı keçmişlə əvəz etmək üçün uğursuz cəhdləridir. Holden uşaqlığını tərk edə bilmir, bu da öz növbəsində onun yetkinliyə keçidini tamamlamasını qeyri-mümkün edir. Məqalə seçilmiş mətni psixoanalitik olaraq təhlil edir və uşaqlığın məsumluğu və saxta yetkinlik mövzularını müzakirə edir.

- Uşaqlıq məsumluğu və saxta yetkinlik:

Holden qardaşı Allini itirdi və bu itki onun psixikasında böyük bir boşluq buraxdı. Onun ağlı daim matəmlə və əslində onun üçün nəyi təmsil etdiyi ilə məşğuldur. Bununla belə, onun məhəbbətini qardaş sevgisindən daha çox görmək olar: Holden anasının arzusunun obyekti olmaq istəyir. Allie həqiqətən də Holdenin anasının arzusu və diqqətinin obyekti idi. Onun yoxluğunu əvəz etmək üçün Holden anasının sədaqətinin obyektinə çevrilməyə çalışır. Allie daha sonra həyatında əbədi xoşbəxtlik hiss etdiyi bir dövrü simvollaşdırır və bu, artıq canlandırıla bilməz. Bu, Lacanian yanaşmasına bənzəyir, burada uşaq "xoşbəxt birliyin ilkin vəziyyətini" hiss edir (Homer, 2005: 55). Uşaqlıq məsumluğunun itirilməsi qaçılmaz təbii prosesin bir hissəsidir və “insayderlərin” bunu istəyib istəməməsindən asılı olmayaraq (Steinle, 2009: 110). Sonrakı mərhələlərdə uşaq yavaş-yavaş anlayır ki, ananın sədaqətinin yeganə obyekti o deyil və onun istəyi başqa yerə yönəlib. yəni ata. Oğlan ilk dəfə anlayır ki, onun anaya verə biləcəyi bir şey yoxdur. Beləliklə, uşaq anasının diqqətini yenidən cəlb etməyə çalışacaq. Allinin ölümündən sonra Holdenin valideynlərinin qalan uşaqlarına münasibəti biganədir. Holden qırılan bağı bərpa etməyə çalışır. Holden dedikdə: “Anam, o hələ də qardaşım Allidən üstün deyil” (Salinger, 2020: 201), Holdenin ölən qardaşının sahib olduqlarını və özündə çatışmayanları istədiyi aydın olur. Allie-nin tutucu mitti bu baxımdan çox simvolikdir. Qardaşının öldüyü gecə Holden əlini qırır. O, axtardığı diqqəti və istəyi özünə xəsarət yetirməklə alır. Bir əlaqə yaradan digər əhəmiyyətli artefakt Holdenin qırmızı ov papağıdır. Qardaşının saç rəngini xatırladan uşaqlığından bir xatirə. Əlcək və papaq birlikdə təkrarlanan simvolu tamamlamağa xidmət edir (URL-2).

Nəticə

Cerom Devid Selincer Çovdarlıqda uçurumdan qoruyan romanı psixoanalitik olaraq təhlili və uşaqlığın məsumluğu və saxta yetkinlik mövzularını müzakirə baxımından önəmli əsərdir. Səyahətinin əvvəlində anti-sosial şəxsiyyət olan Holden özünü cəmiyyətin çata bilməyəcəyi bir mövqeyə qoydu. Onun şəxsi üsyanı, böyüklər dünyasının onun narahatçılıqlarının öhdəsindən gəlmək üçün ona lazımi dəstəyi təmin edə bilməyəcəyinə olan inamı ilə birlikdə bərpa olunmaz təqsirsizlik itkisindən irəli gəlirdi. Onun hekayəsini oxucuya nəql edərkən, hadisələrə ikinci baxışı onun qəzəbini sakitləşdirir, onu tolerantlıq və mərhəmət hissi ilə əvəz edir. Bacısının rəhbərliyi ilə böyümənin yükünü boynuna alır. Hekayənin son sətirləri Holdenin yetkinliyə keçid ayinini bir daha təsdiqləyir. O, xarici dünya ilə sağlam münasibət qurmaq arzusuna və istəyinə işarə edərək, hər kəs üçün darıxdığını etiraf edir. Hekayəçi Holden indi bütün sınaqları yaşayan Holdendən tamamilə fərqli bir insandır. Hekayə boyu onu dinləyəcək birini axtarırdı. Bununla belə, sonda onun dediklərini dinləmək üçün milyonlarla oxucu toplaya bildi. Ölən qardaşı Allie ilə eyniləşməsi və tutucu olmaq fantaziyaları onun uşaqlıqdan yetkinliyə keçidini gecikdirdi. Onun "saxta" yetkin həyatına qarşı qəzəbi itki və ölümlə bağlı hisslərinə əsaslanırdı. Lakin o, bu dilemmanı Fibinin köməyi ilə həll edir. O, Holdenə böyümənin təbii bir proses olduğunu və keçmişini geri qaytara bil-

məyəcəyini nümayiş etdirir. Bacısının ardınca Holden transformasiyanı qəbul edir. Qəhrəmanla cəmiyyət arasında bağ qurulur və Holden uşaqlıqdan yetkinliyə doğru irəliləyişini uğurla başa vurur. O, çox güman ki, psixi institutu tərk edib cəmiyyətə uğurla qoşulduqdan sonra böyüklər dünyası arasında özünə etibarlı yer tapacaq.

Holden özünü naməlum bir şeyin axtarışında tapa bilər, lakin bu, müxtəlif nöqtələrlə müəyyən edilə bilər. Birincisi, onun axtarışını bir növ itmək üzrə olan məsumluğunu qoruyub saxlamaq axtarışı kimi şərh etmək olar. Yəni, uşaqlıq məsumluğu, yetkinlik həyatının normal və qaçılmaz birləşmələrində korrupsiyadan qorxan qüsursuz bir insan. İkincisi, axtarış həm də onun şüurunda gözləntilərə tabe olacaq qeyri-insani sevgi idealizminin axtarışıdır. Bu, çox həssas və kövrək olan və bütün ünsiyyət formaları və istənilən dildə qəbul etmək üçün əlçatan olacaq bütün ünsiyyət kanalları ilə tənzimlənən bir növ münasibətdir. Holdenin ən dərin axtarışı onun fərdilik və identiklik, daha dəqiq desək, mənlik axtarışındadır.

Qaynaqlar

- CEROM, Devid Selincer. (2020). "Çovdalıqda Uçurumdan Qoruyan". Bakı: Qanun.
- DAİKH, Hameed Mana. (2020). The Trauma of Alienation in J.D.Salinger. The Catcher in the Rye / pp.327 -328.
- Innocence and Trauma in J.D Salinger' s The Catcher in the Rye / Güven, F.; Özcan,(2021) R. pp.170-176.
- MOHAMMADİ, Growth Dr. Ali. (2019). Salinger's The Catcher in the Rye and the Crisis of Coming of Age: An Inevitably Fearful Move toward. pp.210-216
- URL-1. https://www.uzickagimnazija.edu.rs/files/Catcher%20in%20the%20Rye.pdf
- URL-2. https://www.semanticscholar.org/paper/Catcher-in-the-Rye-Salinger/861b3b3e5f46d62414e4463ce68494316ceb59d9

Abstract

The Catcher in the Rye is an iconic arguably quintessential American novel and an existential Coming-of-Age story that is both the adventures of a specific likable opinionated young narrator and a universal work that deals with highly relatable themes and symbols about society and modern living in America. J.D. Salinger had institutionalized forced depression and post-traumatic stress disorder after the war. After his discharge from the hospital, he began a critical work on The Catcher in the Rye deals with the crucial, but hard to talk about human issues of depression, sex, identity, alienation, the challenges of expression and processing feelings, suicide, homosexuality, perversion and taboo topics throughout his life. The Catcher in the Rye illustrates how Holden tries to find stability and acceptance in a broken society full of people who are always faking. Holden is tripping because he has a legitimate desire to search for beauty in human contact, nevertheless, he can't find it in a world of such ugliness. This is what makes Holden one of the loneliest characters in all of literature. The Catcher in the Rye is a powerful, upsetting, and intellectually provocative novel about growing up and reflecting on the human condition. .

Key words: Fear, Coming of age, Phoniness, Loneliness, Innocence, trauma, sexual abuse.

MARİO VARQAS LYOSANIN "YARAMAZ QIZIN SƏRGÜZƏŞTLƏRİ" ROMANINDA LİLİ OBRAZI KÖLGƏ ARXETİPİ KİMİ

Fəridə ABDULLAYEVA

Xəzər Universitəsi, bakalavr

Elmi rəhbər: fil.ü.f.d. Ülvi Babasoy

Özət

Bu məqalədə Perulu yazar, tənqidçi, 2010-cu il Nobel mükafatı laureatı Mario Vargas Lyosanın "Yaramaz qızın sərgüzəştləri" romanında Lili obrazı təhlil olunmuşdur.

Hadisələr gənc bacılar Lili və Lyusinin Mirafloresə gəlməsi ilə başlayır. Lilinin azad ruhu,başqa qızlara dəhşətli görünən və qadağa olunmuş hərəkətləri çəkinmədən sərgiləməsi Mirafloresdəki bütün oğlanları və başda da Rikardonun diqqətini cəlb edir. Rikardo onu gördüyü ilk gündən aşiq olur. Lili heç vaxt Rikardonun eşqini dəyərləndirmir, əlinə düşən ilk fürsətdə Rikardonu düşünmədən xərcləyir. Lili obrazı kök salmağa meyilsiz, yaramaz qız, Rikardo isə onun işləri yaxşı getmədikdə dönüb qayıdacağı liman olur. Lili obrazı xəyanətkar, empatiya hissi olmayan obrazdır. Romanda kölgə arxetipi kimi iştirak edir. Onun kölgəsindən gələn şüursuzluq onu böyük faciələrə sürükləyir. Kölgə Arxetipi insanın özünə etiraf etmədiyi, üzləşmədiyi xoşagəlməz tərəfləridir ki, biz Lilidə bunun səpkilərini əsər boyu aydın sezirik. Kölgə fasiləsiz olaraq Lilinin psixikasnı əhatə edib və ona hakimdir. Lilinin əxlaqına hakimliyi öz əlinə alıb və onu fırtınada göylə uçuşan kağız parçası kimi gah əzir, gah büzür.sonda isə palçıqlı bir çökəyə buraxır. Ömrü boyu çillilini təqib edən bu kölgə sonda onun məhvinə gətirib çıxarır.

Açar sözlər: Eşq, xəyanət, arxetip

Giriş

Romanı oxuduqca düşünür, hər cəhdimdə məhz yaramaz qızı anlamağa çalışırdım. Doğrudur, romanda əsas problem Rikardonun qarşılıqsız məhəbbəti deyildi. Əsas problem yaramaz qızın islah olamayn ruhu və bunun altında yatan səbəblər idi. Yaramaz qız obrazı snobizmdən əziyyət çəkirdi. Çünki onun daxilində yüksək mənsubiyyətə qarşı sonsuz hərislik var idi. Belə insanlar bir növ yüksək təbəqəyə məxsus şəxsləri təqlid edir, onların geydiklərini, getdikləri yerləri təkrarlayırlar ki çilili qızın elə əsərin əvvəlindən özünü hər dəfə başqa qadın adı ilə təqdim etməsi, əsərin sonuna qədər öz məkrli üzünü gizlədib olmadığı insan donlarına girməyi buna nümunədir. Lilinin mənsub olduğu mühitdən utanaraq həyatda özünü daha yüksəkdə olmasının vacib olduğuna inanır və həyatın ona acı rəhtar etdiyini düşünərək özünə həyatın ona vermədiyi rolları biçir. O bütün ruhu ilə dəbdəbəli,varlı,zəngin həyat arzusunda idi və o bunu bütün ruhu ilə istəyirdi (URL-1).

O bütün həyatını, qayğılarını, duyğularını maddi yaşama qurban vermişdi. O mənəviyyatı madiyyata satmışdı. Əlbəttə, biz heç bir vaxt ən axmaq obrazı belə tənqid etməməliyik. Müəllimim Ülvi Babasoy hər zaman belə bir fikiri səsləndirirdi: "Ədəbiyyatda mənfi və

müsbət obraz yoxdur". Biz əgər yaramaz qızı bütün yanlışları, xəyanətlərinə görə tənqid etsək, bu tamamilə yanlış baxış bucağı olar. Bizi düşündürən bu obrazın kim olduğu olmalıdır, necə olduğu yox. Yəni, bu obraz kimdir və nəyə görə belədir. Karl Qustav Yunqa görə arxetiplər kollektiv şüursuzluğun nəticəsidir və davranışlarımızın səbəbi məhz özümüzün də hiss etmədiyimiz arxamızca gələn qara kölgələrdir. Məhz yaramaz qızın da fərqində olmadığı hər bir davranışının arxasınca gələn kölgələr olduğunu düşünə bilərik. Hər bir insanın özünün kölgəsi var, insan öz kölgəsi olmadan keçinə bilməz. Kölgə vasitəsilə insan öz keçmişini, cılız istəklərini və təcavüzkar meyillərini qoruyub saxlayır. Bununla da insan özünün şüursuz mənfi xarakterini görməzdən gəlir. Eynilə yaramaz qız kimi. Daim inkişafda olan bu kölgə tərəfi bir gün sıxışdırılaraq bizim mənəvi dəyər adlandırdığımız şeyləri darmadağın edə bilir. Bir sözlə, Çilili hansısa bir obyektə yaxud hadisəyə cavab olaraq öz davranışında universal dərketmə modelini reallaşdırır (URL-2).

Lili xoşbəxtliyin nə olduğunu bilmirdi və hətta bilmək də istəmirdi. "Sən yaxşı oğlansan, lakin dəhşətli bir çatışmazlığın var: iddiasızsan. Axı əldə etdiyinlə razısan, hə? Lakin bu sıfırdır,dostum! Bax buna görə də mən sənin arvadın olmaram. Axı mənim üçün həmişə əldə elədiklərim az olacaq. Həmişə daha çox istəyəcəyəm" (Llosa, 2019: 80). Yaramaz qızı duyğular maraqlandırmırdı, empatiya hissinə yadlaşmışdı. Çünki o, kölgəsi tərəfindən idarə olunurdu. Hərisliyin qurbanına çevrilmişdi. Onu düşündürən varlı kişilər, onların var-dövlətləri idi. Amma o və onun kimilər bilmir ki, həyatda insanı həqiqətən xoşbəxt etməyə gücü yetməyən şeylərə bütün varlığınla bağlanmaq insanı sonsuz boşluğa atır. Hansı ki, xəyallarınla özünü yüksəyə, göyün yeddinci qatına qaldırırsan və özünü oradan həmin o boşluğa buraxırsan. Çilili qız öz gözəlliyini oxunun başına taxır və çirkin əməllərini zəhər təki oxa vurub zəhərli oxu bədbəxt kişilərə atırdı. Belə fitnəkar qadınların toruna düşən aciz kişilər və belə kişilərə təsəlli verməyin axmaqlıq olduğunu anlayan bizlərdən çoxdur. Lakin bütün bunlar nəhayətində onun bəlasına çevrilir. Əsərin əvvəlində Lili kimi tanıdığımız yaramaz qızın aqibəti Floberin yaratdığı müəllifi olduğu "Madam Bovari" əsərindəki Madam Bovari obrazının aqibətinə bənzəyir. Mən sanki bu əsərdə Madam Bovarini təhlil etdim. Lakin düşünürəm ki, Lilinin xəyanəti, özünü təstiq etmə çabası heç də Madam Bovari kimi deyildi. Madam Bovari hisslərinə məğlub olsa da Lilinin xəyanətinin səbəbləri daha dərin məsələlər idi. Yaramaz qızın dəhşətli dərəcədə basdırdığı qorxuları, üzləşə bilmədiyi həqiqətləri var idi. Kölgəsi onun təkcə ruhunu deyil bütün varlığını, var oluş səbəbini əsir almışdı. Fransız yazarı Viktor Hüqonun bir sözü xatiratımdadır: "Bir sevgilisi olan qadın mələkdir, iki sevgilisi olan qadın şeytandır, üç sevgilisi olan qadın isə əsl qadındır". Qadın elə bir qüvvədir ki, hətta ən kafir şeytandan belə daha qorxulu ola bilir və yaramaz qız da belə qadın idi. Şeytandan belə daha qorxulu qadın…

Yaramaz qızın heç bir alçaq hərəkəti Rikardonun gözündə önu alçaq vəziyyətə salmırdı. Aşiqlərin sevgisi belədir. Birini sevdiyin zaman gözünə həssas və eyni zamanda gözəgörünməz pərdə enir. Sən gözünün önündən asılan pərdəni görmədiyin üçün qarşındakının da mənfi sürətini, əsl xarakterini görmürsən. Rikardo da belə yazıq aşiqlərdən idi. Çililinin toruna düşmüş yazıq kişilərdən biri…

Hadisələrin gedişində Rikardo başqa qadınlarla eşqbazlıq macərası yaşamağa, zaman-zaman yaramaz qızı unutmağa cəht etsə də, bu heç bir zaman nəticə vermir. Çünki Rikardo yaramaz qıza aid olmaqda bütün arzularını buxovlamışdı. Özünü heç bir qadına aid hiss

etmirdi. Onun sonsuz sevgisinin simvolu sadəcə yaramaz qız idi. O, həyatı boyu sabit və möhkəm münasibət qura bilməyəcəyi qadını sevdiyini tez tez mazoxist monoloqlar təkrarlamaqla özünə xatırlatsa da, onun beynində qarşısını ala bilmədiyi arzular, xəyallar durmadan baş qaldırırdı..

Çilili qızcığazcasına müdafiə olunmamışdı. Onun acı taleyi onu sərtləşdirmiş, şəxsi acı təcrübələri, keçmişdən gətirdikləri onu bizə sevdirə bilmirdi. Rikardo hər mənada onu başa düşür, bütün etdiklərinin bir səbəbi olduğuna inanırdı. Yaramaz qızın yataqlardan keçdiyini gördükcə onu anlayır, hətta, ona qəzəblənmək əvəzinə qısqansa belə, onun özünü fəlakətlərə sürüklədiyinə görə şəfqət duyurdu. Rikardo onu xoşbəxtliyinə yaxud bədbəxtliyinə rəğmən sevməyə hazır idi. Və sevirdi. "Heç kim anadan olduğu gündən onun qismətinə necə mürəkkəb həyat düşdüyünü təsəvvür belə eləyə bilməzdi.Onun uşaqlığını təsəvvür eləməyə cəhd etdim-Peruda kasıbların necə yaşadıqlarını kim bilmir,onlara vətən əsl cəhənnəmdir" (Llosa, 2019: 78). Məhz Rikardo yatdığı gecənin səhəri yanında uzanan incə bədənli qadın haqqında belə düşüncədə idi. Onunla yatan kişilərdən yaramaz qıza bu qədər sözün əsl mənasında canıyanan tək kişi Rikardo idi. Yaramaz qız səsin alınması, minlərlə fəlakət, həyatın çətin üzü ilə rastlaşmış, həqiqi mənliyindən qaçmağa çalışan, həyatla yarışan, lakin həyata məğlub olmuş qadına çevrilmişdi. O həqiqi mənada bədbəxt idi. İncə belə, rəngli dodaqları, kişiləri başdan çıxaracaq baxışları, ipək kimi dərisi, gözəlliyin təcəssümü qadın necə olurdu ki, daxili aləmində çirkinliyin daşıyıcısı idi? Yaramaz qız sözün əsl mənasında fiziki gözəllik ilə ruhi çirkinlikdən toxunmuşdu.O, gözəllik donuna girmiş çirkinlik idi. Bədbəxtlik və çirkinlik.

Yaramaz qız Rikardonun ağrılı eşqinə baxmayaraq onu ələ salır, əylənirdi. Bu da məhz kölgə arxetipinin xüsusiyyətlərdir. Onu Rikardonun nə düşündüyü, nə hiss etdiyi zərrə qədər düşdürmürdü. Rikardo ilə cinsi münasibətində belə ondan yetəri qədər həzz almırdı. Onu mazoxist Fukudo daha çox xoşbəxt edirdi. Çünki onu qamçılayır və o zəngindir. Sadəcə Rikardo ilə olmaq onun özünü təstiq etmə çabalarından biri idi. Rikardo onu məmnun etməyə, ona eşqini hər dəfəsində elan etməyə çalışsa da, yaramaz qız üçün bu elə də dəyərli deyildi. Rikardo tədricən onun avantürist xarakterinə bələd olur və paradoks da ondan ibarətdir ki, o, Lilinin bu qüsurlarına baxmayaraq ondan qəlbən qopa bilmirdi. Cəht etsə də, alınmırdı. Onun həyatının qaranlıq tərəflərini kəşf etməyə, iç dünyasına yol tapmağa çalışsa da, yaramaz qızın keçmişi açılmayaq qara qutu kimi idi. O, heç vaxt özünü açmır.

Yaramaz qız təslim olmaqdan qorxurdu.Əslində Rikardodan gördüyü şəfqətlə bəzən o meyxoş olurdu. Heç şüphəsiz ki Rikardonun ölməz eşqi onun qəlbinin bir küncünə də olsa təsir etmişdi. Ancaq yaramaz qız heç vaxt bunu qəbul etməzdi. Etsə, bu onun üçün faciəvi məğlubiyyət sayılardı. Yaramaz qız ona əzab vərməyə qıymayacaq və həyatda onu hamıdan çox sevəcək kişinin eşqini ömrünün sonuna qədər oyuncaq kimi oynatdı. Rikardonun eşqini ayağı altına qoyub əzdi, bəzən ovcuna alıb əzizlədi, bir az döyüntü hiss edən kimi heç düşünmədən onu təkrar ayağları altına aldı.

Yaramaz qızın xəyanətləri, yanlışları Rikardonun eşqi qarşısında müqavimətsizdir və sındırmır. Bütün həyatının tək hədəfi yaramaz qızı əldə etmək olan Rikardo saysız-hesabsız cəhdlərinə baxmayaraq uğursuz sonluq onun üçün qaçınılmazdır. Yaramaz qız zəncirlərə

sığmayan qız idi və daim oyunlar oynayır, oyunlarda məğlub olduqca yeni-yeni donlara girirdi (Maksudyan, 37)

Yaramaz qız Rikardoya sevgi əzabı yaşatdıqca bundan zövq alırdı. O vəhşi ruhlu, islah olunmaz və mazoxistdir.Yaramaz qız kimi obrazlara ədəbiyyatda az-az rast gəlirik. Bütün çırpınışlara rəğmən sonda bu yeknəsəq həyat Çililinin ölümünə gətirib çıxarır. Yaramaz qız manyak ruhlu Fukudonun seksual fantaziyasına qurban gedir. Gözəlliyini itirir və bütün ola biləcək mənəvi və fiziki çirkinliyi ilə təkrar Rikardonun qarşısında durur. Lakin yenə Rikardo bu eşqin qığılcımlarını söndürməkdə acizdir. Yaramaz qız özünü unutdurmağa belə imkan vermir, Rikardonu başqa qadınla görmək istəmir, Rikardonunancaq özünə itaət etməsini istəyir. O sanki ərköyün və zəhlətökən qız uşağıdır. Rikardo isə onu kəşf etməkdən ötrü, hətta, şeytanla iş birliyinə də razı idi. Lyosa bu fərqli romanı işləyərkən lirik-sentimental ovqat yaratmağa cəhd etmir, soyuqqanlı təhkiyə tərzini qoruyur (URL-3).

Nəticə

Mario Vargas Lyosanın qələminə bələd olan oxucular bilir ki, onun üslübu sərtdir, qəddardır. O, obrazını öz qələmi ilə yıxıb-sürüyür. Onun üsulubu digər yazarlardan bir qədər fərqlənir. Onun cümlələri olduqca şəhvətlidir. Erotik səhnələr tez-tez qarşımıza çıxır. Yazar Lilinin tərpənişlərini, Rikardonun həyəcanlarını, bir sözlə bir çox yazarın oxucuya təqdim etməyə çəkindiyi səhnələri bütün çırpaqlığı ilə önümüzə sərir. Yalnız Mario Vargas kimi bir sənətkar Lili kimi bir obrazı yarata bilərdi. O, Lilini bütün çılpaqlığı ilə bizə təqdim etdi və nəticə çıxarmağı, düşünməyi bizə buraxdı. Kimi qınadı,vkimi açıq epizodları tənqid etdi, kimi isə zövqlə oxudu. Ümumən, sənətdə, ədəbiyyatda eyib yoxdur. Çünki ədəbiyyat zövq işidir və hər kəs sadəcə əxlaqdan zövq almaya bilər. Bəziləri əxlaqsızlığın gözəlliyindən, bütün dəyərlərdən uzaq tutduğumuz yaxud tuturmuş kimi göstərdiyimiz bütün mənfi xüsusiyyətləri özündə daşıyan insanları təhlil etməkdən zövq alır. Cinsi münasibəti və qarşı cinslə yaşanan emosiyaları təzə dadan Rikardo üçün yaramaz qız daha əvvəl təcrübə etmədiyi bir kəşf idi. Bu onu həyəcanlandırır, sevindirir, bütün ruhunu əsir alırdı.

Rikardo öz növbəsində Lilinin heç vaxt doğru insan olmayacağına əmin idi. Sadəcə Lilinin müəmmalı ruhu, kölgəsi, azadlığı onu özünə bağlayırdı. Lilinin amazon ruhu Rikardoya xoş idi. Onun heç vaxt tabe olmayan ruhu onu digər xəyanətkar qadınlardan fərqləndirən əsas xüsusiyyəti onu Rikardonun gözündə ilahiləşdirmişdi. Rikardo bu böyük şəhvətlə arzuladığı qeyri-normal münasibətin sonunun olmadığını bilsə də, başqalarının pul, şöhrət, xoşbəxtlik dalınca qaçdığıtək Liliyə yalanları, eqoizmi, intritqaları, xəyanətləri ilə birlikdə sahib olmaq istəyirdi. O, Lilinin hər santimetrinə nəvazişlə yanaşır, ehtiyatla öpürdü. Lilinin həzzi isə eqoistik və sadəcə özü üçün idi. ”Yaramaz qız, heç olmaya həyatında bircə dəfə məni sevdiyini de .Qoy bu həqiqətən olmasın, amma de” (Losa, 2019: 129). Bu bir aşiq üçün necə böyük bədbəxtlikdir. Lili isə heç bir kişiyə, hətta, buna oxşar nəsə hiss etdiyi heç bir kişiyə belə sevirəm sözünü deməmişdi. Çünki o sevmirdi, sevməyi, hiss etməyi, yaşamağı bilmirdi. Buna baxmayaraq Rikardo üçün sevindirici hal, ancaq o idi ki, yaramaz qızın yataqda aldatmadığı tək kişi Rikardo idi. Yaramaz qızın bunu etiraf etməsi belə Rikardo üçün eşq etirafına bərabər idi. Çünki o, heç bir halda yaramaz qızdan duyğu hiss etmirdi. Məsələ burasında idi ki, yaramaz varlı həyata çatanda həqiqətən xoşbəxt ola bilmirdi, sadəcə xoşbəxt

görünürdü. O yatdığı kişilərə, yaşadığı yerə, ətrafındakı insanlara, onların söhbətlərinə nifrət edirdi. Çünki bunlar onu həqiqətdə sadəcə varlığını zəhərləyirdi. Lili isə tərsliklə o zəhəri üz gözünü büzüştürə-büzüştürə içirdi. Lili əslində qonaq olduğu zəngin həyatlarda xoşbəxtliyi tapa bilməyincə həqiqətən xoşbəxtliyin orada olmadığını anlamışdı. Əlbəttə, bu real həyatda da belədir. Bir şeyi bütün ruhumuzla istəyirik, onu əldə edirik, müvəqqəti rahatlama hissindən sonra onun əslində xoşbəxtlik olmadığını anlayırıq. Lili də anlayırdı, lakin o tamamilə arzuladığı zəngin həyatdan əl çəkə bilmirdi. Onun üçün müflisləşmə faciə idi. Lili hər zaman zəngin, hörmətli bir kişiyə sahib olmağı arzuladığı hüdudsuz azadlığa çatmaq kimi qiymətləndirirdi. O təkcə Rikardoya deyil bütün kişilərə mərhəmətsiz idi. Hətta, müflisləşdirdiyi əri Arnuya qarşı. Onun axıtdığı göz yaşları yaramaz qız üçün sadəcə xəsis bir kişinin göz yaşları idi. Onun üçün həyat məğlub insanların cərgəsində durmamaq üçün hər şeyi gözə alacaq insanların qələbə qazanacağı yer idi. Rikardoya həyatında ilk dəfə nəvaziş göstərəndə belə bu Fukudonun xatirinə idi. Bu isə Rikardonun kişilik qüruru üçün ən alçaldıcı məqam idi. Yəni, o nəinki digər kişilərə, hətta, onu hamıdan çox sevən Rikardoya qarşı belə zərrə qədər acımırdı.

Yaramaz qız Rikardonun sevgisinə zamanla öyrəşmişdi, bundan zövq alırdı. Rikardonun sevgi selinin altında rəqs edən balaca şıltaq, ərköyün qız kimi əylənirdi. Onun ruhnun bir az da olsa, Rikardoya meyillənməsi onun üçün məğlubiyyət idi. Lilinin ölüm anında Rikardoya dediyi sözlər ən təsirli səhnələrdən idi:

"Sən yazıçı olmaq istəyirdin, sadəcə olaraq buna cəsarət etmirdin. İndisə sən yer üzündə tək-tənha qalandan sonra sınaya bilərsən- onda mənə görə də az kədərlənəcəksən. Nə deyirsən? Sənə roman üçün yaxşı mövzu hədiyyə elədim?" (Llosa, 2019: 382). Varqas Lyosa bədbəxt, köksüz və talehsiz qızı dünyaya təqdim etdi.

Qaynaqlar

- JUAN E, De Castro (2010). "Mario Vargas Llosa Versus Barbarism", *In Latin America*
- JULİO H, Cole (20110). "Mari Vargas Llosa: An İntellectual Journey", *The Independent Review Research Review*
- MAKSUDYAN, Nazan. "Deniz ve Dalga" eleştiri
- MARİO VARGAS, Llosa (2019). "Yaramaz qızın sərgüzəştləri", *Bakı: Qanun Nəşriyyatı, 384 səh.*
- URL-1. BAYCAN, Seymur (2019). "Yaramaz qızın sərgüzəştləri". https://azlogos.eu/yaramaz-qizin-s%C9%99rguz%C9%99stl%C9%99ri/
- URL-2. "Düşüncə" psixologiya jurnalı (2015). http://dushunce.az/entries/elmi-ara%C5%9Fd%C4%B1rma/yunqun-arxetipl%C9%99ri
- URL-3. HACI, Kənan (2022). "Həyatının mövzusunu yazıçıya hədiyyə edən qadın". https://kulis.az/xeber/yazarlar/yaramaz-qizin-serguzestleri-43344

Abstact

Critic, writer, 2010 Nobel Prize laureate Mario Vargas Llosa was born in 1936 in Arequipa, Peru he is an author of numerous works such as “The Escape of the İnca”, “Composition Books”, “The Bad Girl”, “The City and the Dogs”, “The Feast of the Goat”, “Adventures of the Bad Girl”. İn This article in “Adventure of the Bad Girl” by Llosa character of Lili has been analyzed. The story start with Lili and Lucy sisters coming to Miraflores. Lily's free spirit, unabashed display of forbidden and terrifying actions to other girls, attracts the attention of all the boys in Miraflores, especially Ricardo. Ricardo has fallen in love with Lili since he saw her. Lili never gives value to Ricardo, she spends on Ricardo without thinking at the first opportunity. The character of Lily is a mischievous girl who is not inclined to root, and Ricardo is a port that when her work goes wrong to come back. Lily is a character has no empathy, loyalty. Lili attends as a shadow archetype in the novel. Unconsciousness that comes from her shadow leads enormous tragedies to her. The Shadow Archetype is the side of a people that they do not admit to themselves, that they are afraid to face, and we clearly feel the traces of this in Lily throughout the work. The shadow constantly has enveloped Lily's psyche and dominated to her. The Shadow has completely taken control of Lily's morals and crumples her like a piece of paper flying through the sky in a storm and finally throws her into a muddy creek. This shadow that has been followed her in her whole lifetime leads to her distruction.

Key words: Love, treason, archetype

XARİCİ DİLLƏRİN ÖYRƏNİLMƏSİNDƏ MUSİQİ MƏTNİNİN ROLU

Fidan ƏLİZADƏ
Bakı Avrasiya Universteti
Elmi rəhbər: prof. Fəxrəddin Veysəlli

Özət

Məqalə xarici dilin tədrisi prosesində mahnı materialından istifadə kimi aktual məsələyə həsr edilmişdir. Məqalədə musiqi mətnlərinin tələbələrdə xarici dil vərdişlərinin formalaşmasında mühüm əhəmiyyətə malik olduğu qeyd edilir. Məqalədə qeyd edilir ki, xarici dil dərslərində mahnı mətnlərindən istifadə etməklə tələbələrdə leksik bacarıqlarını təkmilləşdirmək mümkündür. Müəllif xarici dil dərslərində müsiqi mətnlərindən istifadə bir sıra məsələlərin, məsələn, nitq vərdişlərinin formalaşması, fonetik və leksik vərdişlərin formalaşması, dil materialının yadda saxlanılması, tələbələrdə emosional gərginliyin azaldılması və motivasiyanın yüksəldilməsi və s. həllinə imkanlar yaratdığını qeyd edir. Xarici dillərin tədrisində mahnı mətnlərindən istifadə tələbələrdə yenicə öyrəndikləri leksik vahidlərdən situativ istifadənin optimallaşmağa yardım edir. Məqalədə qeyd edilir ki, musiqi dinləmək həvəsi ilə dildən kommunikativ məqsədlə istifadə etmək arasında məsafəni qaldırmağa yönəlmiş olduqda daha böyük səmərələr verə bilər.

Verbal mahnı mətnləri yeni söz və ifadələri əhatə etməklə tələbələrdə leksik ehtiyatın dərindən mənimsənilməsinə və genişlənməsinə zəmin yaradır. Mahnı mətnlərində hətta artıq tanış leksik vahidlər belə yeni kontekstlərdə qarşıya çıxır ki, bu da onların müəyyən situasiyalarda aktivləşməsinə kömək edir. Mahnı mətnləri qrammatik konstruksiyaların, leksik vahidlərin fərqli kombinasiyalarda işlənməsini aktivləşməsində, kontekst çərçivəsində sözün məna qatının açılmasına xidmət edir. Xarici dil dərslərində musiqi mətnlərindən isitfadə tələbələrin estetik tərbiyəsinə, onların dilə yaradıcı yanaşmalarında mühüm mənbədir. Deməli, xarici dilin səslənməsi və kulturoloji informasiyanın daşıyıcısı olan musiqi sayəsində xarici dil dərslərində xoş psixoloji mühit yaranır, psixoloji gərginlik aradan qalxır, dil duyğusu qabiliyyəti aktivləşir və xarici dilin öyrənilməsinə olan maraq sönmür.

Açar sözlər: intonasiya, dil, musiqi, musiqi dili, mahnı materialı, leksik bacarıq

Giriş

Son illər xarici dillərin tədrisində musiqi mühüm yer tutur. Bütün müasir tədris-metodiki komplekslər özündə tədris, müəllif və instrumental musiqiləri birləşdirir. Dilin (ana dilinin), o cümlədən xarici dillərin tədrisində musiqi əsasən aşağıdakı funksiyaları yerinə yetirir: psixoloji (sözlərin yaddaşda saxlanmasına xidmət edir), psixogigiyenik (gərginliyi aradan qaldırır), sosial-psixoloji, koqnitiv proseslərin ikişafı, xarici dilin şüursuz öyrənilməsi funksiyası, kommunikasiya prosesini stimullaşdırma funksiyası. Musiqi mətnlərinin mühüm bir xüsusiyyəti də ondan ibarətdir ki, onlar dilöyrənənlərdə ədəbiyyat və filmlərlə yanaşı, linqvomədəni səriştənin formalaşmasına xidmət edir. Linqvistik məqsədinə uyğun olaraq, mahnı mətnləri mədəni cəhətdən zəngin və autentik kontekst təmin edir ki, bunun da köməyi ilə dilöyrənənlər dünyanı fərqli baxış bucaqlarından kəşf edə bilərlər. Mahnılar şəxsi, sosial və mədəni təbiətli olduqlarına görə xarici dili öyrənmək üçün mühüm vasitə kimi seçilir. Təkrar-təkrar dinlən-

məsi mümkün olan mahnılar insanların hiss və emosiyalarına toxunaraq onları eşitdiklərini müzakirə etməyə sövq edir.

Xarici dillərin tədrisində dilöyrənənlərə (şagirdlər və tələbələrə) emosional təsir vasitələrindən (poeziya, musiqi, mahnı, bədii əsərlər və s.) istifadə ideyası təzə deyildir. Tədris praktikasına yalnız xarici dillərin mənimsənməsinə deyil, həm də dilöyrənənlərin mənəvi tərbiyəsinə və estetik zövqünün formalaşmasına xidmət edən materialları tətbiq etmək zəruri şərtdir. Halbuki bu gün tədris materiallarının seçimi sırf linqvistik deyil, mədəniyyətyönümlü, kommunikativ, şəxsiyyətyönümlü qurulur ki, bu da mədəniyyət baxımından dəyərli autentik xarici dil materialından istifadəyə imkanlar yaradır.

Mədəniyyətin bütün komponentləri üçün ən ümumi və münasibi musiqi yaradıcılığıdır. Şözlü mətnin varlığına rəğmən mahnı janrı musiqi yaradıcılığının əsas janrlarından biri kimi xalqın məişət və mədəni həyatının müxtəlif aspektlərini dəqiq və dolğun əks etdirməyə, xalqın emosiya və hisslərinə təsir göstərməyə qadirdir. Şüurun dərinliklərinə işləyən güclü psixi qıcıqlandırıcı olan musiqi tələbələrin hisslərinə və emosiyalarına təsir etməyin ən effektiv yoludur. Verbal musiqi mətnləri həm şagirdin obrazlı və bədii yaddaşına təsir edir, həm də onların estetik tərbiyəyəsinə töhfə verir. Bundan əlavə, xarici dil dərslərində mahnı materialından istifadə təlim prosesinə orijinallıq və şənlik elementi gətirir ki, bu da tələbələrin emosional dünyasına müsbət təsir göstərir. Xatırlatmaq isətrdik ki, dil konseptual sistemlərdən kənarda özü-özlüyündə mövcud olan heç bir anlam ifadə etmir, dilin mənimsənməsi yalnız konseptlərin dildə kodlaşdırılması vasitəsi deyil, həm də dilöyrənənin dünya mənzərəsinin formalaşdırılmasıdır.

Nəzərə almalıyıq ki, musiqi və dil fərqli elm sahələri, yaradıcılıq fenomenləridir. Lakin onların sintezi dil dərslərində, o cümlədən xarici dillərin tədrisində ciddi töhfələr verə bilər. Məsələn, F.H.Kərimovun qeyd etdiyi kimi, "fənlərarası əlaqənin yaradılması xarici dil üzrə şifahi nitq vərdişlərinin inkişafına və fənnin ümumtəhsil əhəmiyyətinin artmasına, eləcə də şagirdlərin bilik biliklərinin zənginləşməsinə, marağın artmasına müsbət təsir göstərir (Kərimov, 2008: 11).

Mahnı mətnlərinin leksik tərəfini mənimsəyən dilöyrənənələr leksik vahidlərin müəyyən forma və mənalarını mənimsəməli, yəni onlar şifahi və yazılı ünsiyyətin müxtəlif sahələrinə tətbiq etməyi bacarmalı, yaranan mətnin leksik cəhətdən tərtibi vərdişlərinə yiyələnməli, eləcə də oxunuş zamanı leksik vahidləri qəbul etməyi bacarmalıdırlar.

Mövzu ilə bağlı elmi-metodiki ədəbiyyatın və dərsliklərin təhlili xarici dilin leksik qatının öyrənilməsi prosesində mahnı və şeir materialdan tez-tez istifadə edildiyini göstərir, çünki bu tip mətnlə işləməyin özünün müəyyən üstünlükləri vardır: əvvəla, musiqi mətnlərindən istifadə təhsil prosesinə müsbət emosional çalar verir, şagirdlərdə maraq oyatmaqla onları aktiv fəaliyyətə cəlb edə bilər. Dərs prosesində orijinal musiqi materialından istifadə tələbələrin öyrənilən mövzuya marağını artırır, onlarda xarici dili birgə və müstəqil şəkildə öyrənməyə həvəs yaradır. İkincisi, orijinal mahnılar şagirdlərin tələffüz və leksik bacarıqların formalaşması və təkmilləşdirilməsi üçün uğurlu materialdır, çünki onlar xarici dildəki nitqin intonasiyası, sözləri, ifadələri, bəzən hətta bütün cümlələrini öyrəndikləri dillərin mədəniyyət kontekstində mənimsəyirlər. Nəhayət, mahnılarla işləmək təkcə tələbələrin sosial-mədəni səriştəsinin (kompetensiyanın) inkişafına deyil, həm də yaradıcılıq bacarıqlarının formalaşmasına yardım edir.

Xarici dilin öyrənilməsi prosesində danışığın leksik tərəfinin tədrisi mühüm əhəmiyyət kəsb edir, çünki nominativ təyinatlı leksik vahidlər (leksemlər) mətnin mənasını daşılan əsas

vahidlərdir və kommunikantlar arasında qarşılıqlı anlaşma da məhz onların sayəsində baş tutur. "Leksik bacarıq və vərdişlərin formlaşması isə formal-struktur xarakterli məlumatları nəzərə alınmasını yox, həm də dil daşıyıcısının əməl etdiyi situativ, sosial və kontekstual qaydaları bilməyi tələb edir" (Галъскова və Гез, 2006: 287).

Xarici dillərin tədrisi metodologiyasında "leksik bacarıq" "mənaya adekvat leksik vahidlərin seçimi və nitq prosesində onların digər vahidlərlə norma çərçivəsində birləşmə qaydalarından ibarət avtomatlaşdırılmış fəaliyyət, habelə avtomatlaşdırılmış qavrayış və reseptiv nitqdə məna ilə əlaqələndirmə kimi müəyyən edilir" (Азимов, 2009: 121).

Metodik mənbələrdə reseptiv leksik vərdişlər dedikdə, leksik hadisələrin oxunuşu və ya dinlənib qavranılmasında tanınma və başa düşmə vərdişləri başa düşülür. Xarici dillərin öyrənilməsində leksik vərdişlərin formalaşması ardıcıllığa əsaslanan çoxpilləli bir prosesdir. Məsələn, E.İ.Passov xarici dilin öyrənilməsində leksik vərdişlərin formalaşmasında altı mərhələni fərqləndirir:

1) sözün qavranılması və onun səs obrazının yaradılması;
2) sözün mənasının qavranılması;
3) sözün ayrılıqda və ya cümlə kontekstdə imitasiyası;
4) sözlə müəyyən edilən obyektlərin müstəqil adlandırılmasına istiqamətlənmiş işarələnməsi;
5) kombinasiyalar yaratmaq (sözün yeni əlaqələrə daxil edilməsi);
6) sözün müxtəlif kontekstlərdə işlədilməsi (Пассов, 1989: 123).

Sitatdan da göründüyü kimi, E.İ.Passov tələbələrdə öyrənilən xarici dildə leksik vərdişlərin formalaşmasında sintaktik səviyyənin rolunu xüsusi qeyd edir. Onun təklif etdiyi altı mərhələnin üçündə leksik vərdişlərin formalaşması və reallaşmasında kontekstin rolu qabardılır. Sözün mənasının açılmasında kontekstin müstəsna rolunu nəzərə alsaq, onda müəllifin bu cəhdi tam başadüşüləndir.

E.İ.Passovdan fərqli olaraq, Q.V.Roqova tələbələrdə leksik vərdişlərin formalaşmasında üç mərhələni fərqləndirir. Onun bölgüsündə birinci mərhələ leksik vahidlə tanışlıqla balıdır və sözün nümayişi və semantikləşməsini, habelə onun ilkin tələffüzünü əhatə edir. İkinci mərhələ məşq mərhələsidir və bu mərhələdə eynitipli danışıq situasiyalarında möhkəm leksik əlaqələrin yaradılması baş verir. Sonuncu mərhələdə isə leksik vahidlərin müxtəlif danışıq situasiyaları və kontekstlərdə leksik vahdlərin kombinasiyası sayəsində dinamik leksik nitq əlaqələri formalaşır (Рогова və b-ları, 1991: 153).

Q.V.Roqova da dilöyrənənlərdə leksik vərdişlərin formalaşmasında situasiyanın, daha doğrusu, konsituasiyanın roluna xüsusi önəm verir.

Analoji ideyanı davam etdirən O.S.Levitskaya dilöyrənəndə leksik vərdişlərin formalaşmasının bir neçə mərhələdən ibarət olduğunu yazır: "xarici dilçilər leksik qatın öyrənilməsində dörd addımı: sözün qavranılması, mənanın anlaşılması, yaddaşda saxlama və danışıqda istifadəni mərhələni fərqləndirirlər. Eyni zamanda bu mərhələlərlə mədəniyyət, psixolinqvistik, qrammatik və mətn aspektlərinin mənimsənməsi də baş verir" (Levitskaya, 2017: 58).

Ümumilikdə leksik vərdişləri iki kateqoriyaya bölmək olar: reseptiv (oxu və səsləndirmədə istifadə olunanlar) və məhsuldar (produktiv) (yazılı və şifahi nitqdə istifadə olunanlar). Xarici dillərin öyrənilməsində əsas məqsəd öyrənilən xarici dildə kommunikativ kompetensiyanın formalaşmaqdan, yəni öyrənilən dilin daşıyıcıları ilə ünsiyyətə girmək üçün real linqvistik hazırlıq və başarıqların nümayişindən ibarətdir.

Tərkibində reseptiv və produktiv vərdişlərin yer aldığı leksik vərdişlərin formalaşması mürəkkəb prosesdir. "Müxtəlif qavrama kanallarından istifadə etməklə leksik vahidlərin tanın-

masına zəmin yaradan reseptiv vərdişlər eşidib-anlama və oxu zamanı təzahür edir. Produktiv leksik vərdişlər isə şifahi və yazılı nitqdə kontekst və sözdüzəltmə qaydalarına uyğun olaraq dil hadisələrini düzgün seçməyə imkan yaradır" (Броиская, 2011: 59).

Leksik materialın seçilməsi leksik qatın tədrisinin məzmununun müəyyən edilməsində mühümdür amildir. Mahnı mətnlərində leksik minimumun seçilməsində müəyyən prinsiplərə əməl etmək lazımdır: tematik aidlik, tezlik və yayılma, birləşmələrdə iştirak valentliyi, üslubi baxımdan qeyri-məhdudluq, sözün semantik dəyəri, sözyaradıcı dəyəri.

Seçilmiş məzmunun mənimsənməsini səmərələşdirmək üçün qiymətli tədris materialı və polifunksional metodik vasitəni təmsil edən autentik məhnı mətnlərinin seçilməsi daha məqsədəuyğundur. Yaxşı haldır ki, biz bu gün xarici dillərin tədrisində istifadə etmək üçün mahnı mətnlərinin yerləşdiyi çoxsaylı internet mənbələrinə, sosial şəbəkələrə, xarici dillərdə olan mahnı toplularına, videomətnlərə giriş imkanlarımız vardır. Xarici dillərin tədrisində mahnı mətnlərinin üstünlüyü, ilk növbədə, onunla bağlıdır ki, bu tipli mətnlər leksik və qrammatik materialın dərindən mənimsənməsini təmin edir, çünki rifma və melodiya sayəsində onlar olduqca tez yaddaşda qalır və uzunmüddətli yaddaşda saxlanıla bilir. Mahnı mətnləri nitq-fikir fəaliyyətinin əsası kimi çıxış edir və monoloji və dialoji söyləmləri stimullaşdırır, hazırlıqlı və hazırlıqsız nitq qabiliyyətini inkişaf etdirir.

Mahnı mətnlərindən istifadə motivasiyanı stimullaşdırır və buna görə də yadda qalan materialın həcmini və gücünü artırmağa imkan verən qeyri-ixtiyari (şüursuz) yadda saxlama mexanizmlərinin təsiri ilə dil materialının daha yaxşı mənimsənməsinə yardım edir. Mədəni dəyərlərin daşıyıcısı olan mahnı mətnləri gənc nəslin milli ruhda tərbiyəsində güclü pedaqoji vasitədir.

İngilis dilindəki "Pass It On Down" mahnısı üzərində kompleks çalışmalar

Mətnəqədərki mərhələ

Çalışma 1.Lüğəti tərtib edin:

"the land of plenty" (bolluq ölkəsi)
"safe" (təhlükəsi)
"the store" (mağaza)
"a hole in the ozone" (azon qatında dəlik)
"to leave some blue up" (göydə mavi iz saxlamaq)
"to pass it on down" (aşağı ötürmək)
"acid rain" (turşu yağışı)
"to fall on" (üstünə düşmək)
"to breathe" (nəfəs almaq)
"to borrow" (borc almaq)
"pure" (saf)
"guilty" (günah)
"to put back" (geriyə yerinə qoymaq)

Mətn üzərində iş mərhələri:

Çalışma 2. "Pass It On Down" mahnısını dinləyin və test edin:

1. Why should we buy the water at the store?

a) the water from our sink they say it's not safe to drink;

b) it's expensive to use water at home.

2. What does the author say about

1. Nə üçün suyu mağazadan almalıyıq?

a) bizim lavabodan suyu içmək təhlükəsiz deyil deyirlər;

b) evdə sudan istifadə etmək bahadır

.

Brazil?
a) there are a lot of mountains;
b) trees are burning there.

2. Müəllif Braziliya haqqında nə deyir?
a) çoxlu dağlar var;
b) orada ağaclar yanır.

Çalışma 3. Söz və ifadələrin tərcüməsi ilə uyğunlaşdırın

1) the land of plenty
2) safe
3) a hole in the ozone
4) to fall on
5) to breathe
6) pure
7) guilty

a) saf
b) ozon qatında dəlik
c) aşağı düşmək
d) günah
e) bolluq ölkəsi
f) nəfəs almaq
g) təhlükəsiz

Mətndən sonrakı mərhələ

İngilis dilindəki aşağıdakı sözlərdən istifadə edərək özünüz cümlələr yaradın: “to abuse” (sui-istifadə etmək), “to stand” (durmaq), “poison” (zəhərləmək), “to waste” (israfçılıq), “to be full of” (dolu olmaq), “radiation” (şüalanma), “overcrowded” (həddindən artıq sıxlıq).

Qaynaqlar

- KƏRİMOV, Firuz. (2008). Azərbaycan orta məktəb şagirdlərinin xarici dil üzrə şifahi nitq və bacarıqlarının inkişafında sinifdənxaric işlərin rolu və yeri / filol.f..dok. dis. avtorefereatı. – Bakı: Elm və təhsil.
- LEVITSKAYA, Olga. (2017) Lexical Competence Development as an Integral Part of Translators Training // Идеи. Поиски. Решения: сборник статей и тезисов X Междунар. науч. практ. конф., Минск, 23 ноября 2016 г. - Часть 6.– Мн.: БГУ, с. 58–59.
- АЗИМОВ, Эльхан. (2009). Новый словарь методических терминов и понятий (теория и практика обучения) – Москва: М.: Изд. центр «Академия».
- БРОНСКАЯ, Вера. (2011) Теоретические основы формирования и развития лексических навыков у школьников // СИСП. № 4. с. 59-65.
- ГАЛЬСКОВА, Наталья, Гез Надежда. (2006). Теория обучения иностранным языкам. Лингводидактика и методика: учеб. пособие для студ. лингв. ун-тов и фак. ин. яз. высш. пед. учеб. заведений / Н.Д. Гальскова, Н.И. Гез. – 3-е изд., стер. – М.: Изд. центр «Академия».
- ПАССОВ, Ефим. (1989) Основы коммуникативной методики обучения иноязычному общению. – М. Прогресс, 1989.
- РОГОВА, Галина и др. (1991). Методика обучения иностранным языкам в средней школе. – Москва: Просвещение.

Abstract

The article deals with the topical issue of using song materials in the process of teaching a foreign language. The article states that musical texts are important in the formation of foreign language habits of students’. It mentions the possibility of improving students’ lexical skills by using song texts in foreign language classes. The author points out that the usage of

musical texts in foreign language lessons can help with a number of issues such as the formation of speech habits, formation of phonetic and lexical habits, memorization of language materials, reduction of emotional tension of students and increase the motivation of them, etc. and these points create opportunities for the solution. The usage of song texts in teaching foreign languages helps students to optimize the situational use of newly learned lexical units. The article notes that music can be more effective if it is aimed at bridging the gap between the desire to listen to music and the communicative usage of language.

By including new words and phrases, verbal song texts lay the groundwork for deep learning and expansion of students' lexical reserve. In song texts, even familiar lexical units appear in new contexts, which help to activate them in certain situations. Song texts serve to activate the processing of grammatical constructions, lexical units in different combinations, and open the meaning layer of the word within the context. The usage of musical texts in foreign language classes is an important resource for students' aesthetic education and their creative approach to language. It means that thanks to the sound of a foreign language and music, which is a carrier of cultural information, a pleasant psychological environment is created in foreign language classes, psychological tension disappears, the ability to feel the language is activated, and the interest in learning a foreign language does not fade.

Key words: intonation, language, music, musical language, song material, lexical skill

PSİXOLİNQVİSTİKA YENİ ELM SAHƏSİ KİMİ

Firəngiz HADİ
AMEA akademik Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutu

Özət

Dilin və nitqin necə yaranması, ünsiyyət prosesində ondan necə istifadə olunması, ötürülməsi və mənimsənilməsi məsələləri daima dilçiliyin tədqiqat obyekti olmuşdur. Dilçiliyin bu tədqiqatları- dilin formalaşması və onun mahiyyətinin tədqiqi məsələləri qədim köklərə malikdir. Psixologiya və dilçilik elmlərinin kəsişməsində yaranan psixolinqvistikanın əsas tədqiqat məqsədi dili həm psixoloji həm də linqvistik nöqteyi-nəzərdən araşdırıb öyrənmək və tədqiq etməkdir. Psixolinqvistika dilin necə istifadə olunduğunu öyrənir. O, biliklərin istifadəsinə və ona aid olan psixoloji proseslərə diqqət yetirir. Nitqin yaranma və mənimsənilmə prosesi dilçilikdə nəzərdən keçirilsə də, nitqi əmələ gətirən vahidlər və onların yaranma mexanizmini, dərk oliunub başa düşülməsinin tədqiqi yetəri qədər araşdırılmamışdır. Dilçilikdə dilin psixoloji nöqteyi-nəzərdən tədqiq edilməsi həm dilçiliyin yeni sahəsi olan psixolinqvistikanın bir elm sahəsi kimi formalaşmasına və inkişaf etməsinə kömək edir, həm də ənənəvi dilçilikdən qeyri-ənənəvi dilçiliyə keçid imkanı yaradır. Kommunikantın daxili aktivliyi, onun psixikasında baş verən proseslər, nitiqin əmələ gəlməsi və dərk olunub mənimsənilməsi "Linqvo-psixoloji vəhdət nəzəriyyəsi"ndə geniş şəkildə öz əksini tapmışdır. Dil və nitqin yaranması və mənimsənilməsi prosesi ilə bağlı məsələlərə psixolinqvistik baxımdan diqqət yetirilməsi nitq aktını həm linqvistik, həm də psixoloji baxımdan şərh etmənin önəmini əks etdirir.

Açar sözlər: nitq, dil, psixolinqvistika, intellekt obrazı

Giriş

Dil və cəmiyyətin qarşılıqlı əlaqəsi aşkar və mübahisəolunmazdır. Dilin, nitqin yaranması və kommunikasiya prosesində onlardan istifadə, eləcə də nitqin ötürülməsi, qəbulu və mənimsənilməsi həmişə diqqət mərkəzində olmuşdur. Dil psixoloji, kommunikativ və mədəni amillər arasındakı qarşılıqlı əlaqəni əks etdirir. Dil təfəkkürün məhsulu kimi beyin aktivliyinin reallaşma mexanizmini və onun çalışma tərzini əks etdirir. Cəmiyyətin özü kimi onun yaratdığı elm sahələri də dəyişib inkişaf etdikcə, dilin yaranmasına və onun cəmiyyətdəki roluna münasibət də tədricən dəyişməyə başladı. Artıq dilin mahiyyətinin və funksiyalarının şərhi zamanı dini-fəlsəfi ehkam və mülahizələrlə yanaşı fizioloji və sosioloji normalar, psixoloji və tətbiqi prinsiplər də nəzərə alınırdı. Dilçilikdə dilin psixoloji nöqteyi-nəzərdən tədqiq edilməsi həm dilçiliyin yeni sahəsi olan psixolinqvistikanın bir elm sahəsi kimi formalaşmasına və inkişaf etməsinə kömək edir, həm də ənənəvi dilçilikdən qeyri-ənənəvi dilçiliyə keçid imkanı yaradır.

Əsas

Elmin bütün sahələrində olduğu kimi, dilçilikdə də mililik və bəşərilik mövcuddur. Belə ki, bir çox dil kateqoriyaları milli səciyyə daşıdığı halda, bəzilərinə ümumi dilçilik aspektindən yanaşmaq lazımdır. Son dövrlərdə dilin psixoloji yöndən araşdırılmasına meyl olduqca artmışdır. Psixolinqvistika dilçiliyin müasir dövr üçün ən intensiv inkişaf edən və perspektivli sahələrindən biri hesab edilir. Onun ilkin məqsədi və hətta yaranma səbəbi nitqin əmələ gəlmə və mənimsənilmə mexanizmini öyrənmək olmuşdur. Bu istiqamət çərçivəsində həm ayrı-ayrı

sözlərin, cümlələrin, həm də ümumilikdə nitqin yaranma və mənimsənilmə mexanizmini öyrənməyə çoxsaylı cəhdlər göstərilmişdir.

Psixolinqvistika yeni və gənc elm sahələrindən biri olduğu üçün alimlərin bu sahə ilə bağlı fikirləri mübahisəlidir. Bir çox alimlər onu dilçilik elminin bir qolu hesab etdikləri halda, digər qrup alimlər psixolinqvistikanı psixologiya sahəsinə aid olan bor fenomen kimi qəbul edirlər.

V.Humboldtun əsərlərini bu psixolinqvistik tədqiqatların ilham mənbəyi hesab etmək mümkündür. Onun tədqiqatları dilçilikdə başqa istiqamətlərlə yanaşı psixoloji istiqamətin də inkişafına təkan vermişdir. V.Humboldt yazır: "Dil fikri formalaşdıran orqandır. İntellektual fəaliyyət tamamilə ruhidir, dərin daxilidir. Bu səbəbdən intellektual fəaliyyət və dil vəhdət təşkil edir. Subyektiv fəaliyyət təfəkkürdə təfəkkürdə obyekt yaradır. Hiss orqanlarının fəaliyyəti ilə ruhi fəaliyyətin sintetik əlaqəsi nəticəsində obyektə çevrilərək subyektiv qüvvəyə qarşı qoyulan təsəvvür yaranır və o da yenidən mənimsənilərək subyektə çevrilir. Bütün bunlar dil yardımı ilə baş verir (Humboldt, 1984: 75). V.Humboldt burada hissi mənimsəmədən başlayıb düşünmə fəaliyyəti ilə müşayiət olunan və təsəvvürün formalaşması ilə başa çatan dərketmə prosesini şərh etmişdir. V.Humboldtun bu şərhini bu günə qədər dil və dərketmə əlaqələrinin araşdırılması istiqamətində verilmiş müasir şərhlərə ən yaxını hesab edə bilərik. V.Humboldt hesab edir ki, dil özünəməxsus mahiyyəti yaratma qabiliyyətinə malikdir. Dilin bu mahiyyəti yalnız dərketmə aktı çərçəvəsində mövcud olur. Amma mahiyyət etibarilə dil dərketmə və ya təfəkkürdən asılı deyil (Humboldt, 1984:61). Bu fikrin əksinə olaraq, M.B.Əsgərov yazır: "İnsan təfəkküründən kənarda mənasız söz yığını və işarələr zəncirindən başqa bir şey olmayan dilin və ya nitqin əsl mahiyyəti məhz dərketmə və təfəkkür proseslərində üzə çıxır" (Əsgərov, 2008:45).

H.Şteytal isə məzmunun ifadəsində psixoloji və maddi cəhətlərin birgə iştirakını qəbul edir.

O belə qeyd edir ki, nitqin əsas məqsədi psixoloji qüvvələrin köməyi ilə məzmunu ifadə etməkdən ibarətdir (Steinthal, 1871:483).

Ünsiyyət və nitqin yaranması bir sıra psixolinqvistik istiqamət və məktəblərin yaranmasına gətirib çıxarmışdır: Biheviorizm, Neobiheviorizm və Nitq fəaliyyəti nəzəriyyəsi. Ç.Osqudun yaradıcısı olduğu biheviorizm nəzəriyyəsi sırf psixoloji nəzəriyyədir. "Bioheviorizmin ən başlıca xidmıti ondan ibarətdir ki, o, dərketmə və insanın xarici uyğunlaşma reaksiyaları arasındakı boşluğu doldurmağa cəhd göstərmişdir" (Тарасов, 1987:28). Neobiheviorizmin yaradıcısı Ç.Osqud və N.Xomskidir. nəzəriyyənin psixoloji əsası Ç.Morris tərəfindən irəli sürülən stimul-dispozisiya-reaksiya sxemi, linqvistik əsası isə N.Xomskinin irəli sürdüyü transformative qrammatika ideyasıdır. Psixolinqvistik istiqamətlərin üçüncüsü nitq fəaliyyəti nəzəriyyəsidir. Nitq fəaliyyəti nəzəriyyəsinin predmeti nə cümlə, nə də söyləmdir. Nəzəriyyənin predmeti məhz nitq prosesinin özüdür.

Yeni bir sahə olan psixolinqvistikada nitqin və söyləmin neə yarandığını, necə qəbul edilib mənimsənildiyi mexanizmini öyrənməyə yönələn, psixoloji və linqvistik tərəfdən izah etməyə imkan verən nəzəriyyə M.B.Əsgərovun "Linqvo-psixoloji vəhdət nəzəriyyəsi"dir. Linqvo-psixoloji vəhdət nəzəriyyəsinin tədqiqat obyekti təkcə nitq deyil, bütün səviyyələrdən olan dil struktur vahidləridir. Linqvo-psixoloji vəhdət nəzəriyyəsinin vahidləri gerçəklik elementi və intellekt obrazıdır. Gerçəklik elementi dedikdə, obyektiv aləmdə real şəkildə mövcud olan və ya mövcud olduğu qəbul edilən əşya, varlıq və hadisələr və ya anlayış, norma və prinsiplər, onların xüsusiyyət və keyfiyyətlərinə bərabər tutulan abstrakt təsəvvürlər nəzərdə tutulur (Əsgərov, 2015:48-49). İntellekt obrazı isə gerçəklik vahidinin və ya onun hissələrinin real

obrazına ekvivalent olan və bu obrazların yadda qalmasını təmin edən təfəkkür vahididir (Əsgərov, 2015:51). Aydın olduğu kimi, linqvo-psixoloji vəhdət nəzəriyyəsi sözün,söyləmin və nitqin həm yaranma, həm də mənimsənilmə mexanizmini özündə əks etdirir. Bütün dil struktur vahidləri linqvo-psixoloji vəhdət nəzəriyyəsi bazasında şərh olunur.

Qeyd etdiklərimizdən belə nəticəyə gəlirik ki, psixolinqvistika nitqin yaranması və başa

düşülməsi problemlərini tam elmi şəkildə şərh etməyə çalışan dilçilik sahəsidir. Psixologiya və dilçilik elmlərinin kəsişməsində yaranan psixolinqvistikanın əsas tədqiqat məqsədi dili həm psixoloji həm də linqvistik nöqteyi-nəzərdən araşdırıb öyrənmək və tədqiq etməkdir və eyni obyektə müxtəlik yanaşma tərzi nəticəsində yaranmışdır. İnsan təfəkkürü və dili arasındakı münasibəti psixolinqvistikadan kənarda tədqiq etmək qeyri-mümkündür. Əgər təfəkkür və dil bir sistemdirsə, psixolinqvistikanı bu sistemin ayrılmaz parçası hesab edə bilərik.

Qaynaqlar:

- ƏSGƏROV, Mayıl. (2008). "Təfəkkür prosesləri baxımından dilin yaranması", *Tədqiqlər*, S.4, s.45-53.
- ƏSGƏROV, Mayıl. (2015). *Linqvopsixologiya və ya dilin psixologiyası,* Bakı:Elm və təhsil.
- STEINHAL, Hajim. (1871). *Abriss der Sprachwissenschaft.* Berlin:Hildesheim.
- ГУМБОЛЬДТ, Вильгельм (1984). *Избранные труды по языкознанию.* (Перевод Г.В. Рамишвили). Москва:Прогресс.
- ТАРАСОВ, Евгений (1987). *Тенденции разития психолингвистики.* Москва:Наука.

Abstract

The interaction of language and society is obvious and indisputable. Language reflects the interaction between psychological, communicative and cultural factors. Psycholinguistics has not historically been an easy area to study. Psycholinguistics explores the relationship between the human mind and language. It treat the language user as an individual rather than a representative of a society – but an individual whose linguistic performance is determined by the stregths and limitations of the mental apparatus which we all share. Although linguistics and psychology are different disciplines, the comon ground they share is quiet vast. The area that covers the act of trying to reach concrete results with reference to scientific data that address the influence of psycology on language and vice versa is referred as the area of interest in psycolinguistics. The main purpose of psycholinguistics, which emerged at the intersection of psycology and linguistics, is to study and research language from both psychological and linguistic perspectives.

Key words: speech, language, psycholinguistics, image of intellect

“MARİO VARQAS LYOSANIN “YARAMAZ QIZIN SƏRGÜZƏŞTLƏRİ” ROMANINDA ELİTARLIQ VƏ KÜTLƏVİLİK”

Humay HÜSEYNOVA

Xəzər Universiteti

Elmi rəhbər: fil.ü.f.d. Ülvi Babasoy

Özət

Ədəbiyyatda elitarlıq və kütləvilik yeni fenomen deyil. Elitar ədəbiyyat, əksər hallarda kütləvi, başqa sözlə populyar mədəniyyətə qarşı qoyulur. Ədəbiyyatın elitar bir hadisə olmaqdan çıxması on beşinci əsrə təsadüf edir. Həmin dövrdən etibarən ədəbi yaradıcılıq tarixində kütləvilik baxımından yeni mərhələ başlandı. Bu mərhələnin təsiri modernizmin inkişafından sonra daha aşkar görünməyə başladı. Modernizmin ənənəvi ədəbi cərəyanlara və üslublara təsirinin nə qədər güclü olması da göz qabağındadır. Amma sözügedən təsir modernizmin elitarlıq xüsusiyyətininə xələl gətirmir.

Bu məqalədə tanınmış yazıçı Mario Varqas Lyosanın “Yaramaz qızın sərgüzəştləri” romanı elitarlıq və kütləvilik aspektindən təhlil olunur, yazıçının dil üslubu, istifadə etdiyi ədəbi priyomlar əsasında romanın hansı dərəcədə kütləvi, hansı dərəcədə elitar olması araşdırılır.

Açar sözlər: elitarlıq, kütləvilik, Mario Varqas Lyosa, ədəbiyyat

Giriş

Postmodermizmin önəmli nümayəndələrindən olan Lyosa 70-80-ci illərin Qərb şəhər həyatını ədəbiyyat üçün heç də yad olmayan obsessiv sevgi hekayəsi ilə birləşdirərək özünün oturuşmuş üslubundan fərqlənən iş ortaya qoyub. 2006-cı ildə ispan dilində nəşr olunan əsər uzun müddət ədəbiyyat saytlarında manşet olub. Lyosa sonuncu müsahibələrin birində belə deyir: Düzünü demək lazımdırsa modern romanın həqiqi yaradıcısı Qustav Flobertdir[1]”. Parisə gəldiyi gün “Madam Bovari”ni tapıb oxumağa başlayır və bütün gecəni ayıq qalaraq əsəri bitirir.

“Gün doğana yaxın artıq necə yazıçı olmaq istədiyimi bilirdim. Flaubertin sayəsində roman sənətinin bütün sirləri ilə tanış olmuşdum” (URL-1)

1975-ci ildə yazdığı “Əbədi eyş-işrət” adlı uzun essesində ədəbiyyatda Madam Bovari məsələsinin detallı araşdırmasını təqdim edir. Bəzi tənqidçilərin fikrinə görə Lyosanın “Yaramaz qızın sərgüzəştləri” əsəri Madam Bovaridən təsirlənərək yazılmışdır. Hətta Lyosanın Flauberti təkrarladığını düşünən tənqidçilər də var. Amerikalı tənqidçi və yazıçı

[1] Literary Hub- Lyosa Flaubert yazısının əbədi gəncliyi haqqında.

Ketrin Harrison “Təhlükəli obsessiya”(URL-5) adlı məqaləsində deyir: “ *Köhnə romanlarının çılğın oxucularını əyləndirə biləcək qədər yaxşı kitabdır.”*

Giriş

Birinci sinif yazıçının ortabab romanını oxumaq narahatedici bir təcrübə ola bilər. Əsər boyunca kitabın uğursuzluğunu qəbul etmiş, amma yenə də öz təhkiyəsinə bir yol tapmağa çalışan böyük bir istedadın boğuq səssizliyi hissi hökm sürür. Mario Varqas Llosanın bir romançı kimi nəhəng resursları və istedadı bu obsessiv sevgi nağılı ilə birləşərək bir kosmopolit məkandan digərinə sürətli səhnə dəyişikliyi, Peru siyasi tarixinin təlatümlü eskizləri, inqilabçıların səs-küylü mübarizəsi, bol-bol ədəbi eyhamları fonunda cərəyan edir. Əsərin baş qəhrəmanı Rikardo başına bəla olacaq o yaramaz qızla hələ özünün ən böyük arzusu olan Parisdə yaşamaq xəyalını gerçəkləşdirməmişdən əvvəl Peruda rastlaşır. Yaramaz qızın onun və onun kimi digər qurbanlarının başına açacaqlarından xəbərsiz halda Rikardo həyatının sevgisini tapdığını güman edir, yaramaz qızın işinə yaramaq üçün dəridən-qabıqdan çıxır. Yaramaz qızın isə məqsədi yalnız öz gələcəyini təmin etmək, maddi cəhətdən müstəqil olmaqdır. Amma asan yolla. Beləcə, Rikardo təhlükəli aludəçiliyə çevrilən və bütün həyatına, qərarlarına təsir edən bir sevgi ilə o qızı sevir. Başı cəncələ düşəndə Rikardonu xatırlayan qız isə onun sevgisindən o qədər əmindir ki, hər görüşdə ya Rikardonu borclu çıxarır, ya da özünün silahını işə salır. Bu silah isə bəzən mərhəmət duyğusunu oyandırma, göz yaşı, bəzən qadın kimi gözəlliyindən və qarşı tərəfin təmənnasız sevgisindən istifadə olur. Və xəyanət edən tərəfin dəfələrlə bağışlanması. Ta ki tərəflərdən biri ölənə qədər.

Ədəbiyyatda elitarlıq və kütləvilik

Elitar və kütləvi ədəbiyyat anlayışları arasındakı əsas fərqlərdən biri “ədəbiyyat” termininin necə izah olunmasına söykənir. Elitar ədəbiyyat fərqlənmə metoduna əsaslanan, klassiklərin panteonuna daxil olmağı təmin edən mətnləri özündə ehtiva edir. (Rafiq Tağı, 2008) Kütləvi ədəbiyyat isə yerli və ya beynəlxalq səviyyədə best-seller olmuş istənilən növ mətnin yer aldığı ixtisaslaşmış, eyni zamanda bəsitləşmiş ədəbiyyatdır. Mətnlərin keyfiyyəti və mükəmməlliyi üzərində suallar qaldırıla bilər, amma yalnız bu ədəbiyyat nümunələri oxucu kütləsi toplayandan, ədəbi əsərlər siyahısında “qeydiyyata” düşəndən sonra. (URL-4) Çox oxunan mətnlər tərifə əsasən kütləvi ədəbiyyat kateqoriyasına daxil olur. Bu tip əsərlərin ədəbi kriteriyalara, təyin olunmuş ədəbi standartlara cavab verib-verməməsi başqa müzakirənin predmetidir, hansı ki o müzakirənin nəticəsinin nə olması həmin nümunənin kütləvi ədəbiyyat olması həqiqətini dəyişmir (URL-2).

Müasir dövrdə postmodern ədəbiyyatda məqsədli şəkildə, bilərəkdən sadə və primitiv yazmaq tendensiyası hökm sürməkdədir. Elitar oxucu kütləsi qazanmış, öz yolunu tutmuş bir yazıçı gözlənilmədən “hamı üçün” yazaraq ədəbiyyat dünyasında xaos yarada, özünü xatırlada bilir. Bunun müxtəlif səbəbləri var: kifayət qədər az sayda olan elitar oxucu kütləsinin kəmiyyətini artırmaq məqsədi, ağır və ciddi əsərləri ilə tanınan “vaxtı keçmiş”

yazıçının “hələ yaşayıram” demək cəhdi, zaman keçdikcə cəmiyyətdə dəyərlərin, intellektual səviyyənin, maraqların dəyişməsi və yazıçının bu səviyyə ilə ayaqlaşmaq üçün “ucuz” manevrlər etməsi və s.

“Yaramaz qızın sərgüşəztləri” sonuncu kateqoriyaya daha çox uyğun gəlir. Etiraf edək ki, yüksək zövqlü və ədəbi hazırlıqlı, ciddi ədəbiyyat oxuyan oxucunun bir əsərdən gözləntisi intellektual zövqlə məhdudlaşmır. Bu gözləntilərin arasında ağır zehni işdən sonra verilən fasilə kimi, əyləncə də mütləq yer tutur.

Ümumiyyətlə, ədəbiyyatın əyləndirmək funksiyasının olması sirr deyil. Bu baxımdan, sözügedən əsəri yüksək qiymətləndirə bilərik. Oxucunu yormadan əyləndirməsi, olduqca axıcı və rahat oxunması, obrazların əhatəli təsvir edilməsi, oturuşmuş roman strukturu, bir sözlə hər şey əsərin təcrübəli qələm sahibinin əlindən çıxdığını sübut edir. Müəllifin ədəbi fəaliyyəti ilə bərabər siyasi fəaliyyəti ilə tanış olanlar bilirlər ki, o, eyni zamanda ictimai-siyasi xadimdir. Bu səbəbdən, belə ciddi yazıçının müasir dövrün nəbzinə uyub özünün köhnə elit oxucuları üçün deyil, kütləyə xitab edən roman yazmasını ən yaxşı halda postmodernist manevrdən adlandırmaq mümkündür (URL-3).

Amma nəzərə almaq lazımdır ki, bu, heç də “Yaramaz qızın sərgüşəztləri”-ni Ekonun sözü ilə desək “plyajda oxunan əsər” etmir.

Lyosanın bu əsərinin tənqidçilər tərəfəindən kütlə üçün yazılmış hesab edilməyinə baxmayaraq, onun ustalığı əsəri oxunaqlı etmək üçün kifayətdir. Sadə oxucuya görə, Lyosa nəsrinin ağırlığı ilə tanış olmayan oxucuya görə bu, sonu heç də xoş bitməyən sevgi hekayəsidir. Əslində isə “Yaramaz qızın sərgüzəştləri” sevgi hekayəsindən daha çox arxa fonda dövrün siyasi hadisələrinin, sosial həyatının təsvir olunduğu, səhnədə isə obsessiv pozuntu dərəcəsində sevən bir oğlanın başına gələnləri təsvir edən postmodern romandır.

Lyosa və onun yazı stili

Varqas Llosanın bəzi əsərlərinin adlarından da göründüyü kimi, onun reallığa baxışı iki başlıdır. İki reallıq arasındakı ziddiyyətin yaratdığı gərginlik həm romanlarının personajları arasında görünür, həm də oxucu tərəfindən hiss olunur və bu, Varqas Lyosa üslubunun dramatik təbiətinin başlıca cəhətidir. İlk qısa hekayələrində və ilk romanında o, hekayəni personajın taleyinin gedişatını geriyə dönüşü olmayan şəkildə hərəkətə gətirən ekzistensial jestlərə və ya sözlərə yönəltmişdi. Romanları daha da mürəkkəbləşdikcə, Varqas Llosa qəliz strukturlu cümlələrini dialoq formasına keçirərək uzun dialoqlara diqqət yetirməyə başladı. Özünün “Gənc romançıya məktublar” əsərində o, ədəbiyyatla bağlı çoxsaylı problemlərə toxunaraq geniş müzakirələr açmış, bütün nu məsələlər barəsində fikrini əsaslandırmışdır.

“Romançı yazacağı mövzunu özü seçmir, mövzu yazıçını seçir. Yazıçı müəyyən mövzularda ona görə yazır ki, o müəyyən şeylər bu və ya digər dərəcədə onun başına gəlib”(Varqas, 1997). Bu baxımdan, “Yaramaz qızın sərgüşəztləri”ni həqiqi roman adlandırmaq olar. Yazıçının Paris dövrü, həyatındakı qadınlar, siyasətlə əlaqəsi və s. amillər deməyə əsas verir ki, sözügedən əsərdə cərəyan edən hadisələrin böyük əksəriyyəti reallıqdır. Amma, Llosa “Gənc romançıya məktublar”-da başqa bir etiraf da edir: *Ədəbiyyat dərin həqiqəti ört-basdır edən yalandan başqa bir şey deyil* (Varqas, 1997).

Qaynaqlar

- ƏLİYEV Rəhim. (2008). Ədəbiyyat nəzəriyyəsi. Bakı:Mütərcim.
- NAGOURNEY Peter. (1982). Elite, Popular and Mass Literature: What People Really Read. The journal of Popular Culture.
- TAĞI, Rafiq. (2008). Üç esse. Ədəbiyyatşünaslıq etüdləri. Bakı: Qanun.
- VARQAS LLOSA Mario. (1997). Letters to Young Novelist Farrar, Straus and Giroux London: Picador
- VARQAS LLOSA, Mario. (2019).Yaramaz qızın sərgüzəştləri. Bakı:Qanun.
- URL-1. https://lithub.com/all-things-are-possible-mario-vargas-llosa-on-the-eternal-youth-of-flauberts-writing/
- URL-2. https://www.theguardian.com/books/2008/jan/12/fiction2
- URL-3. https://kulis.az/news/18586
- URL-4. https://kulis.az/news/16470
- URL-5. https://www.nytimes.com/2007/10/14/books/review/Harrison.html

Abstract

Elite and popular literature is not new phenomenon. Elite literature, in most cases, is contradicted by mass literature, in other words popular literature. Literature came out being an elite event in fifteenth century. A new beginning has been started in terms of massiveness in the history literature. The effect of this period began to appear more pronounced after the development of modernism. It is also remarkable that how strong the effect of modernism on literary trends and styles is. But the mentioned effect does not change elite nature of modernism.

In this article, the well-known writer Mario Vargas Llosa's novel “The bad girl” is analyzed from the literature and mass perspective. Based on the writer's language style and literary terms used, it is analyzed to what extent the novel is popular and elite.

Key words: elite, mass, Mario Vargas Llosa, literature

NƏSRDƏ QAÇQINLIQ KONSEPTİNİN SOSİAL-PSİXOLOJİ ASPEKTLƏRİ
(Elçin Əfəndiyevin "Bayraqdar" povesti əsasında)

Günay YEDİYARLI
Xəzər Universiteti
Elmi rəhbər: dos. Dilbər Zeynalova

Özət

Məqalədə Elçin Əfəndiyevin "Bayraqdar" povesti əsasında çağdaş nəsrdə qaçqınlığın sosial- psixoloji aspektləri araşdırılır. Çağdaş Azərbaycan ədəbiyyatında "Bayraqdar" povesti qaçqınlıq probleminə həsr olunmuş əsərlər içərisində özünəməxsusluğu ilə seçilir. Povest qaçqınların böyük faciəsi və məhrumiyyətlərindən bəhs edir. Əsərdə bir çox qaçqın obrazın həyat hekayəsi ilə tanış oluruq. Bildiyimiz kimi sosial problemlər müxtəlif olur və xalqımızın ən çətin, ən ağrılı problemlərindən olan Qarabağ müharibəsi və qaçqınlıq problemi də bu qəbildəndir. Biz də apardığımız təhlillər zamanı qaçqınlığın insan psixologiyasında açdığı yaraları üzə çıxarmağa, əsərdən gətirdiyimiz nümunələrlə fikirlərimizi əsaslandırmağa çalışmışıq. Povestdə qaçqınlıq çox canlı lövhələrlə və realist faktlarla təsvir edilmişdir. Yazıçı ən adi hadisələrin təsviri, sadə insanların mükaliməsiylə bu işğalın dəhşətlərini və onun özü ilə gətirdiyi bəlanın- qaçqınlığın mənasını açıb ortaya qoyur. Müharibədən sonrakı ruh halı və insan psixologiyası dəqiq rəsm edilir. Povestdə müharibə bitdikdən sonra fərdin, şəxsiyyətin dəyişən, nəzərə çarpan xarakteri, onun sosial psixologiyası əsas bədii tədqiqat predmetidir. Mövzunun aktuallığı onun tarixi həqiqətləri əks etdirməsidir. Bu gün yenidən Qarabağ illər sonra Azərbaycanın ayrılmaz hissəsinə çevrilmişdir. Ancaq Qarabağ müharibəsi, Qarabağın ağrıları, müharibənin açdığı yaralar, qaçqınlıq ilə bağlı yazılmış əsərlər qazanılmış böyük qələbənin nə qədər önəmli olduğunu gənc nəslə çatdırmaq baxımından çox önəmlidir. Məhz buna görə də, torpaq itkisi və onu itirəndə nələrin baş verdiyi ilə bağlı yazılan əsərlərin öyrənilməsi və tədqiqata cəlb edilməsinin vacibliyi vurğulanır.

Açar sözlər: Nəsr, Qarabağ, qaçqınlıq.

Giriş

Ədəbiyyatımızda qaçqınlıq mövzusunda çoxlu sayda əsərlər yazılıb və Qarabağ problemi, qaçqınlıq kimi mövzular müxtəlif baxış bucaqlarından işıqlandırılmışdır. Bu əsərlərdən bəziləri Qarabağ probleminə dolayısıyla, yəni taleyinə qaçqınlıq yazılmış insanların ağrı, acılarının təsviri vasitəsilə toxunur. Yazıçı Elçinin "Bayraqdar" povesti də məhz belə əsərlərdəndir. "Bayraqdar" müharibədən və qaçqınlıqdan yazılmış fərqli bir əsərdir. Povestdə bədii tədqiqat predmeti müharibə bitdikdən sonra fərdin dəyişən xarakteri, sosial psixologiyasıdır. Əsərdə müharibə səhnələri yoxdur. Ancaq onun doğurduğu bəlalar, vəhşiliklər və gətirdiyi çətinliklər sosial- psixoloji problem kimi qabardılır. Müharibənin insan psixologiyasına göstərdiyi təsir, insan psixikasının qırılması dərinliklərinə qədər əks etdirilir. Elçin "Bayraqdar" povestində müharibənin doğurduğu ən böyük faciə- qaçqınlığın həm ayrı- ayrı fərdlər, həm də bütöv bir toplum üzərindəki psixoloji təsirlərini önə çıxarmışdır. Əsər qaçqınların yalnız maddi, fiziki sıxıntılarından deyil, həm də onların mənəvi- psixoloji problemlərindən danışır.

“Bayraqdar” povesti başdan ayağa qaçqınların böyük faciəsi və məhrumiyyətlərindən bəhs edir. Elçin “Bayraqdar” da bu ağrını, qaçqın həyatının bütün çətin nüanslarını məharətlə oxucuya çatdırır. Əsərdə təsvir edilən epizodlarda qaçqınlıq, didərginlik faciəsinin böyüklüyü və bu faciədən yaranan psixoloji sarsıntıların dərinliyi böyük ustalıqla əks etdirilir. Problemin yaratdığı sosial- psixoloji məqamlar müharibədən kənar vəziyyətdə qabardılır və önə çəkilir. Povest 31 hissədən ibarətdir. “Eysebionun faciəli ölümü haqqında kədərli povest” olaraq qələmə alınmış “Bayraqdar” povestində Əbülfətin ölümünə olduqca az yer verilmişdir. Povestdə əsas mövzu nə yeniyetmələr arasında olan sevgi, nə də Əbülfətin ölümüdür. Taleyinə qaçqınlıq, köçkünlük yazılmış insanların acınacaqlı taleyi, qaçqın, köçkün həyatı və onların yaşadıqları sıxıntılardır.

Maraqlı və diqqətçəkən, həmçinin yazıçının sənətkarlıq bacarığını göstərən bir cəhət də budur ki, əsərdə sırf epizodik surət yoxdur. Biz əsərdə bir-birindən canlı obrazlarla tanış oluruq: Surxay Bayraqdar, Cümü (Qızıl Diş Cümşüd), Əbülfət, Cəmilə, Səyyarə, Sona, Vasili Kuzmiç, Əhməd Ağayeviç, Kolxoz kişi, Məleykə müəllimə, Kamança Tanrıverdi, erməni Arsen, Molla Fərzəli və s. Həyatlarını taleyin ixtiyarına buraxmış insanlar.. Əsərdə bu insanların hər birinin öz həyat hekayəsi ilə tanış oluruq. Hekayələr birləşib və böyük, maraqlı bir povesti “Bayradar”ı yaradıb.

“Bayraqdar” povesti böyük bir kədərin yaratdığı əsərdir. Kədər böyük olduğu üçün bədiilik də o qədər böyükdür. Vaqif Yusifli özünün “Elçin XXI əsrdə” adlı məqaləsində belə yazır: “Elçinin bəzən xəfif yumorla müşayiət edilən təhkiyəsində birdən- birə kədərli, qüssəli bir ovqatın hakim kəsilməsi təsadüfi deyil. Üslubundakı rəngarəng çalarlardan irəli gəlir bu. Bu cəhəti biz onun “Bayraqdar” povestində də görürük. Gah ciddi, gah yumorlu, gah da kədərli səhnələr bir- birini əvəz edir. Bir sözlə gülüşün içində göz yaşlarını, göz yaşlarının içində də işığı görürük. (Yusifli, 2013: 16) Povestdə müharibənin insan psixologiyasında buraxdığı travmatik izlər geniş təsvir edilir. Əsərdə müharibənin təsviri, döyüş səhnələri yoxdur, müharibənin ağrılı nəticələri var. Bütün bunlar əsərdə yüksək sənətkarlıqla canlandırılır.

Elçin əsərdə təsvir etdiyi qaçqın obrazlarından söz açanda onların müharibədən əvvəlki vəziyyətindən də oxucuya məlumat verir. Biz onların hər birinin sayılıb- seçilən, hörmətli kəslər olduğunun şahidi oluruq. Qaçqınlıq indi onları necə də dəyişmişdi.. Ən əsası da odur ki, onlar əvvəl xoşbəxt idilər. Mənfur düşmənlər onların torpağını zəbt edəndən onların torpaqla bərabər xoşbəxtliyi də əllərindən alınmışdı. Kədər sanki əsərin bütün ruhuna hopdurulmuşdur. Bina görə də əsərdə əsl mövzu insan kədəridir. Povestdə bir çox obrazın həyat hekayəsindən danışılmışdır. Povestdə müharibənin insan psixologiyasında buraxdığı travmatik izlər geniş təsvir edilir. Müharibədən sonrakı ruh halı, insan psixologiyası dəqiq rəsm edilir.

“-Bu bayraq ki, Şuşada elə...elə dalğalandı, yenə qayıdacaq Şuşaya !

Əlbəttə, bu sözləri Bayraqdara Məhəmməd Əmin bəyin- “Bir kərə yüksələn bayraq bir daha enməz!”- sözləri dedirtmişdi, amma o dəm özü də gözləmədən dediyi o sözlər Bayraqdara İlahidən gələn sözlər kimi təsir etdi və Bayraqdar bir əli ilə üçrəngli bayrağın dəstəyini daha da bərkdən sıxdı, o biri əli ilə də qucağındakı Əbülfəti sidq-ürəkdən bağrına basdı, addımları gözgörəti sağlamlaşdı, enerjisini çoxaltdı və elə bil, onun o sağlam addımları Bayraqdarı Şuşadan uzaqlaşdırmırdı, elə indidən Şuşaya qaytarmağa başlamışdı...” (Əfəndiyev, 2005: 161). Əsərdən nümunə göstərdiyimiz bu misralar oxucu qəlbində ümid işığı yandırır. Bu gün biz sevimli yazıçımızın necə də haqqlı olduğunun şahidiyik. Sevimli yazıçımız illər öncə bu günlərin gec ya tez gələcəyini duyurmuş. Şuşanı tərk etməyə məcbur olan qaçqınların atdığı addımların artıq onları Şuşaya qaytarmağa başladığını görürmüş...

Povesti daha əvvəl də oxumuşdum, ancaq onu yenidən, Zəfər çaldığımız Vətən müharibəsindən sonra da oxudum və əsərin təsir gücünün necə də çoxaldığını gördüm. Povest axıcılığı, sözün əsl mənasında yüngüllüyü ilə oxucunu ələ alır. Əsərə başlayan oxucu ondan ayrıla bilmir. Akademik Məmməd Arif yazıçı haqqında yazır: "Elçinin sadə və rəvan təhkiyəsində cəzbedici bir qüvvə vardır." (Məmməd, 2003: 17).

Bu əsərlə tanış olduqca, onu oxuduqca belə gözəl bir əsərin meydana çıxdığına sevinirsən. Çünki ölkəmizə olunan təcavüz, haqsız tökülən qanlar, zəhərlənmiş saysız-hesabsız talelər o qədər böyükdür ki. Belə böyük bir faciə belə qiymətli əsərlərdə öz əksini tapmalıdır deyə düşünürsən. Professor Nərgiz Paşayevanın da dediyi kimi "Bayraqdar"ı oxuduqdan sonra düşünürsən: nəhayət ki, Azərbaycan nəsrində qaçqınlarımızın böyük faciəsinin miqyası müqabilində layiqli əsər meydana çıxdı." (Əfəndiyev, 2004: 19).

Əsəri oxuduqca, obrazlarla tanış olduqca sanki qaçqınların, yurdlarından didərgin düşməyə məcbur qalmış köçkünlərin bu vaxtacan acınacaqlı həyatından xəbərsiz qaldığın üçün, özünü onların yerinə qoymağa çalışmadığın üçün özünü qınayırsan. Yazıçı o qədər nəzakətlə, xüsusi incəliklə bu insanların acınacaqlı taleyini təsvir edir ki, hər şey bir film kimi oxucunun gözləri önündən gəlib keçir, obrazlar tanıdığın, gördüyün insanlara çevrilir. Oxuduqca görürsən ki, hər birinin acılarla dolu öz həyat hekayəsi var.

"Əbülfət Şuşanı çox dumanlı xatırlayırdı, Şuşa onun üçün, əslində, nəsə...nəsə, içində, ürəyində olan gözəgörünməz, amma çox əziz və doğma bir...bir...nə idi? doğma bir varlıq idi...Misal üçün, anası Səyyarə Əbülfətin içində, ürəyində nə idisə, Şuşa da onun üçün elə bir şey idi, intəhası, anası yadına düşəndə Səyyarənin sifəti o saat gəlib dururdu Əbülfətin gözlərinin qabağında, amma Şuşanın simasını, şəklini görə bilmirdi." (Əfəndiyev, 2005: 171) Bu fikirlər cəmi dörd yaşında Şuşadan, öz evindən, vətənindən ayrı salınmış on altı yaşlı bir yeniyetmənin- vaxtsız qoparılmış gülü xatırladan bir uşağın düşüncələridir. Kiçik amma çox düşündürücü sətirlər. Oxuduqdan sonra təkrar- təkrar yenə oxuyub, hər dəfəsində də gözlərinin dolduğu dərin mənalı sətirlər...Müharibə, qaçqınlıq həyatı onların ən gözəl çağlarını- uşaqlığını və yeniyetməliyini yaralayır. Gəncliyinə, uşaqlığına qaçqınlıq həyatı düşən insanlarda bir küskünlük olur. Uşaqlığını keçirdiyin yerlərdə böyümək, yaşlanmaq özü də bir xoşbəxtlikdir axı..

Professor Nərgiz Paşayevanın povest haqqında qiymətli fikirləri var: "Bayraqdar" povesti həmin böyük faciənin yığcam bədii panoramını yaradan, eyni zamanda, ən dərin qatlarını üzə çıxaran sənət əsəridir. Bu əsər öz müəllifinə müasir dövrdə- XXI əsrin əvvəllərində də ədəbi bayraqdarlıq ucalığı gətirmişdir." (Əfəndiyev, 2004: 20)

Şükürlər olsun Allaha ki, artıq yurd nisgili, yurd həsrəti, könlümüzdə qubar hissi yoxdur. Artıq ədəbiyyatımız bir- birindən gözəl qəhrəmanlıq salnamələri ilə zənginləşir. Vətənimizin bir parçası- Qarabağ düşmən əsarətində deyil. Ancaq Qarabağ probleminə xüsusilə də, qaçqınlığa həsr olunmuş əsərlərin bu gün də araşdırılması və tədqiqata cəlb edilməsi vacibdir. Çünki bu əsərlər həm gənc nəsildə vətənpərvərlik hisslərini yüksək səviyyədə saxlayır, həm də vətənin, yaşadığın doğma el- obanın nə qədər qiymətli olduğunu göstərir. Onlar qazanılmış böyük qələbəmizin önəmini gənc nəslə çatdırır. Hər bir vətəndaş həmişə vətənini itirməkdən, onsuz qalmaqdan qorxmalıdır, onu göz bəbəyitək qoruyub o da gələcək nəsillərə ötürməlidir!

Qaynaqlar

- ƏFƏNDİYEV, Elçin. (2005). Seçilmiş əsərləri (10 cilddə), 2-ci cild, Bakı: Çinar- çap.

❖ ƏFƏNDİYEV, Elçin. (2004). “Bayraqdar”. Kədərin yaratdığı əsər (Xalq yazıçısı Elçinin “Bayraqdar” povesti haqqında düşüncələr. Bakı: Qapp- Poliqraf.
❖ MƏMMƏD, Arif. (2003). Ürəklərə yol tapanda. Bakı: Təhsil.

Abstract

The article examines the socio-psychological aspects of the refugee in contemporary prose based on Elchin Efendiyev's story "Bayragdar". In contemporary Azerbaijani literature, the story "Bayragdar" stands out for its uniqueness among the works dedicated to the refugee problem. The story tells about the great tragedy and deprivation of the refugees. In the work, we get acquainted with the life stories of many refugee characters. As we know, social problems are diverse, and the Karabakh war and the refugee problem, which are among the most difficult and painful problems of our nation, are also of this type. During our analysis, we have tried to reveal the wounds opened by the refugee in human psychology, and to justify our opinions with examples from the work. In the narrative, the refugee is depicted with very vivid pictures and realistic facts. The writer reveals the horrors of this invasion and the meaning of the refugee brought with him by the description of the most ordinary events and the dialogues of ordinary people. The post-war state of mind and human psychology are accurately depicted. In the narrative, after the end of the war, the changing, noticeable character of the individual, personality, his social psychology is the main subject of artistic research. The relevance of the topic is that it reflects historical truths. Today, after many years, Karabakh has again become an integral part of Azerbaijan. However, the works written about the Karabakh war, the pains of Karabakh, the wounds caused by the war, refugees are very important in terms of conveying to the young generation the importance of the great victory won. It is for this reason that the importance of studying and engaging in research on land loss and what happens when it is lost is emphasized.

Key words: Prose, Karabakh, refugee.

VİLYAM QOLDİNQİN "MİLÇƏKLƏR TANRISI" ROMANINDA YUMOR VƏ SARKAZM

Günay YUSİFOVA
Xəzər Universiteti, bakalavr
Elmi rəhbər: : fil.ü.f.d. Ülvi Babasoy

Özət

Vilyam Qoldinqin qələm məhsulu olan "Milçəklər Tanrısı" əsəri yumor və sarkazm vasitəsilə oxucuya əsərin uşaq ədəbiyyatı olmadığını, əsərdə baş verən hadisələrin isə uşaq olsan belə, mühitin səni necə dəyişdirəcəyindən bəhs edir. Məqalədə sarkazm və yumor vasitəsilə oxucuya çatdırılan məqamlar əsərin mövzusu üzərindən təhlil olunur. Əsərin əvvəlində demokratik olmağa çalışan ada sakinlərinin, sonda avtokratik tərzdə yaşamasının səbəbi araşdırılır. Bu məqalə Qoldinqin fərqli mövzular və ideyalar təqdim etmək üçün öz personajlarını necə nümayiş etdirdiyini göstərir ki, oxucularına onların münaqişəsi və emosiyaları haqqında daha çox anlayış vermək üçün hər bir personajın təcrübəsini və performansını göstərsin. Həmçinin müəllifin nə üçün əsərin adını "Milçəklər Tanrısı" adlandırdığı mövzusuna toxunulur.

Açar sözlər: sarkazm, güc, ada, yumor, lider, simvolizm, dəyişim

Giriş

Vilyam Qoldinqin qələm məhsulu olan "Milçəklər Tanrısı" əsəri 1954-cü ildə qələmə alınmışdır. 1934-cü ildə şeir kitabı çıxaran Qoldinq uğurlu bir addım olmadığını fərqinə vardı. "Şeir yaza bilmədiyim üçün düzyazı yazıram" deyən yazıçı "Milçəklərin Tanrısı" əsərini qələmə aldı və bu əsər onun yaradıcılığında köklü dəyişikliyə səbəb oldu. Dünya ədəbiyyatında misilsiz əsərlərdən biri olmaqla qalmadı, hətta Nobel mükafatına da layiq görüldü. Bu hekayə insan təbiəti haqqında yaxşı və nəcib olan hər şeyin canlandırıcı təsviridir. Sivilizasiyanın pozucu təsirlərinə məruz qalmazdan əvvəl bəşəriyyətin fitri yaxşılığını simvolizə edən Jan-Jak Russonun "nəcib vəhşi" mifi yada düşür. Əsəri oxumağa başladıqda bir uşaq ədəbiyyatı olduğunu düşünmək normal bir haldır. Lakin səhifələr bir-birinin ardını izlədikcə bu əsərin yalnız bir uşaq ədəbiyyatı olmadığını fərqinə varırıq. Roman yaşamaq üçün amansız mübarizənin hekayəsidir. Kitab II Dünya Müharibəsində nüvə atom bombasının təsirindən qorunmaq üçün bir qrup ingilis uşağının təyyarə ilə daşınması mövzusu ilə başlayır. Sözügedən təyyarə təyinat yerinə çatmamış kimsəsiz adaya endikdə sağ qalan uşaqların sağ qalmaq mübarizəsi başlayır.

"Milçəklər Tanrısı" əsəri özündə bir çox mövzuları birləşdirir və bu mövzuları oxucuya obrazlar vasitəsilə çatdırır.

Əsərin baş obrazlarından biri də Ralfdır. O, təqdim olunan ilk personajdır. Ralfı "ədalətli oğlan" deyə çağırırdılar. Qaydalara daim üstünlük verən, bu qaydalara uyğun yaşamağa çalışan obraz idi. Ralf obrazının yumor hissi var idi. Digər obrazlarda sarkazm güclü hiss olunsa da, Ralf obrazında yumor hissi daha güclü idi. Yumor- təcrübələrin gülüş doğurmaq və əyləncəni təmin etmək meylidir. O, romanda nizamın, sivilizasiyanın və məhsuldar liderliyin əsas nümayəndəsidir. Ralfın sivilizasiyaya və əxlaqa bağlılığı güclüdür, onun əsas arzusu xilas edilib böyüklər cəmiyyətinə qaytarılmasıdır. Müəyyən mənada bu güc, romanın

sonunda, Milçəklərin Tanrısını yerə yıxıb özünü Cekin ovçularına qarşı müdafiə etmək üçün onun dirəyi götürdüyü zaman Ralfa mənəvi qələbə qazandırır.

"Günəşdən daldalanaraq Piqqinin dediklərinə fikir vermədən xəyala dalmışdı Ralf" (Qoldinq, 2017: 7).

"Ralf yenə də gecə xəyalları oyununa başladı" (Qoldinq, 2017: 131).

Cek obrazı əsərin digər baş obrazlarından biridir. Romanın əvvəlində Cekin qəddarlığı və təbiətə qarşı çıxması ifadə edilir. Cekin dar düşüncəsi, maddi hərisliyi, hakimiyyətə can atması qətl və məhvə aparan əsas keyfiyyətlər kimi üzə çıxır. O, öz zövqünü təmin etmək üçün Ralfın yaratdığı nizamdan qoparaq ova diqqət yetirir. Qoldinq Ceki əsasən pis kimi təsəvvür etmək niyyətində deyil, çünki o, Cekin qəzəbli, şiddətli və hərəkətli bir oğlan olduğunu və lider olmaq istədiyini bildirir. Qoldinq hesab edir ki, insanın pis təbiəti yalnız intizam altında olduqda cilovlanır. Müəllif öz romanında bu qəddarlıq ekspozisiyasını, yəqin ki, oxucularına insan şüurunun əsl mahiyyətinin nədən ibarət olduğunu başa düşmək üçün etmişdir. Əsərin II Dünya müharibəsində baş verən hadisələrdən qaçan uşaqlardan bəhs etməsi təsadüfi deyildi. Bu müharibə insan təbiətini korladı. Qoldinq də inanırdı ki, yer kürəsi insanlar tərəfindən parçalanır və yalnız insanlar onun təbiətindən xəbərdar olduqda və onu dəyişdirdikdə xilas ola bilər. Qoldinqin fikrincə, pisliyin ən qorxulu keyfiyyəti insanların çoxunu özünə tərəf çəkə bilməsidir, çünki insanların çoxu həyatın sevinclərinə cəlb olunur. Həmçinin yazıçı pisliyi tez-tez riskli fəaliyyətlərə səbəb olan qorxu ilə əlaqələndirir. Düşünürəm ki, bu fikirlərini Cek obrazı vasitəsilə oxucuya çatdırır. İradəli Cek romanın vəhşilik, zorakılıq və güc istəyi instinktinin, bir sözlə, Ralfın antitezasının əsas nümayəndəsidir. Cekin hakimiyyət və zorakılıq sevgisi bir-biri ilə sıx bağlıdır, çünki hər ikisi ona özünü güclü və yüksək hiss etməyə imkan verir. Cek obrazı sarkazmın ən güclü nümayəndəsidir. Sarkazm-komizm üsullarından biri, fikrin ifadəsi üçün sözün, ifadənin, cümlənin əks mənada işlədilməsidir.

Simon obrazını təhlilinə keçmədən öncə Qoldinqin toxunduğu digər mövzudan bəhs etmək istəyirəm. Qoldinq uşaqları günahsız mələk statusu ilə təsvir edən romantik fikirləri bölüşmür. Onun fikrincə, uşaqlarda böyüklər kimi həm yaxşı, həm də pis xüsusiyyətlər var. Hər iki halda yalnız bir neçəsi sevgi, dostluq, simpatiya və çuxur kimi yaxşı keyfiyyətlərə malikdir. Bu romanda təkcə Simon günahsız adlandırılır. O, başqalarına sevgi, mərhəmət və rəğbətlə doludur. Simon balacalar üçün yetişmiş meyvə gətirir, ətdən öz payını təklif etməkdən imtina etdiyi Piqqiyə təklif edir və güman edilən heyvanın ona yaxın olan oğlanları belə təqib edə bilməyən hansısa xəstə adam ola biləcəyini düşünür. Yalnız Simon vəhşi heyvanın bizim içimizdə ola biləcəyini söyləyərkən şərin həqiqətini hiss edə bilər. Digər oğlanlar vəhşi heyvandan qorxurlar. Həmçinin canavar şəklində olan pisliyin sadəcə bir illüziya olduğu tək Simona göstərilir. Simon digər uşaqlardan fərqli olaraq həmin canavarın insanın öz dərinliyində olduğunu düşünür.

Piqqi Ralfın qəzadan sonra adada qarşılaşdığı ilk oğlandır və "Milçəklərin Tanrısı" boyunca ən həqiqi və sadiq dost olaraq qalır. Kilolu, intellektual və danışıq qabiliyyətinə malik olan Piqqi Ralfın bir çox uğurlu ideyalarının və yeniliklərinin, məsələn, yığıncaq çağırmaq üçün dənizqabığı istifadə etmək və qrup üçün sığınacaq tikmək kimi ideyaların arxasında duran beyindir. Piqqi bəşəriyyətin elmi və rasional tərəfini təmsil edir, Ralfın siqnal atəşlərini dəstəkləyir və adada problemlərin həllinə kömək edir. Bununla belə, Piqqinin astması, çəkisi və zəif görmə qabiliyyəti onu digərlərindən fiziki olaraq aşağı edir, onu nifrət və tənbəlliyə qarşı həssas edir. Piqqi həm də ingilis sivilizasiyasının qaydalarından, yəni böyüklərin vəhşi oğlanları tapanda nə düşünəcəyindən narahat olan yeganə oğlandır. Piqqi

qaydalara, vaxtında və nizama inanır və ada qəddar xaosa doğru enərkən, Piqqinin mövqeyi sıx şiddət təhlükəsi ilə üzləşir.

"Çünki yalnız ağıllı fikir yaxşı nəticə verə bilər" (Qoldinq, 2017: 58).

Qoldinqin romanında uşaqların potensial vəhşiliyi mövzusu ona yeni bir maraq ölçüsü təklif edən və oxucuları psixoloji reallığı həyata doğru qəbul etməyə məcbur edən işarə və niyyət aydınlığını ortaya qoyur.

Nəticə

"Bəşəriyyətin xəstə olduğuna mənim şübhəm yoxdur və bu fikri başımdan çıxara bilmirəm. Ona görə də var gücumlə yazıb aləmə car çəkir, insanlara deyirəm:

"Baxın, baxın, baxın, görün dünyada ən təhlükəli heyvan olan insanın təbiəti necədir".

Bu sözlərin müəllifi də məhz "Milçəklər Tanrısı" əsərinin müəllifi Vilyam Qoldinqdir. Romanda bütün insanlığın canavarlığını oxucuya çatdıran yazıçı, daim bu gerçəkliklə beynində savaşır. Bu fikrinin gerçək olduğunu qəbul edib, 1954-cü ildə kitab nəşr edir.

Adaya düşən bu gənclər iki itki ilə və Ralfın duman, alov deyə daim dilləndirdiyi yol ilə adadan evlərinə qayıdırlar. Cek Ralfı öldürməkdə qərarlı idi, Cek böyük bir canavarlıq etmək qərarındaikən, əslində çox böyük bir qurtuluşa səbəb olur. Bütün adaya yanğın düşür, bununla da həmin adada kimlərinsə olduğunu görüb, onları qurtarmağa gəlirlər. Əsər ilk gündən ümidini itirməyən Ralfı həm ölümdən, həm də adadan qurtararaq sonlanır. Uşaqların ağlaşma səsini oxucu belə duyurdu.

"Ralf dinməzcə zabitə baxdı. Bir anlığa onun gözü qarşısında sahilin ilk vaxtda olan gözəl mənzərələri canlandı. Amma ada quru odun kimi od tutub yanırdı, Simon qətlə yetirilib, Cek isə… Ralf göz yaşlarını saxlaya bilmədi, hönkürtülər onu titrədirdi. Adaya gəldiyi ilk gündən bəri ilk dəfə idi göz yaşlarına sərbəstlik vermişdi, qəhər onu boğur, aramsız hönkürtülər içində qıvrılırdı. Onun səsi yanıb külə dönmüş adanın xarabalıqlarının üstünə çökmüş qara tüstünün altından gəlirdi; ona baxıb o biri uşaqlar da hönkürüb titrəməyə başladılar. Öz çirkli bədəni, pırpız saçları, fırtıqlı burnuyla Ralf da uşaqların arasında dayanıb əvvəlki sadəlövhlüyünə ağlayırdı, insan qəlbinin niyə bu qədər qara olduğuna ağalyırdı, sədaqətli və ağıllı dostu Piqqinin yıxılıb havada necə uçduğunu xatırlayıb ağlayırdı". (Qoldinq, 2017: 163)

Qoldinq bu kitabı nə səbəbə yazdığını bu fikirlə açıqlayır:

"İnsanların bir-birlərinə nələr edə biləcəyini biləndən sonra həyatım boyu dəfələrlə sarsılmışam, az qalıb ağlım başımdan çıxsın. Bəşəriyyətin xəstə olduğuna şübhəm qalmır..Mən o xəstəliyi axtarmışam".

Qaynaqlar

- BİLGİNOĞLU, Elif. (Ekim, 2020). *"William Golding'in 'Sineklerin Tanrısı' İsimli Romanında Liderlik ve Güç Savaşım",* İstanbul: İstanbul Gelişim Üniversitesi Sosyal Bilimler Dergisi.
- DANNİ, Ma. (July, 2015). *"William Golding and Lord of the Flies".* China: School of Foreign Language, Changchun University of Science and Technology.
- ƏLİYEVA, Leyla. (2019). *"Vilyam Qoldinqin Romanlarında Arxetiplər",* Bakı: Dil və ədəbiyyat, IX cild, №3.
- QOLDİNQ, Vilyam. (2017). *"Milçəklər Tanrısı",* Bakı: Qanun.

Abstract

"Lord of the Flies' Humor and Sarcasm" Summary Through humor and sarcasm, William Golding's work "Lord of the Flies" informs the reader that the work is not for children, and that the events in the work will change you even if you are a child. The points conveyed to the reader through sarcasm and humor are analyzed in the article on the subject of the work. The reason why the island's inhabitants, who tried to be democratic at the start of the work, ended up living in an autocratic manner is investigated.This article demonstrates how Golding uses her characters to present various themes and ideas, demonstrating each character's experience and performance to provide readers with a better understanding of their conflict and emotions. It also discusses why the title "The Lord of the Flies" was chosen by the author.

Keywords: sarcasm, power, island, humor, leader, symbolism, change.

MULTIPLE EPIC TECHNIQUES IN "LIGHT IN AUGUST" BY WILLIAM FAULKNER AND "THE FEAST OF THE GOAT" BY MARIO VARGAS LLOSA

Gunel ALIZADA
Khazar University, bachelors
Supervisor: : fil.ü.f.d. Ulvi BABASOY

Abstract

In this article we are going to talk about the multiple epic techniques in "Light in August" and "The Feast of the Goat", but before that i wonder you know that what is multiple epic technique. New methods and means were needed to prevent technological inventions, charm in Hollywood films, and youth passion in rock music from defeating literature in that period.

Key words: multiple epic, techniques, William Faulkner, *Mario Vargas*

Introduction

Novels and theoretic approaches of Umberto Eco, Italo Calvino, John Fowles, Carlos Fuentes, Mario Vargas Llosa, and Milan Kundera regulated a new polyphony of esthetic ideals and literary statements (Babasoy, 2018: 217). For this reason multiple writing technique was appeared in literature. It is a kind of writing technique that you are witness to read a strory by different people, such as author, characters in works and it gives you opportunity to read one event by different people, it means you come across various ideas around the same matter. Both of these works are exactly example for explaining how these authors experience it in their works. While reading two of these books you will get mixed, cause different opportunities lead to baffle and it is tactic that will make readers focus on work. Morever you will find out symphaethic sides of characters, because they have their own feelings and pointviews and they look the matter at the hand from their point. Mario Vargas Llosa and William Faulkner are one of the greatest writers in the world and their works are differed with their own specificiality. William Faulkner was born in 1897, he grew up in Oxford, Missisipi. He joined the Canadian, and later the British, Royal Air Force during the First World War, studied for a while at the University of Missipi, and temporarily worked for a New York bookstore and New Orleans newspaper. During his all life he did not stop his writing activity and he is the autor of many works. One of them is "Light in August" (1932) that i am going to talk about, prejudice is shown to be most destructive when it is internalized, as in Joe Christmas, who believes, though there is no proof of it, that one of his parents was a Negro (URL-1). Mario Vargas Llosa was born in 1936 in Arequipa, Peru. As Faulkner he has numerous works such as "The Escape of the İnca", "Composition Books", "The Bad Girl", "The City and thd Dogs", "The Feast of the Goat" (URL-2). The last one is the masterpiece of Latin American and world literature, and one of the finest political novels ever written, Mario Vargas Llosa recounts the end of a regime and the birth of a terrible democracy, giving voice to the historical Trujillo and the victims, both innocent and complict, drawn into his deadly orbit (URL-3). Key words: despotism, nigga, Llosa, Faulkner, goat Let's look at some writing teacnique examples from the works: "The Feast of the Goat" 1. He isn't coming," Salvador exclaimed suddenly. "Another night wasted, you'll see." "He'll come," Amadito immediately replied, with some impatience. "He put on his olive-green uniform. The adjutants were

ordered to have the blue Chevrolet ready for him. Why won't you believe me? He'll come." (Llosa, 2001: 28)

The next time I fire that, it will be to kill Trujillo, Turk," he said. "You and Tony Imbert can count on me for anything. You don't have to change the subject anymore when I come to the house." "Heads up, heads up, this one's coming straight toward us," said Antonio de la Maza, raising the sawed-off barrel to the window, ready to fire. Amadito and Estrella Sadhalá gripped their weapons too. Antonio Imbert started the engine. But the car coming down the Malecón toward them, moving slowly, on the lookout, wasn't the Chevrolet but a small Volkswagen. Using its brakes, until the driver saw them. Then it made a U-turn and drove to where they were parked. It stopped beside them, its headlights off (Llosa, 2001: 43-44).

2. "Too bad you can't speak," she repeats, returning to the present. "We'd try to understand it, together. What made Don Froilán maintain a slavish loyalty to Trujillo? He was loyal to the end, like you. He didn't take part in the conspiracy, and neither did you. He went on licking the hand of the Chief who boasted in Barahona that he had fucked his wife. The Chief who kept him traveling through South America as Chancellor of the Republic, visiting governments from Buenos Aires to Caracas, from Caracas to Rio or Brasília, from Brasília to Montevideo, from Montevideo to Caracas, just so he could go on fucking our beautiful neighbor in peace." "How was it possible, Papa? How could a man like Froilán Arala, cultured, educated, intelligent, accept that? What did he do to all of you? What did he give you that turned Don Froilán, Chirinos, Manuel Alfonso, you, all his right- and left-hand men, into filthy rags?" (Llosa, 2001: 52).

3. Trujillo pointed at the report on his desk with a contemptuous air: "Another conspiracy to kill me led by Juan Tomás Díaz? And organized by Consul Henry Dearborn, the asshole from the CIA?" (Llosa, 2001: 62).

You see the same situation has been told by different characters (dozen avengers, Trujillo and Urania). While they talking you knew how they feel. For example avengers only want to kill him and they are excited to face him and kill, they also remember Trunillo's dishonours and it

make them trigger to take a revenge with him and they succeed. Trujillo is under the danger and as always he hears the next conspiracy and he thinks he is right not to forget people' treason. Urania is upset, because she is a person who has been victim by Trujillo. In this work Urania is presented present time. Because she is witness all about that happend, by talking she rememebered all the Trujillo era and after that all events opens like a matrushka, there is event emerges from the event. Lets look at other example from the " Light in August":

"Light in August" 1. She just repeated stubbornly, "He's going to send for me. He said he would send for me"; (Faulkner, 1972: 6). "Like as not, he already sent me the word and it got lost on the way. It's a right far piece from here to Alabama even, and I ain't to Jefferson yet. I told him I would not expect him to write, being as he ain't any hand for letters. 'You just send me your mouthword when you are ready for me,' I told him. 'I'll be waiting.' (Faulkner, 1972: 11).

2. "No. In a old nigger cabin in the back. Christmas fixed it up three years ago. He's been living in it ever since, with folks wondering where he slept at night. Then when him and Brown set up together, he took Brown in with him." (Faulkner, 1972: 34).

3. "Get on back to town," he said. "I'll be there soon as I ..." Apparently he was not aware of what he was saying nor of what was happening; when the woman turned suddenly in the

door of the car and began to beat him in the face he did not move, his voice did not change: “Yes. That’s right. I’ll be there soon as I-” Then he turned and ran, while she was still striking at him (Faulkner, 1972: 85). As you see you read the same thing from the 3 different characters (Lina, Byron and Joe Christmas). Joe Chrishtmas because of commiting crime left his land and he promissed Lina that “i leave here and go to Jefferson, you will find me there”. Due to this reason she comes to Jefferson and everywhere she came all the time repeat what Joe said and Byron informed Lina as well. Example of multiple epic techniques based on two of these works i can say like a reader that when i start reading these books i got confused a little bit, beacuse here consept of time is mixed. I think Lina and Urania represent present time and after that all events start to continue and all events stimulate the other events and readers get baffled, they try to understand situation which they fell down. For making you get obviously i will give some examples. For instant in “The Catcher in the Rye” (J.D.Salinger) you will observe that only Holden talk about the conditions, author sometimes gives explanation to the events and it does not make readers confused, in “Fahrenheit 451” (Ray Bradbury) structure is the same as “The Catcher in the Rye” as well, but when works has been written in multiple epic techniques you are in the centre and you hear various voice. It seems like a daily conversation which you talk.

There is a matter and your acquaintances, friends make an effort to deliver events to you and even in this situation you do not know which of them is true because they have their own qualities and they speak what they think and what they see from the condition. Ulvi Babasoy emphasizes difference in Llosa’s and Faulkner’s writing techniques: “Mario Vargas Llosa describes the identity and orign of dictatorship in his novel “The Feast of the Goat”. The same events are narrated from the tongue and point of view of different people. The reader who complains about the sameness and boringness of events in every chapter of the novel is wrong because that event is complete with a different interpretation and description. Each time a new aesthetic profile is created. Of course, Llosa benefited from Faulkner’s unique methods of investigation. Writing techniques, stylistic depth, giving different aesthetic shades to the same events and characters in the novels “Noise and Anger”, “Absalom, Absalom”, “Light in August” are also available in Llosa’s style is merciless, brutal. Phonetic structure, lexical composition and syntactic dynamics are completely different from Faulkner. The sentences are sensual and bare (URL-4). Based on Ulvi Babasoy’s ideas i can say that i see eye to eye with him. While reading “The Feast of the Goat” Llosa does not scare of anything and describes them openly. In Trujillo’s era he suffers all people unders his control and punish them with unbelieveable ways and Llosa also make readers pay attention his bad qualtiy, he is womannizer and sleep with Urania, many young girl and also married woman which their husbands work with Trujillo:

1. “And your daughter was so naive she didn’t even wonder what the Father of the Nation was doing there when Don Froilán wasn’t home.” Her father, calm now, listens, or seems to listen, not taking his eyes off her. “So naive that when you came home from Congress, I ran to tell you about it. I saw the President, Papa! He came to visit Don Froilán’s wife, Papa! What a look you had on your face!” (Llosa, 2001: 49) 2. “Do you know what the Chief’s biographers say, Papa? That he became like that when he found out his mother wasn’t married to Trujillo when he was born. They say he began to suffer from depression when he learned that his real father was Dr. Dominici, or the Cuban Trujillo had killed, Doña María Martínez’s first lover, back when she never dreamed she’d be the Bountiful First Lady and was just another fast-living party girl they called Españolita. You’re laughing? I don’t believe it!”

(Llosa, 2001: 90-91) 3. “The worst thing that can happen to a Dominican is to be intelligent or competent,” he had once heard Agustín Cabral say (“A very intelligent and competent Dominican,” he told himself) and the words had been etched in his mind: “Because sooner or later Trujillo will call upon him to serve the regime, or his person, and when he calls, one is not permitted to say no.” (Llosa, 2001: 131) 4. “Go on and screech, you little bitch, see if you learn your lesson,” the wounding, offended voice of His Excellency spat at her. “Now open up. Let me see if it’s really broken or if you’re faking it.” (Llosa, 2001: 353).

When it comes to talk about Faulkner books It is so hard to even talk about the some of his books because it just seems like books that are carried with through sheer force of their

characters, there are issues of race, class and gender. Even when Faulkner’s works get dull or slow or takes some kind of weird side road that i was not expecting or i do not know what is going to happen i feel like i guess this is the advantage of writing really long sentences you just want to get the end of the freaking thought at to the end of the sentences you must want to get to the end of the point. (URL-5). When she was twelve years old her father and mother died in the same summer, in a log house of three rooms and a hall, without screens, in a room lighted by a bugswirled kerosene lamp, the naked floor worn smooth as old silver by naked feet (Faulkner, 1972: 5). Truly we come across sentences with complicated structure in Llosa’s books. It makes readers dull and they are impatient to read the story till end: As far as she could remember, after she left Santo Domingo (or Ciudad Trujillo- when she left they had not yet restored the old name to the capital city), no one in Adrian, or Boston, or Washington, D.C., or New York had called her Urania as they did at home and at the Santo Domingo Academy, where the sisters and her classmates pronounced with absolute correctness the ridiculous name inflicted on her at birth. Was it his idea or hers? (Llosa, 2001: 8). From examples it makes readers clear that Llosa uses sentences with complicated structure in his works than Faulkner and it confirms Ulvi Babasoy’s idea “All writers are like a continuation, a missing part of each other” (URL-4). Indeed as if Llosa completes Faulkner. If you see complited structure in Faulkner, Llosa does more than him. Faulkner tries to show all trurth obviously, but Llosa is determined to show everything more obviously than Faulkner. In his “The Feast of the Goat” he called Trujillo “goat” that is proof which confirms Llosa does not scare anyone. Urania is Llosa’ prototype. One day Llosa tries to announce people atrocities, despotism, Trujillo, a womanizer with gental disease, but his acquaintances prevented him and offered him that did not care it, bu he does not stop and show all crimes has been commited by Trujillo with Urania’ tongue. I want you to observe “Light in August” is set in Faulkne’s present day, the late 1920s. The setting is improtant because Faulkner explores the stories of characters who are outcasts from Southern society based on their race, gender and religion. Joe Christmas, the main character of this story is sometimes seen as black, sometimes as white. However, this ambiguity means that there is not a fixed place for him in society. The novel also explores the legacy of racism and slavery, with many examples of racially motivated violence and the ostracization of white people whom others regard as having inappropriate relationships with Black people, such as Joanna Burden (URL-6) and you can hear them from Joanna Burden’s tongue: She told Christmas about the graves- the brother’s, the grandfather’s, the father’s and his two wives—on a cedar knoll in the pasture a half mile from the house; listening quietly, Christmas thought. ‘Ah. She’ll take me to see them. I will have to go.’ But she did not. She never mentioned the graves to him again after that night when she told him where they were and that he could go and see them for himself if he wished. “You probably can’t find them, anyway,” she said. “Because when they brought

grandfather and Calvin home that evening, father waited until after dark and buried them and hid the graves, levelled the mounds and put brush and things over them" (William, 1972: 102).

She did not answer for a time. The fireflies drifted; somewhere a dog barked, mellow, sad, faraway. "I thought about that," she said. "It was all over then. The killing in uniform and with flags, and the killing without uniforms and flags. And none of it doing or did any good. None of it. And we were foreigners, strangers, that thought, differently from the people whose country we had come into without being asked or wanted. And he was French, half of him. Enough French to respect anybody's love for the land where he and his people were born and to understand that a man would have to act as the land where he was born had trained him to act. I think that was it." (William, 1972: 104). Unlike Orkhan Pamuk the main tool of Llosa'work is history. In Orkhan Pamuk's "White Castle" Orkhan Pamuk used history as an esthetic decoration. The aim was not to mention the historical events. The aim is to write a text to enable everyone to see daily events and himself or herself. (Babasoy, 2018: 226), But Llosa talks about all events based on history, his main object is to show people histoeical facts. William Faulkner i as the same as Orkhan Pamuk. As everyone knows in America Civil War had taken place before, it was the war between black and white people. All white people hates black people and scare of them. Faulkner by using this historical fact make readers pay attention events that happend to Joe Christmas. The way William Faulkner and Mario Vargas Llosa describe characters is also interesting: Urania. Her parents had done her no favor (Llosa, 2001: 8) SITTING beside the road, watching the wagon mount the hill toward her, Lena thinks, 'I have comefrom Alabama: a fur piece. (William, 1972: 5). But it was be cause she believed that the people who saw her and whom she passed on foot would believe that she lived in the town too (William, 1972: 5). From the description of the characters readers try to know each of the characters because of fascinating introduction.

Conclusion

In conclusion it would be better to show the structure of both of these books. In every 2 works events are told by a couple of people. In "The Feast of the Goat" Urania, Trujillo, dozen avengers and in "Light in August" Lena, Joe Christmas, Joe Brown, Byron narrated events with their own tongue. Both are based on historical facts, but in "The Feast of the Goat" historical facts are the main object of the work and Llosa conveys the events to the reader in all their nakedness. William Faulkner utilizes historical facts as a tool to narrate his main ideas. This kind of works which have been written in multiple epic form have complicated structure and readers cannot focus on only one character. If tell the truth that makes bored readers baffled and bored, because structure of that kind of works are heavy and more times readers read the same events by various characters, but it gives opportunity to readers to look at events from other characters point view. Novels that make readers baffled every time leads to lose temper to read the story to the end or reader does not understand what authors wants to say. For instance, it would great to compare both works with the structure of Gogol's "Шинель" (Shinel). Author of interesting works, Gogol in this work although shortage of

capacity he has created unbelievable situation that when readers start to read, he tricks readers to understand the situation. First of all readers think that Akaki Akakievich is a pitiful person, but he is dishonorable enough to take advantage of the tailor's drunkenness and try to make his overcoat cheap. Also, when he died and his ghost started to take a revenge with his

enemies readers thinks that it was his ghost, but a careful reader get this condition when author describes appearance of the ghost. Let's back matter at hand: in "Light in August" there is a situation like that and readers sometimes get puzzled and lose themselves in the center of the story. It is the situation that readers get confused who is the husband of Lena: Joe Christmas or Joe Brown, but again if readers focus on story completely, they will be able to notice that and as the other readers I agree that to read attentively these works request patient because reader hear the same event from the characters that have various thoughts.

References: 1. WILLIAM, Faulkner (1972). "Light in August", Vintage books edition, ISBN: 0-394-71189-0 2. MARIO VARGAS, Llosa (2001). "The Feast of the Goat", Library of Congress Catalogingin-Publication Data, ISBN: 978-0-312-42027-7 3. BABASOY, Ülvi (2018). "A Funny And Postmodern Narrative In A Strangeness In My Mind And The White Castle By Orkhan Pamuk", International Peer-Reviewed Journal of Communication And Humanities Research, ORCİD ID: 0000-0001-8250-7830 4. JULIO H, Cole (2011). "Mario Vargas Llosa: An intellectual Journey", The Independent Review 5. JUAN E, De Castro (2010). " Mario Vargas Llosa Versus Barbarism", In Latin America Research Review

Sources

URL-1. The Nobel Foundation (2023). "William Faulkner. Biographical". https://www.nobelprize.org/prizes/literature/1949/faulkner/biographical/

URL-2. The editors of Encyclopaedia Britannica (2023). "Mario Vargas Llosa. Peruvian author". https://www.britannica.com/topic/Nobel-Prize/The-prizes

URL-3. Macmillan (2023). "The Feast of the Goat. A Novel". https://us.macmillan.com/books/9780312420277/thefeastofthegoat

URL-4. Babasoy Ülvi (2019). "Əxlaqsız gözəllik". https://edebiyyatqazeti.az/news/incesenet/4481exlaqsiz-gozellik

URL-5. Bonney Lake (2021). "Where To Start With William Faulkner". https://www.youtube.com/watch?v=S7XHTq9GwtQ

URL-6. Study Smarter. " Light in August". https://www.studysmarter.co.uk/explanations/englishliterature/american-literature/light-in-august/

Abstract

In this article we are going to talk about the multiple epic techniques in "Light in August" and "The Feast of the Goat", but before that I wonder if you know what is multiple epic technique. New methods and means were needed to prevent technological inventions, charm in Hollywood films, and youth passion in rock music from defeating literature in that period.

Key words: multiple epic, techniques, William Faulkner, Mario Vargas

“TİFLİS ƏYALƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ”NDƏ İŞLƏNƏN TOPONİMLƏRİN KONSEPTUAL BAXIMDAN TƏHLİLİ

Könül HƏSƏNOVA
AMEA, Nəsimi adına Dilçilik İnstitutu

Özət

Məqalədə “Tiflis əyalətinin müfəssəl dəftəri”ndə istifadə olunan topnimlər konseptual baxımdan təhlil edilmişdir. İnsanın yaddaşında saxlanılan və dil birliyinin yaddaşında sabitləşən obyektin həssas obrazı ilə formalaşan bu anlayış toponimlərin formalaşmasında mühüm rola malikdir. “Tiflis əyalətinin müfəssəl dəftəri”ndə işlənən yer adlarında əksini tapan konseptual anlayışlardan rəng, forma, ölçü, istiqamət kimi məfhumları ifadə edən leksemlər linqvistik və statistik baxımdan təhlil edilmişdir. Məqalədə bir bölgədə toponimlərin inkişafını əks etdirən konseptual təbəqələr və ya seqmentlər dildəki müəyyən anlayış və onun digər anlayışlarla əlaqəsi baxımından araşdırılmışdır. “Tiflis əyalətinin müfəssəl dəftəri”ndə öz əksini tapan toponimlərin strukturunda konseptual əlamətlərin əks olunması ilə bağlı mövcud layların kəmiyyət baxımından təhlilinin nəticələrinə əsasən, iri (10%), kiçik (12%), aşağı (5%).), üst (6%), qara (21%), sarı (5%), yay (5%), boz (3%), qazan (2%), molla (8%), qızıl (4%), əmir (6%), dəmir (3%), daş (5%), dəli (2%), uzun (2%) leksemlərinin toponimlərin tərkibində işləkliyi müəyyən olunmuşdur. Göründüyü kimi, rənginə, istiqamətinə və ölçüsünə görə qruplaşdırılan toponimlər işləkliyinə görə digərlərindən üstündür.

Açar sözlər: Tiflis əyalətinin müfəssəl dəftəri, toponimlər, konsept, linqvostatistika, linqvistik təhlil.

Giriş

Dil və mədəniyyətin qarşılıqlı əlaqəsi şüurda həyata keçirilir, ona görə də dilçilikdə mədəni konsept dil vasitələri ilə maddiləşən şüurun əsas vahididir. Mədəni anlayışın çoxölçülü psixi formalaşma olduğu praktiki olaraq qəbul edilir. Dildəki məfhumlar toplusu konseptosferanı meydana gətirir. Konseptosfera “fərdi insanın lüğətində, eləcə də bütövlükdə bütün dildə aşkar edilmiş potensialın məcmusu” kimi başa düşülür. Dünyanın linqvistik mənzərəsi insanın dünyaya, dünyanın bir elementi kimi özünə münasibətinin tipini formalaşdırır, dünyada insanın davranış normalarını təyin edir, dünyaya münasibətini müəyyənləşdirir. Məhz bütün konseptual xüsusiyyətə səpələnmiş və bu prosesdə linqvistik və assosiativ sahələrin manipulyasiyası ilə anlayışların formalaşması ilə əlaqəli olan, konseptual sistemin linqvistik formalarını və məzmununu zənginləşdirən, bu dildə danışan tərəfindən dünya haqqında bilik kimi istifadə olunan məlumatdır.

Konseptual baxımdan yanaşdıqda toponimlərin bir qrupunun məzmun planında perseptual «qat» qabarıq şəkildə özünü göstərir. O, insanın yaddaşında saxlanılan və dil birliyinin yaddaşında sabitləşən obyektin həssas obrazı ilə formalaşır. Məlumdur ki, insan dünya haqqında biliklərin əhəmiyyətli bir hissəsini vizual kanal vasitəsilə alır. Bununla belə, ətraf aləmin dərk olunması və mənimsənilməsində eşitmə və toxunma da kifayət qədər əhəmiyyətli rola malikdir. A. A. Potebnyanın da qeyd edirdi ki, “görmə və toxunma ona eyni anda iki və ya daha çox təəssürat ötürməsəydi, insan, əlbəttə ki, kosmos haqqında təsəvvürlərə malik olmazdı [Потебня, 2007: 66]. Toponimlərin formalaşmasında əhəmiyyətli çəkiyə malik

amillərdən yer adlarında əks olunan rəng, forma, ölçü, istiqamət kimi əlamətləri qeyd etmək olar.



Diaqramda "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə əksini tapan toponimlərin strukturunda konseptual əlamətlərin əks olunması ilə bağlı müxtəlif təbəqələrin mövcudluğu müşahidə olunur. Bu müxtəlifliyin kəmiyyət baxımından çəkisini müəyyən etmək üçün aşağıdakı diaqrama diqqət yetirək: böyük (10%), kiçik (12%), aşağı (5%), yuxarı (6%), qara (21%), sarı (5%), bulaq (5%), boz (3%), qazan (2%), molla (8%), qızıl (4%), əmir (6%), dəmir (3%), daş (5%), dəli (2%), uzun (2%).

Göründüyü kimi, rəng, istiqamət və ölçü ilə bağlı qruplaşdırılmış toponimlər say baxımından digərlərini üstələyir.

Konsept sferasının semantik fraqmentləri müəyyən mütəşəkkil anlayışlar sistemindən ibarət olur. İnteqrasiya dərəcəsinə görə superkonseptlər, makrokonseptlər, əsas anlayışlar və mikrokonseptlər fərqləndirilir.

Konseptual sahə dünya mənzərəsinin linqvistik vahidlərində sabitlənmiş substantiv kateqoriyadır. Dilə koqnitiv yanaşma dil faktlarının idrak sisteminin təşkili ilə bağlı təhlilini nəzərdə tutur. Dil faktı koqnitiv modelin qurulmasında psixi, psixoloji, mədəni cəhətdən şərtlənmiş fenomen kimi şərh olunur. Bu baxımdan məkanı təmsil edən leksik vahidlərin təsviri bu konsepti ifadə edən vahidlərlə həyata keçirilir. Konsept dedikdə obyekt haqqında bütün biliklər məcmusunu özündə birləşdirən və leksik olaraq ifadə edilən konseptual, obrazlı, dəyər komponentləri daxil olmaqla, çoxölçülü psixi, milli spesifik formanı başa düşürük. Koqnitiv dilçiliyin əsas anlayışlarından biri olan "konseptual sahə" anlayışının dəqiq tərifi yoxdur, lakin "sahə" anlayışı dil vahidlərini bir sistemdə birləşdirən müəyyən struktur kəmiyyətin mövcudluğu ideyasını kifayət qədər uğurla təcəssüm etdirir. Dil sisteminin sahə modeli periferik zonaları ilə bir-birinə keçən və çoxsəviyyəli xarakter daşıyan davamlı sahələr toplusu kimi təmsil olunur. Konseptual sahənin strukturu və məzmunu konkret tədqiqatın məqsədlərindən asılı olaraq dəyişir. Sahə yanaşması təcrid olunmuş rejimdə fəaliyyət göstərməyən anlayışların hərtərəfli təsvirinə imkan verir. Onlar bir-biri ilə müxtəlif münasibətlərə girir, konseptual sahələr təşkil edir, xüsusi bir şəkildə təşkil olunur. Müasir

dilşünaslıqda müasir cəmiyyət üçün aktual olan anlayışların öyrənilməsi problemlərinə böyük maraq var. Anlayışları şifahiləşdirən leksik vasitələrin sistemləşdirilməsinin və təsvirinin, habelə onların ana dilində danışanların linqvistik şüurunda semantik potensialının öyrənilməsinin səmərəli üsullarından biri onların məzmun planı ilə formalaşan sahə şəklində təmsil olunmasıdır.

Konsept "dünyanın dərk edilməsi prosesini, insan fəaliyyətinin nəticələrini, onun dünyanı tanımaq təcrübəsini, bu haqda məlumatı saxlamaq təcrübəsini əks etdirən çoxölçülü psixi konstruksiyadır" [Krasavski, 2001: 40-59]. Kholodnaya konsepti "təşkilati xüsusiyyətləri reallığı müxtəlif keyfiyyət aspektlərinin vəhdətində əks etdirmə imkanını təmin edən idrak psixi strukturu" kimi şərh edir.

E.S. Kubryakova hesab edir ki, "anlayışlar şüur vahidləri və insan təcrübəsini əks etdirən informasiya strukturudur. O zənn edir ki, konseptə həmçinin "işləyən yaddaş vahidi, dünyanın bütün mənzərəsi, bilik kvantı" daxildir [Kubryakova, 1996: 90].

Toponimik anlayışın strukturunda perseptual qatla yanaşı, affektiv təbəqə də özünəməxsus yer tutur. Bu təbəqənin olması, insanın reallıq obyektləri ilə əlaqədar müəyyən duyğuları yaşaya bilməsi və bəlkə də öz hisslərini yönəldildiyi obyektlərdən bu obyektlərin yerləşdiyi obyektlərə köçürə bilməsi ilə əlaqədardır. "Tiflis əyalətinin müfəssəl dəftəri"ində yer alan toponimlərin affektiv baxımdan konseptual təhlilində "böyük" və "kiçik" elementlərini fərqləndirmək mümkündür (Mustafayev, 2001).

Xüsusilə fərqləndirmək istədiyimiz digər təbəqə isə lokal laydır. Linqvistik materialın təhlilindən belə nəticə çıxır ki, bu, toponimik anlayışın strukturunda verilmiş obyektin digər oxşar obyektə və ya eyni vaxtda bir neçə obyektə münasibətdə coğrafi yerinin göstəricisi lokal konsept vasitəsilə ifadə olunur. Lokal təbəqədə əsas xüsusiyyət obyektin başqalarından uzaqlığıdır. "Tiflis əyalətinin müfəssəl dəftəri"ində yer alan toponimlərin lokal konsept baxımından təhlili əsasən "yuxarı" və "aşağı" leksemlərinin əlavəsi ilə yaranmış toponimlərdə əks olunur: Aşağı Almalı, Aşağı Bolnus, Aşağı Qazankənd, Aşağı Qaradərzi, Aşağı Əndiqə, Aşağı Zirək, Aşağı Sağundar, Yuxarı Almalıq, Yuxarı Bərnik, Yuxarı Qaznkənd, Yuxarı Qaradərzi, Yuxarı Qışlaq, Yuxarı Mağara, Yuxarı Sağundar, Yuxarı Həkarçal...

Çox komponentli mürəkkəb hadisə olan konsept qeyri-müəyyən komponentlərlə yanaşı, bir sıra məcburi xüsusiyyətlərə də malikdir: konseptin əhatə dairəsini təşkil edən insan şüuru konseptual sistemin elementidir, milli-mədəni xüsusiyyətə malikdir və ayrılıqda mövcud deyil. Konsept – linqvistik vasitələrlə obyektləşdirilmiş, kifayət qədər mürəkkəb və çoxsəviyyəli quruluşa malikdir. İnsanın yaşaması və varlığının ən mühüm şərtlərindən biri olan məkan və zaman insanın fiziki və mənəvi varlığının mahiyyətcə kosmik hadisələrlə müəyyən edilmiş iki əsas xüsusiyyətidir. Məkan dildə əks olunan mədəniyyət kateqoriyasıdır. Məkanla bağlı leksemlər linqvokulturologiyada fəal şəkildə nəzərdən keçirilir, alimlər linqvokulturoloji tədqiqatın əsas məqsədinin dilin mədəniyyət fenomeni kimi öyrənilməsi olduğunu qeyd edirlər. Bu leksemlər milli dil prizmasından dünyaya müəyyən baxışı əks etdirir. İnsan bədəninin özünü təşkili insan şüurunda "ön" və "arxa", "sağ" və "sol" şəklində ilkin psixofizik kateqoriyalarının mövcudluğunu nəzərdə tutur və yerin cazibə qüvvəsinin mövcudluğu "yuxarı" və "aşağı" olmaqla iki fərqli istiqaməti nəzərə almağı zəruri edir. Bu xüsusiyyətlərin mövcudluğuna görə insan bədəninin ətrafındakı bütün üfüqi məkan dörd hissəyə bölünməyə başlayır. Ön tərəfdə yerləşəni insan görə bilir, buna görə də o, ən məskunlaşmış, təhlükəsiz məkan hesab olunur. "Arxa" tərəf təhlükəli, qeyri-müəyyən məkan sahəsi kimi çıxış edir.

Digər qrup toponimlərin tərkibində “böyük” və “kiçik” leksemlərinin işlənməsi diqqəti cəlb edir: Böyük Ayyaran, Böyük Bəxtiyor, Böyük Dəvəgiran, Böyük Dərbaş, Böyük Dərnə (Merzə), Böyük Zirək, Böyük Kuryan, Böyük Kallik, Böyük Xoçatürk, Böyük Ceyran, Böyük Çunçuf, Böyüktürk, Ağzıböyük, 1. Kiçik Ayyaran, Kiçik Bəxtiya, Kiçik Boğazkilsə, Kiçik Qurumsu, Kiçik Danagiran, Kiçik Darbas, Kiçik Dəhnə (məsra’a), Kiçik Əndiqə, Kiçik Kosalar, Kiçik Kürin, Kiçik Təkərçı, Kiçik Xoçatürk, Kiçik Heydərli, Kiçik hücrə, Kiçik Çeyran, Kiçik Cüncüfə...



Beləliklə, konseptual sahənin sistemli şəkildə təşkil edildiyini və ayrıca, strukturlaşdırılmış bir fraqmenti təmsil etdiyini iddia etmək olar. Konseptual sahə konseptin inkişafını və onun digər anlayışlarla əlaqəsini əks etdirən konseptual təbəqələrdən və ya seqmentlərdən ibarət ola bilər.

Konseptual sahənin tədqiqi struktur dilçilikdən fərqli olaraq diqqəti obyektdən dilin subyektinə yönəldən, dildə insan faktorunu daha dərindən müəyyən etmək üçün insanın təfəkkürü, psixikası və praktikası ilə dili əlaqələndirən insan mərkəzçiliyi paradiqması çərçivəsində araşdırmalara yönəlir. “Tiflis əyalətinin müfəssəl dəftəri”ndə işlənən toponimlərin konseptual baxımdan təhlilindən də göründüyü kimi, bu tipli məsələlərdə əsas problem dil, şəxsiyyət və mədəniyyət münasibətləri çərçivəsində öz həllini tapır.

Qaynaqlar

- MUSTAFAYEV, Ş. (2001). *Tiflis əyalətinin müfəssəl dəftəri (Qazax və Borçalı. 1728-ci il)*. Bakı: Pedaqogika.
- ПОТЕБНЯ, А.А. «Мысль и язык». Москва : Лабиринт, 2007.
- КРАСАВСКИЙ, Н. А. Эмоциональные концепты в немецкой и русской лингвокультурах. Волгоград : Перемена, 2001.
- КУБРЯКОВА, Е.С. Краткий словарь когнитивных терминов. М.: Филол. Фак. МГУ, 1996.

Abstract

In the article, the topnims used in the “Comprehensive notebook of Tbilisi province” are analyzed from a conceptual point of view. The concept formed as a sensitive image of an object stored in a person’s memory and stabilized in the memory of a language community is one of the important factors in the formation of toponyms. Among the concepts reflected in the place names used in the “Detailed Notebook of Tbilisi Governorate”, concepts such as color, shape, size, direction were analyzed from a linguistic and statistical point of view, and conceptual layers or segments reflecting the development of a certain concept in the language and its relationship with other concepts were discussed. According to the results of the quantitative analysis of existing layers related to the reflection of conceptual signs in the structure of toponyms reflected in the “Detailed notebook of Tbilisi province”, large (10%), small (12%), low (5%), upper (6%), black (21%), yellow (5%), spring (5%), gray (3%), pot (2%), molla (8%), gold (4%), amir (6%), iron (3 %), stone (5%), crazy (2%), long (2%). As it can be seen, toponyms grouped by color, direction and size outnumber others.

Keywords: Detailed notebook of the Tbilisi province, toponyms, concept, linguistic statistics, linguistic analysis.

İMPLEKATUR VƏ MƏNA

Layə MUSTAFAYEVA
Azərbaycan Dillər Universiteti
Elmi rəhbər: fil.e.d.,dos. Leyla Cəfərova

Özət

Məqalə praqmatikada mühüm rol oynayan terminlərdən *implekatur və mənanın* öyrənilməsi haqqındadır.

Ənənəvi dilçilikdə sözün və cümlənin mənalarının açılmasında onlardan əvvəl gələn söz və ya cümləyə bağlılıqlarının öyrənilməsi, onların real həyatla, yaxud ətraf aləmlə əlaqələrinin araşdırılması vacib hesab olunur. Kontekst daxilində, yaxud situasiyada sözün, söyləmin, cümlənin mənalarının açılmasında rolu olan vahidlərdən biri də *implekatur*du.

Məqalədə implekatur haqqında, onun mənşəyi barədə məlumat verilir. Xüsusilə implekaturun növləri açıqlanır. Tədqiqatçı nümunələrdən istifadə edərək implekaturun növləri arasındakı fərqləri aydın şəkildə izah edir.

Məqalədə həm yerli, həm də xarici dilçilərin qeyd edilən mövzu ilə bağlı fikirləri təhlil olunur və onlara münasibət bildirilir.

Praqmatikada implekatur danışanın deyimlə (danışıqla) təklif etdiyi və ya nəzərdə tutduğu məfhumdur.

Danışıqda implekaturun işlədilməsi ünsiyyət qurmaq istədiyimiz zaman hər şeyi açıq şəkildə söyləməkdən daha səmərəli bir ünsiyyət vasitəsi təklif edir.

İmplekaturun iki növü var:

1) conversational implicature (danışıq implekaturu);

2) conventional implicature (şərti implekatur) (Huang, 2014: 27).

Məlumat üçün bildirək ki, F.Veysəlli danışıq implekaturunu Azərbaycan dilində "mükamilə" kimi işlədir, lakin biz bu məqaləmizdə *conversational* termini üçün *danışıq* işlədəcəyik.

İmplekatur konsepti (həm danışıq, həm də şərti) britaniyalı filosof H.P.Qraysın adı ilə bağlıdır. Lakin terminin əsas müddəalarını U.Ceyms irəli sürmüşdür.

Qeyd edək ki, F.Veysəlli yazır ki, implekatur termini əslində intensiyaya əsaslanan semantika nəzəriyyəsidir (Veysəlli, 2010: 55). Onun fikrinə görə, implekatur söhbət zamanı anlamanı, qarşılıqlı anlaşmanı asanlaşdırmaq üçün işlədilən nəticədir, yəni danışıq zamanı dinləyənin seçdiyi mənadır.

Açar sözlər: praqmatika, məna, implekatur, danışıq, şərt, semantika

Giriş

İlk əvvəl qeyd edək ki, məna və kommunikasiya praqmatikada və o cümlədən implekaturun mənasının açılmasında mühüm rol oynayır. Həm məna, həm də kommunikasiya ilə bağlı iki nəzəriyyə mövcuddur. Onlardan biri a) *a theory of non-natural meaning or meaning (qeyri-təbii məna nəzəriyyəsi və yaxud məna nəzəriyyəsi)*; digəri isə b) *a theory of conversational meaning (danışıq mənası nəzəriyyəsi)* kimi adlandırılır (Huang, 2014: 28).

Birinci nəzəriyyədə, yəni məna nəzəriyyəsində H.P.Qrays xarici aləmdə təbii məna və ya məna ilə danışığın qeyri-təbii mənası, yaxud linqvistik mənası arasında olan konseptual

əlaqəni tədqiq edir və danışanın məqsədindən asılı olaraq hər iki anlamda mənanın reduktiv təhlilini araşdırır (Grice, 1957: 378).

Giriş

Danışıq implekaturları bir neçə xüsusiyyəti özündə ehtiva edə bilir. Belə iddia var ki, bəzi hallarda danışıq implekaturları müəyyən linqvistik, yaxud qeyri-linqvistik kontekstlərdə müşahidə olunmaya bilər. M.Veyner bunu belə yazır: "Danışıq implekaturları sadəcə olaraq müəyyən kontekstlərdə ləğv oluna, yaxud onların qarşısı alına bilər. Bəs onlar hansı halda ləğv edilə bilər?" O, bunun üçün aşağıdakı şərtləri təklif edir (Weiner, 2006: 127):

1) semantik uyğunsuzluq;
2) fon fərziyyələr olmadıqda;
3) kontekstdən asılı olaraq;
4) prioritet danışıq təsirlərindən asılı olaraq və s.

Bu şərtlərin bəzilərini cümlə daxilində izah edək.

Nümunə:

Əsas cümlə:

Ali's wife is often grumbling. (Əlinin həyat yoldaşı həmişə narazılıq edir).

Variantlar:

1) Ali's wife is *often, always, indeed, in fact* grumbling. (Əlinin arvadı *tez-tez, həmişə, həqiqətən, fakdır ki* narazılıq edir.

2) Ali's wife is *often and perhaps, may be, possibly, even always* grumbling. (Əlinin arvadı *tez-tez və bəlkə də, ola bilsin ki, güman ki, hətta həmişə* narazılıq edir).

3) Ali's wife is not only *often but always* grumbling. (Əlinin arvadı nəinki *tez-tez, lakin həmişə* şikayət edir).

4) Ali's wife is *often, or perhaps, may be, possibly, even always* grumbling. (Əlinin arvadı *tez-tez* və yaxud *bəlkə də, ola bilsin ki, güman ki, hətta həmişə* narazılıq edir).

5) Ali's wife is *often, if not always* grumbling. (Əlinin arvadı həmişə olmasa da, tez-tez narazılıq edir).

Bu nümunələrdə əsas cümlədə ifadə olunan potensial danışıq implekaturları ehtiva olunur. Lakin, verilmiş variantlardakı bütün cümlələrdə semantik uyğunsuzluq, yaxud semantik məcburiyyətdən yaranan uyğunsuzluq var. Yəni bu variantlarda *often, or perhaps, may be, possibly, even always* sözlərinin işlədilməsi nəticəsində bu semantik məcburiyyət yaranır. Nəticədə də potensial danışıq implekaturu eksplisit olaraq ifadə olunur. Buna da "eksplisit ləğv etmə" deyilir (Huang, 2014: 39).

Başqa bir nümunəni nəzərdən keçirək:

[Yeni evə köçən ana və qızı arasındakı söhbət]

Daughter: *We are out of bread. (Çörəyimiz yoxdu).*

Mother: *There is a bakery at the end of the street. (Küçənin sonunda çörək dükanı var).*

Nümunədə ana danışıq implekaturundan istifadə edərək bildirir ki, küçənin sonunda çörək dükanı var və o, açıqdır. Əks halda, yəni ana bu cümləni işlətməsəydi, onun işlətdiyi ifadə kontekstə uyğun səslənməzdi. Danışıq implekaturları deyilənlərin zəruri və ya məntiqi nəticəsi deyil, onlar sadəcə olaraq eksplisit olaraq cümlədə ifadə olunur. Lazım gəlsə, ana əlavə edə bilər: Mother: *But, unfortunately, it is closed now. (Lakin, bədbəxtçilikdən o, indi bağlıdır).*

İndi isə implekaturun digər növünə, yəni konvensional (şərti) növünə nümunə təqdim edək:

My friend is poor but happy. (Mənim dostum yoxsul, lakin xoşbəxtdir).

Bu nümunədə *but* ziddiyyət bildirən bağlayıcısının işlədilməsi ilə şərti implekatur işlədilir və *yoxsul olmaqla, xoşbəxt olmaq* arasında ziddiyyət yaradılır.

İstənilən halda implekaturun mənasının müəyyən edilməsində kontekst və situasiyanın rolu nəzərə alınmalıdır. Onların hər ikisi deyiləni düzgün anlamağa imkan yaradır. Ünsiyyət o zaman uğurlu olur ki, hər iki tərəf, yəni həm danışan, həm də dinləyən söhbətin nədən, yaxud kimdən getdiyini bilsin. Məsələn:

Where is Clyde? (Klayd haradadır?)

A man is standing near Roberta's door. (Robertanın qapısının yanında bir kişi dayanıb).

Buradan aydın olur ki, həm danışan, həm də dinləyən hər ikisi Robertanın kim olduğunu bilirlər; onun qapısını tanıyırlar və Klaydın Robertanın evində bir neçə dəfə olduğunu bilirlər ki, indi də onun orada olduğunu güman edirlər. Elə danışıq implekaturu da burada meydana çıxır.

Bu kimi cümlələrin işlədilməsi onu göstərir ki, danışıq zamanı bəzi cümlələr avtomatik olaraq danışığa əlavə oluna bilər. Bu səbəbdən də deyilən tam ifadə olunmasa da ehtiva nəticəsində başa düşülə bilər. P.Qrays bu kimi danışıq vəziyyətlərini "mükamilə maksimumu" (conversational maximum) adlandırır. Buraya keyfiyyət, kəmiyyət, vaciblik və tərz daxil olur.

İndi danışıq implekaturunun növbəti növü olan *fon fərziyyələrini* izah edək.

Danışıq implekaturları çox halda fon bilikləri olmadan da ifadə edilə bilər. Onlar əsasən real dünya biliklərinə (həqiqətlərinə) uyğun olaraq işlədilir. Fikrimizi aşağıdakı nümunədə izah edək:

Clyde and Roberta bought a garden near their new apartment in London. (Klayd və Roberta Londonda yeni mənzillərinin yanında bağ aldılar).

İzahı: Klayd və Roberta yeni bağ aldılər. Bağ onların ikisinə də məxsusdur, çünki onlar bərabər yaşayırlar.

Bu nümundə cümlənin mənasında "togetherness", yəni "birlik" ifadə olunur və bu da onu göstərir ki, cümlədə potensial olaraq danışıq implekaturu var.

Növbəti nümunə:

The Iranians and the Americans tested an atom bomb in 2022. (İranlılar və Amerikalılar 2022-ci ildə atom bombasını sınaqdan keçirdilər).

İzahı: Cümlədən məlum olur ki, iranlılar və amerikanlılar atom bomnasını bərabər sınaqdan keçiriblər, yəni birlikdə. Bu cümlənin mənası bizim fon biliklərimizə ziddir, çünki adları bərabər çəkilən dövlətlər bir-birinə düşməndirlər və heç vaxt bərabər belə bir addım atmazlar. Bu da onu göstərir ki, cümlədə danışıq implekaturu müşahidə olunmur, yəni cümlədə heç bir fon biliyi əks olunmur.

Danışıq implekaturlarını müşahidə etməyin növbəti mərhələsi *kontekst* hesab edilir.

Nümunəyə baxaq:

My brother: *This music player is 9 dollars, but I do not have any money on me. (Bu musiqi pleyeri 9 dollardır, lakin mənim üzərimdə bu qədər pul yoxdur).*

His girlfriend: *Don't worry. I have nine dollars on me. (Narahat olma. Mənim üstümdə doqquz dollar var).*

Nümunədən göründüyü kimi, buradakı danışıq implekaturu xanımın üzərində 9 dolların olması deyil, buradakı əsas implekatur odur ki, onun üzərində musiqi pleyerini almağa çatacaq pul var. Bu kontekstə uyğun olaraq xanım həmin lazım olan əşyanı ala biləcəkdir. Bu da kontekst daxilində danışıq implekaturunu formalaşdırır.

Bu mövzu kifayət qədər genişdir. Biz bu məqaləmizdə danışıq implekaturun yalnız bir neçə növünü təhlil etdik. Müəyyən etdik ki, implekatur praqmatik mənanın açılmasında mühüm rol oynayan konseptlərdən biridir.

Qaynaqlar

- HUANG, Y. (2014). *Pragmatics.* Oxford: Oxford University Press.
- VEYSƏLLİ, F.Y. (2010). *Diskurs təhlilinə giriş*. Bakı: Mütərcim.
- GRİCE, H.P. (1957). *Meaning.* Philosophical Review 66: pp.377-88.
- WEİNER, M. (2006). Are all conversational implicatures cancellable? *Analyses* 66: pp.127-30.

Abstract

The article deals with implicature and meaning in pragmatics. Both of them are said to play very crucial roles in revealing the meanings of words as well as sentences in pragmatics in the article.

In traditional linguistics, it (implicature) is considered to be an important part to perceive the meanings of words and sentences by studying their connection to the preceding words or sentences, investigating their relationship with real life or the surrounding world.

The article provides some information about implicature and its origin too. In particular, the types of implicature are explained and the differences between them are compared using various examples.

The article analyzes the opinions of both local and foreign linguists on the mentioned topic, and she also states her opinion relating to implicature.

In pragmatics, the implicator is a concept that the speaker suggests or implies with an utterance.

Implicature offers a more effective means of communication than simply uttering things while communication.

Two types of implicature have been distinguished up today. They are:

1) conversational implicature (danışıq implikaturu);

2) conventional implicature (şərti implikatur) (Huang, 2014: p.27).

It is noteworthy to mention that F.Veysalli uses the term “mukamile” for the word *conversational* in Azerbaijani though we use it as “danishiq”.

The notion of *implicature* (both conversational and conventional) is related to the name of the British philosopher H.P.Grice. The main provisions of the same term were put forward by W. James though.

It is necessary to state that F. Veysalli writes that the term implicature is actually a theory of semantics based on intention (Veysalli, 2010: 55). According to his opinion, *implicature* is a result used to facilitate understanding and mutual understanding during conversation, that is, the meaning chosen by the listener during conversation.

Key words: *pragmatics, meaning, implicature, conversational, conversional, semantics*

NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ İŞLƏDİLƏN QƏDİM TÜRK SÖZLƏRİ

Ləman ƏSGƏROVA
Xəzər Universiteti, bakalavr
Elmi rəhbər: fil.ü.f.d. Almaz Bədəlova

Özət

Azərbaycan dialektologiyası dilimizin şivələrini öyrənən dilçilik sahəsidir. Azərbaycan dili dialektləri barədə ilk dəfə M.Kazımbəy, alman alimi K.Foy araşdırmalar aparsa da şivələrin elmi əsaslarla ardıcıl şəkildə tədqiqinə keçən yüzilliyin 20- 30- cu illərindən başlanmışdır.

Dialekt – şivə, şivələr qrupu və ləhcəni ifadə etmək üçün işlədilən termindir. M. Şirəliyev dialekt terminini dilin dialekt bölünməsinin əsas vahidlərindən biri kimi işlədir, halbuki, dialekt termini ümumiyyətlə dilin məhəlli formasını bildirən bir termin olduğu üçün ondan həm şivə qrupunu, həm də ayrıca bir ləhcəni ifadə etmək üçün istifadə etmək olar.

Şivə isə məhəlli dialektlərin daha bölünə bilməyən ən kiçik vahdidir. O, bir və ya bir neçə yaşayış məntəqəsi sakinlərinin nitqində meydana çıxır. Əsasən dil xüsusiyyətləri yaxın və ümumi olan bir neçə şivələr qrupu əmələ gətirir. Məsələn, Muğan şivələri qrupu, Naxçıvan şivələri qrupu və s.

Açar Sözlər*:* Leksika, Naxçıvan, dialekt və şivə, ləhcə, qədim türk sözlər, arxaik sözlər və s.

Giriş

Azərbaycan dili dialektlərinin böyük əksəriyyəti vaxtilə tədqiq edilmiş və həmin dialektlərə aid dəyərli əsərlər yazılmışdır. Dilçiliyimizin bir qolunu təşkil edən Azərbaycan dialektologiyası sahəsində də xeyli işlər görülmüş, maraqlı araşdırmalar aparılmışdır. Azərbaycan dili şivələrini öyrənmək və bunların lüğətini toplamaq məqsədi ilə tədqiqatçılar tərəfindən 1924-cü ildən 1930-cu ilədək 60 minə yaxın dialekt sözü toplanmışdır. Məhz bundan sonra Azərbaycanın müxtəlif rayonlarından dialektoloji material toplanışı davam etdirilmişdir. Toplanmış materiallar əsasında 1955-ci ildə "Azərbaycan dilinin Muğan qrupu şivələri", 1962-ci ildə "Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri", 1967-ci ildə "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri" əsərləri yazılmış, 1964-cü ildə bir cildlik "Azərbaycan dilinin dialektoloji lüğəti" çap olunmuşdur. (Teymurlu, 2017: 14)

Azərbaycan dili dialektlərinin sistemli şəkildə tədqiq edilməsinə 1932-ci ildən başlanılmışdır. Azərbaycan dialektologiyasının yaranması, inkişafı və bir elm sahəsi kimi formalaşması Məmmədağa Şirəliyevin adı ilə bağlıdır. (Şirəliyev, 2008:19)

Azərbaycan dili dialektlərinin təsnifatını M.Şirəliyev tarixi-coğrafi prinsipə əsaslanaraq vermişdir. Alimin bölgüsündə diqqəti cəlb edən başlıca cəhət şivələrin coğrafi baxımdan qruplaşdırılmasıdır. Həmin təsnifatda dialektlər 4 qrup ətrafında cəmlənir: şərq qrupu, qərb qrupu, şimal qrupu və cənub qrupu. (Əzizov, 2016: 290-291)

M. Şirəliyev dialektlərin şərq qrupuna Quba, Bakı, Şamaxı dialektlərini, Muğan və Lənkəran şivələrini, qərb qrupuna Qazax, Qarabağ, Gəncə dialektlərini, Borçalı və ayrım şivəsini, şimal qrupuna Nuxa dialektini və Şəki dialektini və Zaqatala-Qax şivəsini, cənub qrupuna isə Naxçıvan, Ordubad, Təbriz, Ərdəbil dialektlərini, Şahbuz və Yererван şivəsini daxil edir, səciyyəvi fonetik, qrammatik və leksik xüsusiyyətləri göstərir. (Şirəliyev, 2008:19)

M.Şirəliyevin bu təsnifatı ilə görkəmli dilçi, alim M.Hüseynzadə, Abdullayev, A.Hüseynov, E.Əzizov və b. bu təsnifatla razılaşmırdılar. Təsnifat tədqiqatçılar tərəfindən

tənqid olunsa da, müəllif öz fikirlərində əsaslı bir dəyişiklik etməmiş, həmin bölgü türkologiyada yayılmışdır. Lakin bütün bunlara baxmayaraq, son illərə qədər Azərbaycan dilinin dialekt bölünməsində M. Şirəliyevin bölgüsü əsas götürülmüşdür. E.Əzizov Azərbaycan dili dialektlərinin təsnifatını bu şəkildə göstərir : Şimal-şərq ləhcəsi; qərb ləhcəsi, yaxud orta ləhcə; cənub ləhcəsi. (Əzizov, 2016: 293)

1) Dilimizin şimal-şərq ləhcəsi Bakı- Şamaxı, Muğan, Quba-Xaçmaz, Dərbənd bölgələrinin şivələrini əhatə edir. Bu ləhcə də 3 şivə qrupuna ayrılır: 1) Şamaxı-Bakı; 2) Quba- Xaçmaz; 3) Dərbənd. (Əzizov, 2016)

2) Qərb ləhcəsi yaxud orta ləhcə: Gəncə-Qarabağ, Qazax-Şəmkir, Gədəbəy-Daşkəsən regionlarının və Gürcüstanın Borçalı regionunun şivələrini əhatə edir. Ermənistan Respublikası üzrə keçmiş Göyçə, Pəmbək (Böyük Qarakilsə, Hamamlı) mahalları və Dağ Borçalısı şivələri də bu ləhcəyə aiddir. Qərb ləhcəsi 3 şivə qrupuna bölünür: 1) Qarabağ; 2) Qazax-Borçalı; 3) Ayrım şivəsi (Gədəbəy, Daşkəsən rayonlarının ərazisində) (Əzizov, 2016)

3) Cənub ləhcəsi: Cənubi Azərbaycan, Naxçıvan, İrəvan və Lənkəran regionlarının şivələrini əhatə edir. Cənub ləhcəsində bir neçə şivə qrupu fərqlənir: 1) Təbriz; 2) Ərdəbil; 3) Zəncan; 4) Urmiya; 5) Naxçıvan və s. (Əzizov, 2016)

Ədəbi dil tarixi üçün baza rolunu oynayan dialektlər və şivələrdə yaşayan leksikanın araşdırılması olduqca əhəmiyyətlidir, zəruridir. Bu baxımdan Naxçıvan dialekt və şivələrinin leksikasının tarixi-linqvistik baxımdan araşdırılması böyük əhəmiyyət daşıyır. Belə ki, 50-ci illərdə Azərbaycan Respublikasının dialektoloji baxımdan zəngin bölgələrindən biri olan Naxçıvan Muxtar Respublikasının dialekt və şivələri də elm adamlarının diqqətini çəkmişdir. 1950-55-ci illərdə əsasən dilçi alimləri tərəfindən bölgənin dialekt və şivələrinə aid külli miqdarda dil materialı toplanmışdır. Təfsilata varsaq 1950-ci ildə B.M.İbrahimov, K.T.Ramazanov, T.B.Həmzəyev, A.Bayramov, A.Ə.Aslanov və s. Ordubad rayonunun şivələrini, 1954-cü ildə R.Ə.Rüstəmov, B.M.İbrahimov, K.T.Ramazanov, T.B.Həmzəyev Naxçıvanın Babək rayonunun Qaraçuq, Qoşadizə, Didivar, Nehrəm, Cəhri, Çeşməbasar, Sirab, Şəkərabad, şivələrini öyrənmişlər. (Quliyev və Əliyeva, 2017: 5-6)

Sonrakı dövrlərdə də Naxçıvan dialekt və şivələrinin tədqiqi ilə bir sıra alimlər də məşğul olmuş, bu mövzuda monoqrafiya və namizədlik dissertasiyası yazmışlar. Bunlardan T.Həmzəyev, Ə.Quliyev, K.İmanquliyeva, M.Zeynalov, M.Əhmədovun xidmətini xüsusilə qeyd etmək lazımdır. Belə ki, T.Həmzəyev Ordubad dialektini, Ə.Quliyev Şahbuz şivələrini, M.Zeynalov dialekt və şivələrimizin məişət leksikasını, K.İmanquliyeva Şərur rayon şivələrini, M.Əhmədov Naxçıvan bölgəsinin dialekt leksikasını tədqiq etmişlər.

Naxçıvan dialekt və şivələri Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisini əhatə etməklə ,Azərbaycan dili dialekt və şivələrinin cənub qrupunu özündə birləşdirir. Bu zəngin dialekt leksikası birdən-birə yaranmamış, Azərbaycan dilinin uzun sürən tarixi inkişafı nəticəsində meydana gəlmişdir. Azərbaycan dilinin, o cümlədən dialekt və şivələrimizin lüğət tərkibinin əsası türk mənşəli sözlərdən ibarətdir. (Quliyev və Əliyeva, 2017: 3)

Ümumiyyətlə, qədim sözlər və sözlərin qədim mənaları ədəbi dilə nisbətən xalqın məişəti ilə əlaqədar leksikada, dialekt və şivələrimizdə, folklor nümunələrinin dilində daha çox mühafizə olunur. Bu nümunələr xalqın həyatında baş verən dəyişiklikləri özündə tamamilə əks etdirir. Naxçıvan dialektinin lüğət tərkibində elə sözlərə rast gəlirik ki, onlar vaxtilə Azərbaycanın qədim yazılı abidələrində işlənmiş, daha sonra ədəbi dilimiz üçün arxaikləşmiş, lakin dialekt leksikasında mühafizə olunmuşdur. Bu isə həmin leksik vahidin həm qədimliyini, həm də tarixən Azərbaycan dilinə mənsub olduğunu göstərir. Bu gün dialekt və

şivələrdə işlənən hər hansı sözün qədim yazılı abidələrimizdə işlənməsi onu göstərir ki, həmin leksik vahid abidənin yarandığı dövrün dialekt və şivələri üçün də işlək olmuşdur. Eyni zamanda milli ədəbi dilimizin formalaşmasında yerli dialekt və şivələrin öz rolu vardır.

Naxçıvan dialekt və şivələrinin lüğət tərkibinə nəzər saldıqda çoxlu sayda türk sözlərinə rast gəlirik ki, onların bir qismi digər dialekt və şivələrimizdə də işlənir. Burada həmin sözlər digər türk dilləri və onların dialektləri, eləcə də dilimizin dialekt və şivələri ilə müqayisəli şəkildə etnolinqvistik tədqiqatlara cəlb olunmaqdadır (Əliyeva, 2017: 117) .

Azman I. Qədim söz olan "azman" Ordubad şivəsində "böyük, çox böyük, nəhəng" mənasında işlənir. Eyni zamanda biz "azman" sözünü paralel olaraq digər şivələrdə, yəni Bakı şivəsində eyni mənada rast gəlirik. Məsələn : Atam bir Azman keçisi alıb (Ordubad şivəsində). Bakıda evlər tikilir.(Bakı şivəsində) (URL-7)

Azman II. Bu qədim söz digər şivələrimizdə başqa mənaları da ifadə edir. Ağdam, Bakı, Beyləqan, Borçalı, Cəbrayıl, Füzuli, Qarakilsə, Şamaxı, Zəngilan şivələrində də işlənir. 1.Bakı, Beyləqan, Cəbrayıl, Füzuli, Qarakilsə, Şamaxı şivələrində- "altıillik qoyun" 2. Ordubad və Zəngilan şivəsində "dördillik qoyun" 3. Ağdam, Borçalı, Füzuli şivələrində "qocalmış qoyun, keçi" mənalarında işlənir. (URL-7)

Arı. Qədim türk sözü olan "arı" Şahbuz şivəsində "təmiz, saf, pak" mənasında işlənir. Biz həmçinin də "arı" sözünə digər şivələrimizdə eyni mənada rast gəlirik. Qazax, Quba, Füzuli, Ağdam, Şəmkir, Tovuz şivələrində də "təmiz, saf, pak" mənasını bildirir. Həmçinin bu söz Qərbi Azərbaycanın Çəmbərək, Dərələyəz şivələrində də eyni mənada işləndiyinə rast gəlinir . "Arı" sözü Bakı, Xaçmaz şivələrində fonetik baxımından fərqli, yəni *ari* fonetik formasında işlənir. Biz arı sözünün "Kitabi-Dədə Qorqud" dastanında *ı-u* səs əvəzlənməsinin baş verdiyini görürük. Arı sözü Kitabi-Dədə Qorqud" dastanında "təmiz" mənasında həm "an", həm də "aru" fonetik formalarında işləndiyinə rast gəlirik. Qədim leksik vahid kimi "arı" M. Kaşğarinin "Divani-lüğət-it-türk" əsərində eyni mənada "arığ" formasında işlənmişdir. (URL-14)

Arı sözü Qərbi Azərbaycan Ağbaba, Qarakilsə (Sisyan), Çəmbərək, eləcə də Azərbaycanın Qazax, Şəki şivələrində "təmizləmək" mənasında işlənən arıtdamax, müasir Azərbaycan ədəbi dilində işlənən arıqlamaq sözündə də arı öz izini qoruyub saxlamışdır.

Abdal. Qədim söz olan "abdal" Şahbuzkənd və Qızıl Qışlaq şivələrində "bilikli, ağıllı" mənasında işlənmişdir. Məsələn: Çox abdal adamdı o, elə-belə söz deməz. Abdal sözü F.Rəşidəddinin "Oğuznamə" əsərində "dərviş" "yoxsul" "didərgin gəzən" mənalarında işlənmişdir. Abdal sözünün şivələrimizdə müxtəlif fonetik dəyişikliyə rast gəlir. Qərbi Azərbaycan şivələrində abdal "avdal" olaraq göstərilmişdir. Gördüyümüz kimi, bu qədim sözdə *b-v* fonetik əvəzlənmə, yəni səs əvəzlənməsi baş vermişdi. (Oğuznamə, 1987:196)

Al. Bu söz Kürçülü şivəsində "hiylə" mənasında işlənmişdir. Eyni zamanda "Oğuznamə" əsərində də "hiylə" "kələk" "məkr" mənalarını ifadə edirdi. (URL-7)

Küz. Qədim sözlərdən biri olan Küz sözü Ordubad şivəsində "payız" mənasını bildirir. Həmçinin "küz" sözü digər şivələrimizdə, yəni İmişli, Qax, Borçalı şivələrində də "payız" mənasını ifadə edir. Qərbi Azərbaycanın Çəmbərək şivəsində küz sözü "payız" mənasında işlənir. (URL-14)

Eşik. "Eşik" sözü Naxçıvan şivəsində "həyət" mənasında işlənir. Eşik sözü qədim türk dilində "qapı" deməkdir. Eşik sözü hal-hazrda Azərbaycan dilinin Qərb dialekt və şivələrində qrupunun mənasını genişləndirərək işlənir."qapı, həyət-baca, bayır" mənasında işlənir. "Eşik" sözü eyni zamanda digər şivələrimizdə Oğuz, Tovuz, Zaqatala şivələrində "həyət" mənasında işlənir. Habelə Qərbi Azərbaycanın Ağbaba, Böyük Qarakilsə, Calaloğlu, Çəmbərək,

Zəngibasar şivələrində “həyət, bayır”, “qapı-baca” mənalarını bildirir. Eşik sözü “Kitabi-Dədə Qorqud”dastanında da eyni mənada işlənmişdir. (Xəlilov, 2010:32)

V.V. Radloffun lüğətində “eşik” sözünün fonetik baxımdan *e-ə* əvəzlənməsinə, yəni həm əşik, həm də eşik formasında işləndiyini və “həyat”, “evin kənar tərəfı” mənasında işləndiyi göstərilir. (Xəlilov, 2010:32)

Yanşaq. Bu söz Naxçıvan, Şahbuz şivələrində boşboğaz, çoxdanışan, çərənçi”, mənalarında rast gəlirik. Məsələn : Bəsdi yaxşı, yanşaxlıx eləmə. Yanşaq sözü qədim türkçədə “boşboğaz, çoxdanışan, çərənçi”, “qeybətçi, söz saxlamayan, xəbərçi”, “naqqal” “ağzıboş” mənalarında işlənmişdir. V.V.Radloff bu sözün türk dillərində yəni, uyğur dilində *yanjak* şəkilində işləndiyini qeyd etmişdir. Qədim türkcədə *yanşa* sözü də işlənmişdir. Yanşa “naqqalıq etmək, çənə vurmaq, laqqırtı vurmaq, çərənləmək” mənalarında işlənmişdir. (Xəlilov, 2010:134-135)

Yazı. Qədim sözlərdən biri olan “yazı” Ordubad, Şahbuz şivələrində “çöl”, “düzənlik” mənalarında işlənir Biz “yazı” sözünə digər şivələrimizdə də Ağdam, Cəbrayıl, Qazax, Laçın, Oğuz, Tərtər, Zəngilan şivələrində eyni mənada işləndiyini görürük. Qərbi Azərbaycanın Çəmbərək, Dərəbyəz şivələrində “yazı” sözü eyni mənada işlənir. Türk dillərində bu söz fonetik baxmından fərqlənərək cığatay və monqol dillərində, *yazu* şəkilində, yəni “böyük, ulu” mənasında işlənmişdi. Həmçinin “Kitabi-Dədə Qorqud” dastanında yazı “çöllük” mənasında işlənmişdir. Orxon-Yenisey abidələrində yazı “çöl”, “səhra” mənasında işləndiyini görürük. Araşdırmalardan belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan dilində işlənən dialektlər qədim bir tarixə malikdir. (Xəlilov, 2010:136)

Tağ. Tağ sözü Ordubad dialektində “Taxça” mənasında işlənir. (Xəlilov, 2010: 99-100) Eyni zamanda tağ sözü “dağ” mənasında qədim türk yazılı abidələrində işlənmişdir. Fəzlullah Rəşidəddinin “Oğuznamə” əsərində də “tağ” sözü işlənmişdir. (Oğuznamə, 1987:125) Tağ sözünün “dağ” mənasında olmasını Mahmud Kaşğari öz lüğətində qeyd etmişdi. Bu sözün “dağ” mənasında olmasına dair atalar sözündən nümunə gətirmişdir : Tağ tağka kavuşmas, kiş kişigə kavuşur”- Dağ dağa kovuşmaz, insan insana qovuşar (Kaşğari, 1074: 153)

Öynə. Bu söz Şərur şivəsində “dəfə”mənasında işlənir. Həmçinin Qazax, Beyləqan, Cəbrayıl, Göyçay, Borçalı şivələrində “dəfə”mənasında rast gəlinir, amma “öynə” sözü sadaladığımız şivələrdə başqa mənada işləndiyinə rast gəlirik. Bu söz Gəncə, Qazax, Gədəbəy, Lənkəran, Oğuz, Salyan, Tovuz, Ucar, Zərdab, Borçalı şivələrində “günorta yeməyi vaxtı” mənalarını bildirir. Öynə sözü fonetik baxımından “*Öylə”* şəkilində əvəzlənərək, M.Kaşğarinin “Divani-lüğət-it-türk” əsərində “günorta vaxtı” mənasında işlənmişdir. Həmçinin *Öylə* sözü Fəzlullah Rəşidəddinin “Oğuznamə” əsərində də “günorta yeməyi” mənasında işlənmişdir. (Oğuznamə, 1987:206)

Naxçıvan dialekt və şivələrinin lüğət tərkibinə nəzər saldıqda çoxlu sayda arxaik sözlərə rast gəlirik ki, onların bir qismi digər dialekt və şivələrimizdə də işlənir. (Əliyeva, 2019:117)

Pitix '. Naxçıvan dialekt və şivələrində işlənən arxaik sözlərdən biridir. Bu söz “kağız, məktub” mənasında şivələrdə işlənir. Məsələn : Yazginən bir pitiyə, ver aparım başıçıxan adama göstərim, görüm nə deyir. (Şahbuz) Naxçıvana aid folklor mətnlərində də bu söz geniş şəkildə işlənir.

“Pitix '” sözü dilimizin Tovuz şivələrində tamamilə fərqli mənada, “qadın paltarında naxış, bəzək” mənasında qeydə alınmışdır. (Əliyeva, 2019 :118-119)

Əpbəx'. Naxçıvan dialekt və şivələrində “çörək” mənasında işlənir. Məsələn: Bir tikə əpbəyimiz, suyumuz var, bı günümüzə min şükür (Naxçıvan). Bu arxaik sözün qədim zamanlardan bu günə qədər inkişafını izləsək, görərik ki, onun ilk variantı “ətmək” olmuş, sonra səs əvəzlənmələri nəticəsində şivələrdə əpbəx'// əppəx' olur. Dilimizin bir çox başqa dialekt və dialektlərində də işlənir. Şəki ləhcəsində bu söz *epbex',* Ağdam, Çəmbərək, Goranboy, Mingəçevir, Tovuz, Yevlax şivələrində *əpbəx’* Oğuz şivələrində *əpbəy,* Ağdaş, Göyçay, Kürdəmir şivələrində *əppək* formasında işlənir. (Əliyeva, 2019:119)

Nəticə

Naxçıvan dialekt və şivələri ilə bağlı apardığımız araşdırmalar belə nəticəyə gəlir ki, bölgənin özünə məxsus dialekt xüsusiyyətləri var və bu xüsusiyyətlər qədim zamanlardan formalaşıb. Onlar Azərbaycan dilinin tarixi inkişafını izləmək imkanı verir, bu dilin tarixi ilə bağlı çox maraqlı faktlar təqdim edir və onların öyrənilməsi həm də dildə baş verən bir sıra etnolinqvistik proseslərin şərhinə gətirib çıxarır.

Naxçıvan dialekt və şivələrinin lüğət tərkibinin əsasını təşkil edən və ədəbi dilimiz üçün arxaik hesab olunan sözlər məna yüklərinə görə bir çox şivələrimizdə də olduğunu görürük.. Ümumiyyətlə, Naxçıvan dialekt və şivələrinin leksikası kifayət qədərdir. Burada ədəbi dillə və digər qrup dialekt və şivələrlə həm oxşar, həm də fərqli cəhətlər olduqca çoxdur.

Qaynaqlar

- Azərbaycan dilinin dialektoloji lüğəti, Bakı, “Şərq-Qərb”, 2007, 568 səh. (http://elibrary.bsu.edu.az/files/books_aysel/N_254.pdf)
- Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin elmi əsərləri. (2019) № 3, s.117-123 (http://www.anl.az/down/meqale/amea_naxchivan_ihes/2019/03/16(meqale).pdf)
- BAYRAMOV, İbrahim. (2022) *Azərbaycan dialektologiyası.* Ankara, 456 səh. (https://ebooks.az/book_otwzaxj.html)
- ƏZİZOV, Elbrus. (2016) Azərbaycan dilinin tarixi dialektologiyası: *Dialekt sisteminin təşəkkülü və inkişafı.* Dərs vəsaiti. 2-ci nəşri. Bakı: “Elm və təhsil” nəşriyyatı, 348 s. (http://static.bsu.az/w15/ELBRUS%20%C6%8FZ%C4%B0ZOV%20K%C4%B0TAB.pdf)
- XƏLİLOV, Buludxan. (2010) *224 qədim türk sözü.* Bakı: Elm və Təhsil, nəşriyyatı, 350 səh (http://buludxan-xelilov.com/pdf/224-qedim-turk-sozu.pdf)
- KAŞĞARLI, Mahmud.(1074) *Divani-lüğat-it-türk* . “Ozan”, Bakı, II cild, s.153.
- Kitabi-Dədə Qorqud. *Əsl və sadələşdirilmiş mətnlər.* Bakı, “Öndər nəşriyyatı”, 2004, 376 səh (http://www.elyazma.org/wp-content/uploads/2015/03/Dede-Qorqud.pdf)
- QULİYEV, Əbülfəz və Əliyeva Nuray. (2017) *Naxçıvan dialekt və şivələrinin lüğəti.* Naxçıvan, “Əcəmi” nəşriyyatı, s.296 səh. (http://anl.az/el/Kitab/2017/07/cd/Azf-297004.pdf)
- MƏMMƏDLİ, Məhərrəm.(2019) *Azərbaycan dialektologiyası.* Dərslik. Bakı: Zərdabi LTD, 352 s. (http://static.bsu.az/w15/Az%C9%99rbaycan_dialektologiyas%C4%B1-Meherrem_Memmedli_2020_1.pdf)
- RƏŞİDƏDDİN, Fəzlullah. (1987) *Oğuznamə.* Bakı, “Şərq-Qərb”, 216 səh. (http://anl.az/el/Kitab/240501.pdf)

❖ ŞİRƏLİYEV, Məmmədağa. (2008) *Azərbaycan dialektologiyasının əsasları.* Bakı, "Şərq-Qərb", 416 səh. (http://www.anl.az/el/alf25/shm_ade.pdf)

❖ TEYMURLU, Zabitə. (2017) *Azərbaycan dilinin dialekt leksikası.* Bakı: Elm və Təhsil, nəşriyyatı

Abstract

Azerbaijani dialectology is a field of linguistics that studies dialects of our language. Although M. Kazymbey and German scientist K. Foy conducted research on dialects of the Azerbaijani language for the first time, systematic study of dialects on scientific basis began in the 20s and 30s of the last century.

Dialect is a term used to denote a dialect, a group of dialects, and a dialect. The understanding of the term dialect as a language unit larger than a dialect and smaller than a dialect is outdated in linguistics. M. Shiraliyev uses the term dialect as one of the main units of the dialectal division of the language, while the term dialect is generally a term denoting the local form of the language, so it can be used to denote both a dialect group and a separate dialect.

Shiva is the smallest unit of local dialects that cannot be further divided. It appears in the speech of residents of one or more settlements. Basically, the language features several groups of dialects that are close and common. For example, Mughan dialect group, Nakhchivan dialect group, etc.

Key words: Lexicon, Nakhchivan, dialect və shiva, ancient turkish words, archaic words, etc.

HAMLET İSAXANLI: DÖRDLÜKLƏRDƏ ƏDƏBİ-ESTETİK MİNİMALİZM

Ləman Məmmədova

Xəzər Universiteti, magistr

Elmi rəhbər: dos. Dilbər Zeynalova

Özət

Hamlet İsaxanlı: Dördlüklərdə ədəbi-estetik minimalizm" adlı bu məqalədə görkəmli alim, fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlının şeir yoluna nəzər salınır. Müəllifin 2007-ci ildə çap edilmiş "Dördlüklər" kitabına daxil olan rübailər, bayatılar və digər şeir parçaları müxtəlif kontekstlərdən təhlilə cəlb olunur. Mövzu genişliyi, məzmunun müxtəlif ifadə tərzləri, dil və üslub xüsusiyyətlərinə toxunulur. Müəllifin məhəbbət, yaşam, ölüm, yaradılış, mənəvi duyğular və s. mövzusunda yazmış olduğu şeirlər minimalizm kontekstində təhlil edilir. Məqalədə Hamlet İsaxanlı poeziyası təkcə hisslərin deyil, eyni zamanda ağılın və məntiqi təfəkkürün vəhdətindən yaranan poeziya kimi şərh edilir. "Dördlüklər" kitabından seçilmiş müxtəlif şeir parçalarında müəllifin ifadə etdiyi, yaxud ifadə etmək istədiyi mövzular ədəbi və estetik cəhətdən izlənilir. Hamlet İsaxanlı poeziyasının bu qədər qısa bir vaxtda geniş şöhrət qazanmasının səbəbləri açıqlanır. Bu poeziyada məhəbbət və digər mənəvi məsələlər məna və üslub baxımından müxtəlif cür səciyyələnir. Məqalənin yazılmasında əsas məqsəd dəyərli alim kimi tanıdığımız Hamlet İsaxanlının poetik yaradıcılığına, şeir yoluna işıq tutmaq, kiçik həcmli şeirləri minimalizm kontekstində təhlil etməkdir. Müəllifin "lirik mən" anlayışı, şeirlərdə olan obrazlar, duyğu və hisslərin tərənnüm vasitələri, təsvir və ifadə tərzi göstərilir. Hamlet İsaxanlının "Dördlüklər" kitabı lirik və minimalist poeziyaya gözəl bir nümunə kimi qiymətləndirilir, müəllifin şeirlərində minimalizm anlayışının təcəssümü araşdırılır.

Açar Sözlər: Minimalizm, minimalist şeir, məhəbbət poeziyası, minimalist poeziya, dördlüklər, Hamlet İsaxanlı

Giriş

"Dördlüklər" Hamlet İsaxanlının 2007-ci ildə "Xəzər Universitəsi Nəşriyyatı"nda çapdan çıxan kiçik kitabıdır. Kitabın olduqca minimal dizaynı var, elə içindəki şeirlər də minimaldır, duyğular, hisslər də minimalist tərzdə əks olunur. Bu kitaba müəllifin rübai, bayatı kimi janrlarda yazdığı dörd misralıq şeirlər daxildir. Bu kiçik, minimal şeirlərin yaradılış, məhəbbət, ölüm və yaşam kimi böyük mövzuları var.

Hamlet İsaxanlı fiziki-riyaziyyat elmləri üzrə professor, görkəmli alimdir. O, bir çox elmi araşdırmaların, monoqrafiyaların, məqalələrin müəllifidir. Lakin dəqiq fənlərin, rəqəmlərin, ədədlərin içində olmaq onun həssas qəlbini, yaradıcı ruhunu qəfəsdə saxlaya bilməyib, Hamlet İsaxanlı şeirləri ilə lirik duyğularını dilə gətirir:

Oynayıb, çağlayıb coşmaq

Həyatın meyxoş anıdır.

Şeir demək, nəğmə qoşmaq

Bir həssas qəlb nişanıdır. (İsaxanlı, 2007, s.175)

Hamlet İsaxanlının alim, elmlər doktoru kimi elmi yaradıcılığı haqqında yüzlərlə fikir söylənsə də, poeziyası haqqında da olduqca maraqlı və dəyərli fikirlər mövcuddur. Nədənsə, Hamlet İsaxanlı şeirləri daim elmin və poeziyanın vəhdətində şərh edilir**.** Hamlet İsaxanlı poeziyasının qısa vaxtda bu qədər geniş əks-səda doğurmasını şərtləndirən müxtəlif janrlı şerlərdə bədii axtarışların, poetik fikrin orijinallığıdır. Burada məhəbbətdən başlamış dünya müəmmalarına qədər mövzuların təcəssümü, məna, üslub xüsusiyyəti fərqlənir. Hamlet İsaxanlının yaradıcılıq sirrini necə açmaq olar? O, az sözdə vəznli fikir ifadə etmək ustalığına malik şairdir. O həyatı filosofcasına dərk edir və oxucularını da bədii söz vasitəsilə həyatın mənası, təzadları, ziddiyyətləri barədə düşünməyə məcbur edir. (URL2)

Müəllif şeirin, nəğmənin yalnız duyan, həssas qəlblərin məhsulu olduğunu deyir. Həqiqətən də, şeir, poeziya, ritm, nəğməkarlıq, ahəngdarlıq yalnız lirik duyumla, hisslərlə bağlıdır. Lakin Hamlet İsaxanlı poeziyası təkcə hisslərdən, duyğulardan ibarət deyil. Bu poeziya məntiqi təfəkkürlə hisslərin, ağılla ürəyin harmoniyasından təşkil olunur.

Başlanğıc olubsa, söylə, o nədir?

Öncə kainatdır, ya düşüncədir?

Məhdud ağlımızla əbədiyyəti

Dərk edə bilmirik, iş çox incədir. (İsaxanlı, 2007, s.6)

Dördlük rübai janrında yazılmışdır. Qafiyə sistemi “aaba” şəklindədir. Hər misra on bir hecadan təşkil olunmuşdur. Bu şeir parçasında müəllif yaradılış, kainat, ölüm, əbədilik məsələlərini sorğulayır. Əvvəlcə dünyanın, kainatın başlanğıcı haqqında sual verilir, düşüncənin, yaxud kainatın öncəliyi məsələsinə toxunulur. Lakin bizlər – insanlar kainatla müqayisədə olduqca kiçik varlıqlarıq və onun sonsuzluğu, böyüklüyü qarşısında acizik. Yaradılmış canlılar arasında ən şüurlusu olsaq da, kainatı, əbədiyyəti dərk etmək məhdud, sərhədli şüurumuz üçün mümkünsüzdür.

Günəşin saçını hörə bilmirik,

Zalımın dərsini verə bilmirik.

Həyatın üzü çox tanış olsa da,

İçini dərindən görə bilmirik. (İsaxanlı, 2007, s.39)

Rübaidə müəllif poetik bənzətmələr, zərif təsvir vasitələri işlədir. Məsələn, günəşin saçını hörmək. Günəşin şəfəqləri bir qızın saçlarına bənzədilir, inadkar, təslimolmazdır, o saçlar hörülməyə tabe olmur — günəşin şəfəqləri insanlara təslim olmur, öz qaydası ilə dünyanı işıqlandırır. Sonrakı misralar həyatın ədalətsizliyinə, haqsızlığına üsyan xarakteri daşıyır — zalımın dərsini verməyi bacarmırıq, dünyanın gərdişi qarşısında aciz və gücsüzük, həyat bizə oyun oynayır, nə qədər tanıdığımızı sansaq da, əsl üzünü, dərinliyini görə bilmirik.

Tanrım, ruhum şikəstdir,

Qara yeli az əsdir.

Təzədən dərd paylama,

Dərdim özümə bəsdir. (İsaxanlı, 2007, s.113)

Bu şeir parçasında qafiyələr "aaba" şəklində olub, misralar yeddi hecadan ibarətdir. Dördlüyün necə ahəngdar, ritmik səsləndiyi açıq-aşkar göstərir ki, bu parça müasir dövrdə yaranmış müəllifli bayatıya aid olan nümunədir. Bayatıda bəxtə, taleyə, bir növ, yaradana üsyan motivləri duyulur. Lirik qəhrəman ona verilən taledən tanrıya şikayətlənir, alın yazısında dərd payının çox olduğunu deyib gileylənir. Müəllif "şikəst ruh", "qara yel" kimi ifadələr işlətməklə şeir parçasının poetic gücünü bir az da artırır.

Verilmiş nümunələrdən aydın olur ki, müəllifin ictimai mövzuda yazmış olduğu şeirlərin dili aydın, anlaşıqlı və sadədir. İstifadə olunan sözlər ritmiklik, axıcılıq yaradır, müəllif oxucu üçün qeyri-müəyyənlik saxlamır, hər şey açıq-aydındır, əlavə izaha ehtiyac yoxdur.

Hamlet İsaxanlının poetik yaradıcılığında eşq, sevda xüsusi bir yerə sahibdir. Müəllifin bu mövzuda yazmış olduğu, az qala, bütün şeirlərində saflıq, səmimilik, zəriflik hiss olunur. Sevgi mövzulu bir çox şeirləri aşiqin dilindən birbaşa məşuqəyə — sevgiliyə müraciət var. Lakin bu müraciət şikayət, giley-güzar deyil. Aşiq sadə sözlərlə, bəzəksiz cümlələrlə hisslərini dilə gətirir:

Ürəyi yoxmuş kimi

Ürəyimi qıran yar.

Uçub getmə quş kimi,

Ürəyimdə yuvan var. (İsaxanlı, 2007, s.191)

Bu parçadan aydın olur ki, məşuqə cəfakar, aşiq cəfakeşdir. Lirik qəhrəman qəlbi qırılmış, vəfasızlıq görmüş aşiqdir. O, sadəcə sevir. Qarşılığında sevdiyindən sevgi dilənmir, "getsən, ölərəm" pafosu yoxdur şeirdə, "sadəcə getmə, çünki ürəyimdə sənin yuvan — məskənin var, məni yox, yuvanı tərk etmə" zərifliyi var.

Bu cür saflıq, incəlik müəllif üçün məhəbbətin ötəri hiss, keçici həvəs olduğundan yox, sevginin böyüklüyünün dəbdəbəsiz, göstərişsiz, sadə olmasından irəli gəlir. Başqa bir şeirində Hamlet İsaxanlı məhəbbətə bu cür tərif verir:

Məhəbbətə həyat verən saf nəfəsdir

Ən ulu səs qəlbimizdən qopan səsdir.

O, nə xülya, nə ötəri bir həvəsdir,

O, könüldən könüllərə hopan səsdir. (İsaxanlı, 2007, s.171)

Bəli! Məhəbbət ötəri bir həvəs, mövcud olmayan bir xülya deyil, o, könüldən könülə hopan səsdir, yoldur, nəfəsdir. Məhəbbət uludur, əbədidir. O, bəzən sadə, bəzən zəif görünə bilər, lakin "bil ki, gücsüz görünmək də, bəzən güclü sevgidəndir."(İsaxanlı, 2007, s.170)

Hamlet İsaxanlı poeziyası sadəlikdən ibarətdir, dəbdəbədən, bər-bəzəkdən uzaqdır. O, şeirlərinin bir çoxunda bunu ifadə edir. Lakin bu sadəlik sıradanlıq, ənənəvilik demək deyil. Bu sadəlik öz içində hisslərin, duyğuların mürəkkəbliyini gizlədir.

Çox sadə bir insanam mən

İnsanların çoxu kimi.

Sən zərifsən, sən incəsən

Güldən gələn qoxu kimi. (İsaxanlı, 2007, s.135)

Müəllifin bir çox şeirlərində olduğu kimi bu parçada da aşiqin sadə, saf sevgisi əksini tapır. Lirik qəhrəman özünü heç bir aşiq obrazı ilə müqayisə etmir, xarakterindəki hansısa cəhəti vurğulamır, çoxları kimi sadə, sıradan bir insan olduğunu deyir. Bunun qarşılığında isə yarını olduqca zərif, lətafətli bir şəkildə təsvir edir. Burada məşuqə obrazı klassik şeirlərdə alışdığımız gülə yox, gülün incə, lətif qoxusuna bənzədilir. Bununla da müəllif unikal bənzətmə yaradır.

Nümunələrdən də göründüyü kimi "Dördlüklər"ə daxil olan bütün şeirlər minimalistliyi və bu minimalizmdə ifadə etdiyi, ortaya qoyduğu dərinliyi ilə seçilir. Müəllif minimal qatlarda dolğunluğun, böyüklüyün və ucalığın ifadəsini ustalıqla təsvir edir. Həm ictimai, həm də məhəbbət mövzulu şeirlərdə müəllif bu qatı qoruyub saxlaya bilir: az söz, minimalizm, ahəng və dərin məna. "Dördlüklər"ə daxil olan bütün şeirlərin dili olduqca anlaşıqlıdır. Müəllif özünün də ifadə etdiyi kimi sadə, bər-bəzəksiz poeziya yaradır, şeirlərini əlavə təsvirlər, mürəkkəb ifadələrlə qəlizləşdirmir. Hamlet İsaxanlı poeziyası oxucu üçün aydın və anlaşıqlı, minimalist və eyni zamanda dərin mənalı şeirlər təqdim edir.

Nəticə

Məqalənin yazılmasında əsas məqsəd dəyərli alim kimi tanıdığımız Hamlet İsaxanlının poetik yaradıcılığına, şeir yoluna işıq tutmaq, kiçik həcmli şeirləri minimalizm kontekstində təhlil etmək idi. Yazıda müəllifin "Dördlüklər" adlı kitabından seçilmiş müxtəlif nümunələr təhlilə cılb edilərək, minimalizm kontekstində şərh edildi. Hamlet İsaxanlı şeirlərində ictimai lirika və məhəbbət lirikasının bədii inikası şərh edildi. Dörd misralıq şeirlərin müxtəlif janrlarda: rübai, bayatı və s. yazılmış olduğu, müəllifin şeirlərə necə ritm və ahəngdarlıq gətirməsi nümunələrlə göstərildi. "Dördlüklər" kitabına daxil olan şeir parçaları müxtəlif kontekstlərdən təhlilə cəlb edildi. Mövzu genişliyi, məzmunun müxtəlif ifadə tərzləri, dil və üslub xüsusiyyətləri şərh edildi. Müəllifin müxtəlif mövzularda yazmış olduğu şeirlər minimalizm kontekstində təhlilə cəlb edildi. Məqalədə Hamlet İsaxanlı poeziyası təkcə hisslərin deyil, eyni zamanda ağılın və məntiqi təfəkkürün vəhdətindən yaranan poeziya kimi izah edildi. Hamlet İsaxanlı poeziyasının bu qədər qısa zaman ərzində şöhrət qazanmasının səbəbləri açıqlandı.

Qaynaqlar

- İSAXANLI, Hamlet. (2007). *Dördlüklər*, Bakı: Xəzər Universitəsi Nəşriyyatı
- URL1. http://www.anl.az/down/meqale/525/2018/may/589930.htm
- URL2. https://hisaxanli.org/?p=407&lang=az

Abstract

This article looks at the poetic path of Hamlet Isaxanli, a prominent scientist, doctor of physics and mathematics. Rubai's, bayatis and other pieces of poetry included in the author's book "Dordlukler" published in 2007 are analyzed from different contexts. The scope of the topic, different ways of expression of the content, language and stylistic features are touched upon. The author's love, life, death, creation, spiritual feelings, etc. the poems he wrote on the subject are analyzed in the context of minimalism. In the article, Hamlet Isaxanli's poetry is interpreted as a poetry created from the unity not only of feelings, but also of mind and logical thinking. The themes expressed or wanted to be expressed by the author in various pieces of poems selected from the book "Dordlukler" are followed from a literary and aesthetic point of view. The reasons why Hamlet Isaxanli's poetry gained wide fame in such a short time are explained. In this poetry, love and other spiritual issues are characterized in different ways in terms of meaning and style. The main goal of writing the article is to shed light on the poetic creativity of Hamlet Isaxanli, whom we know as a valuable scientist, and to analyze his small poems in the context of minimalism. . The concept of "lyrical self" of the author, the images in the poems, the means of singing of feelings and emotions, the style of description and expression are shown. Hamlet Isaxanli's book "Dordlukler" is considered as a fine example of lyrical and minimalist poetry, the embodiment of the concept of minimalism is explored in the author's poems.

Key Words: minimalism, minimalist poetry, love poetry, minimalist poem, Hamlet İsakhanli

KURTUAZ ƏDƏBİYYATININ ŞAH ƏSƏRİ - “TRİSTAN VƏ İZOLDA”

Leyla SALMANOVA
Bakı Avrasiya Universiteti, bakalavr
Elmi rəhbəri: dos. Xatirə Yusifova.

Özət

Tristan və İzolda 12-ci əsrdən bəri bir çox variantda təkrarlanan romantik hekayədir. Hekayə Kornuallı cəngavər Tristan (Tristram və s.) ilə İrlandiya şahzadəsi İzolda (İsolde, Yseult vəs.) arasındakı qadağan olunmuş sevgidən bəhs edir.Əsər Qərb incəsənətinə və ədəbiyyatına əhəmiyyətli təsir göstərmişdir. Hekayənin təfərrüatları bir müəllifdən digərinə fərqli olsa da, ümumi süjet quruluşu demək olar ki, eynidir. Bəzi mənbələrdə bu faciəni "zina eşq" də adlandırırlar. İlk dəfə 1210-cu ildə Qotfrid fon Strasburq tərəfindən tərtib edilmiş Kelt mənşəli ingilis dastanı, Dünya ədəbiyyatının ən gözəl dastanlarından biridir. Daha sonra, 1300-cü ildə 3344 sətirlə Ser Tristram adı ilə yazılmış, lakin ən mühüm işi Ser Walter Scott etmişdir. Tristanın xarakteri və hekayəsi müəllifdən müəlifə dəyişir. Hətta qəhrəmanın adı belə müxtlif dillərdə, müxtəlif formalarda təqdim olunur. Bunanla belə, ən əsas ad; "Tristan" olaraq qəbul olunur. Tristanın əfsanəsi iki əsas mənbədən qaynaqlanır. Birinci mənbə XII əsrin ikinci yarısında yaşamış iki fransız yazar, Tomas Britaniyalı və Beruol Normandiyalının (və ya Bretonlu) romanlarından qaynaqlanır. İkinci mənbə isə Tomas və Beroulun əsərlərindən ciddi şəkildə fərqli yazılmış Pros Tristandan qaynaqlanır.

Açar sözlər: romantik hekayə, qadağan olmuş məhəbbət, zina eşq, kelt dastanı

Giriş

Gördüyümüz kimi əsər olduqca maraqlı, bir o qədər də trajik-romantik əsərdir. Əsərdə elə məqamlar var ki, oxucu oxuduqca gözünün qarşısına başqa əsərlərdən sujetlər canlanır. Əslində bu normal bir şeydir, çünki dünya ədəbiyyatı bütün yerlərdə eyni vaxta inkişaf etməmişdir. Ancaq bir-birlərinə yetəri qədər təsir etməyi bacarmışdır. Eyni süjet əsasında başqa obrazlarda, başqa dövürlərdə biz bir əsərin bir başqa formasını görə bilərik. Məsələn elə götürək “Tristan və İzolda” əsərini. Bu əsər Fars dastanı olan “Veys ilə Ramin” əsəri elə bir çox məqamlarda çox səsləşir. Bu əsərində yazılma ilini 1104-1105-ci illər olaraq götürülür. Belə baxanda iki əsərdə 12-ci əsrə təsadüf etmiş olur. Bir çox mənbədə “Tristan və İzolda” əsərinin kökənin araşdırmacıları məhz onun “Veys və Ramin”dən qaynaqlandığını deyir. Bu əsərdə isalmdan öncə İran zadəgan həyatından bəhs edən dastandır. Burda baş qəhrəmanlar: Veys, Ramin, Şəhru (Veysin anası), Monikan (Raminin qardaşı), Viru (Veysin qardaşı və sonradan nişanlısı). Əslində əsəri məzmunu danışmaq yerinə hadisələrin əsas yerlərini vurğulasaq kifayətdir deyə düşünürəm. Əsər Mərv hökümdarı Monikanın Şəhrunu şah məclisində görüb bəyənməsi və onunla evlənmə təklifini etməsi ilə yavaş-yavaş düyümlənməyə başlayır. Ancaq həmin vaxtı Şəhru İran hökümdarı ilə evli olduğu üçün bu qəbul etmir və əgər gələcəkdə qızı olarsa onu Monikana vercəyi vədini verir. İllər sonra Veys olur, ancaq qız çox gözəl olduğundan anası onu öz qardaşı ilə evləndirmək istəyir. Bunu eşidən Monikan Şəhruya xəbər göndərir, öz vədindən geri döndüyünü vurğulayır. Döyüş olur bu döyüşdən sonra Monikan Veysi başdan çixarmaq istəyir, ancaq qız onun qardaşı Raminə aşiq olur. İstər Ramin, istərsə də Tristan saf bir aşiqdir. Hər ikisini biz əsər boyu sanki öz daxili aləmləri ilə mübarizə apardığını görürük. Tristan dayısından çəkinirdi, çünki onu oğlu kimi sevirdi. Bir tərəfdən bu etdiklərinin dayısına qarşı ən böyük haksızlıq olduğunu bilirdi,

ancaq yenə də İzoldaya olan sevgisi hər seyi ardında buraxmağa vadar etdi. Eynilə bunu Ramin haqqında da söyləmək olar. Anca əsərdə bir o qədərdə hirsli, inadkar qadın obrazları ilə də qarşılaşırıq. Həm İzolda, həm də Veys hökümdar qadınları olamaqlarına baxmayaraq, yeri gələndə öz aşiqləri ilə qaçmaq cəsarəti ola bilən, nə olursa olsun onları hər zaman səbrlə gözləyən qadın obrazlardır. Bəs Monikan və Kral Mark haqqında nə deməli? Kral Mark oğlu yerinə qoyduğu Tristanın arvadı ilə əlaqəsi olduğunu bildiyi halda yenə də İzoldanı çox sevir onu bağışlayır. Monikanda həmçinin əsərdə bir az mənfi obraz kimi göstərilsə də oda kral Mark kimi Veysdən başqasını gözü görmür. Qardaşı ilə bir-birlerini sevdiyini bildiyi halda onu bağışlayır, o qaçanda belə onu axdarmaq üçün araxasınca gedir. Hər iki hökmdar sevgisi səltənətini,prestejini yox sayacaq qədər güclü idi. Bir başqa oxşarlıq hər iki qadın obrazın bağışlandıqdan sonra öz təmizliklərini sübut etmək üçün oddan keçirlməsidir. Daha sonra Raminin sürgündə olarkən Gül adlı qızla evlənməsi, eynilə Tristanın ağ əlli İzolda ilə evlənməsində qeyd edə bilərik. Fərqli məqam burdadır ki, Ramin evləndikdən sonra yenə də Veysi unuda bilmir ,buna görə də qadın paltarı ilə Veysin yanına-saraya gəlir. Tristan isə İzolda üçün təlxək geyimində gəlir. Təbii ki, əsərin sonluğuda fərqli bitir. Tristan və İzolda sonda qovuşa bilmir, ancaq Ramin və Veys qovuşur, Ramin 83 il hökümdar olur.

Təbii ki, hamımıza maraqlı ola bilər ki İranda yazılan bir əsər necə Kelt dastanın yaranma modeli ola bilər? Birinci halda mənim qeyd etdiyim kimi ədəbiyyatlar hər zaman bir-birinə təsir edib. Bu elə də təcübləndirici bir şey deyil. Ancaq ingilis qaynaqlarında bu haqqda belə bir şey qarşıma çıxdı: *"Some scholars suggest that the 11th-century Persian story Vis and Rāmin is the model for the Tristan legend because the similarities are too significant to be coincidental. However, the evidence for the Persian origin of Tristan and Iseult is very circumstantial. Some suggest the Persian story traveled to the West with story-telling exchanges in a Syrian court during crusades. Others believe the story came West with minstrels who had free access to both Crusader and Saracen camps in the Holy Land" (URL-1).*Mənbə də deyilir ki, " Veys və Ramin əsəri "Tristan və İzolda" üçün model hesab edilir. Səlib yürüşləri zamanı Veys və Ramin əsərinin Suriyada hekayə mübadiləsi nəticəsində qərbə yayılmışdır. Bəziləri də Müqəddəs torpaqlardakı Xaçlıların həm də Saracen (həmin dövürdə avropalıların müsəlmanlara dedikləri ad, yəni xristian olmayanlar) düşərgələrinə girə bilən aşıqlar tərəfindən yayıldığını söyləyir.

İndi isə başqa əsərlərlə olan oxşarlığına diqqət yetirək. Təbii ki, bunlar hamısı mənim şəxsi fikirimdir. Ancaq elə məqamlar, sujetlər var ki, hamımıza məlum olan nağıllarda, əsərlərdə onlarla qarşılaşmışıq. Məsələn, Əsərdə İzolda onların tək sirrini bilən ən yaxın rəfiqəsi Brangi olduğunu bilir. Və ondan çox qorxur ki, bir gün gedib krala Tristanla ola münasibətini deyər. Ona görə də ən yaxın rəfiqəsini Branginini öldürtmək üçün dustaqlarla əlbir olur. Bununla da qalmır qızın öldüyünə əmin olmaq üçün onun öldükdən sonra dilinin kəsilməsini və ona gətirlməsini tapşırır. İzolda Branginiden dərmanlar üçün otlar istəyir və onu dustaqlarla birgə meşənin dərinliklərinə göndərir. Ancaq dustaqlar qızı öldürməyə qıymırlar və onu sərbəst buraxırlar. İzoldaya da aparmaq üçün bir itin dilini kəsirlər. Bu hissə mənə eynilə "Ağbəniz və yeddi cırtdan" nağılını xatırlatdı. Əgər yadımızdadırsa Ağbənizin ögey anası onun gözəlliyini qısqandığı üçün bir cəlladla əlbir olur və onu meşənin dərinliyinə apararaq öldürməsini, öldüyündən əmin olması üçün də qızın ürəyini gətirməsini əmr edir. Ağbəniz cəlladla birgə gedir ancaq oda qıza qıya bilmədiyindən onu sərbəst buraxır. Daha sonra ögey anasına aparmaq üçün bir ceyran öldürür və onun üreyini çixararaq aparıb qadına göstərir.

Daha sonra Tristanı dayısına tanıtmaq üçün Rohalt illər əvvəl kralın bacısına verdiyi dürü göstərərək nail olması "Bəxtiyarnamə"də Ziyad Həraminin Bəxtiyarın şahın öz oğlu olduğuna

inandırmaq üçün uşağın üzərində atası tərəfindən qoyulan dürü göstərməsi sujeti ilə səsləşir. Əslində həm Ziyad Hərami, həm də Rohalt uşaqları quldurlar öldürməmisi üçün öz evladları kimi qələmə verirlər . Onlara hər bir tərbiyəni, elmi, döyüş sirlərini öyrədib igid bir qəhrəman kimi yetişdirirlər.

Əsəri oxuyarkən, məncə, orda ən günahsızı, ən çox qüruru incidilən ağ əlli İzolda olmuşdur. Onun tək günhı Tristanı sevmək idi. Ancaq Tristan ondan sırf öz sevdiyini- qızıl saçlı İzoldanı unutmaq üçün evlənir. Sonda İzolda hər şeyi öyrənəndə isə Tristandan qisas alır. Ona sevdiyi tərəfindən yarı yolda buraxılmağın necə acı bir hiss olduğunu yaşadır. Bu sujet bizə bir yerdən tanış gəlir elə deyilmi? Təbii ki, Evripidin "Medeya" əsərindən. Biz hər iki əsərdə bir qadının ən saf sevgisini intiqama, nifrətə dönüşdürlməsi nəticəsində hər şeyi edə biləcəklərini gördük. Hər ikisin tək günahı hərşeyləri bahasına ən təmiz duyğularla sevmək idi. Ancaq sonda hər ikisi xəyanətə uğradı. Yazon güc və şöhrət uğruna Medeyaya xəyanət edir. Onu və uşaqlarını ataraq kralın qızı ilə evlənir. Tristan isə sarı saçlı İzoldanı sevdiyi halda onu unutmaq üçün ağ əlli İzolda ilə evlənir. Və imkan tapdiqca öz sevdiyi İzoldanın yanına gedir.

Ağ əlli İzolda xəyanətə uğradığını gördükdən sonra əsərdə söylənilən bu sözlərə diqqət yetirək " *Kadın öfkesi korkunç şeydir. Sakınmalı! Bir kadın ne denli çok severse, hıncını da o denli acımasızca alır. Kolay severler, ama nefret etmeleri de kolay olur. Bir de nefret ettiler mi, bu, dostluklarından çok daha uzun sürer. Aşklarını durdurabilirler, ama kinlerini asla*! (Anonim, 2000: 150).

Eynilə "Medeya" əsərində həmin hislər isə bu sözlərlə təsvir edilir.

Nə qədər möhkəm olsa əvvəl dostluq, məhəbbət,
O qədər qızğın olar sonra düşən ədavət! (Evripid, 2006: 340)

Gördüyümüz kimi hər iki nümunə bizə göstərir ki, qadının nifrəti sevgisindən daha güclü olur. Sevən zaman canlarını belə qurban verməkdən çəkinməzlər, ancaq bir səhv o sevgini nifrətə çevirər biləcək qədər yetərlidir.

Əsərin digər versiya ilə oxşar və fərqli cəhətlər

Yuxarıda da qeyd etdiyim kimi əsərin müxtəlif versiyaları mövcuddur. Versiyaların biri ilə tanış oldum demək olarki fərqliliklər daha çoxdur. Məsələn:

1) Biz əsərdə oxuduq ki kral Mark Tristanın dayısıdır, ancaq başqa bir versiyada Mark Tristanın atasının baronlarından biridir. İrlandiyalılar hücum çəkən zaman Tristanın anası və atası öldürülür. Mark Tristanı evinə aparır və onu bacısı böyüdür. Böydüyü zaman Mark Tristanı öz oğlundan daha çox sevir hətta hakimiyyəti Tristana verecəyini söyləyir.

2) Morholt birnci versiyada İzoldanın dayısıdır , ancaq ikinci versiyada Morholt İzoldan məhz öz nişnalısıdır. Amma hər iki versiyada Morholt Tristan tərəfindən öldürülür.

3) Birinci versiyada İzoldanın atası söz verir ki, əjdahanı kim öldürsə qızını ona verəcək və sözündən də dönmür. Ancaq ikinci versiyada İzoldanın atası oyun qurur, qızını ərə verdikdən sora evladıqdan siləcəyini və vəd etdiyi torpaqları beləcə onlara vermiyəcəyini deyir.

4) İzoldanın anası sağ olduğu bizə çatdırılsa da, ikinci versiyada İzoldanın artıq anası ölmüşdü.

5) Birinci versiyada iksirlə bir-birinə aşiq olurlar, ancaq ikinci versiyada heç bir iksirden istifadə edilmir.

6) Tristan və İzoldanın tanış olmalarında da fərqlilik var. birinci versiyada Tristan öz kimliyini gizlədir tacir olduğunu, gəmisinin qəzaya uğradığını deyir. Ancaq ikinci versiyada İzolda öz adını və kimliyini gizlədir adının Reqana olduğunu deyir.

7) Birinci versiyada Tristan İzoldanı tanıdığı halda dayısına istəməyə gedir. çünki İzoldaya qarşı hər hanısa bir hissi yox idi. Ancaq ikinci versiyada Tristan bilmir ki, İzolda kralın qızıdır. Buna görə Marka söz verir ki qızı ona gətirəcək. Çünki yuxarıda da qeyd etdim ki öz kimliyini gizlətmişdi. Həmçinin bu versiyada Tristanın hər hanısa bir qızla evləndiyinidə biz görmürük

8) Son olaraq sonlarında da çox fərqlilik var idi. Birinci versiyada İzolda Tristanla birgə ölür. Ancaq ikinci versiyada Tristan ölür, İzolda isə yaşayır onu krallara layiq yerdə dəfn etdirir. Tristanın məzarı üstə iki palıd ağacı böyüyür və gözdən itir.

Bütün yazdıqarımdan belə nəticəyə gəldim ki, əsər həqiqətən də oxumağa dəyər bir əsərdir. Həmin dövür cəngavər həyatı, cəngavər layiq bir qadın obrazının yaradılmasından çox məharətlə istifadə edilmişdir. Təbii ki, əsəri diqqətlə oxusaq burda təkcə eşq macərasından deyil, bəzi dövlət işlərindəki xainlik, qarşıdurmalar, mənasız qan tökülən döyüşlər və başqa nəticələrə gəlmək olar. Şəxsən əsərdə Tristan İngiltərəyə gedəndə orda daşın-daş üstə qalmadığını ölkənin talan olunduğunu bizə çatdırılır. Niyə məhz başqa dövlət deyildə İngiltərə? Bəlkə də yanılıram, ancaq əsərin 12 əsrdə yazıldığını nəzərə alsaq İngiltərə 12 əsrdə həqiqətən çətin vəziyyətdə idi. Hətta tarixdən də bizə məlumdur ki, kral həmin dövür öz güclü hakimiyyətindən istifadə edərək, vergini ağırlaşdırır. Cəngavərlər, fedollar mübarizəyə qalxır. Kəndlilər malikanələri dağıtmağa başlayır. Əsərdə də malikanələrin, evlərin dağıldığını, əhalinin çox çətin vəziyyətdə olduğunu, ölkədən alınan vergi çoxluğuna şahid olurq. Kim bilir,bəlkə də, Tristanın gedib İngiltərəni zülmdən qurtarması,dövləti yenidən dirçəltməsi gələcək üçün bir ümid idi. Yenə də qeyd edirəm ola bilsin ki, həqiqətdə bununla heç bir əlaqəsi yoxdur. Ancaq yenə də İngiltərənin elə bir vaxtda, elə təsvirinin verilməsi təsadüfi deyil,məncə. Necə deyərlər,bəlkə də, təsadüflər görə bilmədiyimiz gerçəklərdir..

Qaynaqlar

- OBAY, Sabiha.(2000). ”*Trıstan ve İseut”*. İstanbul: Çağdaş Matbaacılık Yayıncılık.
- RZAQULUZADƏ, Mikayıl. (2006). EVRİPİD-Antik Ədəbiyyat Antologiyası *Medeya,* Bakı: “Avrasiya Press.
- URL-1. Wikipedia. (2023). “Tristan and İseult” https://en.wikipedia.org/wiki/Tristan_and_Iseult (2023.17 fevral)

Abstract

Tristan and Isolde is a romantic story that has been repeated in many versions since the 12th century. The story tells about the forbidden love between the Cornish knight Tristan (Tristram, etc.) and the Irish princess Isolde (Isolde, Yseult, etc.). The work had a significant influence on Western art and literature. Although the details of the story vary from one author to another, the general plot structure is almost the same. In some sources, this tragedy is also called "adulterous love". English epic of Celtic origin, first composed by Gottfried von Strasburg in 1210, is one of the most beautiful epics in world literature. Later, in 1300, it was written as Sir Tristram with 3344 lines, but the most important work was done by Sir Walter Scott. The character and story of Tristan varies from author to author. Even the name of the hero is presented in different languages and in different forms. However, the most basic

name; It is accepted as "Tristan". The legend of Tristan comes from two main sources. The first source comes from the novels of two French writers of the second half of the twelfth century, Thomas the Britannic and Beruol the Norman (or Breton). The second source comes from Pros Tristan, which is written quite differently from the works of Thomas and Beroul.

Key words*:* romantic story, forbidden love, adulterous love, Celtic epic

VƏTƏNİMİN HAQQ BAĞIRAN SƏSİ-ƏHMƏD CAVAD

Leyla SALMANOVA
Bakı Avrasiya Universiteti, bakalavr
Elmi rəhbəri: dos. Xatirə Yusifova

Özət

Hamımız bu həyata sadə insanlar olaraq gəlmişik. Bizə verilən ömrü yaşayıb vaxtı çatan zaman isə köçüb gedirik. Bəlkə də, müəyyən vaxtdan sonra bizi heç kim xatırlamayacaq. Ona görə də bu həyatı necə yaşamağımız deyil, ardımızda necə iz buraxıb getməyimiz daha önəmlidir.

1892-ci il 5 may... Axund Məmmədəlinin ailəsində bir körpə dünyaya gəldi. Kim bilərdi ki, həmin körpə gələcəkdə hamımızın tanıdığı, könlümüzə əbədiyyən öz taxtını quran Əhməd Cavad olacaq. Ancaq nə o məsum körpə, nə də ana-ata onun gələcək həyatındakı qaranlıqları, keşməkeşli yolları görə bilməzdi. Yazıq ana övladının ağır günlərinin bir qismini belə sezə bilsəydi, bəlkə də, gecə kimi qara saçına bir gecədə dən düşərdi. Yazıq qadının taleyi sanki əvvəldən gətirməmişdi. Gənc yaşda ömür-gün yoldaşını itirmiş, tək ümidin oğluna bağlamışdı.

Açar sözlər: *Əhməd Cavad, keşməkeşli həyat, əbədi sevgi.*

Giriş

Vətən sevgisi elə bir şeydir ki, o hər kəsə nəsib olmur. Həqiqətən də, o ülvi sevgi, saf məhəbbət yalnız Allah tərəfindən seçilmiş xüsusi insanlara verilir. Biz öldükdən sonra yaxşılıqlarımızın mükafatını alacağımız düşüncəsiyilə yaşayırıq. Belə çıxır ki, Əhməd Cavad hələ sağ ikən bu həyatda Allah tərəfindən mükafatların ən alisinə sahib olub.

Əhməd Cavad 45 il ömür sürdü. Bu müddət ərzində o təkcə bizim deyil, türk dünyasının sevimli şairinə çevrildi. Yazdığı şeirlər dillərdə gəzdi, marşlara çevrildi. *"Mən xalqım üçün doğulmuşam... Xalqımın taleyi mənim taleyim olacaq",* - deyən Əhməd Cavad, həqiqətən də, son nəfəsinə qədər xalqının qoruyucusu, haqqı bağıran səsi oldu. Xalqı kədərlənəndə kədəri, sevinəndə sevinci yaşadı. Yeri gəldi, silah götürüb döyüşə getdi. Vətən sevgisi onun ruhunu elə ağuşuna almışdı ki, şair könlü bu haqsızlıqlara tab gətirə bilmirdi. Tək silahı qələmi idi. Ancaq bu qələm sadə bir qələm deyildi. Sanki bir ordu gücünü tək başına üstələnmişdi.

Hələ gənc yaşlarında yazdığı şeirlərində belə öz mövqeyini sərt bir şəkildə göstərdiyini biz görürük. Şeirlərini oxuyarkən sanki bir xəyali aləmin içinə qərq oluruq. Maraqlısı budur ki, biz orada özümüzü bir quştək azad, güvəndə hiss edirik. Turançılıq, bayraq, vətən - bu kimi sözlər sanki şairin yaradıcılığının açar sözləridir. O təhlükəsiz Cavad dünyasına - xəyali aləminə girə bilməmiz üçün bizə təqdim olunan bu açar sözlərinin sirrinin nə demək olduğunu anlasaq, qeyri-şərtsiz qapılar üzümüzə açılacaqdır. "Azərbaycan Bayrağına" şeirindən gətirdiyimiz nümunəyə nəzər yetirək:

Türküstan yelləri öpüb alnını
Söyləyir dərdini sana, bayrağım!
Üçrəngin əksini Quzğun dənizdən
Ərməğan yollasın yara, bayrağım! (Seçilmiş əsərlər,2005:127)

Bir çox mənbələrdə Türküstan bütün türk dövlətlərinin ümumi adı olarq qeyd olunur. Azərbaycan Xalq Cumhuriyyəti həmin dövürdə Şərq və Türk dünyasının ilk müstəqil,

demokratik dövlət idi. Digər türk dövlətləri isə (Osmanlılar istisna) əraziləri istismarla uğramışdı. Və burda şair onu elə gözəl ifadə etmişdir ki, buda onun gözəl qələm ustadı olamsından irəli gələn bir şeydir. "Quzğun dəniz" isə Xəzər dənizinin qədim adlarından biridir. Məhz bayrağımızın üç rənginin Xəzər dənizdən keçərək yenə də yara- türk ellərinə hədiyyə yollamasını qeyd edir.

Qayı Xan soyundan aldığın rəngi,
Qucamış Elxanla, müsəlman bəgi (Seçilmiş əsərlər, 2005: 127).

Qayı boyu qədim türk boylarından biridir. Onların bayrağının rəngi mavi olmuşdur. Məhz *"Qayı xan soyundan aldığın rəngi"* deyəndə burada bayarağımızda olan, bizim türklüyümüzü bildirən, mavi rəngdən söhbət gedir. Elxanilər də vaxti ilə İslam dinini ilk dəfə olaraq dövlət dini elan etmişdilər. Burda isə bayarğımızda olan, islamın simvolu sayılan yaşıl rəngdən söhbət gedir. Və bununla biz bir şeirdə həm böyük Turan aşiqi, Turan şairi, həm də tarixə dərindən bələd olan bir insanı gördük. Bir sözün mənasını açmaqla gördük ki, balaca bir cümlədə, sözdə böyük bir tarix yatır. Məhz elə bunlar Əhməd Cavada məxsus, onun dünyasının sirləridir.Buraya daxil olandan sonra sanki illərdir, bu torpaqlarda deyil, başqa diyarda yaşamışıq kimi düşüncələr fikrimizdə dolaşacaq.*Məsələn :*

Durna gözlü bulaqların,
Cənnət kimi yaylaqların!
Geniş-geniş oymaqların,
Azərbaycan! Azərbaycan! (Seçilmiş əsərləri,2005:213)

Yanından yüz dəfə keçdiyimiz, gördüyümüz bulağa və yaxud da yaylağa düşünürəm ki, heç kim belə bir tərzdə yanaşa bilməmişdir. Orada epitet (durna gözlü) və təşbehin (cənnət kimi yaylaq) mükəmməl şəkildə işlədilməsi, şairin əsl şairlik bacarığından irəli gələn bir şeydir. Mənim fikrimcə, *"Azərbaycan, Azərbaycan "* şeiri Azərbaycanın ilk dəfə belə gözəl şəkildə təsvirini verən şeirlərdən biridir. Şeiri oxuyarkən böyükdən-kiçiyə, ixtisasından aslı olmayaraq hər kəs bir rəssama çevrilir. Öz beynimizdə Əhməd Cavadın sözləri ilə birgə sanki ana yurdumuzun tablosunu çəkirik.

Görkəmli şəxslərin Əhməd Cavad haqqında söylədiklərini oxuyarkən, professor Yaşar Qarayevin fikirləri mənim çox xoşuma gəldi. Sanki Əhməd Cavadla bağlı saysız-hesabsız düşüncələrimi bir cümlə ilə izah etmişdi : *"İntibah- deyəndə ilk xatırlanan Nizami olur. "Məhəbbət" deyəndə birinci Füzulinin adı çəkilir. "Cumhuriyyət" deyəndə yada hamıdan əvvəl Əhməd Cavad düşür" (Əliyeva və Əhmədova, 2017: 8).* Bu gün bir gerçəkdir ki, " Cumhuriyyət nəğməkarı", " Poeziyanın Rəsulzadəsi" ifadələri şairimin adının simvoluna çevrilib. Dahi şairim həm əqidəsin də, həm də məhəbbətin də sələflərinidən ilhamlanmışdı . O , bizim dövrümüzün həm Nizamisi , həm də Şükriyyə xanıma olan məhəbbətinə görə Füzulisinə çevrildi. "Leyli və Məcnun" kimi nakam bittdi "Şükriyyə və Cavad" sevdası. Şükriyyə xanım ailəsindən vaz keçdi sevgisi üçün. Dövrünün Leylisi adlandırdığım xanım, ondan da cəsarətli oldu və hər şeyə rəğmən Cavadla qaçdı. Şairin Şükriyyə xanım üçün yazdığı "Şükriyyəm üçün" şeirinə diqqət yetirsək orada bu məhəbbəti aydın bir şəkildə hiss edərik:

Şerimin sözüsən, sözün- ahəngi!
Üzündə bərq vurur güllərin rəngi!
Xəyalın, camalın gözəl çələngi!
İlham yetim qalar, ağıl – kəm sənsiz! (Seçilmiş əsərlər,2005:40)

Bəlkə də , şairi ruhlandıran, ona arxa-dayaq olan elə Şükriyyə xanımın məhəbbəti olub. Onun üçün Şükriyyə xanımın məhəbbəti bir aləm, Vətən məhəbbəti başqa aləm idi. Məhz onu

güclü, qorxmaz edən də bu iki məhəbbət gücü idi. Şükriyyəsinə qovuşmuşdu sıra vətəninə-müstəqil vətəninə qovuşmaq üçün çırpınırdı.

Təbii ki, vətənini bu qədər sevən bir şəxs kimi heç vaxt onun düşmən işğalı altında olmasını həzm edə bilməzdi. Axı onun xəyalları, arzuları bu deyildi. Vətəni üçün canını qurban edən Əhməd Cavad, nəhayət, 1918-ci il 28 mayda öz kamına çatdı. Qafqazın üzərinə Azərbaycanın Cümhuriyyət günəşi doğdu. Cümhuriyyətimiz isti ana qucağı kimi bütün övladlarını başına yığıdı.

Bu olanlar şairi hədsiz sevincə boğdu. Axı illərdir xəyalı qurulan, həsrətlə gözlənilən şeylər həyata keçirdi. Ancaq nə bilərdi, başı bəlalı yurdun başı bəlalı övladı olduğunu. Bütün bunlar sanki onun şair qələminə bir az da güc, ilham gətirdi. Ürəyi sözlərlə dolu olan şairimiz hey yazır, bitməyən arzu və istəklərini vərəqlərə tökür, xalqının ilham mənbəyinə çevrilirdi. Sevincini xalqı ilə bərabər qardaş Türkiyə ilə də bölüşürdü. Sanki bir ananın iki oğlu illərdir, bir-birindən ayrı düşmüşdü. Bu həsrətə Nuru Paşanın Azərbaycana gəlməsi ilə son qoyulur. Əhməd Cavad uşaq kimi sevincli, məğrur bir şəkildə böyük qardaşını qarşılayır. Hələ sözlərini 1914-cü ildə yazdığı "Çırpınırdın Qara dəniz" şeirini ilk dəfə orada səsləndirir və qardaşına ərmağan edir. O bu şeiri ilə sanki türk qardaşlığı adından dünyaya bir mesaj göndərdi

Dost elindən əsən yellər,
Bana şeir, salam söylər.
Olsun turan bütün ellər
Qurban Türkün bayrağına! (Seçilmiş əsərləri, 2005: 140)

Bu gün bir gerçəkdir ki, "Çırpınırdın Qara dəniz" şeiri türk dünyasının marşına çevrilib, hələ də öz orjinallığını saxlayır.

Bu qədər fədakarlıqlardan sonra yenə də Vətənə özünü hər zaman borclu bilirdi. Axı başqa nə edə bilərdi ki? Bizə görə bu etdikləri yetərli ola bilər, amma bunlar onun üçün çox cüzi bir sey kimi gəlirdi. Ona gorə də ən çətin işin öhdəsindən gəldi. Üçrəngli bayrağımız ilk dəfə onun qələmi ilə yaddaşlara, qəlbimizə həkk olundu. Bizə elə bir himn miras qoydu ki, bu gün bütün Azərbaycan xalqı onun ruhu qarşısında baş əyir, minnətdarlığını bildirir. Bəli, dövlətimiz var idi, ancaq onu əsas rəmzlərindən biri olan himni yox idi. Əhməd Cavad isə bir qılınc kimi iti olan qələmi ilə irəli çıxaraq "*Ey qəhrəman övladın şanlı vətəni! Üçrəngli bayrağınla məsud yaşa!" - dedi*.

Özümüzü dərk edə bildiyimiz andan bizə himnimiz öyrədilir. Bir himndə biz həm məğrurluğu, həm kədəri, həm də məhəbbəti duyduq. Bayrağımıza qarşı ilk sevgini biz oradan öyrəndik, vətənimizin kədərinə biz ilk dəfə orada ortaq olduq. Hələ adımızı yaza bilmədiyimiz, yalnız ana-ata sevgisi duyulan yaşlarda yurdumuza *"Sən olasan gülüstan, Sənə hər an can qurban! Sənə min bir məhəbbət sinəmdə tutmuş məkan!"* - dedik. Niyə? Çünki biz də Əhməd Cavadı yetişdirən torpağın övladlarıyıq. Biz Əhməd Cavadın ümidlə baxdığı həmin o gələcəyik. Damarımızdan eyni qan axır. Bəlkə də, onun kimi fədakarlıqlar edə bilmərik, amma ən azı onun bizə qoyub getdiyi bu vətən sevgisini, bu mirası layiqincə daşıya bilərik.

Bu gün türk dünyası onu baş ucalığı ilə öyrənirsə, bəs biz nəyə görə öz yurdumuzun şairinə, onun şeirlərinə sahib çıxıb öyünməyək? Bütün bunlar onu cümhuriyyət nəğməkarı kimi ürəklərə qızıl hərflərlə həkk etdi. Ona görə də bu gün Cümhuriyyətin adı gələndə ağlımıza gələn ilk şəxslərdən biri odur. Bax, Dünyada iz qoyub getmək buna deyirlər.

Əvvəldən də qeyd etdiyim kimi, başı bəlalı yurdumun, başı bəlalı övladı... Əslində, bu çox ağır ifadədir. Çünki nə vətənimin, nə də şairimin sevinci uzun çəkmədi. Yurdumun üzərində yenə də düşmən nəfəsi hiss olunurdu. Sanki düşmənin o pis nəfəsindən qızılgüllər içərisində

tikanlı qanqallar boy ataraq yurdumun köksünə batdı. 23 ay mövcud olan Qafqazın nazlı qızı başına yenə qaralar bağladı.

Əhməd Cavad bu olanlardan çox sarsıldı. Bütün ümidləri puç oldu. Cumhuriyyətin süqutundan sonra sanki bir gül kimi solmağa başladı. Artıq onun həyatına işıq saçan nazlı günəşi yox idi, hər tərəfi qaranlıq bir zülmətə bürünmüşdü. Bundan sonra o cəmi 4-5 şeir yazır ki, bununla da o, ölüm fərmanına imza çəkmiş olur. Ancaq bu onu qorxuda bilməzdi .Vətənini itirməklə o, yetim bir uşaq kimi çarəsiz qalmışdı. Yetim bir uşağından, bir quru canından başqa itirəcək heç bir seyi olmadığı üçün kimdən, nədən qorxsun? Əksinə o düşmənlərin qorxulu yuxusuna çevrilmişdi. Vətənə bu qədər bağlı olan bir şəxsin, əlbəttə, bir gün haqsızlıqlara qarşı səsini çıxaracağını bilirdilər. Hansısa bir yolla onu aradan götürməyi özlərinə borc bildilər.

4 iyun 1937-ci il... Bu qanlı tarixdə ana vətənim yasa qərq olmuşdu. Səsini kimsə duymur, köz basılan yarasına heç kəs məlhəm olmurdu. Bir ananın ağuşundan neçə-neçə övladını alıb heç günahı olmadan, zülmlərlə öldürülməsinin şahidi olur xalqım. Təbii ki, anaya ən böyük zərbəni onu ən çox sevən övladını əlindən almaqla vurmaq olardı. Həmin gün Əhməd Cavad sonuncu dəfə ana vətənin qoxusunu içinə çəkdi. Son dəfə ona baxıb məğrur bir şəkildə ana yadigarı olan Cümhuriyyətimizin üstündə ilk dəfə dalğalanan o üçrəngli bayrağı qatlayıb cibində gizlətdi. Ölənəcən qəlbinin başında yer aldı o bayraq.

Təkcə geridə Vətənini yox ikinci yuvası- hər şeyi olan Şükriyyəsinidə ardında buraxmaq məcburiyyətində idi. Axı əldən nə gəlirdi? Nə bilərdi sevgilisi də onla eyni acıları paylaşacaq, hardan bilərdi ki o məğrur qadın onun adına , ləyaqətinə, namusuna xələl gətirməmək üçün hər şeyi gözə alacaq. "*1937-ci ildə Əhməd Cavad həbs olunandan sonra Mircəfər Bağırov Əhməd Cavadın həyat yoldaşı Şükriyyə xanıma Cavaddan boşanmağı təklif edir. Yoxsa həbs edəcəklər deyir. Şükriyyə xanımın isə Mircəfər Bağırova cavabı belə olur: "Bəlkə də Cavadı güllələyəcəklər. Amma mənim boşanma ərizəm ona güllədən ağır olacaq. Mən Əhməd Cavada görə atam Süleyman bəyi ayaqlayıb, ona qoşulub qaçmışam. Amma Cavadı heç vaxt ayaqlamaram....." (URL-2).* Bu yazını ilk dəfə oxuyan zaman sona qədər bitirə bilmədim. O qədər dəhşətli idi ki, bir qadının bunalara 8 il necə dözə bildiyinə inana bilmirdim. Amma sonra oxudum və öz-özümə bu sözləri dedim: "Əhsən sənə! Azərbaycan qadını, Əhsən! səndə olan qeyrətə, sevgiyə. Həqiqətən də şairimə layiq bir xanımsan".

Şükriyyə xanım nə qədər acı çəksə də hələlik Cavadının sağ olduğunu bilirdi. Qapqara olmuş dünyasında bir təsəlli idi bu ona. Çox çəkmədi... Nə qədər ağır olsa da, 12 oktyabr 1937-ci ildə şairimiz bizim üçün, bizim yolumuzda, vətəni uğrunda düşmən gülləsi ilə gözlərini əbədiyyən yumdu. Arxasında yaralı bir Azərbaycan, nakam bir məhbbət qoyaraq getdi.

Bu gün Əhməd Cavadın bizə yadigar qoyub getdiyi ana vətəni layiqincə qoruyub qayğısına qalırıq. İndi onun azad ruhu, bəlkə də, bizlərə baxaraq fəxr edir. Bəzən düşünürəm ki, kaş ki onun həyatı belə olmayaydı. Ancaq sonra içimdən bir səs "kaş hər bir insan həyatı nə qədər qısa olsa belə, ömrünü Əhməd Cavad kimi mənalı, dərin izlər qoyaraq yaşaya bilərdi", - deyir.

Əziz şairim, ruhun əbədiyyən şad olsun! Bizə qoyub getdiyin bu gözəl Vətən və miras üçün sənə sonsuz təşəkkürlər edirik!

Qaynaqlar

- CAVAD, Əhməd. (2005). Seçilmiş Əsərləri. Bakı: "Şərq-Qərb"
- ƏLİYEVA, Aynurə. ƏHMƏDOVA, Sevil. (2017). *Şanlı vətənin qəhrəman övladı Əhməd Cavad,* Bakı: "F. Köçərli adına Respublika Uşaq Kitabxanası"

❖ URL-2. Əliyev Zaur. 2018. “Əhməd Cavad və onun sevgilisi Şükriyyə xanım...” 2023. 3 fevral https://qadinkimi.com/az/ehmed-cavad-ve-onun-sevgilisi-sukriyye-xanim/

Abstract

We all came into this life as simple people. We live the life we have been given and when the time comes, we move away. Perhaps, after a certain time, no one will remember us. Therefore, it is not how we live this life, but how we leave a mark behind us that is more important.

May 5, 1892... A baby was born in the family of Akhund Mammadali. Who would have known that that baby will be Ahmad Javad, whom we all know, who will forever establish his throne in our hearts. However, neither that innocent baby nor his parents could see the darkness and turbulent paths of his future life. If the poor mother could sense even a part of her child's hard days, perhaps her black hair would fall out overnight. The fate of the poor woman was as if she had not brought it from the beginning. At a young age, he lost his lifelong partner, and his only hope was his son.

Key words: Ahmad Javad, turbulent life, eternal love

“DİL OYUN”LARININ MANİPULYATİV XARAKTERİ

Dosent Minaxanım ƏFQAN
Azərbaycan Dillər Universiteti

Özət

Dilçilikdə dilə məxsus bir sıra fuksiyaları mövcuddur. Bu funksiyalar dilin işlənmə mexanizminin təminatçısıdır. Fikirlərin ifadələrə çevrilməsində bu funksiyaların hər birinin iştirakı vacib hesab olunur. Praqmatik nöqteyi-nəzərdən dil və hərəkət əlaqəsinin ən bariz göstəricisi danışıq aktlarıdır. Həmin danışıq aktları da dilə məxsus funksiyalar əsasında aktiv fəaliyyət nümayiş etdirir. Danışıq aktlarının ən xüsusi növü “dil oyun”larıdır. “Dil oyun”ları termini tədqiqatlara dil fəlsəfəsi sahəsindən daxil olmuşdur. Onlar düşüncə-dil-dünya arasında olan münasibətlərin əlaqələndirilməsində xüsus rol oynayırlar. Bu oyunvari ifadələr dilə məxsus funksiyaları daha da aktivləşdirir və nəticədə adresat davranışının manipulyasiyana nail olur. “Dil oyun”ları və onların özünəməxsus xüsusiyyətləri bütün canlı dillər üçün xarakterikdir. Bu dil vahidlərin dildəki aktivliyi artırır və maraqlı performans nümayiş etdirir. “Dil oyun”ları dildə mövcud olan işarələrdən istifadə edir. Amma istifadə zamanı həmin işarələrin semantik yükündə mütləq dəyişikliklər edir. Hər hansı bir işarənin semantik yükü başqa bir işarənin semantik yükü ilə əvəz olunur və dilin ekspressiv və poetik funksiyası da güclənmiş olur. Bu növ danışıq aktları dilin funksionallığına və dinamikasına təsir edən vahidlər hesab olunur. Əslində “dil oyun”ları dil işarələrinin mürəkkəb formasını sadələşdirir və qarşı tərəfin diqqətini istədiyi məqama yönəldir. Bütün bu mexanizm adresat mentalının nəzərə alınması ilə başlayıb, yenə də sonda həmin mentalda dekodlaşma prosesi ilə sonlanır. “Dil oyun”larının mentallıqla olan sıx əlaqəsi onu daha çox koqnitiv müstəviyə aparıb çıxarır.

Açar sözlər: dil funksiyaları, kommunikativ funksiya, koqnitiv funksiya, “dil oyun”u, yanlış deyimlər, manipulyasiya.

Giriş

Dil fenomeninə məxsus rolların və funksiyaların araşdırılması dilçilik elminə aid vəzifələrdən biri hesab olunur. Cəmiyyətlərarası münasibətlərin qurulması, dünya problemlərinin həll edilməsi, müharibələrin başlanması və dayandırılması kimi sonsuz sayda məsələlərin baş tutması qeyri-adi performans sərgiləyən kiçicik dilin varlığı əsasında həyata keçir. Bu əsasdan “dil dünyanı idarə edir” desək, heç də yanılmarıq. Sözügedən proseslərin hər birində dil üzərinə düşən vəzifələrini icra etmək üçün müəyyən funksionallıqlardan asılı vəziyyətdədir. Dilin funksiyalarını vaciblik aspekti baxımından düzsək, qarşımızda əsas və periferik funksiyalar yığını yaranar. Dilin ən ilkin funksiyası nominativliklə başlayır ki, digər funksiyalar da vaciblik irarxiyası əsasında həmin funksiyanın sayəsində fəaliyyət göstərir. Amma bunu da qeyd etmək lazımdır ki, dilin varlığı onun bütün funksiyalarının icrasını tələb edir. Dil ünsiyyət proseslərində işə düşərkən, demək olar ki, özünəməxsus bütün funksiyalarını da fəaliyyətə cəlb edir. Belə halda ortaya dilə məxsus funksionallıqların müştərək performansı çıxır. Nominativ funksiya ilə yanaşı, kommunikativ, koqnitiv, akkumulyativ, fatik və s. kimi funksiyalar dilin yüksək səviyyədə performansını təmin etmək məqsədilə aktivləşir.

Dilə məxsus funksionallıq adətən dil normaları çərçivəsində yaranmış ünsiyyət proseslərində nümayiş olunur. Amma dili normadan yayındıran, bəzi ifadələr də mövcuddur. Bu cür ifadələr normal aktlardan fərqlənir və funksionallıq baxımından da maraqlı tərzləri ilə

seçilir. Normaların pozulması ilə meydana çıxan ifadələr dilçilikdə “dil oyun”ları termini kimi adlandırılır. “Dil oyun”u termini elmə dil fəlsəfəsinin məşhur filosoflarından sayılan L.Vitgenştayn tərəfindən gətirilmişdir (Wittgenstein,1953.) Əslində belə növ ifadələr vasitəsilə törədilmiş norma pozuntusu adresantlar tərəfindən qəsdən edilir. Belə aktların yaradılmasının əsas məqsədi dil funksionallığını daha da gücləndirmək, informasiyanı qəbul edənlərin beynində müəyyən manipulyativ təsirlər buraxmaqdan ibarətdir. “Onlara bir növ dilin “bəzəyi” kimi də yanaşmaq olar” (Санников,1999). Adından da göründüyü kimi, “oyun” hər bir insanın sosial cəmiyyətə hazırlıq mərhələsində vacib hesab olunan anlayışlardan biri kimi qəbul olunur. Uşaqlıqdan rastlaşdığımız oyunların əslində hər birinin xüsusi məqsədləri vardır. Beyin “oyun”larla göndərilmiş informasiyaları sanki “böyük məmnuniyyətlə” qəbul edir. “Oyun”larla ağ səhifəyə bənzər beyinlərdə bir ömür boyu unudulmaz izlər yaradılır. Elə “oyun”lar vasitəsilə də dünya tədricən kəşf edilir. Hər kəsin koqnitiv bilikləri müxtəlif mənbələr əsasında zənginləşir və istifadəyə buraxılır. Demək olar ki, istənilən şəxs ona məxsus olan hər koqnitiv bilik mənbəyini müəyənləşdirmək iqtidarına malikdir.



Təsvirdə göstərildiyi kimi, bu biliklərdən bir qismi beyinə təhsilimiz vasitəsilə, bir qismi yaşadımız təcrübələrimiz vasitəsilə, bir qismi yaşanılmış emosiyalarımız vasitəsitəsilə daxil olur. Koqnitiv baza paylarının başqa bir qismi “oyun”lar sayəsində formalaşır. Amma nədənsə koqnitiv bazada toplanmış bu biliklərdən “oyun”unun payına düşən hissəsi uzunmüddətli yaddaşda yığılmış biliklər toplusunu xatırladır. “Oyun”a məxsus xarakterik xüsusiyyət onun ünsiyyət prosesindəki performansını da digər aktların permormansından fərqləndirir. Ünsiyyət prosesində tətbiq olunan “dil oyun”ları informasiyaların qarşı tərəfin beynində lazımlı şəkildə yerləşməsinə şərait yaradır. “Dil oyun”ları vasitəsilə yaranan aktlar kodlaşma-dekodlaşma zamanı dil funksionallığını gücləndirən və yüksək təsir gücünə malik olan aktlar hesab olunurlar. Dilin “bəzəkləri” qismində çıxış edən bu vahidlər ünsiyyətə xüsusi emosiyalar qataraq, vəziyyəti daha da effektivləşdirir. Bir tərəfdən dilin ekspressiv funksiyasını, digər tərəfdən isə dilin poetik funksiyasını digər aktlardan daha çox aktivləşdirir. Z.Freyd belə növ aktları dilin yanlışlığı kimi adlandırır: “Qeyri-aydın, yanlış deyimləri iki müxtəlif niyyətin interferensiyası və ya toqquşması kimi adlandırmaq olar. Fərq ondan ibarətdir ki, birinci halda bir niyyət bötövlükdə digərinə qarışır və nəticədə bir-birinə əks mənalı deyimlər meydana çıxır. Digər halda isə niyyətlər təhrif edilir və başqa kombinasiyalar yaranır” (Фрейд,2007:14). Bu baxımdan “dil oyun”u termini tədqiqat proseslərində heç də birmənalı tərzdə qarşılanmır.

Əslində belə aktların istifadəsi beyinin manipulyativlik xarakterinə böyük təsir edir. Beyin manipulyasiyası əslində çox rahat əldə olunan bir məqam deyil. Burada beyin mexanizminə məxsus olan struktur heç də həmişə buna imkan vermir. Məhz “dil oyun”ları beyin

mexanizminin struktur gedişinə müdaxilə etməyə və onu yönləndirmək xüsusiyyətinə malikdir. Bu baxımdan “dil oyun”ları adresat mentalı əsasında dilin koqnitiv funksiyasını daha çox aktivləşdirir və informasiyaların dekodlaşması prosesində də manipulyativ xarakter nümayiş etdirir.

Qaynaqlar

❖ HACIYEVA, Minaxanım. (2021). *Sadə cümlələrdə propozitiv və presuppozitiv əlaqələrin praqmatikası*. *Monoqrafiya.* Bakı: Mütərcim

❖ HACIYEVA, Minaxanım. (2021). *İşarələr sistemi və ünsiyyət. Dərs vəsaiti*. Bakı: Mütərcim

❖ VEYSƏLLİ, Fəxrəddin.(2006). *Dilçilik ensiklopediyası. I, II cild*. Bakı: Mütərcim

❖ Freyd, Ziqmund. (2007). Vvedenie v psixoanalizu. *Leksii. Piter.*

❖ Rubinşteyn, Sergey Leonidovic. (2001). Osnovi obşiy psixologii. Sankt Peterburq

❖ Sannikov, V.Z. (1999). Russkiy yazık v zerkale yazıkovoy iqrı. Moskva.

❖ WİTTGENSTEİN, Ludwig.(1922). *Logisch-philosophische Abhandlung.* London: Kegan Paul

❖ WİTTGENSTEİN, Ludwig. (1953). *Philosophische Untersuchungen.* Great Britain: Oxford

Abstract

There are a number of language-specific functions in linguistics. These functions provide the language processing mechanism. The participation of all this functions is considered important in the transformation of ideas into expressions. From a pragmatic point of view, speech acts are the most obvious indicator of the connection between language and action. These speech acts also show activity based on language functions. The most special type of speech acts are "language games". The term "language games" has entered into research from the field of philosophy of language. They play a special role in coordinating thought-language-world relations. These tricksy expressions additionally activate language-specific functions and as a result achieve manipulation of the behavior of the receiver. "Language-games" and their unique features are common to all living languages. These language units increase activity in the language and demonstrate interesting performance. "Language-games" use the signs that exist in the language. But in the process of use, the semantic load of these signs necessarily changes. The semantic load of any sign is replaced by the semantic load of another sign, as a result the expressive and poetic function of the language became enhanced. These types of speech acts are considered units that affect the functionality and dynamics of the language. In fact, "language-games" simplify the complex form of language signs and lead the receiver 's attention to the right direction. This whole mechanism begins with the consideration of the mentality of the receiver and again ends with the process of decoding in same mentality. The connection of "language games" with the mentality brings it to a more cognitive plane.

Keywords: language functions, communicative function, cognitive function, "language game", false expressions, manipulation.

KOQNİTİV QRAMMATİKA VƏ ONUN KOMPONENTLƏRİ

Nərmin ƏHMƏDOVA
Azərbaycan Dillər Universiteti
Elmi rəhbər: fil.e.d., prof. H.M.Zərbəliyev

Özət

Məqalədə koqnitiv qrammatika və onun komponentləri araşdırılır. Qeyd edilir ki, koqnitiv qrammatika artıq xarici dillərin tədrisinə tətbiq olunmaq üzrədir. Xarici dil auditoriyasında koqnitiv qrammatika və onun komponentlərinin tətbiq olunması getdikcə tələbat halını almaqdadır.

Məqalədə koqnitiv qrammatikanın banisi R.Lanqaker haqqında qısa məlumat verilir və daha sonra onun irəli sürdüyü koqnitiv qrammatikanın komponentləri təqdim olunur.

Koqnitiv qrammatika semantik quruluş və fundamental qrammatik kateqoriyaların şərti əsasları haqqında xüsusi müddəaları ehtiva edir.

Məqalədə qeyd olunur ki, koqnitiv qrammatikada əsas konstruksiya *işarə*dir (*təyinatdır*) və o, hər hansı bir varlığın predikasiya daxilində xüsusi səviyyəyə yüksəldilməsi ilə xarakterizə olunur. Təyin olunmuş obyektin təbiətinə görə predikatların iki əsas sinifi müəyyən edilə bilər: 1) nominal predikasiya - o, bir şeyi təyin edir; 2) əlaqəli predikasiya - bu isə ya zaman əlaqəsini, ya da prosesi təyin edir.

Hər hansı bir təyin olunan obyektin (şeyin) tərifinin verilməsi, yaxud tərifi mücərrəd xarakter daşıyır, yəni o, fiziki obyektlərə deyil, koqnitiv hadisələrə istinad edir.

Koqnitiv semantika struktur dil konvensiyasının spesifikasiyasına uyğunlaşdırılmış konseptuallaşdırmadır. Buna görə də semantik təhlil konseptual strukturun açıq səciyyələndirilməsini tələb edir.

Koqnitiv qrammatika qrammatika və dilçilikdə quruluşa və mənaya əsaslanan yanaşmanı təbliğ edir. Məlum olduğu kimi, dil ümumi koqnitiv proseslərinə əsaslanır. Dili bilmək səslərin mənalarla qoşalaşdığı simvolik vahidlər şəbəkəsini bilməkdir. Əslində, koqnitiv qrammatika tam olaraq səsləndiyi kimidir, yəni o, bütün qrammatikanı koqnitiv qaydalara əsasən təyin edir və diqqəti danışanların şüuruna yönəldir.

Məqalədə R.Lanqakerin koqnitiv qrammatika haqqındakı fikirlərinə və izahına da geniş yer verilir. Qeyd edilir ki, R.Lanqaker koqnitiv qrammatikanın mürəkkəb olması fikrini qəbul etmir və bunun üçün xüsusi müddəalar verir.

Açar sözlər: koqnitiv, qrammatika, məkan, zaman, xarici dil, kateqoriya

Giriş

R.Lanqaker yazır: “Dilçilər də digər adi insanlar kimi düşünürlər ki, dil hədsiz dərəcədə mürəkkəbdir. Onlar (həm dilçilər, həm də adi insanlar uzun müddət vaxt sərf edib dilin mürəkkəbliyi haqqında düşünürlər). Dil o qədər mürəkkəbdir ki, insanların danışması prinsipcə mümkün deyil” (Langacker, 1987: 90).

Verdiyimiz istinad koqnitiv qrammatikanın banisi R.Lanqakerə aiddir. R.Lanqaker amerikalı dilçi və Kaliforniya Universitetində əməkdar professordur. O, koqnitiv qrammatikanı 1980-ci illərdə N.Çomskinin generativ qrammatikasına cavab olaraq hazırlanmışdır və bununla da koqnitiv qrammatika koqnitiv dilçiliyin ilk layihələrindən biri olmuşdur (Bielak, 2013: 11). R.Lanqaker iddia edirdi ki, qrammatika, semantika və lüğət haqqında biliklər ayrı-ayrı proseslər deyildir, onlar eyni kontinuumda mövcuddur. O, (Lanqaker) özünün ikicildlik

“Koqnitiv qrammatikanın əsasları” əsərində koqnitiv qrammatikanın mürəkkəbliklərini təfərrüatlandırmışdır.

Onun qənaətinə görə, bütün linqvistik strukturlar mənalıdır. Məsələn, buraya isimlər və ya feilin keçmiş qeyri-müəyyən zaman forması da daxil ola bilər. Koqnitiv qrammatikada bu strukturlar ayrı-ayrı varlıqlar kimi deyil, idrak və qavrayış baxımından tam təsvir kimi qəbul edilə bilər. Sözlər və qrammatik qaydalar konkret, mənalı simvollardan sxematik, ümumiləşdirilə bilən simvollara (yəni subyektlər və müddəalar) qədər kontinuumda mövcuddur.

R.Lanqaker hesab edirdi ki, dil istifadəyə əsaslanır: danışanlar (dil istifadəçiləri) simvolik vahidlər haqqında məlumatlıdırlar, çünki onlar müxtəlif koqnitiv hadisələr arasında əlaqə qurur, bu da keçmiş təcrübələrinin cari anlayışlarının məlumatlandırmasına imkan verir (Langacker, 1987: 25).

Giriş

R.Langacker qrammatikanı təşkil edən üç əsas komponentin olduğuna inanırdı (Langacker, 1987:56):

1) Semantika və fonemlər səslər və koqnitiv quruluşlar arasında birlik (birləşmə) yarada bilir. Məsələn: “book” (kitab), yaxud “Will you pass the gravy?” (Zəhmət olmasa xörəyin sousunu verə bilərsiniz?)

2) Koqnitiv sxemlər. Buraya daxil edə bilərik: isimlər, köməkçi sözlər, feilin zamanları və s.

3) Səslər və koqnitiv strukturlar arasındakı kateqoriyalara ayırma və xüsusi koqnitiv sxemlər arasında əlaqələrin təsnifatı. Bunu belə müəyyən edə bilərik: “book” (kitab) isimdir, yaxud “Will you pass the gravy?” (Zəhmət olmasa xörəyin sousunu verə bilərsiniz?) cümləsi sual cümləsidir.

Qeyd edilən bu üç qrammatika komponentini genişləndirmək üçün R.Lanqaker bir çox fərqli anlayışları tədqiq etdi: bir konsept bu idi ki, bütün ifadələr bir freym (çərçivə) yaradır. Bu freym təməl (əsas) kimi bilinir və freymin profil adlanan müəyyən hissəsini təşkil edir. Məsələn, My brother (mənim qardaşım) ifadəsi bir ailə şəbəkəsinin çərçivəsini xatırladır və bu çərçivədə “qardaş” əsas profil hesab olunur. Qardaş konseptinin nə olması və ya ailə şəbəkələrinin necə işlədiyi barədə əvvəlcədən məlumat olmasa, “mənim qardaşım” ifadəsinin nə mənanı verməsini anlamaq olmaz.

R.Lanqakerin digər diqqət verdiyi konsept (yaxud komponent) *əlaqələrdir* (relations). *Əlaqələr komponenti* müxtəlif simvollar arasındakı əlaqələri ifadə edir. Buraya əsasən *sözönləri, sifətlər, feillər* və s. bu kimi nitq hissələri daxil olur. Məsələn, “below” (aşağıda) sözönü müəyyən bir məsafədə iki məfhum arasındakı əlaqəni ehtiva edir; digər nümunə: “better” (daha yaxşı) sifəti bir məfhumun keyfiyyəti ilə digəri arasında əlaqəni ifadə edir; “eats” (yeyir) feili şəxs və yemək arasındakı əlaqəni göstərir.

Əlaqələrdən başqa *konstruksiya* eyni vəziyyəti müxtəlif yollarla təsəvvür etmək və təsvir etmək komponenti kimi qəbul olunur. Məsələn iki konstruksiyaya baxaq: *The cat is behind the mouse* (Pişik siçanın arxasındadır) və *The mouse is behind the cat* (Siçan pişiyin arxasındadır). Hər iki konstruksiya eyni ssenarini təsvir edir, lakin onları fərqli şəkildə əks etdirir. Məsələn: *The cat is behind the mouse* konstruksiyası itin nəzər nöqtəsinə diqqət yetirir; digər cümlə isə pişiyin nəzər nöqtəsinə diqqət yetirir. Konstruksiya təməl və profillər ideyalarını əhatə edir. Yuxarıda verdiyimiz iki nümunə (pişik və siçan) iki eyni təmələ əsaslanır – pişik və siçan arasındakı əlaqə. Lakin onlarda fərqli profillər ehtiva olunur. *The cat*

is behind the mouse – cümləsində pişiyin mövqeyi görünür, digərində (*The mouse is behind the cat*) isə siçanın mövqeyi.

Nəhayət, linqvistik vahidlər R.Lanqakerin təklif etdiyi digər mühüm konsepsiya hesab olunur. Bu vahidlər hərtərəfli mənimsənilmiş koqnitiv strukturdur: onlar dildən istifadə zamanı işlədilən koqnitiv vasitələrdi. R.Lanqaker yazır ki, bu bir qədər mücərrəd səslənə bilər. Fikrini daha yadın izah etmək üçün o, qolf oyununu nümunə verir. Qolf çox addımlı bir prosesdir: əvvəlcə klub seçilir; sonra onu müəyyən dərəcədə qaldırırsan; nəhayət, qolf topunu istədiyiniz yerə göndərmək üçün onu müəyyən bir güclə yelləmək lazımdır və s. (Langacker, 1987: 69)

Koqnitiv qrammatika yarandığı gündən dilin konstruksiyasını nəzərdən keçirmək üçün yeni üsullar təklif edir. Xüsusilə koqnitiv qrammatikada ingilis dilini öyrənənlərə feil zamanlarının öyrədilməsi zamanı təhsil kontekstlərindən istifadə edilir. Nəticədə, tədqiqatçılar koqnitiv qrammatikanın auditoriyalarda tətbiq edilməsi üçün pedaqoji strategiyaların işlənib hazırlanmasına diqqət yetirirlər.

Qaynaqlar:

- BİELAK, J., Pawlak, M. (2013). Applying cognitive grammar in the foreign language classroom. In second Language learning and Teaching. Springer: Springer Publishing House.
- LANGACKER, R.W. (1987). Foundations of Cognitive Grammar: Volume I; Theoretical Perspectives. Stanford: Stanford University Press.
- MƏMMƏDOV, A., MƏMMƏDOV, M. (2010). Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı: Çaşıoğlu.

Abstract

The article deals with cognitive grammar and its components. It notes that cognitive grammar is about to be applied to the teaching of foreign languages. The application of cognitive grammar and its components in the foreign language audience is becoming more and more in demand.

The article provides some brief information about the founder of cognitive grammar, R. Langaker, and then presents the components of cognitive grammar proposed by him.

Cognitive grammar contains special provisions about the semantic structure and conditional basis of fundamental grammatical categories.

The article states that the main construction in cognitive grammar is a sign (assignment), and it is characterized by raising any entity to a special level within the predication. According to the nature of the designated object, two main classes of predicates can be defined: 1) nominal predication - it designates something; 2) relative predication - this specifies either a time relation or a process.

The definition of any given object (thing) is abstract in nature, that is, it refers to cognitive phenomena rather than physical objects.

It is noteworthy to state that cognitive semantics is a conceptualization adapted to the specification of a structural language convention. Therefore, semantic analysis requires an explicit characterization of the conceptual structure.

Cognitive grammar promotes a structure- and meaning-based approach to grammar and linguistics. As it is known, language is based on general cognitive processes. To know a language is to know the network of symbolic units in which sounds are paired with meanings.

In fact, cognitive grammar is exactly what it sounds like, that is, it defines all grammar according to cognitive rules and focuses on the minds of the speakers.

R. Langaker's ideas and explanation about cognitive grammar have been widely touched upon in the article as well. It highlights that R. Langaker does not accept the idea of cognitive grammar being complex and gives special provisions for this.

Key words: cognitive, grammar, space, time, foreign language, category

HƏSƏN ƏLİ TOPTAŞ "KÖLGƏSİZLƏR" ROMANINDA MAGİK VƏ POSTMODERN ELEMENTLƏR

Nuray ƏHƏDOVA
Xəzər Universiteti, bakalavr
Elmi rəhbər: : fil.ü.f.d. Ülvi Babasoy

Özət

Həsən Əli Toptaşın yazarı olduğu romanlarda əsasən posmodern elementler daha çox hiss olunur.Həmçinin biz Oğuz Atay, (Tehlikeli Oyunlar, Tutunamayanalar, Korkuyu Beklerken),Orhan Pamuk, (Benim Adım Kırmızı, Kara Kitap),Metin Kaçan, (Fındık Sekiz) və başqa yazarların əsərlərində biz posmodern elementləri görə bilirik.Türk ədəbiyyatı çağdaş yazarları maraqlı mövzu və ahəngdar şəkildə özlərini ifadələri ilə, insan təbiətini əks etdirmələri ilə digər yazarlardan çox fərqlənir.Belə əsərlərdən biridə Həsən Əli Toptaşın "Kölgəsizlər" romanı olmuşdur.Var oluşla yox olmağın sirli dünyasına qərq olan müəllif burda oxucuya insanların daxili dünyasını göstərmək istəyir. "Kölgəsizlər"romanı 1993-cü ildə nəşr olunmuş və "Yunus Nadi Roman" mükafatına layiq görülmüşdür.Müəllif çoxcəhətli yönlərlə bərabər insan mənəvi aləminin bir güzgüsü rolunu oynamışdır."Var olmaq","yox olmaq", "insanın mənəvi aləmini yansıdılması, düşüncəyə güzgü olmaq və s. mövzulara xüsusi diqqət yetirmişdir.Həsən Əli Toptaşın Kölgəsizlər romanı ilk növbədə, oxucunu qeyri-ənənəvi bədii ədəbiyyata cəlb edir.

Açar sözlər : var olmaq, yox olmaq, mənəvi aləm,daxili dünya, düşüncə, Həsən Əli Toptaş, Kölgəsizlər və s.

Giriş

Həsən Əli Toptaşın fərqli baxış və düşüncə bucağı hər zaman öz dərin mənası və ifadəsi ilə fərqlənmişdir.Zamanın içində bir zaman yaradan Toptaş burda insanların mənəvi aləmini,orda olan böhranları, əslində bir kölgəsiz olduqlarını, özlərinə aid bir ideal düşüncəyə sahib olmadıqlarını göstərmək istəmişdir.O iki müxtəlif zamanı bir-birinə bağlanmış və həmin zaman kəsimində hadisələri bir-birinə bağlı, davamlı bəzən bir-birindən çox bağsız şəkildə göstərmişdir.Daxili dünya ilə mənəvi aləmin yoxsulluğunu yansıdan Toptaş posmodern və magik elementlərdən istifadə edərək öz uğurlu imzasını atmışdır.Əsərdə bərbər dükanında olan göyərçin şəkli həmçinin digər zamanda Göyərçin adlı obrazın daxil edilməsi, bərbərin həyatının davamını yaşaması və s. Hadisələr əslində bir-birinin davamı kimi görsənir.Lakin hadisələr bir sonluq tapmadan yarım qalır.Bütün gününü bərbər dükanında keçirən anlatıcı əsərin sonunda oğlundan ülgüc bıçağı istəyir və bu da uzun sürən, sanki illərlə baş verdiyini zənn etdiyimiz hadisələrin əslində bir xəyal məhsulu olduğunu görürük.Əsərin adı da ikinci bir mənasını elə burdan alır.Ruhsuz, sadəcə xəyalın məhsulu olan və istənilən şəkildə idarə edilən insan toplusunu göstərmiş olur.

Obrazlar

Əsəri bu qədər düşündürücü mövqeyə çəkən,onda həqiqi posmodern və magik elementləri cəmləşdirən əsas ana damar obrazlardır. Fərqli zamanda bir xəyali təsvir olan obrazlar fantastik və ikili həyatı təsvir edən oyuncaqlar halına gəlir. Toptaş burda posmodern üslubun bütün imkanlarından istifadə edərək bir xəyal məhsulu ortaya qoymuşdur. Amma bu

fantastika və qeyri-reallıq arasında incə bağda bəzi reallıqlarda mövcuddu. Bunlar adlar, hərəkətlər, hadisələr vasitəsi ilə bizə çatdırılan daxili dünyaydı.İki fərqli zamanda bərbər, muxtar, rəvayəti keçən Fatma,Həmdi və hətta divarda simvolu anılan Göyərçin belə zamanın içində bir xəyal dünyasında həyatlarının davamını yaşayırdılar. Amma onların var olmasının,yox olmasının bir önəmi yoxdu. Çünki onlar ideal və fərdi düşüncə ilə deyil toplu düşüncənin qurbanı halında çıxış edirdilər. Göyərçinin, Çınqıl Nurinin və başqalarının yoxa çıxması var olub və ya olmaması obraz olaraq bir önəm və ya məna kəsb etmirdi.Burda olan əsas məna insan beyninə düşən, ruhunun hiss etdiyi şeylərdi.Onların həqiqətən var olub və ya yox olması buna bağlıdır.

"Qəhrəmanlarının maskalanıb dəyişdirildiyi Kölgəsizdə onun bərbər kimi öz mənliyi var. Onların varlığına şübhə edən rəvayətçilər var. Kəndə gələn bərbər kimdir və haradandır? Onun haradan gəldiyi məlum olmasa da, bərbər onun kim olduğunu bilmir və bu vəziyyəti daim dəyişir. Sorğular: "Onun bunların heç birini bilmirdi. Ola bilsin ki, o, hələ də bir şəhərdə yaşayırdı. O, indi öz dükanında idi; sabun-qaymaq iyilərinə arxasını çevirib pəncərədən küçəyə çıxdı axtarırdı. Yaxud divanda oturan keçi saqqalının belə görmədiyi uzaqlarda..." (URL-1)Personajların postmodern povesti onların varlığını şübhə altına alırsa, modernist mövqe tutmasına mane olmur. Toptaşın mətnini zənginləşdirən fantastika mərkəzli bir yanaşmadır.Onu rəvayət olmaqdan xilas edən də budur. Cennetin oğlu, muhtar, bərbər və bir çox başqa personajlar şəhərdədir. Və kənddə varlıqlarını şübhə altına alarkən, düşdüyü çıxılmaz vəziyyətdən çıxa bilmirlər. Postmoderndən povestə Povest boyu öz daxili aləminə təsirlə girən personajlar, həyatları, yaşadıqları məkan, varlığını şübhə altına alan fərdlərə çevrilirlər.(Öner, 2014).

"Məkan və zaman anlayışı

Zaman içində yaşanan bir zaman görə bilirik burda.Həsən Əli Toptaş iki fərqli zamanda insanların həyatını davam etdirirdi.Əslində əsərin başından bilirik ki,əsər sadəcə bir xəyalın məhsuludur.Yəni real bir sübutu yoxdur.Ona görə də orda olan zaman və ya məkan o qədər də önəmli görsənmir.Əsas diqqət mərkəzində olan şey hadisələrin sonunun hansı mahiyyətə vara bilməsidir. Müəllif öz şüurunda, yəni xəyal dünyasında gah bərbər dükanına dönür,gah keçmişə gedir.Yazıçı burda əsas məkanı insanın özü olaraq görürdü.İnsanın həqiqətən özündə olmasını, özünü anlamasını və zamanın heç bir fərqinin olmamasını göstərirdi.Əgər bir varlıq varsa və insan varlığı ruhuna dayanırsa o zaman o , həqiqətən öz məkanındadır və zamanın hansı bölümündə olduğu önəmli deyildir.Amma Toptaş bu əsərdə qarışıq zamanla bərabər eyni olmayan iki fərqli məkan təsvirinə yol vermişdir.Bu da özündə, öz ruhunda, məntiqi üstündə olmayan insanların girdablı halını göstərirdi.

"O əbədiyyətə dayanan bir yox etmə sxeminin ilk qurbanı idi".(Toptaş,1993:21)

Çınqıllı Nuri üçün söylənən bu sözlər əsərdə zaman qavramının sonsuz bir yola dayandığını göstərir.Öz qərarını verə bilməyən, başqalarının düşüncələri çərçivəsində yaşayan, varlığını dərk etməyən hər kəsin əbədi olan bir yoxluq yaşadığını göstərir. Posmodern əsərlər üçün bu hal xüsusi hesab olunur.Yəni zaman pozuqluğu yaşanır.Zamanın və məkanın bəlli olmadığı durum insanın beynində qarışıq bir durum yaradır.Lakin əsas məna və mahiyyətə mənfi təsir etmir.

"Bir-birindən qopan zamanda zəncirlər vardı.Bu məqamda zamanın axını birdən-birə dayanır; 16 il əvvəl Çınqıl Nurinin Muxtar yoxa çıxdığı günə qayıdır . Bu ikinci zəncirin birinci həlqəsidir; Cingil Nuri Onun qəfil yoxa çıxması, kəndlilərin onu axtarması, illər sonra bərbərin gəlməsi(şəhərdəki bərbərdir), Çınqıl Nuri ilə bağlı söz-söhbətlər, arvadının üç uşağı

ilə evə qapanması... İkinci zəncirin birinci hekayəsində danışılan hekayələr bunlardır: Kənd və bu kənddə 16 il əvvəl itkin düşmə hekayəsi; Cingil Nurinin yoxa çıxması..."(Karaca, 2011).

Var olmaq və yox olmaq anlayışı

"Bəlkə də düz düşünürdü; kənddə hamının bir varı var idi.Hamı kimi bir sürü insan vardı, insanlar kimi evə girib-çıxır, kafedə oturub çay içir, tarlada işləyirdilər. Onlar çinarın kölgəsi altına toplaşıb ölümə ağlayır, toylarda oynayırdılar.Muxtarın bunlardan xəbəri yox idi.Görüşməmişdi. Ola bilsin ki, kənd camaatı böyük qayğı ilə sürüsünü gizlədir, hamı sakitcə öz sürüsünü bəsləyirdi.Bəlkə də hər bir insanın öz üsulu var idi; məsələn, bəziləri bütün gecə yuxu görür, bəziləri isə laylalar içirdi. Kimisi xalq mahnıları və nağılları ilə qidalanıb, kimisi susqunluğu ilə yuxuya verib, səsi ilə yuxuya verib, kimisi də özünü doydurub. Məni yemək, paltar üçün geyindirirdi.Cənnətin oğlu da..."(Toptaş,1993:60)

Var olmaq və yox olmaq anlayışı bu fantastikanın,xəyal dünyasının yansıtmaq istədiyi əsas məqsədlərdən biridir.Əgər hər kəsin bir varı varsa?Bu cümlə qəribə səslənsə belə dərin bir fəlsəfi məna ifadə edir.Çünki bir varı olmaq insanın varlığının həqiqətən olmasının sübutudur.Öz idrakının olmasının nümunəsidir.Varlığı olmayan, heç bir mənaya,əsərin adı ilə desək, kölgəyə sahib olmayan insanlar Toptaşın xəyal dünyasında olduğu kimi bəlli olmayan, mənası və əlaqəsi olmayan zamanda sadəcə oyuncaq kimi idarə ediləcəkdi.Onlar varlığı olmayan mənasızlığı simvolizə edirlər.Toptaş öz düşüncə dünyasında insanları bütün hallar, yönlərdə qiymətləndirmək istəmişdir.Onları qarışıq zaman,məkan, bir-birinin davamı və ya yarım kəsilmiş həyatı olaraq göstərirdi.Ruhu var olmayan insanların fiziki varlıqları onların əsl varlıqlarını sübut etməz, hətta onların var olduğunu şübhə halına sala bilər.Məsələn,kəndə gələn bərbərin kim olduğu bəlli deyildi.Lakin o özüdə kim olduğunu bilmirdi.Bu da onun fiziki varlığının boşluğunu göstərirdi.

Nəticə

Kölgəsizlər romanında xüsusi bir uydurma texnikası vardır.Onda görsənən posmodern və magik elementlərin əsas örnəyi elə budur.Toptaş Anadoluda bir kənd seçərək, folklor rəvayətlərini, xalq inanclarını qataraq hekayəsini bir ucdan öz həyatımıza bağlamağa çalışır.Səbəb-nəticə əlaqəsində inkişaf etməyən , əlaqələrin qarışdığı əsərdə qopuq bağlar mövcuddur. Toptaş türk dilindən mükəmməl istifadəsi ilə bərabər posmodern üslubun möhtəşəm imkanlardan istifadə etmişdir. Bu da əsərdə olan qopuq qolları düşünməyə deyil,izah edəcəyi mahiyyətə fokuslanmalı olduğumuzu hiss etdirir. Cənnətin oğlu, muxtar, bərbər başqa obrazlar şəhərdə və kənddə varlıqlarını şübhə altına alarkən düşdüyü çıxılmaz vəziyyətdən xilas ola bilmirlər. Burda Yunus Əmrənin "İçimdə bir mən var" cümləsi yada düşür. Yazara görə insanlar müxtəlif zamanlarda, müxtəlif yerlərdə və başqa insanlar halına düşmüş kölgələrdən iibarətdir. Əgər onlar həqiqi ruha sahibdirsə,demək, onların içində həqiqətən bir mən vardı. Həsən Əli Toptaş bu əsəri ilə son dövr türk roman tarixində öz fərqli fəlsəfəsi ilə maraqlı iz salmışdır". Romandakı metafantastika, mətnlərarasılıq və çoxsaylı perspektivlər ayrı-ayrı bölmələrdə, lakin bir-biri ilə əlaqədə araşdırılır" (Ayık, 2010).

Qaynaqlar

- AYIK, Ayşegül. (2010). Hasan Ali Toptaşın Kölgesizler Romanında Posmodern Kurgu
- KARACA, Alâattin. (2011). Gölgesizleri'in Kurgu Tekniği ve Teması

❖ ÖNER, Haluk. (2014). Varoluş :Hasan Ali Toptaşın Kölgesizler Romanı üzerinde inceleme
❖ URL-1. Hasan Ali Toptaş -Gölgesizlerhttps://kitapdiyari.com.tr/roman/golgesizler/

Abstract

In the novels written by Hasan Ali Toptash, postmodern elements are felt more. Also, we have Oguz Atay, (Dangerous Games, Tutunamayanalar, Korkuyu Beklerken), Orhan Pamuk, (My Name is Red, Black Kitap), Metin Kachan, (Findık Sekiz) and others. We can see postmodern elements in the works of writings. Contemporary writers of Turkish literature are very different from other writers with interesting themes and harmonious expressions of themselves, reflecting human nature. One of such works is the novel “Shadowless” by Hasan Ali Toptash. Immerse yourself in the mysterious world of existence and disappearance. The author here wants to show the reader the inner world of people. The novel “Shadowless” was published in 1993 and was awarded the “Yunus Nadi Novel” award.reflecting the spiritual world of a person, being a mirror for thinking, etc. Paid special attention to the topics.

Key words: being, disappearing, spiritual world, inner world, thinking, Hasan Ali Toptaş, Shadowless etc.

AHMED CAVAD AHUNDZADE'NİN ŞİİRLERİNDE KOLEKTİF BİLİNÇ VE TURAN ÜLKÜSÜ

Uzm. Samet ÖNDER, Melike KARATEKE
Pamukkale Üniversitesi/Türkiyə

Özet

Azerbaycan Edebiyatı'nın en önemli temsilcilerinden olan Ahmed Cavad Ahundzade yirminci yüzyılda ortaya koyduğu şiirleriyle ardından yetişen birçok edebi şahsiyete ufuk açmıştır. Başarılı şairliğinin yanında onu asıl önemli kılan hususlardan bir diğeri ise fikri dünyasıdır. O, pek çok açıdan fikirleriyle yaşadığı döneme yol gösteren bir ediptir ve onun ülküsü, kavgası, meramı edebiyat aracılığıyla can bulur. Geçmiş ile geleceğin bileşiminde ortaya çıkan milli şuur yalnızca Azerbaycan Türklerini değil farklı coğrafyalarda yaşayan soydaşlarına da bir çağrı içerir.

Şiir onun için uğruna ömrünü adadığı, Türk milletine olan sevgisini betimlediği alandır. Ahmed Cavad'ı okurken edebiyatın kavramsal değerine uygun, şairanelik, samimiyet, his, betimleme ve daha birçok edebi tavır usta bir şekilde karşımıza çıkar, okuyucular onun şiirlerinde mefkûresini imgelendiren bir gözlemciyi de tanımış olur.

Bu gaye ile milletinin sahip olduğu kültürel normların aktarıcılığını da üstlenen Cavad, dizelerinde Türk milletinin siyasi, iktisadi, coğrafi, içtimai alanlarda birlik olmasını açıkça arzulamaktadır, Turancılık ideolojisiyle birlikte ele alınabilecek bu husus kolektif hareketin meşruiyeti üzerinde durur. Bu sonuçla Cavad'ın şiirlerinde ifade ettiği Türk milletinin birlik ideali ve Turan ülküsü yazımız içerisinde ele alınacaktır.

Anahtar kelimeler: Ahmet Cevat, kolektif bilinç, Turan ülküsü

Giriş

Ahmed Cavad Ahundzade, 5 Mayıs 1892'de Gence'nin Şemkir ilçesine bağlı Seyfeli kasabasının Mehrili köyünde doğmuştur. Azerbaycan Cumhuriyeti milli marşının sözlerinin sahibi olan Ahmed Cavad 1892-1937 yılları arasında yaşamış olup, babasının ölümünün ardından annesiyle Gence'ye taşınır ve orada Gence medresesine başlar. Küçük yaşta yaşadığı acı kaybın etkisinin yanı sıra hisli bir çocuk olan Ahmed Cavad ilk şiirlerini bu medresede kaleme almıştır.(Yıldırım, 2021:179)

Devrinin değerli Türk muallimlerimden olan Hüseyin Cavid, Abdulla Sur (Abdullah Sur), Mehmed Efendi gibi isimlerden ders alan Cavad, Rusça, Arapça ve Farsça gibi çeşitli diller öğrenmiştir. Türkiye'deki millî edebiyat ve Türkçülük fikirlerinin etkisinde kalan şair, Azerbaycan'daki millî romantik edebiyat ekolünün en önemli temsilcilerinden biri olmuştur. Ahmed Cavad'ın 1914-1918 yılları arasında Kafkasya, Azerbaycan ve kısmen Türkiye'deki her hareketi ve gelişmeyi özümsediğini ve yaşadığı hissiyatı şiirlerine yansıttığını söylemek mümkündür. 15 Aralık 1915 tarihinde Gence'de yazmış olduğu Türk Dünyasına umut verici nitelikte olan "Çırpınırdın Karadeniz" şiiri en bilinen eserlerinden biridir. Bu şiir Azerbaycan'da olduğu kadar Türkiye'de de çok değerli bir sanat eseridir. Kendi yazdığı şiirlerin yanında Gürcü şair Şota Rustaveli'den çevirdiği Pelenk Derisi Giymiş Pehlivan şiiri, Shakespeare, Puşkin ve Rubala'dan çeşitli şiir çevirileri de bulunmaktadır. Şiirlerine bakıldığında Ahmed Cavad'ı diğer şairlerden ayıran yönü, şiirlerinde öne çıkan milli birlik ve beraberlik yani kolektif bilinci şiirlerine yansıtmasıdır. Bu bilinçte olup halkı birleştirme gayesiyle turan ülküsünden yaşamının sonuna kadar vazgeçmemiştir.

Kolektif bilinç ya da kolektif şuur; bir toplumun fertlerinin aynı duygu ve ruh altında birleşmesini sağlaması demektir. Ahmed Cavad ise tüm Türklerin "milli ruh" altında birleşmesini sağlamıştır. Turan ülküsü ise bu birleşmenin ebedi olmasını amaç edinmektir.

Fikirleri, mücadelesi ve sanatıyla Türk Dünyasında böylesine kalıcı izler bırakan şair 13 Ekim 1937 yılında Azerbaycan Bakü'de hayata veda etmiştir.

Kolektif bilinç

Fransız sosyolog Emile Durkheim'a ait olan kolektif bilinç kavramını bir toplumu oluşturan üyelerin yaşayan inanç ve duyguların tamamı, kendine özgü yaşamı olan belli bir dizgesi olarak tanımlamıştır. Aynı toplum içerisinde yaşayan insanların sahip oldukları ortak duygu ve kabulleri ifade eden terimdir. Kolektif bilince sahip bir toplumdan beklenen toplumu ilgilendiren bir durumda bireylerin aynı fikir altında toplanarak harekete geçmesidir.

Toplumun fertlerinin tek bir ruh ve duygu etrafında birleşmelerini sağlayan kolektif bilinç kavramı böylece aynı toplum için tarihsel süreçte önemli bir rol oynar.

Turan ülküsü

Bugün Turancılık denince Türkiye'de anlaşılan, tarih mirasları da dâhil olmak kaydıyla bütün Türkleri tek bir devlet halinde birleştirmek ülküsüdür. İran kaynaklarında bütün Türklere, Turani kavim denildiği, Türklerin yaşadığı Türkistan topraklarına ise Turan ifadesi kullanıldığı bilinmektedir. Turancılık, kavram olarak Ural-Altay ve Fin-Macar halklarından oluşan ve Turan ırkı olarak tanımlanan toplumların birliğini savunan ideolojik ve siyasî bir terim olarak uzak anayurt ideali mânâsında doğmuştur. Turan kavramını bu iki şekilde açıklayabiliriz ancak "dilde, fikirde, işte birlik" ifadesi pratikte uygulanabilirliğinin en net ifadesi olacaktır. Aynı dil ile konuşup, aynı kültürle yoğrulmuş ve dünyanın çeşitli yerlerinde hüküm sürmüş bütün Türkler Turan'ın bir parçasıdır diyebiliriz.

Rusların, Türklere karşı uyguladığı asimilasyon politikalarına karşı Rusya'da yaşayan Türk aydınlarının başlattığı Cedit Hareketi, Türkçülük Turancılık fikrini de beslemiştir. Gaspralı İsmail'in bütün Türkistan coğrafyasını gezerek gazete, dergi, okul faaliyetleri ile Türkçülük-Turancılık fikri bir zemin oluşturmuştur.

Türkiye sahasında Türkçülük-Turancılık denildiğinde akla ilk gelen Ziya Gökalp de Turancılığın, Türkçülüğe kattığı şevkten "Turan mefkuresi olmasaydı, Türkçülük bu kadar süratle yayılmayacaktı. Ama kim bilir? Belki gelecekte Turan mefkuresinin gerçekleşmesi mümkün olacaktır. Mefkure istikbalin yaratıcısıdır.

Dün Türkler için hayali bir mefkure halinde bulunan millî devlet, bugün Türkiye'de gerçek halini almıştır." (Gökalp, 2019: 20-24) diyerek bahseden Ziya Gökalp, Türkçülüğün uzak hedefi olarak belirttiği Turan için Türklerin dilde, edebiyatta, kültürde birleştirmek, şeklinde ifade eder. Azerbaycan edebiyatında da Ahmed Cavad Ahundzade vazgeçilmez ülküyü yaşatmıştır.

Şiir incelemeleri

Niçin çoktur yarayandan yaramaz?
Niçin böyle arayandan bulan az?

Şair bu bölümde kendi ifadesiyle '**yarayan**' olarak tanımladığı iyi niyetli insanların azınlık olduğunu, yaramayan insan tasvirinin ise çoğunluk olduğunu ifade eder. O, topluma

fayda sağlamanın, iyi insan olma erdemiyle mümkün olacağını belirterek şiirinde birlik vurgusu ile kolektif bilinçaltına çağrı yapar.

Ah, ey felek, ağlar isem
Gözyaşımı kim sile?

"Gözyaşımı kim sile?" sözleriyle Cavad, ağladığında gözyaşını silecek bir kişinin bile olmadığını, kalmadığını **yalnızlık** duygusuyla ifade eder. "Ben Kimim" şiirinin bu bölümünde birlikteliğin yani kolektif yapının altını çizer.

O han sarayında çiçekli bir kız,
Bekliyor bizleri zafer, Bismillah!

Ahmed Cavad, **''Bekliyor bizleri zafer…''** dizesinde kullandığı ''biz'' ifadesiyle bariz bir biçimde kolektif birliği vurgular. Zaferin ancak bir olma sonucunda kazanılacağının üzerinde durur.

Çırpınırdın Karadeniz
Bakıp Türk'ün bayrağına!

Ayrı düştüm dost elinden,
Yıllar var ki, çarpar sinen!
Vefalıdır geldi, giden,
Yol ver Türk'ün bayrağına!

En kıymetli şiirlerinden Çırpınırdın Karadeniz'de, kadim kardeşleri, **Anadolu Türklerine** seslenir. Birinci Dünya Savaşı dönemi mücadelesine atıfta bulunarak gönlünde yoğun bir şekilde bir olma duygusunu yaşadığını söyler.

Gül renginde bir yaprağın,
Ortasında bir hilal!
Ey al bayrak, senin rengin,
Söyle, niçin böyle al!?

Cavad bu bölümde al renkli **Osmanlı sancağına** atıfta bulunarak yine **Anadolu Türklerini** şiirinde konu eder. Onun soydaşlarına söz söylemesi hiç şüphesiz ki kolektif bilincinin bir karşılığıdır.

Ben bir kulum, yük altında ezilmişim, gardaşım,
Sevinç bilmez bir mahlukum, ah u zardır sırdaşım.

Niye susup danışmayam? Türk yurdudur bu toprak,
Oğuzların, Elhanların vatanında kimdir, bak!

Kardeş diyerek nidada bulunan şair yine soydaşlarına sesini duyurmaya çalışır. Bu onun şiirlerinde çokça karşımıza çıkan birliktelik olgusunun bir kanıtıdır. Diğer bölümde

Azerbaycan Türklerini yalnız ifade etmeyerek Oğuzlar ifadesini kullanması yine tüm soydaşlarına karşı hitap etmesi birlik ülküsünden kaynaklanır.

Sordum garip minareden:
Akşam olmuş, ezan hani?
Baykuş konmuş minberlere,
Diyen hani, duyan hani?

‘’Diyen hani..?” ve **“duyan hani?”** İfadeleri şairin birlikte olmaya, kolektif yapıya verdiği değerin bir ifadesi olarak karşımıza çıkmaktadır. Şiir içerisinde baykuşların minberlere konması da topluluk ve birlik merkezlerinden olan camilerin boş kalmasına yapılan bir gönderi olarak gözükür, bu gönderiyle şair milletinin inancını hür şekilde yaşayamadığını ve zorbalığa uğradığını sezdirir.

Vicdanım emretti, imdada geldim,
Mazlum sesi duydum ben dada geldim!

Şair, **‘’imdada geldim**..’’ ve ‘**’dada geldim**!’’ ifadeleriyle yardım bekleyen milletine vicdanını dinleyip koştuğunu ifade eder. Birlik ve beraberliğin önemini okuyuculara tekrar resmeder.

Aşıklardan ses yok, sazları kalmış,
Çoban, sürün hani; tozları kalmış?
İller göç eylemiş, izleri kalmış,

Cavad bu bölümde topluluk vurgusuyla sürüsünden ayrı kalmış çoban ifadesini ortaya koyar. Şair burada milletinin zorbalığa uğradığı, göç ettirildiği, kolektif yapıya ket vurulduğunu vurgular.

Kurtulmak ister de, kanat yaramaz.
İmdadına gelen, ümidinden az,

Ümit var olmanın vurgusuyla birlikte Ahmed Cavad imdada yani yardıma gelenin az olduğundan yakınır. Burada asıl ifade edilmek istenen **birlik** ülküsüdür.

Asırlarca Karadeniz haykırarak, coşarak,
Bu ülkenin her yerini bu dağlardan aşarak;

Karadeniz’den aşan ve haykırarak coşan bir toplumun resmedildiği dizlerde Turan ülküsüyle birlik olma hevesini taşıyan Türk milleti resmedilmiştir.

Ey kardeşler, iş başına! Biz de bir iş görelim!
Yarın Hakk’ın huzuruna tutulgaçla gidelim!

Cavad bu bölümde milletine, kardeşlerine, toplumuna seslenmek birlikte iş görmeleri gerekliliğini ifade etmektedir. Çok açık bir şekilde kolektif yapıyı arzulayan şair düşüncesini ahiret inancı ile pekiştirir.

Ey şanlı ülkenin şanlı ordusu!
Unutmam Kafkas'a girdiğin günü!
Gelirken kovmaya Turan'dan Rus'u,
Ayağın Karadeniz'i öptü mü?

Anadolu Türklerine seslendiği bu dizelerde **Türk Ordusunun Kafkaslara** yardımıyla ortaya çıkan **Türk birliğine** değinir. Rus işgalindeki Turan topraklarının kolektif birlik sayesinde kurtuluşunu ifade ederken bu birliğin önemini anlatır.

Kayı Han soyunda aldığın rengi,
Kocalmış Elhan'la Müslüman begi,

Cavad'ın, Kayı Han telmihi bu şiirinde Oğuzlardan olan **Anadolu Türklerine** doğrudan bir vurgudur. Burada soydaşlarına seslenen şair Türk yurdu algısının Turan düşüncesiyle Türk'ün varolduğu tüm coğrafi noktalar olarak vurgular.

Şiirim sınık bir Türk sazı, ağlatarak tellerini,
Adım adım gezmek ister gönlüm Turan ellerini!
Ben bir Turan yolcusuyum, elimde bir sönük meşal,

Ahmed Cavad kendine **''Ben bir Turan yolcusuyum**…'' diyerek **Turan ülküsüne** olan inancını ve mutlak bağlılığını ifade eder ve ''…Turan ellerini!'' sözüyle Türk dünyasından da söz etmektedir. Bu onun ülküsünü anlamak açısından oldukça net bir örnektir.

''Dil söyledik, fikrimize mezar oldu, Karadeniz.

Sadece bu dizede dahi Cavad'ın Türklük bilincine dair birçok çıkarım yapılabilir. Onun dil söyledik ifadesi Türkçe söylemek üzerine oluşturduğu önemli bir vurguyu ifade ederken, sonuç olarak Karadeniz'de yaşanılanların ölüm metaforuyla hatırlatılması yine hem Oğuz hem de Kıpçak olan soydaşlarının maruz kaldığı zorbalıkları hatırlatır. Burada soydaşlarının acılarını resmederken kolektif yapıya verdiği değeri okuyucuya sezdirir.

O yandaki illerin Sart'ı, Kırgız'ı,
Bu yeni dergaha yol bulcaktır!

Bu bölümde farklı Türk yurtlarına seslenen şair Özbek ve Kırgızlara **''Bu yeni dergaha yol bulacaktır**'' diyerek yine kolektif birliğe dolayısıyla Türklük birliğine yani Turan'a atıf yapar.

Sonuç

Ahmed Cavad Ahundzade ''gardaş kömeyi''nin canlı bir örneğidir, bu ifade kardeşin kardeşe yardımı anlamına gelir. Çalışmamız içerisinde çok daha uzun şekilde ele

alabileceğimiz Cavad'ın Turan ülküsü onun hemen hemen her şiirinde karşımıza çıkar. Ahmed Cavad Ahundzade'nin yaşamı boyunca tüm Türklere kalemiyle nasıl seslendiğini, uyanışa öncü olduğunu şiirlerinde görmekteyiz. Hayatını milli birliğe, turan ülküsüne adamış bir şair olmasıyla Azerbaycan'ın milli şairi olmuştur. Şiirlerin her bir dizesinde sözcükleri özenle işleyerek kolektif bilinci, milli ruh ile oluşturmuş ve böylece turan ülküsünün kuşaktan kuşağa aktarılmasına vesile olurken tüm Türk coğrafyasının birliğine öncü olmuştur.

Cavad, Turan ülküsü başta olmak üzere inandığı tüm değerlere birlik olma olgusuyla gidileceğini savunan bir fikir adamıdır. Böylece çalışmamızda onun şiirleri üzerindeki edebi söyleyişi inceleyip Ahmed Cavad Ahundzade'nin fikri dünyası ile ilgili bir tespitte bulunmaya çalıştık.

Kaynakça

- CEVAT, Ahmed (2022). *Uyan* (Haz. Samet Önder ve Melike Karateke). Yeşil Kayın Yayınları. Denizli
- GÖKALP, Ziya (2019). *Türkçülüğün Esasları.* Eskişehir.
- YILDIRIM, İrfan Murat (2021) "Azerbaycan Millî Şairi Ahmet Cevat'ın Şiirlerinde Türkiye" Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi Sayı: 10/1 2021.179-191.

Abstract

Ahmed Cavad Ahundzade, one of the most important representatives of Azerbaijani Literature, opened the horizon for many literary figures who grew up after him with his poems in the twentieth century. Besides his successful poetry, another of the issues that makes him really important is his intellectual world. He is a literary figure that guides the period in which he lived with his ideas in many respects, and his ideals, fights and aspirations come to life through literature. The national consciousness that emerged in the combination of the past and the future includes a call not only to the Azerbaijani Turks, but also to their cognates living in different geographies.

For him, poetry is the field for which he dedicates his life, describing his love for the Turkish nation. While reading Ahmed Cavad, poeticism, sincerity, feeling, description and many other literary attitudes, which are suitable for the conceptual value of literature, come across in a masterful way, and the readers get to know an observer who imagines his ideal in his poems.

Cavad, who also undertakes the transmission of the cultural norms of his nation with this aim, clearly desires the unity of the Turkish nation in political, economic, geographical and social fields in his verses. With this result, the unity ideal of the Turkish nation and the Turan ideal expressed by Cavad in his poems will be discussed in our article.

Key words: Ahmet Cevat, collective consciousness, Turan ideal

EMOSİYANIN KOQNİTİV PROSESLƏRƏ TƏSİRİ

Sahilə Mustafayeva
Azərbaycan Dillər Universiteti

Özət

Məqalə emosiyaların koqnitiv proseslərə təsirindən bəhs edir. Məqalədə emosiya bir insanın bütün varlığına hakim olan fenomen kimi təqdim edilir. Qeyd edilir ki, emosiyalar bütün dil fəaliyyətini müşayiət edə bilir. Duyğuların koqnitiv proseslərə güclü təsir göstərə biləcəyi artıq çoxdan sübut edilmişdir və bu məqalədə əks olunur. Bu məsələ ilə bağlı ziddiyyətli fikirlərin olması da məqalədə müzakirə olunur. Müəyyən olunur ki, hazırda dil fəaliyyətinin və idrak proseslərinin avtonom və emosiyalardan asılı olmadığı iddiası da mövcuddur.

Bundan əlavə, məqalədə emosiyaların tarixinə də toxunulur. Müəllif bəzi psixoloqların emosiyalarla bağlı fikirlərini təhlil edir. Məqalədə Aristotelin emosiyaya verdiyi tərif təhlil edilmişdir.

Məqalədə emosiyaların nəzəriyyələrinə də toxunulub. İlk nəzəriyyə olaraq emosiyaların təkamül nəzəriyyəsi təhlil edilmişdir. Ç. Darvin emosiya təkamül nəzəriyyəsinin banisi kimi tanınır. Ç. Darvin təbiətşünas kimi təqdim edilir və onun insan və heyvan duyğularının meydana gəlməsi şərtləri müzakirə edilir.

İkincisi, emosiyaların fizioloji nəzəriyyəsidir.

Fizioloji emosiya nəzəriyyəsi yaradıcılarının adları ilə "Ceyms-Lanq nəzəriyyəsi" adlanır.

Psixoloq U.Ceyms və fizioloq K.Lanq bu nəzəriyyənin baniləri hesab olunur. Onların gəldiyi nəticəyə görə, insanların müxtəlif situasiyalarda göstərdiyi emosiyalar onların əks hadisələrə psixoloji münasibətinin nəticəsidir.

Sonrakı nəzəriyyə emosiyaların psixoloji nəzəriyyəsidir. Bu nəzəriyyəyə "Kannon-Bard nəzəriyyəsi" də deyilir. Bu onları yaradanların adlarına görə belə adlandırılmışdı. "Kannon-Bard nəzəriyyəsi"nin tərəfdarları "James-Lanq nəzəriyyəsi"ni dəstəkləmirlər. Qeyd edək ki, hər iki nəzəriyyənin tərəfdarlarının haqlı olduğu və fikirlərinin üst-üstə düşdüyü məqamlar olsa da, onların nəzəriyyələri insan duyğusunun psixoloji vəziyyətini fərqli şəkildə izah edir.

Açar sözlər: *dil, emosiya, koqnitiv, proses, təsir, güc*

Giriş

Emosiyalar insanın bütün varlığına hakim olan fenomen kimi bilinir. Onlar (emosiyalar) bütün dil fəaliyyətini müşayiət edə bilir. Artıq çoxdan sübut olunub ki, emosiyalar koqnitiv proseslərə güclü təsir göstərə bilir. Bu məsələ ilə bağlı zidd bir fikir də mövcuddur. Hazırda belə bir iddia var ki, dil fəaliyyəti və koqnitiv proseslər avtonomdur və onlar emosiyalardan asılı deyildir.

Amerikalı psixoloq U.Ceymiz 1884-cü ildə "What is an emotion?" (Emosiya nədir?) adlı essesini çap etdirir. Həmin essede emosiyanın tarixi və onu necə müəyyən etmənin yolları təqdim olunur. Təbii ki, emosiyanı birmənalı olaraq qəbul etmək olmaz. Emosiya fərqli şəkildə izah edilə bilər. Lakin bir məqamı yadda saxlamaq lazımdır ki, emosiya konseptləri etimoloji olaraq bir-birilə əlaqəlidir.

Emosiyalar insan həyatı üçün olduqca vacib fenomenlər hesab olunur. Alman dilində *Emotion* və *Rührung der eigenen Seele* (stirring of one's soul) sözlərini araşdırsaq görərik ki, onların ikisi də Latın sözü olan *movere* ilə əlaqəlidir. Bütün bu əlaqələrin çox sayda dildə göstərilməsi və izlənilməsi konseptual tarix üçün böyük bir layihə ola bilər və bu layihə yalnız əməkdaşlıq əsasında həyata keçirilə bilər. Bundan əlavə, dillərində emosiya anlayışı olmayan bəzi mədəniyyətlər də tez-tez bu sözü işlədə bilər. Məsələn, Tibet dili. Bəzi tibetliləri bu sual düşündürür ki, niyə onlarda emosiya ifadə edən sözlər yoxdur. Əgər emosiyanın tərifini versək, lakin müxtəlif situasiyalarda onlar da hiss-həyəcan ifadə edə bilirlər. Tibet dilində emosiyalar əsasən müsbət mənalı sözlərlə əks olunur.

Aristotel emosiya barədə belə yazır: "Emosiya kişilərin öz mühakimələri ilə bağlı fikirlərini dəyişməsinə səbəb olan, qəzəb, mərhəmət, qorxu kimi həzz və ağrı ilə müşayiət olunan bütün duyğular və bunların əkslərdir" (Aristotle, 1984: 170).

Emosiyanın tarixi insan duyğuları ilə, xüsusən də duyğuların təcrübə və ifadəsində mədəniyyətlər və tarixi dövrlər arasındakı variasiyalarla əlaqəli tarixi tədqiqat sahəsidir. Burada 20-ci əsrdən başlayaraq L. Febvre və P.Gay kimi yazıçılarla birlikdə genişlənən metodoloji yanaşmalar tətbiq edilir.

Qeyd etdiyimiz kimi, emosiya insanın bütün varlığına hakim ola bilir. İnsanın əqli fəaliyyəti hərtərəfli öyrənilərkən koqnisiya, dil və emosiya bir arada götürülür. Doğrudur, son dövrlərin tədqiqatlarında koqnisiya nəzəriyyəsində emosiyalar o qədər də nəzərə alınmırdı. Lakin son illərdə çox elm sahələrində, məsələn, psixologiya, neyrologiya, fəlsəfə və s. beyində baş verən "emosional dönüşün" öyrənilməsinə maraq artmaqdadır.

Hazırda emosiya konseptinin nəzəri əsasları araşdırılır və müxtəlif elm adamlarının mövzu ilə bağlı gəldikləri nəticələr tədqiq edilir.

Emosiya ilə bağlı fərqli nəzəriyyələr vardır. Onların bəzilərini təqdim edək:

Birinci nəzəriyyə kimi emosiyanın *təkamül nəzəriyyəsini* təqdim edə bilərik.

Emosiya təkamül nəzəriyyəsinin banisi kimi Ç.Darvin tanınır. Naturalist kimi bilinən Ç.Darvin insan və heyvan emosiyalarının yaranma şərtlərini müzakirə və müqayisə edir. Ç.Darvin emosiyanın yaranmasını, inkişaf etməsini insanların və heyvanların canlıqalma cəhdləri, yaşamaq istəkləri ilə əlaqədar olduğunu iddia edirdi. Lakin bu məsələdə fərqli mövqelər də müşahidə olunur. Psixolinqvistlərin mövqeyi naturalistlərin mövqeyindən fərqlənir.

Emosiyanın təkamül nəzəriyyəsinə görə, insanların emosiyalarının mövcudluğu onların ətraf mühitə uyğunluğu ilə əlaqədardır. Emosiyalar insanların ətraf aləmdə olanlara dərhal münasibət göstərmələrinə şərait yaradır və onların ətraf aləmlə olan münasibətlərini stimullaşdırır.

İkinci fizioloji emosiya nəzəriyyəsidir.

Fizioloji emosiya nəzəriyyəsini çox zaman onların yaradıcılarının adları ilə "Ceymz-Lənc nəzəriyyəsi" də adlandırırlar.

Bu nəzəriyyənin yaradıcıları psixoloq U.Ceymz və fizioloq K.Lənc hesab edilir. Onların qənaətinə görə, insanların fərqli situasiyalarda göstərdikləri emosiyalar, onların müxəlif hadisələrə olan psixoloji münasibətlərinin nəticəsində yaranır.

Bu nəzəriyyə tərəfdarları düşünürlər ki, insanların davranışlarını onların psixolji vəziyyətləri idarə edir. Əgər insan sevinclidirsə, o halda ətrafda olan hər hansı bir hadisəyə münasibəti müsbət olur, əksi olduqda isə, insanların ətrafda baş verənlərə münasibətləri fərqli olur.

Növbəti *psixoloji emosiya nəzəriyyəsidir*. Bu nəzəriyyə də həmçinin "Kannon-Bard nəzəriyyəsi" adlanır. Yaradıcılarının adlarına uyğun olaraq. "Kannon-Bard nəzəriyyəsi" tərəfdarları "Ceymiz-Lənc nəzəriyyəsini" dəstəkləmirlər. Qeyd edək ki, hər iki nəzəriyyənin tərəfdarlarının haqlı olduqları, fikirlərinin üst-üstə düşdükləri məqamlar olsa da, onların nəzəriyyələri insan emosiyasının psixoloji vəziyyətini fərqli şəkildə izah edir. Birinci nəzəriyyə tərəfdarları insanların ətraf aləmlə münasibətlərini onların psixoloji vəziyyətləri ilə əlaqələndirirlərsə, ikinci nəzəriyənin tərəfdarları hadisələrin insanları yönləndirdiyini iddia edirlər. Hər iki nəzəriyyənin eksperimental görüşləri müzakirə edilə bilir. "Cannon və Bard nəzəriyyəsi" göstərir ki, fiziki və psixoloji emosiya təcrübəsi eyni anda baş verir və biri digərini yaratmır.

Növbəti nəzəriyyə *koqnitiv emosiya nəzəriyyəsi*, yaxud *"Şaxter-Singer nəzəriyyəsi"* kimi təqdim edilir.

Bu nəzəriyyədə emosiyanın koqnitiv faktorlarla əlaqəsi müzakirə edilir. Nəzəriyyə ilk növbədə fizioloji ünsiyyəti ön plana çəkir, yəni əvvəl ünsiyyət yaranır və sonra fərd situasiyadan asılı olaraq həyəcanını emosiya ilə ifadə edir. İnsanları ünsiyyətə cəlb edən akt beyində koqnitiv münasibəti fəallaşdırır və bu da emosiyanın yaranması və əks olunması ilə nəticələnir.

Emosional faktorlar söz mənasının açılmasında, sözlərin seçilməsində və işlədilməsində situasiyadan asılı olaraq ya sürətləndirici, ya da ləngidici təsir göstərir. Bunlardan əlavə, emosiyalar ətraf aləmlə rəftarda və sosial davranışda insanlara ciddi təsir göstərə bilmələri ilə diqqəti cəlb edir.

Bu nəzəriyyənin tərəfdarları bütün emosional münasibətlərin əsasında koqnitiv faktorların ön planda olmasını iddia edirlər. Onların qənaətinə görə, bənzər fizioloji reaksiyalar fərqli emosional duyğuları yarada bilər (Plamper, 2012: 11).

Ə.Abdullayev yazır ki, konseptlər insanların şüuruna məxsusdur. Onlar insan beynində mövcud olub sırf əqli səciyyə daşıyır. Konseptlər insan psixologiyasında ətraf aləmin ayrı-ayrı fraqmentlərinin, yaxud aspektlərinin "daxili nümayəndələri hesab oluna bilər". Odur ki, hesab etmək olar ki, onlar bizim daxilimizdədir (Abdullayev, 1998: 132).

F.Palmer yazır ki, konseptləri primitiv qəbul etmək olmaz. Onlar artıq mövcud olan biliyin vahidləri, yaxud kvantları da hesab oluna bilər. Konseptlərin özlərinəməxsus quruluşları var və onlar real gerçəkliyi əks etdirirlər (Palmer, 1981: 90).

Qaynaqlar:

- ABDULLAYEV, Ə.Ə. (1998). *Aktual üzvlənmə və mətn*. Bakı: Xəzər Universiteti nəşriyyatı.
- ARISTOTLE. (1984). The Interpretations. *In The Complete works of Aristotle: The Revised Oxford Translation,* Priceton, NJ: Princeton University Press.
- PALMER, F.R. (1981). *Semantics.* Cambridge: Cambridge University Press.
- PLAMPER, J. (2012). *The History of Emotions: An Introduction.* Cambridge: Cambridge University Press.

Abstract

The article deals with the impact of emotions to the cognitive processes. It mentions emotions as a phenomenon that dominates the entire existence of a person. They (emotions) can accompany all language activity. It has long been proven that emotions can strongly influence cognitive processes. The article states that there is also a conflicting opinion on this issue. Currently, there is a claim that language activity and cognitive processes are autonomous and independent of emotions.

Besides, the article touches upon the history of emotions. The author analyzes the opinions of some psychologists about emotions. The definition of Emotion given by Aristotle has been analyzed in the article as well.

The theories of emotions have been touched upon in the article. As the first theory, the evolutionary theory of emotion has been explained. Ch. Darwin is known as the founder of the theory of emotional evolution. Ch. Darwin, who is known as a naturalist, discusses and compares the conditions for the emergence of human and animal emotions.

The second is the physiological theory of emotion.

Physiological emotion theory is often called “James-Lange theory” after the names of its creators.

Psychologist W. James and physiologist C. Lange are considered to be the founders of this theory. According to their conclusion, the emotions that people show in different situations are the result of their psychological attitudes towards the opposite events.

Next is the psychological theory of emotion. This theory is also called “Cannon-Bard theory”. It is created like this according to the names of their creators. Proponents of the “Cannon-Bard theory” do not support the “James-Lange theory”. It should be noted that although there are points where the supporters of both theories are right and their opinions coincide, their theories explain the psychological state of human emotion differently.

Key words: language, emotion, cognitive, process, affect, power

JOSE SARAMAQONUN “KORLUQ” ƏSƏRİNDƏ KORLUĞUN BƏDİİ TƏSVİRİ

Səma MEHTİYEVA
Xəzər Universiteti, bakalavr
Elmi rəhbər: : fil.ü.f.d. Ülvi Babasoy

Özət

Nobel mükafatının sahibi, Portuqaliyalı yazar Joze Saramaqo 1922, 16 noyabrda Lissabonda dünyaya göz açmışdır (URL-1). “Təxirə salınmış ölüm”, “İsaya görə İncil”, “Korluq”, “Görmə”, “Mağara” əsərlərinin müəllifidir. “Korluq” romanı öz strukturu ilə Saramaqonun digər əsərlərdən fərqlənir. Belə ki əsərdə durğu işarələri kimi ancaq vergül və nöqtədən istifadə etmiş,

qəhrəmanların danışıqlarını ortaq bir monoloqa çevirmiş, onların heç birinə ad verməmişdir. Bu üsulla o liberal demokratiyanın insanları məruz qoyduğu qeyri-sağlam mühiti fövqəladə bir ustalıqla yarada bilmişdir (Saramaqo, 2016). Bu məqaləmdə “Korluq” əsərini bədii inikas

baxımından təhlil edəcəyəm. Korluğa elmi cəhətdən yanaşsaq, bunun bir çox tibbi səbəblərindən, tibbi müalicə yollarından danışılar, amma bizim məqsədimiz ona bədii yanaşmadır, hansı ki, əsərin təhlilində bunu görəcəksiniz. “Korluq” əsərində korluğun bədii inikası yazıçı tərəfindən oxuculara ümumiləşdirilmiş obrazların dilindən çatdırılır. Saramaqo oxucularına baxmaq və görmək arasındakı incə məqamı bütün iyrəncliklərı və çılpaqlığı ilə çatdırır. Əsərdəki açıq səhnələr birbaşa həyatın özüdür. Saramaqonun məqsədi baxan korları təsvir etməklə əsl korların kimlər olduğunu göstərməkdir. “Korluq” romanı bir növ keçirdiyimiz pandemiya dövrünü xatırladır. Pandemiya böyük ərazidə, məsələn bir neçə qitədə yayılıb, böyük sayda insanlara təsir edən epidemiyadır. Epidemiya prosesin zirvəsidir. Eynilə “Korluq” əsərində insanların korluğu epidemik həddə çatmışdı və iyrənc insanoğlu kor olduğu anda belə yenə iyrənc əməllərindən vaz keçmir. Sizcə də bu pandemiya dövründə insanların maska taxmağın məcburi olduğu halda maska taxmamasına bənzəmirmi? Gözlərinin önlərində minlərlə insanın ölmələrinə rəğmən onlar yenə də maska taxmır və qaydaları pozurlar.

Açar sözlər: Saramaqo, pandemiya, karantin, “Korluq”, baxmaq və görmək

Giriş

“Korluq” fikrinin ortaya çıxması çox bəsitdir əslində. Restoranda oturmuşdum və nə yeyəcəyimə qərar verirdim. Birdən bir fikir beynimi qurcaladı : “Görəsən kor olsaydıq, nə olardı?”. Amma həmin an da sualıma cavab tapdım “Onsuzda koruq”. Bu roman belə yarandı. Hamımız kor imişik...” (URL-2). Məqaləmə Jose Saramaqonun bu fikri ilə başlamaq istədim. Saramaqo bəşəri mövzu olan korluq mövzusuna toxunub. İnsan dünyaya gözübağlı gəlir, gözübağlı da gedir, dəyişən heç bir şey yoxdur. Saramaqo da bunun dəyişəcəyinə inanmır. Bu baxımdan onun əsəri destopik əsərdir (URL-3). Destopik romanlar yazıldığı dövrün siyasi, texnoloji və sosial vəziyyətinə əsaslanır. Despotik əsərlər gələcəklə bağlı olumsuzluqları əks etdirir (URL-3). “Təxirə salınmış ölüm” də destopik əsər nümunəsidir. Elə ilk cümlədən yazıçı gerçəkləşməsi real dünyada mümkün olmayan

bəşəri həqiqəti göstərir: “Ertəsi gün kimsə ölmədi” (Saramago, 2010: 480). Korluq romanında da eyniylə insan beynini zorlayan imkansızlıqlarla qarşılaşırıq. Məsələn: Korluğun ağ rəngdə olması, bir xəstəlik kimi yayılması və ən əsası bütün ölkə kor olarkən sadəcə bir nəfərin bu xəstəliyə yoluxmaması və hər şeyi görməsi. Bəli, hər kəsin kor olması. Heç bəlkə də çoxumuz bu haqda heç vaxt düşünməmişdik. Düşünsək belə, təssəvvür yarada bilməzdik. Ancaq bu romanı ilə Saramaqo hər şeyi o qədər ustalıqla göstərib ki, rahatlıqla empatiya yarada bilirik. Romanın adı diqqətimi çox çəkmişdi. Bunun ən böyük səbəblərindən biri də budur ki, mən bu əsər ilə tanış olanda göz əməliyyatına girməli idim. Oxumağa başladım və o an gözlərimi yumub “Kor olsam, nə baş verərdi?”,- deyə sualıma cavab axtardım. O an keçirdiyim hissləri izah edə bilmərəm. Durduq yerə məni ağlamaq tutdu. Səbəbini bilmirdim, bəlkə də, bilirdim, amma etiraf etmək istəmirdim. Beləliklə, romanı oxumağa davam etdim və artıq eyni hissləri keçirmirdim, çünki anladım ki, biz onsuzda görən korlarıq və Saramaqonun bizə göstərmək istədiyi korluq budur.O an “Qurani-Kərim”dən ayələri xatırlamağa başladım. Məsələn: Araf 179: “Və and olsun ki, cəhənnəmi insanların və cinlərin övladlarına hazırladıq. Onların qəlbləri var, amma idrak etməzlər, onların gözləri vardır, amma görməzlər. Onların qulaqları vardır, amma eşitməzlər. Onlar heyvanlar kimidir. Hətta daha çox dəlalətdədirlər. Onlar qafillərdir.” (URL-4)

Həcc 125: “(səni yalanlayanlar) heç yer üzündə dolaşmadılarmı? Zira dolaşsaydılar, əlbəttə, düşünəcək qəlbləri ve eşidəcək qulaqları olardı. Amma gerçək budur ki, gözlər kor olmaz, lakinsinələr içindəki qəlblət kor olar (qəlb gözləri kor olardı). (URL-4)

Əlbəttə, buradakı korluq və sağırlıq zahiri korluq və sağırlıq deyil, qəlblərin korluğu vəsağırlığıdır. Bütün bu surələr bizə nə deyir?

Görməklə baxmaq arasındakı fərq cahillə qafil arasındakı fərqə bənzəyir. Cahil bilməyəndir, qafil isə bilə-bilə bildiklərinə göz yumaraq davrananlardır. Baxanlar qafillərdir. Onlar həqiqəti bildikləri halda görməyə çalışmırlar sadəcə baxırlar. Eynilə bu qəbildən olan bir çox Quran ayələri “Gözləri kor, görməzlər, qulaqları kar, eşitməzlər” deyir. Bu ayələr bizim bildiyimiz korları ya da karları ifadə etmir. Hansı ki, Saramaqonun bu romanı duyğulara kor olan, duyğulara sağır olan, həqiqətə qarşı gözlərini bir kor kimi bağlayanlardan bəhs edir. Roman insanların bir birinə qarşı necə də kor olduğunu vurğulayır. Yer üzündə baş verən müharibələr, aclıqlar, haqsızlıqlar, haqq yemək, təbəqələşmələr, səfalətlər. İnsan bunların heç birini görməyə çalışmır və baxmaqla kifayətlənir. Saramaqonun diliylə desək, “Bizlər baxan korlarıq”.

İnsan öz nəfsinin qurbanına çevrilib, amma bundan xəbəri belə yoxdur. Əvvələ qayıtsaq, insan kimi ehtiyacımız 3-5 şeydən ibarət olub: qida, su, başımızın üstündə bizi qoruyacaq bir daxma. Bunlar insanlıq üçün zəruri ehtiyac idi. Zaman keçdikcə, texnologiya inkişaf etdikcə, biz yeni əşyalar ixtira etdikcə onların hər biri zəruri oldu-olmadı bizim üçün zərurətə çevrilib. Biz özümüz onu zərurət halına çevirmişik. Ona görə də ehtiyaclarımız çoxaldıqca istər-istəməz kasıblayırıq. Yaşam standartlarımızı artırdıqca nə qədər çox qazansaq belə, o bizə yetməməyə başlayır. İnsanoğlu hər şeylə baş edə biləcək gücdəykən öz egosuna yenik düşüb dünyanın hakimi olamaq istəyir. Elə əsl risk budur: insanoğlunun bitmək bilməyən acgözlülüyü. Eyni ilə Saramaqo da bizə bu

romanında insanoğlunun bitmək bilməyən nəfsini göstərir. Gözü kor olan insan belə pul, qiymətli əşya axtarmaqdadır, insanın mənfi arzularının, şəhvətinin, ehtirasının sonu yoxdur. Bunu biz roman boyunca davamlı olaraq görürük. Çox da uzaqlaşmadan elə ilk səhnələrdə ilk kor olan adama kömək edən bir oğru onun o çarəsiz halından istifadə edərək maşınını oğurlayır. Palataya gəlsək, buranın iyrəncliklərini saymaqla bitirə bilmərik. Ağılasığmaz murdarlıq vəziyyəti, dəhlizlər və keçidlər ayaqyoluna çevrilir (Bolt, 2017: 3), hər yerdə heyvan kimi çiftləşən insanlar görürük. Bu halda belə insan istəklərinin qarşısını ala bilmir, o an birdən birə insan sanki heyvana dönüşür. Heyvana dönüşmə Corc Oruelin "Heyvanıstan" əsərindəki donuzların insanlara dönüşməsini xatırlatdı. Buradakı paradoks ondan ibarətdir ki, donuzlar insana dönüşməmişdən qabaq öz sadə həyatlarında idilər və digər heyvanlarla birgə yaşayırdılar, hətta, özləri üçün müəyyən etdikləri qaydalar var idi, amma heyvanlar insan ordusunu məğlub edib öz hakimiyyətlərini qurduqdan sonra donuzlar digər heyvanların əməyini sui-istifadə edərək insan kimi yataqda yatırdılar və digır sahibkar insanlarla görüşərək qumar oyanır və içki içirdilər, işlər yaxşı getdikcə heyvanlardan daha çox istifadə edir və mənfəət əldə edirdilər. Burada Corc Oruelin bizə demək istədiyi odur ki, əslində insanların sahib olduğu şəhvani hisslər və dünya malı sevgisi heyvani hisslərdir. Bu zaman insanın heyvandan, heyvanın insandan fərqi qalmır. Bəziləri üçün sadəcə yemək, cinsi tələbatları önəmliykən bəziləri hələ də pul, daş, qaş, hayındadır. Bəziləri isə bu vəziyyəti ilə barışa bilmir və digərlərinin etdiklərinə ad verə bilməyərək sanki var olmağın dözülməz yüngüllüyünü yaşayır.

Yunan mifologiyasında bizə tanış olan Sofoklun "Tiram Edip"ində də Edip dözülməz halla rastlaşmışdı. Onun ən böyük qorxusu atasını öldürərək anasıyla evlənmək idi. Hansı ki, Edip bunun olmasından qaçırdı, ancaq həmin o iyrənc situasiya onu yaxaladı və o özü də bilmədən anası ilə cinsi əlaqəyə girdi, hətta, ondan övladları belə var idi. Bu hadisə Edipə çox ağır təsir etdiyi üçün, bu iyrəncliyi görməmək üçün öz gözlərini çıxartmışdı. Bu baxımdan Edip, görən idi, o, iyrəncliyin nə demək olduğunu dərk edirdi və bu iyrəncliyə həqiqətən kor olmaq istədi, amma Edipdən fərqli olaraq, günümüzün insanları baxırlar amma həqiqətləri görə bilmirlər.

Özündə biraz güc görən insanoğlu özündən zəifi həmən əzməyə çalışır. Romanı xatırlayaq: əlinə silah keçirən bir qrup digər palatalardan yemək qarşılığında onlardan əllərində olan dəyərli əşyaları və qadınları istəyirlər. Burda açıq aydın kapitalizm gerçəkliyinin ifşa olunduğunu görürük. Bu səhnə mənə yenə Corc Oruelin "Heyvanıstan" əsərini xatırlatdı. Roman Kapitalizmin iç üzünü göstərən ən mükəmməl romanlardan biridir. Kapitalizmin dərinləşdiyini göstərən təbəqələşmə səhnəsi donuzlar və digər heyvanların fonunda çox uğurlu təsvir olunub: digər heyvanlar çalışır, mənfəət əldə edənlər isə qarınlarını qabağa verib əmr verməkdən başqa bir işləri olmayan donuzlardır. "Korluq"da məni dəhşətə gətirən odur ki, bütün ölkə kordur, hətta, ölkəni belə kənara qoyuram, karantindir və hər kəs kordur və eyni şərtlər altında yaşayarkən bu təbəqələşmə? Məhz Saramaqonun qələmi bu cür bir şəraitdə belə həqiqəti göstərəcək qədər güclüdür. Romanı oxumağa davam etdikcə insan görür ki, bu romanla yazar sanki həyatın gerçəkliklərinə ayna tutur. Bəli, romanda korluq bir pandemiya halına gəlib. Bu bizə yad deyil. Biz "Covid-19"u görən nəsilik. Hətta ortaq cəhətləri yolxucu olmaları, karantin və bu

olanlardan sonra şükür etməkdir. İnsan hər şeyin dəyərini əlindən çıxandan sonra bilir.

Amma "Korluq"un "Covid"dən fərqi odur ki, öldürücü deyil. Öldürücü olmamasına baxmayaraq bütün əxlaqi dəyərləri yox etməyə qadirdir. Cəmiyyət görməyən gözlərlə cinayətlərə, təcavüzlərə şahid olur. Həyatda qala bilənlər isə yalnız güclü olanlardır. Əsər boyunca həkimin arvadının niyə kor olmadığını düşündüm və əsərin sonuncu cümləsində qadının mən kor oldum deməsini gözləyərkən qadın qalxıb pəncərəyə yanaşdı. Aşağıya baxdı,onlar oxuyur və qışqırışırdılar. Sonra başını göy üzünə doğru qaldıranda hər tərəfin ağappaq olduğunu gördü. Düşündü: Hə, mənim də növbəm çatdı. Qorxu onun baxışlarını aşağı dikməyə məcbur etdi. Amma şəhər necə vardısa, eləcə də qaldı (Saramago, 2016: 398). Bunlar kitabın son sətirləri idi və mən romanı oxuyub bitirdim və qadın hələ də görürdü. Mən bunu çox düşündüm: "Bəs hamı kor olduğu halda həkimin arvadı niyə görür?". Əslində Saramaqo burada oxucunu bir qədər çaşdırır. Hadisələrin gedişatını təxmin etməyə çalışan oxucu elə təsəvvür edir ki, qadın sonda kor olacaq, amma hadisələr gözlənilən kimi olmur, qadın heç kor olmur. Müəllifi yazıçılıq baxımından "Çovdarlıqda uçurumdan qoruyan" əsərinin müəllifi Selencer ilə müqayisə edə bilərik. Məsələn, oxucu daim düşünür ki, nəyə görə əsərin adı belədir və çalışır ki, əsərdə o nüansı görsün. Məlum olur ki, bu sadəcə Holdenin arzusudur. O çovdarlıqda oynayan uşaqları uçurumdan qorumaq istəyir.

Saramaqo o qadını bilərək kor etmədi, çünkü qadın insanlığın, bütün bəşəriyyətin daxili dünyasını, mənəviyyatını, vicdanını təmsil edirdi. Vicdan hər zaman insanı izləyir, o heç vaxt yox olmur hətta ən pis cinayəti işləyən an belə. O hər zaman insanın içini yeyir, onu yavaş-yavaş öldürür. Saramaqo da onu istəyir ki, korlar ömürlük yox, hər gün ölsünlər. Çünki onlar gözləri sağlam ikən həqiqətlərə kor olmalarının bədəlini ödəməlidirlər.

Nəticə

Korluq romanı insanlığın güzgüsüdür. Saramaqoya görə baxan və kor arasında fərq yoxdur və həmin insanlar hər an bütün bu iyrəncliklərı etməyə hazırdırlar. İnsanoğlunun şəhvətinin təsvirini ustalıqla verən Saramaqo tək fərqi bunda görür ki, insanlar görə bildikləri üçün yox sadəcə baxdıqları üçün bu əməlləri törədirlər və ən pisi də odur ki, Saramaqo insanın ən iyrənc varlıq olduğunu təsdiq edərək onun kor olsa belə, öz mənfur əməllərindən vaz keçməyəcəyinə əmindir. Roman bir növ Qiyamət gününün təsviri kimidir. Bəziləri günahlarının acısını çəkir, bəzilərinin heç etdiklərindən belə xəbəri yoxdur və başına nə gəldiyini anlaya bilmir. Bəziləri isə həqiqətən zalım olmaqda davam edirlər. İnsanoğlunun nəfsi qarşısında necə də aciz olduğunun və cılızlaşdığının şahidi oluruq. Çünki biz dərin bir yuxudayıq, nə zaman oyanarıq? Gözlərimizi (qəlb gözlərimizi) həqiqətən açanda. Necə də çətindir əslində oyanmaq, bəlkə də, heç vaxt oyanmayacağıq, bəlkə də, biz oyananda hər şey üçün çox gec olacaq… İnsanlar necə də nankordurlar. Bu qədər neməti görməməyi seçirlər və nəfslərinin onlara bütün ömürləri boyu işgəncə verməsinə icazə verirlər. Amma düşünmürlər ki, Allah insanı ən gözəl biçimdə yaratdı, bu qədər gözəllikləri, nemətlər bəxş etdi. Niyə öz nəfsinə zülüm edəsən ki? Adəm və Həvva da öz nəfslərinin qulu oldular və şeytana yenik düşdülər. Bəzən insanlar etdikləri günahlara şeytanın bais olduğundan şikayətlənirlər, amma şeytan bunun üçün çaba göstərmir, o sadəcə

pis olanı bəzəyir. Fikrimi H.Cavidin "İblis" dramından götürülmüş bir misrayla təsdiq etmək istəyirəm:

İblis nədir?

– Cümlə xəyanətlərə bais... Ya hər kəsə xain olan insan nədir?

– İblis

İnsan doğrudan da kor olmağı özü seçdi. Çünkü o qədər pisliklər etdi ki, artıq bunu normallaşdırdı və hər gün olan bu iyrəncliklər, haqsızlıqlar cəmiyyət tərəfindən normal qarşılandı. Dünyada insanların təəccübünə səbəb olacaq bir şey olmadığından hər şeyi soyuqanlılıqla qarşılayırdılar və bununla da insan kor olmağı seçdi. Kimisi olanlara dözə bilmədiyi üçün kor oldu, kimisi o qədər qəddarlaşdı ki, şəhvət onu kor etdi. İndi isə hər kəs dünyadan şikayət edir. Hətta bəziləri: "Kaş bu dünyaya gəlməzdim"-, deyir, amma düşünmürlər ki, Tanrının əlindən çıxan hər şey gözəldir, onu çirkinləşdirən isə insan əlidir. Axı dünya bu qədər çirkinlik qarşısında dönməyə niyə davam edir? Həqiqətən görə bilənlər bəs?Bəli, çox az sayda olsa belə, görə bilənlər var. Hansı ki, onlar qəlb gözləri ilə görə bilirlər, çünki hələ də onları hər gün yatmazdan əvvəl sorğulayan vicdanlarına nə cavab verəcəkləri düşüncəsi onları bir an olsun yalnız buraxmır. Onlar üçün bu dünya cəhənnəmdir. Bu korlar dünyasında görə bilən olmaq çox çətindir eynilə həkimin arvadı kimi… və yazarın bu cümləsi ilə məqaləmi bitirmək istəyirəm "Yəqin ki, yalnız korlar dünyasında hər şey əslində olduğu kimi mövcuddur".

Qaynaqlar

❖ BABASOY, Ülvi (2019). "Intertextuality And Intercultural Dialogue In The Novel "Puslu Kıtalar Atlası" (The Atlas Of Misty Continents) By Ihsan Oktay Anar In The Context Of The Social Function". *Baku: Baku Engineering University Berkelery: University of California*

❖ BOLT, David (2007). "Saramago's Blindness: Humans or Animals?". *The Explicator*. 66.1,pp.44-47

❖ BRUNE, Krista (2010). "The Essayistic Touch: Saramago's Version of Blindness and Lucidity".

❖ ESMAEİLİ, Somaye and ZOHDİ, Esmaeil (2015). "Panoptisim in Jose Saramago's Blindness.

❖ SARAMAGO, Jose (2010). "JozeSaramaqo. Seçilmiş əsərləri). *Bakı: Şərq-Qərb nəşriyyatı*, ISBN978-9952-448-58-0

❖ SARAMAGO, Jose (2016). "Korluq". *Bakı: Qanun məşriyyatı*, 400 səhifə, 1000 tiraj *Theory and Practice in Language Studies*, Vol 5, No.12, pp. 2539-2544

❖ URL-1. Kitabyurdu.com, (2023). "Jose Saramago". https://www.kitapyurdu.com/yazar/jose-saramago/5337.html

❖ URL-2.YILDIRIM, Sülbiye, (2019). "Körlük: Bir Kapitalizm Güzellemesi". *Yeni Gelen dergi*. https://kalemkahveklavye.com/korluk-bir-kapitalizm-guzellemesi-sulbiye-yildirim/

❖ URL-3. Heybekanalı. (2022). “Jose Saramago- “Körlük”/ Kitap İncelemesi/. https://youtu.be/rtNQq4-g6uc

Abstract

Writer Jose Saramago, Portuguese, Nobel Prize winner was born in Lisbon in 1922 16th of November (URL-1). He is author of “Death with Interruptions”, “The Gospel According to Jesus Christ”, “Blindness”, “Seeing”, “The Cave”. “Blindness” differ from Saramago’s other works with its own structure. Thus, he used only commas and periods as punctuation marks in the work, turned the conversations of the heroes into a joint monologue, and did not give names to any of them. In this way, he was able to create the unhealthy environment that liberal democracy exposes people to with extraordinary skill (Saramago, 2016). İn my article I am going to analyze “Blindness” from the artistic description side. İf we talked about the scientific side of blindness we would emphasize its medical reasons and medical treatments, but our aim is to analyze blindness from the artificial side that you will see it in this article. In “Blindness” artistic description of blindness has been narrated to readers from generalized characaters’s tongue by the writer. Saramago conveys to his readers the delicate moment between looking and seeing in all its nastiness and bareness. The open scenes in the work are directly from life itself. The main aim of Saramago is to show who is original blind with describing the blind who see. “Blindness” reminds of us pandemic period. A pandemic is an epidemic that spreads over a large area, such as several continents, and affects a large number of people. Epidemic is a peek level of the proccess. Like in “Blindness” blindness of people is in high level and even blind environment disgusting human being does not get rid of their abominable deeds. Don't you think it's similar to people not wearing masks during this pandemic when they are mandatory?

Althought death of thounsands of people in front of their eyes, they keep on not putting on masksand disobey the rules.

Key words: Saramago, pandemic, quarantine, “Blindness”, looking and seeing

ÇİN DİLİNDƏ XÜSUSİ İSİMLƏRİN AZƏRBAYCAN DİLİNƏ TRANSLİTERASİYASI MƏSƏLƏSİ VƏ QAYDALARIN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNƏ DAİR BƏZİ TƏKLİFLƏR

Siyuan WANG (Çin)

Xəzər Universiteti

Elmi rəhbər: Fil.ü.f.d. Zəminə Ziyayeva

Özət

Dəqiq tərcümə maneəsiz ünsiyyətin təminatıdır. Şəxs adları və yer adları ünsiyyətdə tez-tez istifadə edilir. Bu da məxəz dillə hədəf dil arasında xüsusi adların tərcüməsi üçün vahid standart tələb edir. Hazırda çincə xüsusi adların Azərbaycan dilinə tərcüməsində normativ məhdudiyyət yoxdur, bəzi tərcümələrdə fonetik baxımdan problemlər var. Bu məqalədə AZƏRTAC portalındakı çincə xüsusi adların Azərbaycan dilinə tərcümələri nümunə götürülür, onun transliterasiyası tənqid edilir, çincə xüsusi adların Azərbaycan dilinə tərcüməsi üçün qaydalar irəli sürülür.

Açar sözlər: çincə xüsusi adlar, Azərbaycan dili, tərcümə qaydaları.

Giriş

"Bir kəmər və bir yol" təşəbbüsünün həyata keçirilməsi və irəliləməsi ilə Azərbaycan və Çin arasında siyasət, iqtisadiyyat və mədəniyyət sahələrində mübadilə və əməkdaşlıq getdikcə sürətlənir. Çin və Azərbaycanı birləşdirən və iki tərəf arasında səmərəli ünsiyyəti inkişaf etdirən körpü və keçid kimi dil də "Bir kəmər və bir yol" əməkdaşlıq və mübadilə praktikasında mühüm rol oynayır. Sivilizasiyalararası ünsiyyət qarşılıqlı hörmətdən ayrılmazdır və hədəf ölkə dilin-dəki xüsusi adların düzgün tərcüməsi diplomatiyada ən əsas etiketdir.

Çin və ingilis dillərini misal gətirərək hələ 1989-cu ildə Çinin ən nüfuzlu mediası "Sinxua" Xəbər Agentliyi "İngiliscə Şəxs Adlarının Tərcümə Kitabçası"nı nəşr etdi (Li, 2018). 2008-ci ildə milli standartlardan biri olan "Xarici dildə yer adlarının Çin dilinə tərcüməsi və yazılması üçün təlimatlar (ingiliscə cildi)" buraxılmışdır (Standardızatıon Administration of the P.R.C., 2008). O vaxtdan bəri İngilis dilindəki xüsusi adların Çin dilinə tərcüməsi problemi lazımi şəkildə həll edildi və Çin mətbuatı və nəşriyyat sənayesi vahid tərcümə standartına əməl etdi. Demək olar ki, hər bir İngilis şəxs adı və yer adı müəyyən edilmiş tərcümə metoduna malikdir ki, bu da ingiliscə xüsusi adların əvvəlki Çin tərcüməsindəki qarışıqlığı əhəmiyyətli dərəcədə azaldır və ünsiyyətin səmərəliliyini xeyli artırır.

Eynilə, Azərbaycanda da "Azərbaycan Dilinin Orfoqrafiya Normaları" (Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, 2021: 13–21) mövcuddur. Bu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli qərarı

ilə təsdiqlənmiş və 3 noyabr 2020-ci il tarixli 438 nömrəli qərarı ilə müəyyən dəyişiklik edilmişdir. Tarixi səbəblərdən müasir Azərbaycan dilində çox sayda alınma sözlər var. Bu sözlərin əksəriyyəti "yerliləşib" və azərbaycanlıların gündəlik ünsiyyətində əvəzsiz dayağa çevrilib. Ona görə də bu alınma sözlərin yazılışı yuxarıda qeyd olunan orfoqrafik standartda öz əksini tapmışdır. Lakin qeyd etmək lazımdır ki, bu normativ sənəd xüsusi adların tərcüməsinə yönəlməyib və mahiyyətcə yuxarıda qeyd olunan iki Çin əsərindən əsaslı şəkildə fərqlənir. Buna görə də çincə xüsusi adların Azərbaycan dilinə tərcüməsi üçün normativ qaydalar toplusu xüsusilə vacibdir. Bu qaydalar təkcə çincə xüsusi adlarının fonetik xüsusiyyətlərini bərpa etməyə çalışmamalı, həm də Azərbaycan dilinin fonoloji xüsusiyyətlərini nəzərə almalıdır. Bu məqalənin yazılma məqsədi məhz burada qoyulur: Çincə xüsusi adların Azərbaycan dilinə tərcüməsində qaydaların standartlaşdırılmasını təklif etmək.

Çin heroqlifi və Hanyu Pinyin

Azərbaycan dili latın əlifbası ilə yazılır. Biz deyirik ki, Azərbaycan dilinin yazılışı *fonoqram* (kursiv bizimdir. – S.W.) növünə aiddir. Çin dili isə fərqlidir. O, əlifba ilə yazılmır. Afad Qurbanova görə, "dünya xalqlarının müəyyən hissəsi şəkli yazıdan (nasi), bəziləri heroqlif yazıdan (çin, yapon) və bir çoxları da hərfli yazıdan (ərəb,ingilis, alman və s.) istifadə edir (Qurbanov, 2019c: 482)." Çin yazısı – Çin heroqlifi – *loqoqram* (kursiv bizimdir. – S.W.) növünə aiddir. Yəni hər bir Çin heroqlifi bir morfemi təmsil edir. Məsələn, "冰" buz, "箱" şkaf, "冰箱" soyuducu deməkdir. Fonoqramlarla müqayisədə loqoqramların ən böyük xüsusiyyət-lərindən biri onun birbaşa tələffüzü qeyd edə bilməməsidir. Azərbaycanda ibtidai sinif şagirdi 32 hərfi öyrəndikdən sonra mənasını anlamadığı çoxlu yeni sözlər olsa belə yazını oxuya bilir. Amma Çinli şagirdlər yeni Çin heroqlifi görəndə onun tələffüzünü dərhal deyə bilmirlər. Hətta bir çox böyüklər bəzi Çin heroqliflərinin mənasını və tələffüzünü bilmir. Çin heroqlifləri tələffüzü təmsil etmədiyini, morfemləri təmsil etdiyini deyirik; əksinə, hər Çin heroqlifin öz tələffüzü var.

Qəribədir ki, çinlilər Çin heroqlifinin tələffüzünü necə bilir? Bunun cavabı *Hanyu Pinyin*[2] -dir. (kursiv bizimdir. – S.W., bundan sonra "Pinyin" adlanacaq). Pinyin latın əlifbasından 26 hərf və 4 ton işarəsindən ibarətdir və hər bir Çin heroqlifinin tələffüzü özündə əks oluna bilər. Məsələn, yuxarıdakı "冰" heroqlifinin tələffüzü Pinyin vasitəsi ilə "bīng" olur. Bu zaman siz loqoqramları daha dərindən başa düşürsünüz: buz mənasını verən "冰" heroqlifi "bīng" kimi tələffüz olunur. Başqa sözlə, hər bir Çin heroqlifi təkcə öz tələffüzünə malik deyil, həm də müəyyən məna ifadə edir. Beləliklə, loqoqramların üstünlüyü ortaya çıxır. Onlardan istifadə edən insanlar səs çıxarmadan ünsiyyət qura bilirlər. Daha konkret misal: güman edirik ki, "&" işarəsi "qız"ı təmsil edir və bu işarə azərbaycanlılar tərəfindən "qız", türklər tərəfindən "kız", ingilislər tərəfindən isə "girl" kimi tələffüz olunur; ancaq üç ölkənin insanları "&" işarəsini görəndə bunun "qız" demək olduğunu anlayırlar. Başqa sözlə, hər bir Çin heroqlifi müxtəlif Çin dialektlərində fərqli tələffüzə malik ola bilər. Qədim dövrlərdə müxtəlif dialektlərdə danışan insanlar şifahi ünsiyyət qurmaqda çətinlik çəksələr də, Çin

[2] Çin heroqlifləri ilə "汉语" kimi yazılan "Hanyu", Çin dili mənasını daşıyır. "Han", Çin xalqlarında dominant etnik qrupun adı; "Yu", dil mənasındadır.

heroqliflərini yazdıqdan sonra maneəsiz ünsiyyət qura bilirdilər.

Dilin fonoloji sisteminə gəldikdə, təbii olaraq sait və samitlər müzakirə mövzusudur. Məsələn, Azərbaycan dilində doqquz sait fonem var ki, onlar doqquz sait hərflə təmsil olunur (Qurbanov, 2019a: 195). Çin dilində neçə sait və samit var? Əslində Çin dilinin tədrisində "ilklər" və "sonlar" (İngilis dilində "initials" və "finals") anlayışlarından daha çox istifadə olunur. Yenə də "冰" heroqlifini nümunə götürək. O, "bīng" kimi oxunur, burada ilk "b", son isə "ing"dir. Aydındır ki, burada ing sonu sait deyil. *Hanyu Pinyin Sxemi* (Çin Sosial Elmlər Akademiyası Dil İnstitutu [ÇSEADİ], 2016: 1797–1799) (kursiv bizimdir. – S.W., bundan sonra "Sxem" adlanacaq) 1958-ci il fevralın 11-də 1-ci Ümumçin Xalq Nümayəndələri Konqresinin Beşinci Sessiyasında təsdiq edilmiş və qəbul edilmişdir (Huan və Liau, 2017: 22). Sxemin bəzi təfər-rüatları aşağıda göstərilib:

Cədvəl 1 *Hanyu Pinyin Sxemi – ilk və sonlar*

İlklər												
b	p	m	f	d	t	n	l					
g	k	h			j	q	x					
zh	ch	sh	r		z	c	s					
Sonlar												
er	a	o	e ê	ai	ei	ao	ou	an	en	ang	eng	ong
i$_2$ i$_3$ i	ia	io	ie			iao	iou	ian	in	iang	ing	iong
u	ua	uo		uai	uei			uan	uen	uang	ueng	
ü			üe					üan	ün			

Qeyd. Cədvəl 1 "Müasir Çin dili lüğəti (7-ci nəşr)"-nin əlavə fəslindən tərtib edilib. (ÇSEADİ, 2016: 1797–1798)

Ümumiyyətlə, bir Çin heroqlifinin tələffüzü onun ilki və sonundan ibarətdir. Məsələn, "冰" heroqlifi: b+ing→bing. Amma elə heroqliflər var ki, onun heç ilki yoxdur, ona görə Çin dili tədrisi prosessində "sıfır ilk" anlayışı mövcuddur (Huan və Liau, 2017: 31). Məsələn, "乙" heroqlifi "i" kimi oxunur, sonu var, ilki yoxdur. Bu, *sıfır ilkli heroqlif* (kursiv bizimdir. – S.W.) adlana bilər. Bu cür xüsusi halların mövcudluğu üçün Sxem aşağıdakıları nəzərdə tutur:

1. "i" sətrindəki sonların əvvəlində ilki yoxdursa, onlar yi, ya, ye, yao, you, yan, yin, yang, ying, yong kimi yazılmalıdır (ÇSEADİ, 2016: 1799).
2. Eynilə, bu şərait olanda "u" sətrindəki sonlar wu, wa, wo, wai, wei, wan, wen, wang, weng kimi, "ü" sətrindəki sonlar yu, yue, yuan, yun kimi yazılmalıdır (ÇSEADİ, 2016: 1799).
3. "ü" sətrindəki sonlar "j" "q" "x" ilkləri ilə görünürsə, "u" kimi yazılmalıdır, yəni "ü" hərfinin iki nötqəsi düşür. Amma "ü" sətrindəki sonlar "n" "l" ilkləri ilə görünürsə, "ü" kimi qalır (ÇSEADİ, 2016: 1799).
4. "iou" "uei" "uen" sonlarının əvvəlində ilki varsa, "iu" "ui" "un" kimi ixtisarla yazılmalıdır (ÇSEADİ, 2016: 1799).
5. "ie" və "üe" sonlarındakı "e" əslində "ê" sonudur və əsl "e" sonundan fərqlidir. "ê" sonu

yalnız tək istifadə olunarkən “ê” kimi yazılır (ÇSEADİ, 2016: 1798).

6. “i” hərfi ilə üç müxtəlif son təmsil olunur. “zh” “ch” “sh” “r” ilkləri “i₂” sonu, “z” “c” “s” ilkləri isə “i₃” sonu ilə birlikdə eşidilir. Bu yeddi ilk olduğu hallardan başqa, əsl “i” sonu eşidilir (ÇSEADİ, 2016: 1798).

Cədvəl 1-də göstərildiyi kimi, Çin dilində 22 ilk (sıfır ilk daxil olmaqla) və 39 son var. Teorik olaraq bütün ilkləri və sonları birləşdirərək 22×39=858 heca yaratmaq mümkündür. Bununla belə Çin dilində yalnız 400-ə yaxın heca var və bütün ilklər sonların hamısına uyğun gəlmir. Aşağıdakı cədvəldə Çin dilində ilk və sonların koordinasiyası göstərilib:

Cədvəl 2 *Çin dilində ilk və sonların koordinasiyası*

İlklər / Sonlar	sıfır ilk	b	p	m	f	d	t	n	l	g	k	h	j	q	x	zh	ch	sh	r	z	c	s
i	yi																					
ia	ya																					
ie	ye																					
iao	yao																					
io	yo																					
iou	you			miu		diu		niu	liu				jiu	qiu	xiu							
ian	yan																					
in	yin																					
iang	yang																					
ing	ying																					
u	wu																					
ua	wa																					
uo	wo																					
uai	wai																					
uei	wei					dui	tui			gui	kui	hui				zhui	chui	shui	rui	zui	cui	sui
uan	wan																					
uen	wen					dun	tun	nun	lun	gun	kun	hun				zhun	chun	shun	run	zun	cun	sun
uang	wang																					
ueng	weng																					
ong																						
ü	yu							**nü**	**lü**				ju	qu	xu							
üe	yue							**nüe**	**lüe**				jue	que	xue							
üan	yuan												juan	quan	xuan							
ün	yun												jun	qun	xun							
iong	yong																					
i₂																						
i₃																						
a																						
o	o																					



Qeyd. Yalnız mavi qutulardakı hecalar əslində mövcuddur. Sxemdə nəzərdə tutulmuş müddəalara görə Pinyin-nin müstəsna yazılışları qırmızı rəngə salınır. Üstəlik faktiki yazı baxımından "ü" hərfi yalnız nü, lü, nüe və lüe 4 hecasında saxlanılır (Cədvəl 2-də qalın hərflərlə göstərildiyi kimi).

"Hanyu Pinyin Sxemi"nin ortaya çıxmasından sonra

Bu məsələ haqqında danışmaq üçün Pinyin-in gəlişindən əvvəlki dövrə qayıtmalı və Pinyin-in formalaşdırılması dövrünün fonunu araşdırmaq lazımdır.

Çin Xalq Respublikası qurulmadan əvvəl Çin heroqliflərinin latınlaşdırılmasına yüksək tələbat var idi. O zaman çox sayda ziyalı öyrənilməsi və yazılması çətin olan Çin heroqliflərinin ləğv olunmasına çağırırdı və Çin dilində yazmaq üçün asan və aydın olan latın hərflərindən istifadə edilməsini tələb edirdilər. ÇXR-in quruluşundan sonra 1954-cü ildə "Çin Dili İslahatı Komitəsi" yaradılmışdır. Eyni zamanda Çin heroqliflərinin sadələşdirilməsi hərəkatı da sürətlənmişdir. Hakimiyyət orqanlarının ilkin planı Çin heroqliflərinin həm sadələşdirilməsini, həm də latınlaşdırılmasını həyata keçirmək idi (URL-8). Fəqət minlərlə illik yazı vərdişlərini qısa müddətdə dəyişdirmək çətindir. Afad Qurbanov belə yazıb: "Çətin Çin yazısında islahat aparmaq əvəzinə onu fonoqrafik yazı sistemi ilə əvəz etmək olmazmı? Belə bir yazı sisteminə keçmək olar… Lakin buna mane olan obyektiv və subyektiv səbəblər vardır. Hər şeydən əvvəl Çin yazısı qədim Çin mədəniyyəti ilə bağlıdır. Bunlar arasındakı əlaqəni birdən-birə kəsmək olmaz. Eyni zamanda, yeni mükəmməl orfoqrafiya yaratmaq da lazımdır ki, bunun üçün böyük işlər görülməlidir… Şübhəsiz ki, müəyyən vaxtdan sonra çinlilər də asan yazı formasından istifadə edə biləcəklər (Qurbanov, 2019b: 192)." 1958-ci ilə qədər "Çin heroqliflərini sadələşdir" "Çin heroqliflərini ləğv et" çağırışını tədricən alt-üst etdi və Çin dilinin latınlaşdırılması prosesi yavaşladı (Cou, 1958:172). Fevralın 11-də Birinci Ümumçin Xalq Nümayəndələri Konqresinin Beşinci Sessiyası "Hanyu Pinyin Sxemi"ni rəsmən təsdiqlədi. Yığıncaqda belə nəticəyə gəlindi ki, Çin heroqrifləri sadələşdirilməlidir və "Hanyu Pinyin Sxemi" Çin heroqliflərini öyrənməyə və müasir ortaq Çin dilini təbliğ etməyə kömək edən bir vasitə olacaq(Cou, 1958: 175).

Bir sözlə, Pinyin Çin heroqliflərinin sadələşdirilməsi və latınlaşdırılması arasında kompro-misdir. Yaradılmasının əvvəlində insanlar onun Çin heroqliflərini əvəz edəcəyini və insanların oxuyub yazmasını təmin edəcəyini gözləyirdilər. Məhz buna görə də "Sxem"də bir neçə xüsusi müddəa – sadəlik, öyrənmə asanlığı və əl yazısının rahatlığı – var. Məsələn, "ao"

sonunun səsi “ɑu”ya daha yaxındır, lakin “Sxem”də onun “ao” kimi yazılması nəzərdə tutulur, çünki əl yazısında u hərfi asanlıqla n hərfi ilə qarışdırılır (Huan və Liau, 2017: 49, qeyd). Başqa bir misal isə “Sxem”in 4-cü müddəanın abbreviatura tələb etməsinin səbəbi yazı sürətini artırmaq idi. Başqa bir misal, yazıda “jian ian”ın “jia nian” və “jin ü”nün “ji nü” ilə qarışdırılmaması məqsədilə sıfır ilkli heroqliflər üçün “y” və “w” hərflərini “Sxem” üstünə artırılıb (ÇSEADİ, 2016: 1799). Buna görə də deyə bilərik ki, Pinyin-in əslində bəzi problemləri var. Amma ümumilikdə bu, öz üstünlüklərini gizlətməyən bir sxemdir. Pinyin-in Çin heroqliflərinin tələffüzünü göstərməsi, onların öyrənilməsi və savadsızlıq səviyyəsinin azaldılmasında rol oynadığı danılmazdır.

Bundan əlavə, latın əlifbasından istifadə etdiyi üçün Pinyin tez bir zamanda beynəlxalq ictimaiyyət tərəfindən tanınıb. 15 iyun 1979-cu ildə Birləşmiş Millətlər Təşkilatının Katibliyi Pinyin-in qəbulu ilə bağlı bildiriş verdi: “...15 iyun 1979-cu il tarixindən Birləşmiş Millətlər Təşkilatının Katibliyi çincə şəxs və yerli adların transkripsiya vasitəsi kimi yeni olan “Hanyu Pinyin Sxemi”ni qəbul etdi. O gündən etibarən katiblik tərəfindən tərtib edilmiş, tərcümə edilmiş və ya verilmiş bütün növ sənədlər Çin xüsusi adlarını yazmaq üçün Hanyu Pinyindən istifadə etmişdir (Cou, 1958: 177). 1982-ci ildə Beynəlxalq Standartlaşdırma Təşkilatı ISO 7098 sənədini (Çin Roman əlifbasının yazım metodu) buraxdı, burada “Hanyu Pinyin Sxemi” istifadə edildi (Huan və Liau, 2017: 22).

Çincə xüsusi adlarının Azərbaycan dilinə tərcümə qaydaları

Pinyin-in meydana çıxması çincə xüsusi adlarının Azərbaycan dilinə tərcüməsi probleminə müsbət təsir etmişdir. İngilis dilini nümunə götürsək, Çinin paytaxtı indi ingilis dilində “Beijing” adlanır ki, bu da Çin heroqliflərinin Pinyin-inə uyğundur. Ancaq kifayət qədər uzun müddət bu şəhər “Pekin” adlanırdı. Görə bilərik ki, ingiliscə tərcümə Pinyin-ə aiddir, lakin azərbaycanca tərcümədə bu nəzərə alınmayıb. Müasir dövrdə Azərbaycan dilinə tərcümə qaydalar necə tənzimlənir? (URL-7)

Məqalənin tədqiqat bazasını 2022–2023-cü illərdə AZƏRTAC xəbər portalında Çin Xalq Respublikası ilə bağlı xəbər yazıları əhatə edir. Buradakı xəbərlər oxunaraq xüsusi adlar təsbit edilmiş, onları məqalənin əsas incələmə obyekti olaraq müəyyənləşdirilmişdir. Toplanılan xüsusi adlar aşağıdakı cədvəldə göstərilmişdir:

Cədvəl 3 *AZƏRTAC portalında Çin Xalq Respublikası ilə bağlı xüsusi adlar və onların Pinyin yazılışları*

Tərcüməsi	Pinyin	Tərcüməsi	Pinyin	Tərcüməsi	Pinyin
Heyluntszyan [U1][3]	Heilongjiang	Siçuan	Sichuan	Si Cinpin [U6]	Xi Jiping
Mohe [U1]	Mohe	Çendu [U3]	Chengdu	Qo Min	Guo Min
Cilin [U2]	Jilin	Çonçin [U3]	Chongqing	Mao Cedon	Mao Zedong
Çançun [U2]	Changchun	Henan	He’nan	Li Keçyan	Li Keqiang
Hebey [U3]	Hebei	Cencou [U3]	Zhengzhou	Cian Cemin [U6]	Jiang Zemin
Şiciacuan [U3]	Shijiazhuang	Anyan	Anyang	Van İ	Wang Yi
Pekin [U1]	Beijing	Uhan [U3]	Wuhan	Van Yan	Wang Yang

[3] “URL-1”-in ixtisarı, bundan sonra oxşar şəkildə.

Dasin [U4]	Daxing	Sian	Xi'an	Han Cen	Han Zheng
Çaoyan [U5]	Chaoyang	Ciuçüən	Jiuquan	Liu He	Liu He
Babaoşan [U6]	Babaoshan	Sincian	Xinjiang	Sun Çunlan [U3]	Sun Chunlan
Tienanmen	Tian'anmen	Haynan	Hainan	Fey Cunlon	Fei Junlong
Ciansu	Jiangsu	Vençan	Wenchang	Den Çinmin	Deng Qingming
Nankin	Nanjing	Fucien	Fujian	Can Lu	Zhang Lu
Şanxay [U3]	Shanghai	Fucou	Fuzhou	Sun Licün	Sun Lijun
Pudon	Pudong	Honkonq [U6]	Hong Kong	Fu Cenhua	Fu Zhenhua
Honçiao	Hongqiao	Tayvan	Taiwan	Van Likı	Wang Like
Şencen	Shenzhen	Taybey	Taipei	Li Şaosien	Li Shaoxian
Quancou [U3]	Guangzhou	Hualien	Hualian	Niu Sinçun	Niu Xinchun
Çonhua [U3]	Chonghua	Bayyun	Baiyun	Şencou	Shenzhou

Qeyd. 2020-2023-cü il ərzində xəbər hesabatlarından açar söz axtarışı vasitəsi ilə şəxs adları, yer adları, terminlərini və s. əhatə edən 76 xüsusi adı toplanmışdır. Məkan məhdudiyyətlərinə görə burada 6 ədəd mənbə qeyd etmişdir.

76 tərcümədən yalnız 12-i dəqiq və düzgündür (qırmızı ilə işarələnmişdir), digərlərinin yazılışında bəzi problemlər var.

Çincə xüsusi adların tərcümə edilməsində tərəfimizdən irəli sürülən təkliflər aşağıdakı xüsusiyyətlərə malikdir:

1. Pinyin əsasında tərtib etmək;
2. Azərbaycan dilinin fonetik xüsusiyyətlərinə uyğunlaşdırmaq;
3. Sadəcə hərfləri tərcümə etmək yerinə "ilk" və "son"lar nöqteyi-nəzərindən başlamaq;
4. Pinyin ixtisarlarının və əsl yazılışının bərpa olunması;
5. Pinyin problemlərindən qaçınmaq.

Əvvəlcə Çin dilində bütün "ilk" və" "son"lar aşağıdakı kimi transliterasiya ediləcəkdir:

Cədvəl 4 *Çin dilindəki "ilk" və "son"larının tərcüməsi üçün irəli sürülən təkliflər*

İlklər	Tərcüməsi	İlklər	Tərcüməsi	İlklər	Tərcüməsi
b	b	l	l	zh	c
p	p	g	q	ch	ç
m	m	k	k	sh	ş
f	f	h	x	r	j
d	d	j	c	z	z
t	t	q	ç	c	ts
n	n	x	s	s	s

Sonlar	Tərcüməsi	Sonlar	Tərcüməsi	Sonlar	Tərcüməsi
a	a	an	ən	ê	e
ia/ya	ia/ya	ian/yan	iən/yən	en	en

ua/wa	ua/va	uan/wan	uən/vən	uen (un)/wen	uen/ven
ao	au	üan/yuan	üən/yüən	ei	ey
iao/yao	iau/yau	e	ı	uei (ui)/wei	uey/vey
ang	an	eng	ın	i/yi	i/yi
iang/yang	ian/yan	ueng (weng)	vın	in/yin	in/yin
uang/wang	uan/van	er	ır/ğır	ing/ying	inq/yinq
ai	ay	ie/ye	ie/ye	i_2	ı
uai/wai	uay/vay	üe/yue	ö/yö	i_3	ı
o	o	ou	ou	u/wu	u/vu
uo/wo	uo/vo	iou (iu) /you	iou/you	ong	un
ü/yu	ü/yü	ün/yun	ün/yün	iong/yong	iun/yun

Qeyd. Yalnız “哟”, “唷” və s. bir-iki nida “yo” kimi tələffüz olunur, ona görə də “io” sonu Cədvəl 4-ə daxil edilmir. “ueng” sonu əvvəlində heç ilk gəlmir, ona görə həmişə “weng” rast gəlinir, burada “vın” hərf birləşməsilə əvəz edilmişdir.

Cədvəl 4 irəli sürülən qaydaları aydın şəkildə izah edir:

1. Pinyin əsasında tərtib etmək. İrəli sürülən təkliflər, müvafiq ilklər və sonlar Pinyin-i əsasında tərtib edilmişdir. Məsələn: b ↔ b, n ↔ n, a ↔ a, en ↔ en və s.
2. Azərbaycan dilinin fonetik xüsusiyyətlərinə uyğunlaşdırmaq.
   a) “ai” “ei” və s. sonları “Sxem”ə əsasən yazılsa da bizim tərcümələrimizdə “ay” “ey” kimi çevrilir, çünki Azərbaycan dilində “ai” “ei” qoşa saitləri sözün sonunda az görünür.
   b) “üe” sonu “üe” olaraq çevrilsə, tələffüzü azərbaycanlılar üçün çətin olar. Ona görə Azərbaycan dilindəki “üe” sonuna yaxın olan “ö” saiti seçmişdir.
   c) Çin dilində hər bir “son” ən çox 3 hissəyə bölürlər: sonun başı, əsası və ayağı. Məsələn, “iao” sonunun başı “i”, əsası “a”, ayağı “u” olur (Huan və Liau, 2017: 53). Çincədə “n” və “ng” ilə bitən bir çox son tapmaq çətin deyil. Belə sonlar burun sonları adlanır. Məsələn: “in” və “ing”. “n” ilə bitən sözlər Azərbaycan dilində də var. Məsələn, min, əmin, din və s. “ng” qoşa hərfləri əslində [ŋ] samiti təmsil edir. “ng” ilə bitən sonlar burunarxası sonları, “n” ilə bitənlər isə burunönü sonları adlanır. Bu iki növ sonların fərqi o qədər vacibdir ki, müəyyən qədər iki fonem hesab oluna bilər. Məsələn, bing “buz”, bin isə “qonaq” mənasını daşıyır. Ona görə, onları tərcümə edərkən bu fərqin göstərilməli olduğunu düşünürük. Yuxarıda göstərildiyi kimi, biz “in” sonu “in” ilə, “ing” sonu isə “inq” ilə əvəz etdik.
   d) “ing”dən başqa burun sonlarından bəhs etsək, bir yanda sonların ayaqlarının, digər yanda əsaslarının fərqləri diqqəti cəld edir. Məsələn, “‘an” “ang” sonlarının əsasları eyni hərf (ɑ) ilə yazılsa da əsl tələffüzləri eyni deyil. “an” sonundakı “a” daha incə, “ang”-dakı “a” isə daha qalın səslənir, yəni birinci dil önü, ikinci isə dil arxasında yerləşir (Huan və Liau, 2017: 96). Ona görə də, biz bu burun sonlarının tərcümələri üçün onların əsasına xüsusi əhəmiyyət verib Azərbaycanca saitlərindən müvafiq olanı tərcih etdik. Məsələn: an ↔ ən, ang ↔ an; en ↔ en, eng ↔ ın və s. Düşünürük ki,

ayaqlar arasında fərqlər bu sonları bir-birindən fərqləndirmək üçün əsas amil deyil, onların əsasları daha çox rol oynayır.

e) "Sxem"in nəzərdə tutulmuş müddəaları əsasında, sıfır ilkli heroqliflərin Pinyin-i önündə "y" "w" hərfləri əlavə edilməlidir. Təəssüf ki, Azərbaycan dili əlifbasında "w" hərfi yoxdur. Ona görə biz "w" hərfini "v" samiti ilə əvəz etmişik. Məsələn, wa ↔ va, wo ↔ vo, wu ↔ vu və s.

f) "er" sonu Çin dilində xüsusi bir səsdir ki, tərcüməsi çətinlik törədir. Əslində bu "son" IPA transkripsiyası ilə [ɚ] kimi görünür ki, onun retrofleks tək sait olduğu mahiyyəti özündə əksini tapır (Huan və Liau, 2017: 28). Azərbaycan dilində "ı" saiti ilə "r" samitinin əmələ gətirdiyi "ır" hecası [ɚ] səsinə yaxın səsdir. Ona görə biz "ır" hecasını "er" sonunu ilə əvəz etmişik.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan dilindən fərqli olaraq, Çin dilində davamlı oxuma fenomeni nadir hallarda müşahidə olunur. "Qaldırılırıq" sözünü götürək: Sözün quruluşu "qaldır-ıl-ır-ıq"; lakin faktiki dil axınında heca bölgüsü "qal-dı-rı-lı-rıq"dır. Amma Çin dilində "dan an" sözü "da-nan" kimi tələffüz olunmur. "er" sonunun özünə qayıdaraq. Bu vəziyyət bəzən baş verir. Məsələn, "Bao Beier" şəxs adı qaydalarımıza uyğun olaraq "Bau Beyır" kimi transliterasiya edilməlidir. Azərbaycanlılar Beyır sözünü görəndə təbii olaraq "be-yır" kimi oxuyacaqlar; lakin düzgün tələffüz bey-ır (bei er) olmalıdır. Belə halların yaşanmaması üçün Azərbaycan əlifbasından "ğ" hərfini səs ayrıcı kimi təqdim etmişik. Beləliklə, "Bau Beyğır" kimi transliterasiyalar bizim tərcüməmizin dəqiqliyini təmin edir.

g) Ümumiyyətlə, məqsədimiz bir ilkə uyğun gələn yalnız bir hərfdən istifadə etməkdir. Lakin Çin və Azərbaycan dillərinin səs xüsusiyyətləri bunu tam yerinə yetirməyə imkan vermir. Nəzərə alsaq ki, ç hərfi "q" "ch" ilklərinin eyni vaxtda transkripsiyasında istifadə olunub, biz "c" ilki üçün ç hərfindən istifadə etməyə davam etməyi müdafiə etməmişik. "c" ilkinin IPA transliterasiyası [ts^h]-dir (Huan və Liau, 2017: 28), onun tələffüzü ilə ingilis sözlərindəki "ts" qoşa samiti eynidir, məsələn, ca*ts*, *ts*unami və s. Buna görə də, biz "ts" hərf birləşməsini "c" ilkinin transkripsiya edilməsi üçün istifadə etmişik. Belə ki, "Sxem"də iki hərflə təmsil olunan "zh" "ch" "sh" üç ilk var, ona görə də "c ↔ ts" ekvivalentliyini müdafiə edirik.

"z" "ilk"in bəzi xüsusiyyətləri vardır. Əslində, bu ilk IPA-da [ts] kimi transliterasiya edilib "c" ilkinin aspirasiya edilməyən qarşılığıdır (Huan və Liau, 2017: 28). Azərbaycan dilindəki z samitindən fərqli tələffüzü var. Beləliklə, əvvəlki tərcümələrimizdə "dz" hərf birləşməsindən istifadə etmişdik. Formal nöqteyi-nəzərdən "dz" və "ts" açıq-aşkar ziddiyyət təşkil edir ki, bu da faktiki səs dəyərinə uyğundur. Təsbit edilmişdir ki, bu halda Azərbaycan dilindəki z hərfi tamamilə istifadəsiz qalır. Azərbaycan əlifbasına xas olan z hərfindən istifadə etmək daha məqsədəuyğundur. Bu üsulla yeni hərf birləşməsini tanıtmağa ehtiyac olmayacaqdır.

3. Sadəcə hərfləri tərcümə etmək yerinə "ilk" və "son"lar nöqteyi-nəzərindən başlamaq

Biz artıq müzakirə etdik ki, "an" "ang" sonlarındakı "a" fonetik baxımından eyni deyil. Bundan əlavə, Pinyin-də istifadə olunan "i" və "e" hərfləri də müxtəlif səsləri təmsil edir;

“e” “ie” “en” “ei” sonlarında 4 müxtəlif e olduğu müşahidə edilir (Huan və Liau, 2017: 100), “i” “i_2” “i_3” sonları arasında böyük fərqlər olsa da “Sxem”də eyni “i” hərfi ilə təmsil olunur. Ona görə də tərcümə prosesində fonetik xüsusiyyətlərin sədaqətlə qorunması prinsipinə əməl etmişik. Belə ki, müxtəlif tələffüzlər üçün transliterasiyada müxtəlif hərflərdən istifadə etmişik. Misal üçün: e ↔ ı, ie ↔ ie, üe ↔ ö; i ↔ i, i_2 ↔ ı və s.

4. Pinyin ixtisarlarının və əsl yazılışının bərpa olunması
   “Sxem”də 4-cü müddəaya görə, ilklərin arxasında gələn “uei” “uen” “iou” sonlar “ui” “un” “iu” kimi qısaldılmalıdır (ÇSEADİ, 2016: 1799). Fikrimizcə, bu 3 “son” Azərbaycan dilinə tərcümə edərkən bərpa olunmalıdır. Pinyin Çin dilinə aşina olanlar üçün asandır, ancaq dili bilməyənlər üçün qarışıqlıq yaradır və səhv tələffüzə gətirib çıxarır. Məsələn, Pekin Qış Olimpiya Oyunlarının maskotlarından birinin adı Pinyin ilə “Bing Dundun” yazılır, lakin onun rəsmi ingiliscə tərcüməsi “Bing Dwendwen”dir. Bu dəqiq ona görədir ki, İngilis dilində “un” hərf birləşməsinin tələffüzü çincə “un” sonundan çox uzaqdır, ona görə də buraxılmış “u” səsi bərpa olunur.
   Eynilə, “j” “q” “x” ilklərindən sonra iki nöqtə əskik olan “ü” sonu üçün də tərcümə edərkən onun orijinal formasını bərpa etməyi müdafiə edirik. Məsələn, müəllifin adı Pinyin ilə “Wang Siyuan” kimi yazılır. Azərbaycan dilinə tərcümə olunduqda “yuan” “yüən”-ə qaytarılmalıdır. Bundan başqa, yuxarıda qeyd olduğu kimi, “ao” “iao” sonları “au” “iau” kimi tərcümə edilməlidir.
5. Pinyin problemlərindən qaçınmaq
   Səs dəyəri baxımından “ong” “iong” sonları “ung” və “üng” kimi qeyd edilməlidir (Huan və Liau, 2017: 53). “Sxem” tərtib ediləndən bəri bu məsələ ilə bağlı müzakirələr heç vaxt səngiməyib. “ung” və “üng” daha çox elmi qeydlərdir. Ona görə də “ong” sonunu “un” kimi tərcümə etmişik. Nəzərə alsaq ki, “ün” sonu artıq “ün” ilə transkripsiya edilmişdir, biz Azərbaycan dilindəki “yun” hecasından istifadə edərək “iong” sonunu tərcümə etmişik.

Nəticə

Çincə xüsusi adların Azərbaycan dilinə tərcümə tələbatını daha yaxşı ödəmək üçün 5 qayda irəli sürərək bunun əsasında çincə ilk və sonlar üçün tərcümə cədvəli tərtib etmişik. Düşünürük ki, bu qaydalar toplusu həm Çin, həm də Azərbaycan dilinin xüsusiyyətlərini nəzərə alır, dəqiqdir, oxumaq, yazmaq və öyrənmək asandır. Məhz bu qaydalar əsasında Cədvəl 3-dəki çincə xüsusi adları yenidən transliterasiya etmişik:

Cədvəl 5 *Cədvəl 3-dəki xüsusi adların qaydalar əsasında yeni tərcüməsi*

Yeni tərcüməsi	Pinyin	Yeni tərcüməsi	Pinyin	Yeni tərcüməsi	Pinyin
Heyluncian	Heilongjiang	Sıçuən	Sichuan	Si Cinpinq	Xi Jiping
Moxı	Mohe	Çındu	Chengdu	Quo Min	Guo Min
Cilin	Jilin	Çunçinq	Chongqing	Mau Cıdun	Mao Zedong
Çançuen	Changchun	Xınən	He’nan	Li Kıçian	Li Keqiang
Xıbey	Hebei	Cıncou	Zhengzhou	Cian Cımin	Jiang Zemin

Şıciacuan	Shijiazhuang	Ənyan	Anyang	Van Yi	Wang Yi
Pekin, Beycinq	Beijing	Vuxən	Wuhan	Van Yan	Wang Yang
Dasinq	Daxing	Siən	Xi'an	Han Cın	Han Zheng
Çauyan	Chaoyang	Ciouçüən	Jiuquan	Liou Xı	Liu He
Babauşən	Babaoshan	Sincian	Xinjiang	Suen Çuenlən	Sun Chunlan
Tiənğənmen	Tian'anmen	Haynən	Hainan	Fey Cünlun	Fei Junlong
Ciansu	Jiangsu	Vençan	Wenchang	Dın Çinqminq	Deng Qingming
Nankin, Nacinq	Nanjing	Fuciən	Fujian	Can Lu	Zhang Lu
Şanxay	Shanghai	Fucou	Fuzhou	Suen Licün	Sun Lijun
Pudun	Pudong	Honq Konq	Hong Kong	Fu Cenhua	Fu Zhenhua
Hunçiau	Hongqiao	Tayvən	Taiwan	Van Likı	Wang Like
Şencen	Shenzhen	Taybey	Taipei	Li Şausiən	Li Shaoxian
Quancou	Guangzhou	Hualiən	Hualian	Niou Sinçuen	Niu Xinchun
Çunhua	Chonghua	Bayyün	Baiyun	Şencou	Shenzhou

Qeyd. Cədvəl 3-də düzgün hesab etdiyimiz tərcümə Cədvəl 5-də saxlanıb qırmızı ilə işarələnmişdir.

Çincə adların transliterasiyası, eyni zamanda tələffüzü üçün irəli sürülən təkliflərin Azərbaycan mətbuatı, kütləvi informasiya vasitələri üçün müstəsna xidmətləri olacağını düşünürük.

Qaynaqlar

- COU, Youquan (Zhōu Yǒuguāng). (1958). "Hanyu Pinyin Sxeminin mübahisəli problemləri və onun qənaətbəxş həlləri". "Hànyǔ Pīnyīn Fāng'àn De Zhēnglùn Wèntí Jí Qí Yuánmǎn Jiějué", *Çin Filologiyası. Zhōngguó Yǔwén*, S.4 (1958), s.172–178.
- HUAN, Borun (Huáng Bóróng). LİAU, Südun (Liào Xùdōng). (2017). *Müasir Çin dili (6-cı nəşr). Xiàndài Hànyǔ (zēngdìng 6 bǎn)*, Pekin: Higher Education Press.
- QURBANOV, Afad. (2019a). *Ümumi Dilçilik. I cild (3 cilddə)*, Bakı: Azərbaycan Milli Elmlər Akademiyası.
- QURBANOV, Afad. (2019b). *Ümumi Dilçilik. II cild (3 cilddə)*, Bakı: Azərbaycan Milli Elmlər Akademiyası.
- QURBANOV, Afad. (2019c). *Ümumi Dilçilik. III cild (3 cilddə)*, Bakı: Azərbaycan Milli Elmlər Akademiyası.
- Lİ, Söcün (Lǐ Xuéjūn). (2018). *İngiliscə Şəxsi Adlarının Tərcümə Kitabçası (5-ci nəşr). Yīngyǔ Xìngmíng Yìmíng Shǒucè (dì-5 bǎn)*, Pekin: The Commercial Press.
- LÜ Şusian (Lǚ Shūxiāng). (2016) *Müasir Çin dili lüğəti (7-ci nəşr). Xiàndài Hànyǔ Cídiǎn (dì-7 bǎn)*, Pekin: The Commercial Press.
- NAĞISOYLU, Möhsün. (2021). *Azərbaycan dilinin orfoqrafiya lüğəti (7-ci nəşr)* Bakı: Elm.
- Standardızation Administration Of The P.R.C. (2008). *"Transformation guidelines of geographical names from foreigh languages into Chinese—English"*, Beijing: Standards Press of China.
- URL-1. https://azertag.az/xeber/2459030 (Pekin, Heyluntszyan və Mohe)
- URL-2. https://azertag.az/xeber/2311040 (Cilin və Çançun)

- URL-3. https://azertag.az/xeber/2393009 (Hebey, Şiciacuan, Quancou, Çonhua, Çendu, Cencou, Sun Çunlan, Çonçin, Şanxay və Uhan)
- URL-4. https://azertag.az/xeber/1834129 (Dasin)
- URL-5. https://azertag.az/xeber/2380685 (Çaoyan)
- URL-6. https://azertag.az/xeber/2397554 (Babaoşan, Cian Cemin, Si Cinpin və Honkonq)
- URL-7. https://en.wikipedia.org/wiki/Beijing
- URL-8. https://zh.wikipedia.org/wiki/%E6%B1%89%E8%AF%AD%E6%8B%BC%E9%9F%B3

Abstract

Accurate translation is the guarantee of uninterrupted communication. Proper names, such as individual and place names, appear frequently in communication, necessitating a uniform standard for translating proper names between languages. Currently, there are no official, normative or mandatory restrictions on the translation of Chinese proper names into Azerbaijani language. Some translation versions contain phonetic mistakes. In this article, common Chinese proper names transleted into Azerbaijani language on the portal of AZERTAC are taken as examples, their transliterations era criticized, new rules for the translation of Chinese proper names into Azerbaijani are put forward.

Key words: proper names in Chinese, Azerbaijani language, translation rules.

"ANARIN ƏSƏRLƏRİNDƏ" İSİMİN MƏNA NÖVLƏRİNİN İŞLƏDİLMƏSİ

Şəbnəm AĞAYAROVA
Xəzər Universiteti, bakalavr
Elmi rəhbər : fil.ü.f.d. Reyhan Mədətova

Özət

Azərbaycan dilində əsas nitq hissələrindən biri, həm də lüğət ehtiyatının zənginliyinə görə birincisi isimdir.

İsim əşya adı bildirir, cəmlənir, hallanır, mənsubiyyət şəkilçiləri qəbul edərək dəyişir, konkret və mücərrəd, xüsusi və ümumi olmaqla fərqlənir ; lüğət ehtiyatının zənginliyi ilə ünsiyyəti təmin edən ən mühüm vasitə kimi çıxış edir.

Müxtəlif məfhumları ifadə edən bütün isimləri məna növlərinə görə üç qismə ayırmaq olar :

1) Konkret və abstrakt varlıqların – məfhumların adlarını bildirən isimlər ;
2) Xüsusi və ümumi isimlər ;
3) Təklik və topluluq bildirən isimlər.

Açar sozlər: *isim, ismin məna növləri, Azərbaycan dili.*

Giriş

Canlı və cansız varlıqların adlarını bildirən bu isimlərin məzmununda əşya (canlı və cansız) anlayışı vardır. Belə isimləri ifadə edərkən insanın şüurunda müəyyən bir varlıq dərk edilir : ot, su, çörək, kağız və s.

Məlumdur ki, əşya dedikdə maddi varlıq, obyektiv aləmdəki konkret cisimlər, gözlə görünən, əllə toxunula bilən şeylər nəzərdə tutulur. Bu cəhətdən daş, divar, şüşə, ağac, kitab, gəmi, maşın, at, dəvə sözlərinin hər biri konkret bir maddi varlığın adını bildirir və ismin tərifinə uyğun gəlir. Lakin dilimizdə fikir, xəyal, səadət, xasiyyət, gözəllik, zəriflik, tale, yaxşılıq tipli çoxlu söz də var ki, bunların maddi - əşyavi forması yoxdur. Bunlar əşyanın özünü, maddi varlığı deyil, onun geniş mənada əlamətini, insane düşüncəsinin məhsulu olan keyfiyyətləri ifadə edir. Bu cür sözlər də isim hesab olunur. Bunlar mənəvi və mücərrəd anlayışların adlarını bildirən sözlərdir. **Konkret isimlər maddi varlıqların adlarını bildirən isimlərdir.** Dilimizdəki isimlərin böyük bir qrupu konkret varlıqların adlarını bildirir. Bu cür isimlər tələffüz edilərkən biz həmin ismin məzmunu ilə bağlı müəyyən əşyanı, bu və ya digər maddi varlığı xatırlayırıq. Məsələn : qala,torpaq,yarpaq və.s. Bu cür isimlər adlıq halda kəmiyyət şəkilçisi olmadıqda eyni cinsli əşyalardan birini bildirir.

Cəm şəkilçisi qəbul etdikdə eyni cinsli əşyaların çox olduğunu göstərir ; məsələn :

Günəşlər, aylar, ulduzlar, vüqar ilə dolandıqca,
Müzəffər ordumuz hər gün dənizlər, dağlar aşdıqca,
Yerin qəlbində tufanlar, tələtümlər coşub çağlar,
Səadət al geyindikcə, fəlakət yas tutub ağlar (Kazımov, 2010: 47)

Bu misralarda işlənmiş günəş, ay, ulduz, ordu, dəniz, dağ, yer, qəlb, tufan, tələtüm sözlərinin hər biri müəyyən bir varlığı yada salır. Odur ki bu cür isimlər dilçilikdə konkret məna ifadə etdiyi üçün konkret isimlər adlandırılır. Bu cür isimlər tarix etibarilə ən qədim

isimlərdir. İnsan göz açıb bunları görüb, ilk növbədə bunlara ad verib. Söyüdlər yavaş – yavaş xışıldayırdı. Ev – eşik par – par parlayardı. Onların maqnitofonları var.

Mücərrəd isimlər maddi varlığın özünü deyil, onunla bağlı mənəvi anlayışların adlarını bildirir.

İsimlərin bir qrupu mənəvi və mücərrəd anlayışların adlarını əhatə edir. Bunların ifadə etdiyi anlayışın maddi varlıq forması yoxdur. Bu cür isimlər birinci qrup isimlərdən sonar yaranmışdır , insan təfəkküründün mücərrədləşdirməsi məhsuludur. İnsan maddi varlığın özünü dərk etmək və adlandırmaqla yanaşı, tədricən onun bir sıra əbədi xüsusiyyətlərini də duyub anlamış və onlara ad vermişdir. Yuxarıdakı misalda **vüqar, səadət, fəlakət** sözləri, eyni zamanda **qardaşlıq, məhəbbət, şüur, kamal, arzu, istək, mələk, pəri, səxavət, insanlıq, düşüncə** tipli sözlər bu qrupa daxildir. Konkret varlıqların adlarını bildirən isimlər nitqimizi təşkil edən cümlələrdə mənəvi və mücərrəd anlayışları bildirən isimlərə nisbətən daha çox işlənir.

Yağışda, tufanda, boranda, qarda,
Cəsarət heç nəyi almır eyninə.
Mənə elə gəlir, mağaralarda.
Pələnglər dağları geyr əyninə.(Kazımov, 2010:48)

Bu misralarda saç, nəfəs, şair, baş, diz, saç, sinə, qəlb, ox, ürək, yağış, tufan, boran, qar, mağara, pələng, dağ, əyin sözlərinin hər biri konkret bir əşya bildirir, məhəbbət, ixtiyar, cəsarət sözləri maddi varlığa məxsus keyfiyyətləri ifadə edir. Axı çox gözəl bilirdi ki, Zaurun söyər yeri məhz budur – onun müstəqilliyinin, sərbəstliyinin şübhə altına alınması : indi beyni içki dumanı içində olarkən Təhminənin niyyəti ona daha dəqiq və aydın görünürdü.(Anar, 2004: 79).

Ərxan haçansa, dünyanın düz vaxtında Məliyin yanında işləmişdi. vaxtilə Məlik ona yəqin ki çox yaxşılıqlar eləmişdi, amma bütün ömrünü "Balığı at dəryaya, balıq bilməsə də, Xalıq bilər" düsturuyla yaşamış Məlik məhz hansı yaxşılığı etdiyini yaddaşına yük eləməmişdi. Həqiqətən kübar və ziyalı adamı mən addımlarından tanıya bilərəm, insanın necə yeriməsi onun varlığı, mənliyi, insanlığı haqqında çox şey deyir.

Konkret məfhumları bildirən isimlər öz növbəsində ya xüsusi, ya da ümumi isim olur. Abstrakt məfhumları bildirən isimlər isə yalnız ümumi isimlərdən ibarətdir. Beləliklə, canlı və cansız varlıqların adlarını bildirən isimlər iki qrupa ayrılır : xüsusi isimlər, ümumi isimlər.

Xüsusi isimlər varlığı tək olan əşyanın adını bildirir.

Bu qrupa daxil olan isimlər bir şəxsi, əşyanı başqasından fərqləndirmək üçün verilən adlardır. İnsan adları – soy adları, ata adı, ləqəb, təxəllüs bildirən sözlər, dağ, çay, göl, şələlə, bulaq, dərə adları, kitab, qəzet, jurnal adları, tək – tək heyvanlara, əşyalara qoyulan adların hamısı xüsusi isimlərdir. Xüsusi isimlərin baş hərfi dilimizin orfoqrafiya qaydalarına əsasən böyük hərflə yazılır.

Xüsusi isimlərə insan ad və soyadlar (Həzi Aslanov, Kamal Qasımov) ; təxəllüs (Nizami Gəncəvi, Füzuli, Vaqif , Zakir, Sabir) ; ölkə adları (Azərbaycan, Gürcüstan) ; şəhər və kənd adları (Moskva, Bakı, Maştağa) ; dağ, dəniz və çay adları (Kəpəz, Savalan, Araz, Volqa, Kür) ; idarə, müəssisə adları ("Qayğı" şirkəti) ; qəzet və jurnal adları (" Azərbaycan" jurnalı) ; planet adları (Mars, Yupiter) ; heyvanlara verilən adlar (Məstan, Alagöz) və s. daxildir.

Xüsusi isimləri aşağıdakı qruplara ayırmaq olar :

1. Antroponimlər- insan adları : şəxsin öz adını, atasının adını ,soy adını, təxəllüsünü, ləqəbini bildirən isimlər : İsmayıl, İlyas, Xətai, Füzuli, Sabir, Qövsi, Abbas, Tusi və s. Bədii

əsərlərdə yaradılan bir sıra satiric adlar : Əli Əyrizadə, Fağır Bağırov (Anar) , Anket Anketov, Əntərzadə (Mir Cəlal) və s.

2. Toponimlər – qitə, ölkə, vilayət, şəhər, rayon, inzibati ərazi adları : Avropa, Rusiya, Hindistan, Bakı, Qarabağ, Qarayazı, Dilican, Quba, Qəbələ ,Sibir və s.

3. Ktematonim, kosmonim və hidronimlər - Araz, Kür, Xəzər, Ceyran bulağı ,Diri dağları, Sultanbud meşələri, Yupiter, Saturn və s.

4. Xrematonimlər – maddi – mədəniyyət əşyalarının adları, kitab, qəzet, jurnal adları , S. Vurğunun , N.Nərimanovun, M.F.Axundovun və b. böyük sənət ustalarının, alimlərin ev muzeyindəki ayrı – ayrı şeylərin hər birinin adi xrematonim sayılır.

Məsələn:

Disney şirkətiylə uzun danışıqlar və müəyyən maddi güzəştlərin hesabına bu yerin adı məhz Azərbaycan türkcəsinə qəbul edildi.(Anar :2004 , 88)

Qaraxanovun Fransada, Maratın dünyanın beş qitəsində villaları var, deyirlər ki, Amerika milyarderləri, ərəb şeyxləri qələt eləyər onun yanında.

Ümumi isimlər eyni cinsli əşyaların ümumi adını bildirir.

Varlığına görə çox olan adlar ümumi isim hesab olunur. Məsələn : insan, daş, ağac, kitab dedikdə müəyyən bir şəxs, müəyyən bir daş, ağac və kitab nəzərdə tutulmur. Belə isimlərə daşın, ağacın, kitabın bütün növləri ümumi şəkildə dərk edilir.

Şəhər dedikdə böyüklüyündən və kiçikliyindən, qədim və ya müasir olmasından, əhalisinin çox və ya az olmasından asılı olmayaraq, hər cür mədəni yaşayış yerləri nəzərdə tutulur ; **kitab** sözü bədii, elmi, publisistik kitabların, dərs kitablarının ümumi adını bildirir ; **adam** sözü qadın, kişi, uca, gödək, cavan, yaşlı olmasından asılı olmayaraq hər cür adama aiddir. Eləcə də **ev, su, çörək, paltar, dağ, çöl, meşə, çəmən, çiçək** sözləri ümumi isimlərdir. Ümumi isimlər olmasa idi, hər bir əşya, hadisə, varlıq bir sözlər adlandırılsa idi, ünsiyyət çox çətin olardı. Ümumi isimlər insan ağlının ümumiləşdirməsi məhsuludur və ünsiyyətin əsas dil materialını əhatə edir. Hər bir bədii, elmi mətnin aparıcı leksik kütləsini daha çox ümumi isimlər təşkil edir. **Ümumi isimləri** daha çox qrupa ayırmaq olar :

Yaxınlıq, qohumluq, dostluq tipli əlaqə və münasibətləri bildirən sözlər : əmi, dayı, qardaş, bacı, xala, bibi və s.

1. Heyvan adı bildirənlər : qoyun, maral, cüyür, it, aslant, pələng, ilan və s.

2. Quş adları bildirənlər : tovuz, görəyçin, turac, kəklik, durna və s.

3. Cansız əşya adları bildirənlər : su, torpaq, qapı, kitab, qələm, stol və s.

4. İctimai hadisə adlarını bildirənlər : inqilab, üsyan, müharibə, qələbə, mübarizə, məğlubiyyət və s.

5. Təbiət hadisələrinin adlarını bildirənlər : yağış, tufan, qar, boran, fırtına, külək, meh, ildırım, duman və s.

6. Zaman adları bildirənlər : ay, gün, il, həftə, zaman, fəsil, bahar, yay, qış, payız, və s.

7. Məkan adları bildirənlər : şəhər, kənd, düz, tarla, çöl, səhra və s.

8. Elm adlarını bildirənlər : dilçilik, darvinizm, tarix, biologiya, qrammatika, morfologiya, kimya, riyaziyyat və s.

9. Əlamə,t keyfiyyət, vəziyyət adlarını bildirənlər : gözəllik, pislik, yaxşılıq, zəiflik, halsızlıq, dəlilik və s.

10. Bədən üzvlərinin adlarını bildirənlər : baş, əl, boyun, ayaq, barmaq, bel, sinə, bilək, göz, qaş, burun və s.

11. Mənəvi və mücərrəd anlayışların adlarını bildirənlər : şadlıq, sevinc, təmkin, məhəbbət, mələk, pəri, şeytan və s. (Hüseyinzadə: 2007 ,65)

Dildə tədricən xüsusi isimlər ümumi isimlərə, ümumi isimlər xüsusi isimlərə çevirlə bilir. *Aslan, Göyərçin, Ceyran, Mirvari, Turac, Durna* kimi şəxs adları ümumi isimlərdən – apelyativ leksikadan, *om, amper* tipli alınma ümumi isimlər xüsusi isimlərdən yaranmışdır. Məsələn: Qoltuğunda iri bir qovluq var idi. Nemətin keçən dəfə başa saldığı əsər mənə həqiqətən də toxundu.

Ümumi isimlərin çoxu tək bir sözdən ibarət olub, ayrı – ayrı varlığın adını bildirdiyi halda, bir qismi də cəmlik şəkilçisi qəbul etmədən tək bir sözlə varlığın topluluğunu – çoxluğunu bildirir : adam, quş, inək, at (təklik bildirir) , xalq, el, cəmiyyət, ordu, sürü, naxır, ilxı (topluluq bildirir) . Zaur qəndi uddu, kofedən bir qurtum aldı.Bu şəkildə gördüyüm sizsiz ? Nemət Opera teatrının yeni binasına nəzər saldı.

Topluluq bildirən adlar şəkilcə başqa ümumi adlardan fərqlənmədiyi kimi, morfoloji əlamət qəbu l etdiyi zaman da onlardan fərqlənmir. Onlar da cəmlik şəkilçisi qəbul edib, *xalqlar, ellər, cəmiyətlər, ordular, sürülər, naxırlar, ilxılar* şəklində işlənə bilir. Cəmlənmiş toplu isimlərdə topluluq məzmunu sözün kökündə özünü saxlayır və -lar, -lər cəmlik şəkilçisi bu məzmunun qeyri – müəyyən miqdarının artmasını bildirir.

1918- ci il sentyabrın 15- də bilirsiz ki, Türkiyə türkləri sentyabra eylül deyirlər - İslam Qafqaz Ordusu məhz bu yerdən Bakıya girmiş və gənc Azərbaycan ordusunun döyüşçüləriylə çirin- çiyinə şəhəri düşmənlərdən azad etmişdi. Naxçıvanda açılmış ləzgi- avar xalq sənəti sərgisiylə bağlı çoxlu illüstrasiyalar var idi. Bayaqdan bəri dinməz - söyləməz ona tamaşa edən rəqib komandanın kapitanı danışmağa başladı. Dağın 20 Yanvar Qarabağ şəhidləri və 2018- ci il mart qurbanları cərgələrindən aşağıda yerləşən Şəhidlər muzeyinin eksponatları, şəkilləri, fotoları, sənədləri XX əsrdə xalqın başına gətirilən bütün müsibətləri əks etdirirdi.(Anar:2004 ,59)

Q e y d. Topluluq məfhumu ifadə edən *camaat* ismi –lar cəm şəkilçisini qəbul etmir.

Qaynaqlar

- KAZIMOV, Qəzənfər (2010), *Müasir Azərbaycan dili*, Bakı: Elm və təhsil.
- HÜSEYNZADƏ , Muxtar (2007), *Müasir Azərbaycan dili*, Bakı : Şərq- Qərb
- RZAYEV, Anar (2004) *Anarın əsərləri* Bakı: Lider.

Abstract

The noun is one of the main parts of speech in the Azerbaijani language, as well as the first in terms of the resplendent of the vocabulary.

The noun indicates the name of the subject, totalizes, becomes case, changes, taking ownership suffixes. It differs in that it is concrete and abstract, special and general; acts as the most important means of ensuring communication with the richness of the vocabulary. All nouns expressing different concepts can be divided into three parts according to the types of meaning:

1) Nouns denoting the names of concrete and abstract entities, concepts;

2) Special and general nouns;
3) Nouns denoting singularity and collectivity.

Key words: noun, noun meanings, Azerbaijani language.

AZƏRBAYCAN VƏ ÇİN DİLİNDƏKİ ALINMA SÖZLƏRİN NİTQ HİSSƏLƏRİ VƏ TEMATİKA BAXIMINDAN MÜQAYİSƏLİ TƏHLİLİ

Yuxuan TANG/Çin

Xəzər Universiteti, magistrant

Elmi rəhbər: dos. Elza Səmədli

Özət

Azərbaycan və Çin dili müxtəlif tipoloji dil ailəsinə mənsub olmasına baxmayaraq, hər iki dildə müxtəlif dillərdən keçən müxtəlif nitq hissələri mövcuddur. Tədqiqatın əsas məqsədi Azərbaycan və Çin dilindəki alınma sözlərin nitq hissələri baxımından müqayisəli təhlilidir. Tədqiqatda əsasən Azərbaycan və çin dilindəki alınma sözlər əsasən hansı nitq hissələrinə aid olduğu və hansı dillərdən alınmış sözlərin üstünlük təşkil etdiyi araşdırılmışdır. Eyni zamanda alınma sözlərin tematik olaraq əsasən hansı sahələrlə bağlı olduğu və bu sözlərin Çin dilinə hansı yollarla keçdiyi araşdırılmışdır.

Tədqiqatda müqayisəli təhlil və keyfiyyət analizi metodlarından istifadə edilmişdir.

Azərbaycan dilində çoxlu sayda alınma sözlərin olmasının müəyyən səbəbləri var, o cümlədən tarixi, siyasi, coğrafi səbəblər; başqa xalqlarla iqtisadi, mədəni, ticarət və idman əlaqələri; elmin, texnikanın inkişafı və s.

Sözün tələffüzünə görə transliterasiya edilməsi, kalka üsulu (mənasına görə parafraz edilməsi), yarımçıq kalka üsulu və s. Çin dilinə alınma sözləri təqdim etməyin yoluna daxildir.

Nitq hissələri baxımından, Azərbaycan dilindəki alınma sözlər ən çox isim və sifətə aiddir, Çin dillərindəki isə ən çox ismə aiddir.

Tematika baxımından, iki dildəki alınma sözlərin mühüm bir hissəsi din ilə bağlıdır. Azərbaycan dilindəki alınma sözlər, adətən, təhsillə, tədrislə, İslam dini ilə, poetiklə və s. əlaqədar olur, Çin dilindəki isə Buddist dini, siyasət, sosial təhsil, gündəlik həyatı, elm, mədəniyyət, idman, iqtisadiyyat, səhiyyə və s. ilə bağlıdır.

Açar sözlər: çin dili, alınma sözlər, nitq hisssələri, tematik təhlil.

Giriş

Azərbaycan dili Türk dilləri ailəsinə aid edilir və Oğuz qrupunun bir üzvüdür. Azərbaycan dili özünəməxsus xüsusiyyətlərə və tipoloji olaraq çoğunluqla SOV (mübtəda, tamamlıq, xəbər) strukturuna malikdir.

Çin dili Çin-Tibet dilləri ailəsinin ən böyük üzvüdür və dünyada ən çox danışılan dil sayılır. Standart Çin dili, əsasən Pu Tonqhuadır (Mandarin dili) və Pu Tonqhua digər dialetklərdən inkişaf edərək yaranmışdır. Tipoloji olaraq, Çin dili əsasən SVO (mübtəda, xəbər, tamamlıq) strukturuna sahibdir. Bundan əlavə, Çin dilinin 4 tonu var. Sözlər oxşar

şəkildə tələffüz edilsə də, tonlar səbəbindən tamamilə fərqli məna bildirə bilər. Məsələn, 妈 (mā, ana), 麻(má, problem), 马(mă, at), 骂(mà,danlamaq).

Dünyada ancaq öz xalis sözlərindən ibarət olan dil yoxdur. Bu və ya digər dilin başqa dildən aldığı sözə alınma söz deyilir. Başqa dildən yalnız sözlər deyil, ifadə və şəkilçilər də alına bilir. Alınma sözlər bütün dillərdə eyni miqdarda deyildir. (Xəlilov 2008, s. 38)

Çinli alim Vanq Ruli hesab edir ki, bir dil və ya dil variantı tərəfindən başqa dil və ya dil variantından götürülmüş sözə alınma söz deyilir. Alınma sözlərin mənbələrinə xarici dillər, digər milli dillər, millətin digər dilləri və hətta dialektlər daxildir. (Vanq Ruli, s. 403)

Dillərdə niyə alınma sözlər var? Bu, qonşuluq əlaqələri, iqtisadi və ticari əlaqələr, siyasi münasibətlər və s. bağlıdır.

Bu tədqiqatın əhəmiyyəti budur ki, tədqiqatda Azərbaycan və çin dillərindəki alınma sözlərin hansı nitq hissəslərinə aid olması, faizi, tematikası o dilin əsli yoxsa hibrid olub-olmaması baxımından vacibdir. Eyni zamanda, dildəki alınma sözlərin dilə keçmə səbəbləri, sözlərin alındığı dillə müxtəlif tipli əlaqələri göstərməsi baxımından da gəlinən nəticəyə təsir edən amillərdir.

Çin dilindəki alınma sözlər

Çin alimləri 20-ci əsrin birinci yarısından bəri alınma sözlərin öyrənilməsində çoxlu faydalı araşdırmalar aparmışlar. Onlar mədəniyyət, dil, cəmiyyət və tarix kimi müxtəlif aspektlərdən bu araşdırmalar aparıblar. Tədqiqat məzmununa Çin dilindəki alınma sözlərin əhatə dairəsinin tərifi, növ təsnifatı, mənşəyi araşdırma, yaradılış standartları və Çin dilinə təsir daxildir. Çin alimləri müəyyən konsensusa gəlib və müəyyən nəticələr əldə ediblər.

Çin dilindəki alınma sözlərin tarixi çox uzundur və məzmunu da çox zəngindir. Qədim zamanlarda “匈奴”(xiōng nú , Çində qədim bir millət) və Qərb bölgələrindən “琵琶” (pí pá, ənənəvi Şərqi Asiya musiqi alətinin biri), “葡萄”(pú táo, üzüm) kimi bir çox alınma sözlər çin dilinə daxil olmuşdur.

Hal-hazırda Çin dilində başqa dillərdən çoxlu sayda alınma sözlər mövcuddur.

Alınma sözlərin tətbiqi Çin dili lüğətinin sayını genişləndirir, Çin ifadə üsullarını zənginləşdirir, həm də Çin semantikasına, söz əmələ gəlməsinə və tələffüzünə mühüm təsir göstərir.

Müasir Çin dilinin 10%-dən çoxunu alınma sözlər təşkil edir. Statistikaya görə, Müasir Çin dilində ümumilikdə 10000-ə yaxın alınma söz var, o cümlədən 2000-dən çox transliterasiya edilmiş söz, əsasən siyasət, iqtisadiyyat, texnologiya, ticarət, idman, populyar mədəniyyət və digər aspektlərdə yayılmışdır. Müasir Çin dilində alınma sözlər ingilis, yapon, rus, fransız, alman, sanskrit, latın, yunan, italyan və s. mənşəlidir. (Şın Cyayi 2014, s. 91)

İngilis mənşəli alınma sözlər ən çox sayda və ən yüksək artım sürətinə malikdir. Liu Minqyue-nin (2014) statistikasına görə, "Müasir Çin Dili Lüğəti"-nin 5-ci və 6-cı nəşrləri 26 dildən gələn 401 alınma söz toplayıb ki, bunun da 63.3 faizi ingilis dilindəndir; "Müasir Çin

Dili Lüğəti"-nin 6-cı nəşrinə altı xarici dildən 40 yeni alınma söz əlavə edilib ki, bunun da 72.5 faizi ingilis dilindəndir. Demək olar ki, Çin dilinə alınma sözlərin sayı və əhatə dairəsi tədricən genişlənmə tendensiyası nümayiş etdirir.

Çin dilində alınma sözlər tematik baxımdan əsasən üç qrupa bölünə bilər:

1. Dini sözlər, xüsusilə Buddist sözləri. Etimologiyası əsasən sanskritdir və bu sözlər Buddizm Çinə daxil olanda ortaya çıxdı.

2. Transliterasiya sözləri, o cümlədən Qədim İpək yolundan gətirilən əkin məhsulları sözləri və müasir dövrdə elmin, texnikanın inkişafı nəticəsində Avropa mənşəli bəzi sözlər.

3. Müasir dövrdə Yaponiyadan götürülmüş sözlər. Bu sözlər daha çox təbiət və ictimai elmlərə aiddir.

Absorbsiya rejiminə və quruluşuna görə, Çin dilinə alınma sözləri təqdim etməyin müxtəlif yolu var.

1.Transliterasiya edilmiş sözlər. Transliterasiya yəni bir yazı sistemindəki hərflərin tələffüzə görə başqa yazı sisteminin hərfləri ilə verilməsidir.

Mənbə dilində	Çin dilində	Azərbaycan dilində izah
poker (ingiliscə)	扑克 pū kè	poker, qumar oyunlarından birinin adı
Olympic (ingiliscə)	奥林匹克 ào lín pǐ kè	Olimpiya
soda (ingiliscə)	苏打 sū dá	soda, təbabətdə və aşpazlıqda işlədilən ağ toz şəklində natrium-bikarbonat.
bus (ingiliscə)	巴士 bā shì	avtobus
disco (ingiliscə)	迪斯科 dí sī kē	diskoteka
coffee (ingiliscə)	咖啡 kā fēi	kofe

sofa (ingiliscə)	沙发 shā fā	divan
руб (rusca)	卢布 lú bù	rubl

Bəziləri xarici sözlərlə eyni və ya oxşar səs və mənalara malik olan Çin heroqliflərini İlə göstərilir. Məs:

Mənbə dilində	Çin dilində	Azərbaycan dilində izah
cooly (ingiliscə)	苦力 kǔ lì	sərin
humor (ingiliscə)	幽默 yōu mò	yumoristik
model (ingiliscə)	模特儿 mó tè ér	model
vitamin (ingiliscə)	维他命 wéi tā mìng	vitamin
logic (ingiliscə)	逻辑 luó ji	məntiq

Xarici dildən sözünü iki hissəyə bölüb, biri tələffüzə görə transliterasiya olunur, digəri mənaya görə parafraz edilir və iki hissə birləşərək yeni Çin sözünə çevrilir.

Mənbə dilində	Çin dilində	Azərbaycan dilində izah
ice-cream (ingiliscə) (冰-ice-buz)	冰激凌 bīng qí líng	dondurma

“ice” parafraz edilir, “cream” isə transliterasiya olunur.		
romanticism (ingiliscə)di “romantic” transliterasiya olunur, “ism” isə parafraz edilir.	浪漫主义 làng màn zhǔ yì	romantizm

Çin dilinə keçən sözlərin nitq hissələri baxımından sinifləndirilməsi

Li Yanciye"Müasir Çin dilindəki alınma sözlərinin İnkişafı üzrə Tədqiqat" (2006) əsərində "Son Tsin sülaləsi və Erkən Çin Respublikası dövründə (1840-cı ildən 1928-ci ilə) Alınma Söz Leksikonu", "Yeni Dövrdə (1978-ci ildən sonra) Alınma Söz Leksikonu"və "Müasir Çin Dili Lüğətinin (5-ci Nəşri) Alınma Söz Leksikonu" qurdu. Birinci leksikon cəmi 2783, ikinci isə 1152 alınma sözdən ibarətdir. Bunun əsasında, Li Yanciye bir sıra kəmiyyət statistikası və keyfiyyət təhlili edirdi. O, bu iki leksikonda alınma sözlərin mənbə dilini, alınma üsulunu, nitq hissəsini, məzmununu, heca sayını və digər xüsusiyyətlərini şərh edirdi.

Li Yanciyenin araşdırması göstərir ki, Son Tsin sülaləsi və Erkən Çin Respublikası dövrü və müasir dövrə aid alınma sözlər, əsasən, isimlərdən ibarətdir (87,82%; 96,96%). İsim (87,82%) və feillərlə (6,47%) yanaşı, son Qinq və erkən Çin Respublikası dövründə numerativ sözlər (4,92%) də az deyil, hətta sifətlərə(0,68%) nisbətən çoxluq təşkil edirdi. Bu numerativ sözlərin böyük bir hissəsi texnologiya sahəsinə aiddir. Son Qinq sülaləsi və Erkən Çin Respublikası dövründə alınma söz lüğətindəki feillərin sayı nisbətən yeni dövrün alınma söz lüğətindən bir qədər çoxdur, müvafiq olaraq 6,47% və 1,39% təşkil edir, və onların əksəriyyəti Yapon mənşəlidir.

Çin dilində alınma isimlərin nümunələri aşağıdakıdır:

Mənbə dilində	Çin dilində	Azərbaycan dilində izah
french fries (ingiliscə)	薯条 (shǔ tiáo)	kartof qızartması
milk shake (ingiliscə)	奶昔 (nǎi xī)	süd kokteyl
home party (ingiliscə)	轰趴 (hōng pā)	Ev partiyası
cyrillic alphabet (ingiliscə)	西里尔字母 (xī lǐ ěr zì mǔ)	kiril əlifbası
mosaic (ingiliscə)	马赛克 (mǎ sài kè)	mozaika
very’s night signals (ingiliscə)	味立式夜间信号 (wèi lì shì yè jiān xìn hào)	bir növ gecə siqnalı

chocolate (ingiliscə)	巧克力 (qiǎo kè lì)	şokolad
Guinness world records (ingiliscə)	吉尼斯世界纪录 (jí ní sī shì jiè jì lù)	Ginnesin dünya rekordları
gene (ingiliscə)	基因 (jī yīn)	gen, qan yaddaşı
tango (ingiliscə)	探戈 (tàn gē)	Ağır-ağır oynanılan ikibölgülü rəqs və həmin rəqsin musiqisi.
tank (ingiliscə)	坦克 (tǎn kè)	tank
wall street (ingiliscə)	华尔街 (huá ěr jiē)	Voll-Strit (ABŞ maliyyə təşkilatlarının – iri bankların, birjaların Nyu-Yorkda yerləşdiyi küçə)
計 算 器 keisanki (yaponca)	计算器 (jì suàn qì)	kalkulyator
集團 shudan (yaponca)	集团 (jí tuán)	korporasiya
記 憶 力 kiokuryoku (yaponca)	记忆力 (jì yì lì)	beyinin məlumat saxlamaq qabiliyyəti
環境 kankyo (yaponca)	环境 (huán jìng)	mühit
說 明 書 setsumeisho (yaponca)	说明书 (shuō míng shū)	istifadə qaydası haqqında təlimat
手賬 techo (yaponca)	手账 (shǒu zhàng)	plan dəftəri
味覺 mikaku (yaponca)	味觉 (wèi jué)	dad duyğusu
無線電話 musendenwa (yaponca)	无线电话 (wú xiàn diàn huà)	simsiz telefon
трактор (rusca)	拖拉机 (tuō lā jī)	traktor
хлеб (rusca)	列巴 (liè bā)	çörək, taxıl, dən
водка (rusca)	伏特加 (fú tè jiā)	araq
Marxismus (almanca) ; Марксизм (rusca)	马克思主义 (mǎ kè sī zhǔ yì)	Marksizm
samgha (sanskritcə)	僧伽 (sēng qié)	rahiblər və ya keşişlər
staty (malayziyaca)	沙茶酱(shā chá jiàng)	yemək üçün bir növ sous

wali (ərəbcə)	吾力 (wú lì)	İslam dini sözü. Möhtərəm və müqəddəs rəhbərə, alimə və ya şəhidə ehtiram ifadəsi.
pizza (italyanca)	比萨 (bǐ sà)	pizza
romantic (ingiliscə; həm isim kimi, həm sifət kimi işlənir.)	罗曼蒂克 (luó màn dì kè)	romantik

Azərbaycan dilindəki alınma sözlər

Sözlər mənşəyinə görə milli və alınma olmaqla iki qrupa bölünür. Azərbaycan lüğət tərkibindəki sözlərin böyük əksəriyyəti milli mənşəlidir. Xüsusən sadə feillərin, müəyyən miqdar saylarının (həştad, milyon, milyard, trilyon saylarından başqa, qalan bütün müəyyən miqdar sayları) əvəzliklərin, demək olar ki, hamısı əsl türk mənşəli sözlərdir. Azərbaycan dilindəki alınma sözləri mənşəyinə görə beş qrupa bölünür:

- Ərəb mənşəli sözlər.
- Fars mənşəli sözlər.
- Rus mənşəli sözlər.
- Avropa mənşəli sözlər.
- Qafqaz mənşəli sözlər.

Azərbaycan dilində həm qonşu, həm də qonşu olmayan xalqların sözləri var. Çoxlu sayda alınma sözlərin olmasının müəyyən səbəbləri var.

1.Tarixi və siyasi səbəblərlə;

2.Azərbaycan coğrafi şəraiti hesabına; Xalqların qonşu regionlarda kompakt yaşaması səbəbilə. Məsələn, şəkər, gül, bostan, şirin, dastan, xəstə, körək, bülbül, çarpayı və s.

3. Başqa xalqlarla iqtisadi, mədəni,ticarət və idman əlaqələri nəticəsində:çay(çin mənşəli), biznes, kino, film, teatr, karate, futbol, ralli və s.

4. Elmin, texnikanın inkişafı nəticəsində: zavod, kamera, teleqraf, transformator, kombayn, volt, amper və s.

Ərəb mənşəli sözlərin əksəriyyəti təhsillə, tədrislə və İslam dini ilə bağlı sözlərdir. Məs: kitab, məktəb, məktub, alim, müəllim, elm, aləm, qələm, din, məlum, mələk, aqibət, qəlb, malik, Molla, Allah, Əkbər, Məhəmməd, Əli, Həsən, Hüseyn və s.

Fars mənşəli sözlərin əksəriyyəti poetik ifadələr və sözlərdir. Bunların çoxu Azərbaycan dilinə bədii ədəbiyyat vasitəsilə daxil olmuşdur. Məs: gül, dilbər, bülbül, ahəng, qəşəng və s.

Rus mənşəli sözlər Azərbaycan dilinə iki yolla keçmişdir: bir ədəbi dil vasitəsilə, o biri danışıq dili vasitəsilə. Rus mənşəli sözlər məzmununa görə iki qrupa bölmək olar:

a) Məişətə aid olan sözlər. Məs: stol, stul, stəkan, bakal və s.

b) Elm, texnika, sənaye, siyasət və s. sahələrə aid sözlər. Məs: kolxoz, marksizm, dekabrist və s.

Avropa mənşəli sözlər əsasən Azərbaycan dilinə rus dili vasitəsilə keçmişdir. Avropa mənşəli sözləri aşağıdakı kimi qruplaşdırmaq olar:

a) Latın sözləri. Məs: direktor, doktor, akademiya, qlobus, assistent və s.

b) Yunan sözləri. Məs: qrammatika, metro, poema, poeziya, dialoq və s.

c) İngilis sözləri. Məs: futbol, klub, lift, park, tunel və s.

d) Fransız sözləri. Məs: artist, balet, milyon, milyard, janr və s.

e) Alman sözləri. Məs: abzas, sex, marka, bank, qalstuk və s.

f) İtalyan sözləri. Məs: konsert, solo, opera, balkon, duet və s.

g) Holland sözləri. Məs: kompas, reyd, matros, rupor, vımpel və s.

Qafqaz mənşəli sözlər. Azərbaycan dilinə gürcü dilindən bir sıra sözlər keçmişdir. Məs: çad, xarço, kinto, çancur, berzen, cəcə və s. Bundan əlavə, Qafqaz mənşəli saxur, udin, avar dillərindən Azərbaycan dilinə xeyli sözlər keçmişdir. Məs: xuqarı (ağac qabığından səbət), xingəl (un xörəyi mənasında), qoc(şalban) və s.

Azərbaycan dilində alınma sözlərin bir qismi dünya dillərinin çoxunda işlədilir: fonetika, fırma, deputat, parlament, kompüter, qol, futbol, teatr və s. Belə sözlər beynəlmiləl sözlər adlanır. (SADİQ, Şəmil; NƏCƏFOV, Elxan; ƏSƏDOV, Arif. 2022, s.59)

Ahəng qanunu baxımından, elə alınma sözlər var ki, ahəng qanununa tabe olur və vurğu son hecaya düşür. Məsələn: enerji, həsrət, dəftər, rahat və s. (SADİQ, Şəmil; NƏCƏFOV, Elxan; ƏSƏDOV, Arif. 2022, s.59) Azərbaycan milli sözləri içərisində ahəng qanununa tabe olmayan istisna sözlər də var. Məsələn: inam, ilan, inanc, sevda, iraq, işıq, elat, ilğım, ildırım, ilıq, işartı, ilxı, tikan, sanki, islaq, gedişat, quzey, inanmaq, islanmaq, işıldamaq və s.

Fonetik xüsusiyyətləri baxımından, bir sıra alınma sözlər var ki, Azərbaycan dilinin fonetik xüsusiyyətlərini qəbul etmişdir: qazeta - qəzet, maşina - maşın, vedro - vedrə, maqazin - mağaza.(SADİQ, Şəmil; NƏCƏFOV, Elxan; ƏSƏDOV, Arif. 2022, s.59)

Yanaşı samitlə bitən bir neçə təkhecalı alınma sözlər müəyyən sait artırılması nəticəsində ikihecalı sözə çevrilmiş və belə də yazılır, məsələn sətir, səbir,sinif, fikir, fəsil, meyil, qədir, cisim, eyib, ətir, heyif, şəkil, şeir, zehin və s.

Nəticə

Azərbaycan dilinə ərəb, fars, rus, qafqaz və rus dili vasitəsi ilə Avropa dillərindən sözlər keçmişdir. Çin dilində alınma sözlər isə ingilis, yapon, rus, fransız, alman, sanskrit, latın, yunan, italyan və s. mənşəlidir.

Azərbaycan dilində çoxlu sayda alınma sözlərin olmasının müəyyən səbəbləri var, o cümlədən tarixi, siyasi, coğrafi səbəblər; başqa xalqlarla iqtisadi, mədəni, ticarət və idman əlaqələri; elmin, texnikanın inkişafı və s.

Nitq hissə baxımından, Azərbaycan dilindəki alınma sözlər ən çox isim və sifətə aiddir. Sadə feillərin, müəyyən miqdar saylarının (həştad, milyon, milyard, trilyon saylarından başqa, qalan bütün müəyyən miqdar sayları) əvəzliklərin (istisna:həmin, bəzi), demək olar ki, hamısı əsl türk mənşəli sözlərdir. Qoşmanın əksəriyyəti milli mənşəlidir (istisna:barə, barəsində).

Dilin tez-tez təqdim etməli olduğu sözlər, adətən, əvvəllər milli dildə olmayan əşya və anlayışların adları olur (Li Yanciye 2006, s.63). Çin dillərindəki alınma sözlər ən çox ismə aiddir.

Tematika baxımından, iki dildəki alınma sözlərin mühüm bir hissəsi din ilə bağlıdır. Çin dilində alınma sözlər əsasən üç qrupa bölünə bilər: Dini sözlər, xüsusilə Buddist sözləri; transliterasiya sözləri; müasir dövrdə Yaponiyadan götürülmüş sözlər.

Li Yanciyenin araşdırmasına görə, Çin dilində alınma sözlər həmişə siyasət, sosial təhsil, gündəlik həyatı, elm, mədəniyyət, idman, iqtisadiyyat, səhiyyə ilə bağlıdır. Shi Youwey "Çin dilində alınma sözlər" (2013) əsərində çin dilindəki alınma sözlərin məzmununu 14 kateqoriyaya bölmüşdür. Yuxarıda göstərilənlərə əlavə olaraq, bu 14 kateqoriyaya sənaye, çəkilər və ölçülər, hərbi, təbiət, din, kənd təsərrüfatı və s. də daxildir.

İqtisadiyyat kateqoriyasına və səhiyyə kateqoriyasına aid alınma sözlərinin artması Çinin iqtisadi inkişafının və sosial tərəqqinin nəticəsidir, və Çinin məhsuldarlığının inkişafının və insanların həyat səviyyəsinin yaxşılaşmasının simvoludur.

Azərbaycan dillərindəki alınma sözlər, adətən, təhsillə, tədrislə, İslam dini ilə, poetiklə və s. bağlı olur.

Ərəb dilindən keçən sözlərin əksəriyyəti təhsillə, tədrislə və İslam dini ilə bağlı sözlərdir. Məsələn, Allah, Əkbər, Məhəmməd, Əli, Həsən, Hüseyn, namaz, oruc və s.

Fars dilindən keçən sözlərin əksəriyyəti poetik ifadələr və sözlərdir. Məsələn, gül, dilbər, bülbül və s. Qeyd edilir ki, fəsil adlarından payız və bahar fars mənşəlidir.(SADİQ, Şəmil; NƏCƏFOV, Elxan; ƏSƏDOV, Arif. 2022, s.59)

Qaynaqlar

❖ BAYRAMOV, Aslan; BABAYEVA, Aynurə; BAYRAMOVA, Arzu. (2022). *Orfoqrafiya, Orfoepiya və Vurğu Lügəti,* Bakı: Zəka Print.

❖ DƏMİRÇİZADƏ, Əbdüləzəl. (2007). *Müasir Azərbaycan Dili. I hissə. Fonetika, orfoepiya, orfoqrafiya,* Bakı: Şərq-Qərb.

❖ XƏLİLOV, Buludxan. (2008). *Müasir Azərbaycan dilinin Leksikologiyası,* Bakı:

Nurlan nəşriyyatı.

❖ XƏLİLOV, Buludxan. (2013). *Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya,* Bakı: Bakı Çap Evi.

❖ SADİQ, Şəmil; NƏCƏFOV, Elxan; ƏSƏDOV, Arif. (2022). *Azərbaycan Dili,* Bakı: Hədəf Nəşrləri.

❖ SHǏ, Yǒu Wéi. (2013). *xīn huá wài lái cí*, běi jīng: shāng wù yìn shū guǎn.

❖ SHǏ, Yǒu Wéi Děng. (2019). *xīn huá wài lái cí cí diǎn,* běi jīng: shāng wù yìn shū guǎn.

❖ LǏ, Yàn Jié. (2006). "xiàn dài hàn yǔ wài lái cí fā zhǎn yán jiū, *shān dōng dà xué*, PhD dissertation.

❖ SHĚN, Jiā Yì. (2014). "xiàn dài hàn yǔ zhōng wài lái cí de tè diǎn fēn xī", *wén xué jiào yù (zhōng)*, S.4, s.91.

❖ WÁNG, Rú Lì. (2021). "xiàn dài hàn yǔ wài lái cí yán jiū zhī yán jiū", *yǔ yán kē xué*, S.4, s.402-410.

Abstract

Despite the fact that Azerbaijani and Chinese belong to different typological language families, both languages have different parts of speech that pass through different languages. The main goal of the research is the comparative analysis of the loanwords in Azerbaijani and Chinese in terms of parts of speech. In the study, it is mainly investigated which parts of speech the loanwords in Azerbaijani and Chinese languages mainly belong to and which languages the loanwords dominate. At the same time, it is investigated which areas the loanwords are thematically related to and in which ways these words were transferred to the Chinese language.

Comparative analysis and qualitative analysis methods are used in the research.

There are certain reasons for the large number of loanwords in both the Azerbaijani language and the Chinese language, including historical, political, geographical reasons; economic, cultural, trade and sports relations with other nations; development of science, technology, etc.

The methods for introducing Chinese loanwords include transliteration of the word according to pronunciation, free translation (paraphrasing according to the meaning of the words), the combination of transliteration and free translation etc.

From the point of view of part of speech, loanwords in Azerbaijani mostly refer to nouns and adjectives, while those in Chinese mostly refer to nouns.

In terms of thematics, an important part of the loanwords in the two languages is related to religion. Loanwords in the Azerbaijani language are usually associated with education, teaching, Islamic religion, poetics, etc., while those in Chinese are related to Buddhist religion, politics, social education, daily life, science, culture, sports, economy, health, etc.

Key words: Chinese language, loanwords, parts of speech, thematic analysis.

İHSAN OKTAY ANARIN "ƏFRASİYABIN HEKAYƏLƏRİ" ROMANINDA CEZZAR DEDE EMPRİK TƏHKİYƏÇİ KİMİ

Türfə VƏLİYEVA
Xəzər Universiteti, bakalavr
Elmi rəhbər: : fil.ü.f.d. Ülvi Babasoy

Özət

İhsan Oktay Anarın üçüncü kitabı olan "Efrasiyabın Hekayələri" postmodern bir romandır. Romanda ölüm əlli yaşlarında, qara qiyafəli, mavi gözlü, soyuq baxışlı bir insan şəklində obrazlaşdırılmışdır. Fanstastik bir obraz olan ölüm oyun oynamağa meyillidir. Əsər Ölüm Uzun İhsanı tutmağa çalışarkən Ölümlə Cezzar Dedenin oynadıqları oyun zamanı bir-birlərinə danışdıqları mətn içində mətn texnikası ilə yazılmış səkkiz hekayədən ibarətdir. Romanda danışılan hekayələrdən "Günəşli Günlər", "Bidazın Lənəti" qorxu, "Bir Həcc Ziyarəti", "Dünya Tarixi" din, "Ezine Canavarı", "Oğrunun Eşqi" eşq, "Şərab və Çörək" "Göydən Gələn Uşaq" hekayələri isə cənnət mövzularındadır. Bu məqalədə Cezzar Dedenin danışdığı hekayələrdə emprik təhkiyə mexanizmi yaradan ünsürlər araşdırılır. Təhkiyəylə bağlı toxunulan məsələlərdə əsas mənbə kimi Umberto Ekonun "Anlatı Ormanlarında Altı Gezinti" kitabı istifadə olunmuşdur. Hekayələrdə Anarın təhkiyənin gücü ilə ifadə etdiyi estetik, dini, fəlsəfi görüşləri də məqalədə aydınlaşdırılmağa çalışılmışdır. Müəllif yazdığı hekayələrlə sənətin birmənalı deyil, sərhədsiz və rəngarəng olduğunu göstərmişdir. Müəllifin romanlarında prototipi kimi yaratdığı Uzun İhsan obrazına bu romanda da rast gəlirik. Lakin digər romanlarından fərqli olaraq burada Uzun İhsan obrazı bir növ arxa planda qalmış, onun təsvir və düşüncələrinə demək olar ki, yer verilməmişdir. Məqalədə danışılan hekayələrin arxasındakı emprik təhkiyəçi aydınlaşdırılan zaman bunun səbəbi də aydınlaşdırılaraq göstərilmişdir. "Efrasiyabın Hekayələri" sənətin gücü ilə qaranlıq dünyanı aydınlatmağın, ölümə qalib gəlməyin mümkün olduğunu göstərir.

Açar sözlər: İhsan Oktay Anar, Cezzar Dede, ölüm, sənət, emprik təhkiyə

Giriş

Əsərdə Ölümlə Cezzar Dedenin oynadıqları oyunun qaydalarına əsasən Cezzar Dede hər hekayəyə görə bir saat daha həyatda qalacaqdı. Bu mənada roman "Min bir gecə nağılları"nı xatırladır. Lakin "Min bir gecə nağılları"ndan fərqli olaraq bu kitabda hekayələr ölüm qorxusundan deyil, təhkiyədən duyulan zövq nəticəsində yaranır. Belə ki, Cezzar Dede ölməmək üçün deyil, hekayə danışmaqdan zövq aldığı üçün bu oyunu oynayır: "*Ama ben, bugüne kadar kazanmak için oynamadım hiç. Oyunun bana verdiği zevkle yetindim" (Anar, 2021; 17). "Fakat şunu iyi bil: ben bu süreyi yaşamak yerine, hikaye anlatmak için kullanıyorum"(Anar, 2021; 137).* Bu isə onu göstərir ki, *roman "Min bir gecə nağılları"nın dekanstruksiyasıdır" (Babasoy, 2019; 1).*

Postmodern bir roman kimi "Efrasiyabın Hekayələri"ndə müəllif əsərin sonunda Cezzar Dede ilə nəvəsi arasında keçən dialoqla baş verən bütün hadisələrin Cezzar Dədənin nəvələrinə danışdığı hekayələrdən ibarət olduğunu göstərərək əsərdəki dünyanın real deyil, uydurma olduğunu oxucuya bildirir. *Belə ki, yatmazdan əvvəl uşaqlara maraqlı nağıllar danışan Cezzar Dede əsərdəki bütün əhvalatlara özünü qataraq mətnin formalaşma prosesini əsərin mövzusuna çevirmişdir. Anarın əsərlərindəki bu münasibət postmodernizmin*

xüsusiyyəti olan metatekstual paralelliyi göstərmək baxımından əhəmiyyətlidir (Çokluk, 2009; 146).

Əslində, Cezzar Dede müəllifin özüdür, onun arxasında emprik təhkiyəçi kimi İhsan Oktay Anar dayanır. Müəllif, kitablarında prototipi kimi yaratdığı Uzun İhsan obrazına bu kitabda da yer vermişdir. Anar adətən öz fikirlərini bu obraz vasitəsiylə dilə gətirir. "*O, həm adı ilə, həm fiziki xüsusiyyətlərinin təsviri ilə müəllifi xatırladır, yazıçı düşüncələrini oxucularına daha çox onun vasitəsilə çatdırır" (Nağıyeva, 2022; 7).* Lakin bu əsərdə Anar öz fikirlərini Cezzar Dede vasitəsiylə ifadə etdiyinə görə Uzun İhsan obrazı arxa planda qalmış və əsərdə onunla bağlı təsvirlərə, onun düşüncələrinə demək olar ki, yer verilməmişdir.

İnsan olmaqdan zövq almaq "Efrasiyabın hekayələri"ndə Anarın toxunduğu əsas məsələlərdən biridir. Tarix boyunca insanlar ölümsüzlüyü, sonsuzluğu, hətta bəzən Tanrı olmağı arzulayıblar. Əslində, ölümsüz olmağın yolu bir mənada insan olmağın mahiyyətini anlamaqdan keçir. Bunu anlayan Cezzar Dede insan olmağın nə qədər dəyərli olduğunu dərk edir və bundan zövq alırdı. Buna görə idi ki, Ölümün qarşısına çıxdığı bütün insanlar ondan qorxduğu halda Cezzar Dede ölümdən qorxmurdu. Buna görə onun danışdığı hekayələrdə ciddi və əyləncəli hadisələrin sərhədləri tarazlanmışdır. Ölümün özü qədər ölümsüz olan Cezzar Dede danışdığı hekayələri də ömrünü bir neçə saat uzatmaq üçün deyil, insan olmaqdan zövq almaq üçün danışırdı: "*Benim dünyada tattığım en büyük lezzet, hayat değil, insanlık! Her zaman olduğu gibi şimdi de yaşıyor olmanın değil, insan olmanın zevkini çıkarıyorum" (Anar, 2021; 137).*

İnsan olmaqdan zövq almaq üçün öncə bunun mahiyyətini dərk etməliyik. Bunun mahiyyətini dərk etmək üçün isə Yardanın bizə verdiyi var olmaq dəyərinin fərqinə varmalıyıq. Anar üçün yazdığı kitabların böyük oxucu kütləsinə çatmasından, məhşurlaşmasından çox öz yazdığından zövq alması daha önəmlidir. Buna görə Anarın üslubu, tərzi, işlətdiyi kəlimələr bizim alışdığımızdan çox fərqlidir: "*Alışık olduğun tarzı, üslubu ve kelimeleri kullanıp seni etkilemek için anlatsaydım, bundan en başta ben zevk almazdım" (Anar, 2021; 137).* Anar üçün insan olmaqdan zövq almaq demək, hekayə danışmaq, hekayə yazmaqdır. Bir başqası üçün isə bu, rəsm çəkmək, musiqiylə məşğul olmaq, rəqs etmək, qarşılıq gözləmədən edilən yaxşılıq və bu kimi hər hansı bir şey ola bilər. Bu mənada insan olmaq heç bir qarşılıq gözləmədiyimiz halda bütün qəlbimizlə, ruhumuzla etdiyimiz və sonda böyük xoşbəxtlik əldə etdiyimiz şeylərdir deyə bilərik. Lakin bir çox insan bunu bacarmır. Buna səbəb isə hər bir insanın heç olmasa ömründə bir dəfə də olsa düşündüyü ölümündən sonrakı həyatdır. İnsanlar ölümündən sonra nə olacağı barədə özlərinə sual verirlər və bu sualın cavabı hər kəsin öz inancına görə dəyişir. Bəziləri axirət dünyasına, bəziləri ruhunun başqa bir bədəndə yenidən həyata qayıdacağına, bəziləri isə heç bir şey olmayıb, hər şeyin tamamilə bitəcəyinə inanır. Dəqiq cavabı olmayan bu sual insanları qorxudur və nəticədə ölümdən qorxan insanlar bu qorxunun əsirinə çevrilərək, onun yönləndirdiyi istiqamətlə hərəkət edir və həyatın zövqünü qaçırırlar. Müəllif göstərir ki, insanlar Tanrını daha çox qorxduqları zaman xatırlayırlar və insanların ən böyük qorxusu ölüm olduğu üçün Tanrını ən çox xatırladıqları an da məhz ölümə yaxınlaşdıqları an olur: "*Benim nefesimi enselerinde hissettiklerinde, nedendir bilinmez, insanlar ilahi duygulara boğuluverirler". (Anar, 2021; 81).* Əslində, bu insanların din, Tanrı dedikləri şey içlərindəki ölüm qorxusundan başqa bir şey deyil. Buna görə bu insanların danışdığı dini hekayələrdə qorxu ön planda olur: "*İnsanların çoğunu dine sokan şey Tanrı korkusu olduğuna göre, bir dini hikaye de, en azından bu insanlara göre aslında bir korku hikayesi belki". (Anar, 2021; 55).* Ömürləri boyunca bu qorxu tərəfindən idarə olunan insanların tək dərdi həyatda qalmaq

olur və bu zaman həyatdakı ən böyük zövqü, yəni insan olmaq zövqünü qaçırırlar. "*Fakat birçok kişi için insan olmanın zevkini və keyfini çıkarmak değil, hayatı sürdürmek ve korumak daha önemli görünüyor. Ne pahasına olursa olsun yaşamaya çalışmakla, doğrusu çok büyük bir mutluluğu kaçırıyorlar. Acı ve ölüm korkusu onları yönetiyor. İşin kötüsü, bu korkuya Tanrı diyorlar" (Anar, 2021; 138).*

"Güneşli Günler" adlı qorxu mövzusunda danışılan hekayədə müəllif qorxuya əsaslanan təhsil sistemini tənqid etmiş və incəsənətə verilməyən dəyər mövzusuna toxunmuşdur: "*Artistlik ve ahlaki değerlere asırlar boyu bir türlü erişemedikleri için bunlar uğruna bir ömür harcamayı enayilik olarak gören ve güzelliği üretmek yerine onu para, şiddet ya da kurnazlıkla elde etmeyi fazilet sayan insanların ülkesindeki okullarda, en az rağbet gören ve pek ciddiye alınmayan bir ders de resimdi" (Anar, 2021; 24).* Müəllif göstərir ki, estetik və əxlaqi dəyərələrə sahib olmayan insanlar incəsənətlə əlaqəli olan rəsm kimi dərslərə də əhəmiyyət vermirlər. Bu insanlar həm də şiddətlə, qanlı əməlləri ilə gözəlliyi ləkləyirlər. Halbuki sənət sönməz, əbədi bir dəyərə sahibdir. Hekayədə məktəb müdiri Kont on bir yaşlı al yanaqlı rəsm çəkən uşağın qanını əmərək onu cismən öldürsə də, yaratdığı sənət əsərinin-sonralar "Günəşli Günlər" adlandırılan rəsmin işığını söndürə bilməmişdi: "*o karanlık okuldakı tek ışığın, "Güneşli Günler" olduğunu daima hatırlayacaklardı" (Anar, 2021; 36).*

Anarın əsərdə vurğuladığı bir başqa məsələ dünyanın gözəl və ya çirkin olmasının bizim ona necə baxdığımızdan aslı olmasıdır: "*Bu dünyada her şey güzel. Çirkinlik diye bir şey yok; kimbilir, sadece aldanarak ve büyük bir budalalıkla, onda çirkinliği görenler çirkindir belki" (Anar, 2021; 82).*

"Ezine Canavarı" hekayəsində də bu məsələyə toxunulmuş və cəmiyyətdə başqa insanların qüsurlarını axtarıb taparaq onları qaralamaq yolu ilə özünü sübut etməyə çalışan qeybətci, pis niyyətli insanlar tənqid olunmuşdur. Müəllif bu cür insanların ətrafına qüsur tapmaq üçün kirli baxışlarla baxdığını göstərir: *"Bir güderi parçasıyla saat başı sildiği gözlük camları ne kadar temiz olursa, gözetlediği insanlar da bu sayede o kadar pis ola biliyordu" (Anar, 2021; 174)*

Əsərdə nəzərə çarpan məqamlardan biri bəzi obrazların həm əsas həm də danışılan hekayələrdə qarşımıza çıxmasıdır. Məsələn, "Güneşli Günler" hekayəsində rəsm çəkən oğlan əsərin sonlarında əsas hekayədə yenidən qarşımıza çıxır və Uzun İhsan bu dəfə ölümdən onun çəkdiyi günəşin şüaları sayəsində qurtulur. Və ya əsas hekayədə Ölüm Uzun İhsanı tutmağa çalışarkən qarşılaşdığımız var-dövlətini paylayan tacir obrazı ilə daha sonra "Bir Həcc Ziyarəti" hekayəsində yenidən qarşılaşırıq və bu hekayədə onun var-dövlətini paylamasının səbəbini öyrənirik. Skripka çalan adam, ətrafına topladığı adamlara əxlaq dərsi verən balaca qız və eləcə də digər başqa obrazlar da buna nümunə ola bilər. Bununla müəllif əsas mətnlə silsilə hekayələr arasında əlaqə quraraq geniş epik vüsət yaratmağı bacarmışdır.

"Çörək ve Şərab" adlı hekayədə isə parodiyadan istifadə edilərək mətinlərarası əlaqə qurulmuşdur. Belə ki, hekayədə pisniyyətli məxluqun meşədə balaca Bestenuru aldadaraq yeməyə çalışması və onlar arasında gedən söhbət "Qırmızı Papaq" nağılını xatırladır:

"Peki söyle bana! Dişlerin neden sivri?" diye sordu. Melunun yüzüne bir kasvet çöktü ve şunları söyledi: "O dişler senin içindi. Fakat şimdi hiçbir anlamı yok" (Anar, 2021; 210).

Bu isə Umberto Ekonun "Anlatı ormanlarında altı gezinti" kitabında ifadə etdiyi " *Kurmaca metinler metafizik dargörüşlülüğümüzden bizi kurtarmaya gelirler. Bizler, Kırmızı Şapkalı Kız'ın ormanından çok daha geniş ve daha karmaşık olan büyük dünya labirentinde yaşıyoruz;" (Eko, 1995; 30)* fikrini xatırladır.

Roman fantastik varlıqlar, qeyri-adi və gözlənilməz hadisələrlə zəngindir. Ezine Canavarı, Ölüm, Ölümün bacısı kimi yaradılmış Yuxu obrazları fantastik varlıqlara nümunə ola bilər. "Bidazın Lənəti" hekayəsində Bidazın toxunduğu insanların qızıl şəklində heykələ dönüşməsi, "Oğrunun eşqi" hekayəsində skripkanın ağlaması, "Göydən Gələn Uşaq" hekayəsində leyləyin gətirdiyi uşaq isə gözlənilməz, qeyri-adi hadisələrə nümunə ola bilər. Bütün bunlarla müəllif birmənalı olmayan, rəngarəng hekayələr yaratmağı bacarmışdır.

Nəticə:

Romanda dil-üslub zənginliyi, fantastik və real hadisələrin vəhdəti, sərhədsizliyin strukturu , qeyri-adilik kimi ünsürlər emprik təhkiyə mexanizmini yaradır. Anar bu əsərlə *ədəbiyyatın virtual dünya yaratdığını və onun sonsuz, ölməz sənət olduğunu göstərir (Babasoy, 2019; 1).* Umberto Ekonun "*Her ne olursa olsun, kurmaca yapıtlar okumaktan vazgeçmeyeceğiz, çünkü onlarda yaşamımıza bir anlam verecek formülü aramaktayız" (Eko, 1995; 157)* fikri də "Efrasiyabın hekayələri"nin ölməz bir sənət əsəri olduğunu təsdiqləyir. Bu roman bizə göstərir ki, sənət ölümə qalib gəlməyin yeganə yoludur və özünün Tanrının yer üzərində yaratdığı bir sənət əsəri olduğunu dərk edən hər bir insan ölümə qalib gələ bilər. Romandan yola çıxaraq Anarın estetik görüşlərinin Mövlananın "Gözəl baxan gözəl görər. Gözəl görən gözəl düşünər. Gözəl düşünən həyatdan zövq alar" düşüncəsi ilə üst-üstə düşdüyünü deyə bilərik.

Qaynaqlar

❖ ATAKAY, Kemal (1 ci basın- 1995, 2-ci basın- 1995). "Umberto Eco Anlatı Romanlarında Altı Gezinti". *İstanbul: Can Yayınları*

- BABASOY, Ülvi (2019). "İntertextually And İntercultural Dialogue İn The Novel "Puslu Kitaplar Atlası" (The Atlas Of Misty Continents) By İhsan Oktay Anar İn The Context Of The Social Function. *Baku: Baku Engineering University*

❖ ÇOKLUK, Necmiddin (2009). "İhsan Oktay Anar Ve Romanları Üzerine Bir İnceleme". *Edirne: T.C. Trakya Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili Ve Edebiyatı Anabilim Dalı Türk Edebiyatı Bilim Dalı Yükseklisans Tezi*

❖ İHSAN, Oktay, Anar (2021). "Efrasiyabın Hekayələri". *İstanbul: İletişim Yayıncılık*

❖ NAĞIYEVA, Türkan. (2022) " İhsan Oktay Anarın "Dumanlı Qitələr Atlası" Romanının Mahiyyətində Dayanan Əsas Məsələlər". *Bakı: Xəzər Universiteti*

Abstarct

İhsan Oktay Anar's third book "Stories of Afrasiyab" is a postmodern novel. In the novel, death is depicted in the form of a man in his fifties, with black clothes, blue eyes, and a cold look. Death, a fantastic character, tends to play games. The novel consists of eight stories written in a text-in-text technique that Death and *grandpa Cesar,* tell each other during the game they play while Death is trying to catch Uzun Ihsan. From the stories told in the novel are "Sunny Days", "Bidaz's Curse" are about fear, "A Pilgrimage Visit", "World History" are about religion, "Ezine Monster", "Thief's Love" are about love, "Wine and Bread", "Child from Heaven" are about heaven. İn this article, the elements that create the mechanism of empirical narrative in the stories told by grandpa Cesar are investigated. The book "*Six Walks in the Fictional Woods*" by Umberto Eco was used as the main source for the issues related to

narrative. The aesthetic, religious and philosophical views expressed by Anar in the stories are also tried to be clarified in the article. With the stories he wrote, the author showed that art is not ambiguous, but unlimited and colorful. In this novel, we find the character of Uzun Ihsan, which the author created as a prototype in his novels. However, unlike his other novels, here the character of Uzun Ihsan is kind of in the background, his descriptions and thoughts are almost not given space. The reason for this is also shown when the empirical person behind the stories told in the article becomes clear. "Stories of Afrasiyab" shows that it is possible to illuminate the dark world and overcome death with the power of art.

Key words: Ihsan Oktay Anar, grandpa Cesar, death, art, narrative

HASAN ALİ TOPTAŞIN “BİN HÜZÜNLÜ HAZ” ROMANINDA POSTMODERN TƏHKİYƏ

Türkan NAĞIYEVA

Xəzər Universiteti, bakalavr

Elmi rəhbər: Ülvi Babasoy

Özət

Hasan Ali Toptaş, çağdaş Türk edebiyatının yanı sıra çağdaş dünya edebiyatının, aynı zamanda postmodern edebiyatın önemli yazarlarından biridir. Eserleri arasında postmodern anlatı biçimine en uygun romanı "Bin Hüzünlü Haz" sayılabilir.

Eserde dünyevi gerçekler geri planda kalırken gerçek dışı unsurlar ön plana çıkar. Hayatı bir masala çeviren yazar, eserinde "Binbir Gece Masalları"na ve Kafka, Cervantes gibi yazarların kahramanlarına göndermeler yapıyor. Olayların belirli zaman ve mekanlarda geçmediği açıktır. Yazar zaman ve mekan kavramlarını tamamen yok etmiş hatta anlatıcının kimliği zaman zaman okuyucu tarafından anlaşılmaz. Eserin kimin dilinden anlatıldığı anlaşılamamaktadır. Yazar, postmodern edebiyatın yaratıcı unsurlarını okuyucunun eserinin büyüsüne kapılırken yorulmaması ve okuyucunun kendi anlayış düzeyinde eseri anlamasını sağlayacak şekilde kullanmıştır. Çalışmamız, Hasan Ali Toptaş'ın "Bin Hüzünlü Haz" romanında yer alan zaman, mekan kavramları, anlatanın kimliği, gerçek ve gerçek dışı unsurlar konularını kapsamaktadır. Araştırmada Toptaş'ın postmodern anlatı biçimini nasıl ele aldığını göreceğiz.

Anahtar kelimeler: Postmodern anlatı, masal, zaman, mekan, anlatıcı, Alaaddin, gerçeklik, gerçekdışılık

Giriş

Hasan Ali Toptaş 1990-cı illərdən etibarən roman yazarı kimi ədəbiyyat aləmində səsini duyurmuşdu. 1998-ci ildə qələmə aldığı “Bin Hüzünlü Haz” romanı çağdaş Türkiyə ədəbiyyatında postmodern əsər kimi geniş oxucu auditoriyası qazanmışdır.

“Bin Hüzünlü Haz” romanında Toptaş reallıq ünsürlərini yox edərək xəyal aləminə oxucusunu qərq edir və bir oxuyucu olaraq biz də yazarın şüur axınına qarışıb əsərin içində qeyb oluruq. Əsəri ilk oxunuşundan sonra tam anlamaq bir az çətindir, lakin ikinci dəfə oxuduqdan sonra əsərin hüznlü və bir o qədər həzz verən qarmaşasında yol tapmaq asanlaşır. Müəllif Alaaddin obrazı vasitəsilə oxucusunu bir çox yöndən düşünməyə vadar edir. “*Alaaddin ne yapıp edip un ufak parçalanmıştı da, kimse kendisini bulamasın ve bilemesin diye, tıpkı güzellik ya da çirkinlik gibi bütün insanların varlığına biraz biraz dağılmıştı sanki*”(TOPTAŞ, 2015: 46). – burada yazıçı varlığımızı sorğulamağa vadar edir, daxili dünyamıza, mənəviyyatımıza səfər etməyimizə zəmin yaradır. Alaaddinin iç dünyasında özü ilə üzləşməsi, xarakterindəki müsbət və mənfi yönləri təzadları ilə oxuyucuya sərgilənir (AKSUNGUR, 2008). Əsəri oxuduqca beyində çox suallar yarana bilər, bəlkə də yaranan

sualların bəziləri cavabsız qala bilər, çünki yazar forma, məzmun, zaman, məkan sabitliyini rədd edərək alışdığımız klassik, modern üslub gələnəyindən fərqli təhkiyə formasıyla oxucusu ilə görüşür. Bu təhkiyə formasını seçməklə Toptaş oxucusunun beyninin içinə yol tapır, istədiyi zaman həm obrazlarla, həm bizimlə söhbət edir. Ən gözəli isə, bunları edərkən müəllif qətiyyən yorucu deyildir, özümüzü təslim etdiyimiz fantaziyalar axınında əngəl yaratmır.

Real və irreal ünsürlər

"Bin Hüzünlü Haz" romanı bizə vərdiş etdiyimiz həqiqətləri irreal həqiqətlərlə iç-içə təqdim edir. Bu əsərdə başdan sonacan bütün epizodlarda qeyri-adi, nağılvari təhkiyələrdən gen-bol istifadə edilmişdir. "*Düş gibi mi, dedi. Hayır, dedim, basbayağı gerçek gibi. Aynı şey işte, diye homurdandı*" (TOPTAŞ, 2015: 38). Hadisələrin xəyal aləmində və ya real həyatda cərəyan etdiyini anlamaq oxucu üçün çətinləşir. Çünki xəyal və gerçək bir bütünlük halında təqdim olunur. Xəyalı gerçək və ya gerçəyi xəyal kimi təsəvvür etməyə ehtiyac qalmır, artıq reallıq və irreallıq bir bütün halda gözümüzün önündədir.

"*Ölüm ...daha da genişledi ve sonunda, gözlerimin önüne serilmiş devasa bir ölüm haritası gibi, öylece kalakaldı*" (TOPTAŞ, 2015: 82). Təhkiyəçi gördüyü və düşündüyünü qeyri-adi magik hadisələri, varlıqları real aspektdən təqdim edir. Ölümü mücərrəd varlıq olmaqdan çıxarıb konkretləşdirən müəllif oxucusunu öz təhkiyəsinə inandırmağı bacarır.

Romanda hadisələr bir-biri ilə əlaqəli görünsə də, əslində, olaylar tamamilə bir-birindən qopuq şəkildə təqdim olunur. Taliha Çiçek öz araşdırmasında bu mövzuya da toxunub və onun fikrincə, bu xüsusiyyət romanı bir bütün olaraq qəbul etməyimizi çətinləşdirir. Hər nə qədər (romanın) xaotik təhkiyə üzərində inşa edildiyi hiss edilsə də, bir xaotik mühitin olmaması postmodern təhkiyənin göstəricisidir (ÇİÇEK, 2018: 8).

Zaman və məkan qavramı

Klassik və modern ədəbiyyat əsərlərindən fərqli olaraq, postmodern əsərlərdə zaman və məkan anlayışları konkret deyildir. Müəllif sərbəstdir, istədiyi an keçmiş, indiki, gələcək zamanları vəhdət halında verə bilər, istədiyi məkanlarda eyni anda mövcud ola bilər. Onun üçün sərhədlər yoxdur.

Hasan Ali Toptaş bu romanda bir sıra məqamlarda zamanı məkana, məkanı zamana çevirir. "*Öyle ki, zaman kimi zaman gölgesini denize bırakmış, kocaman, kasvetli bir dağ olarak çıkıyordu artık karşıma. Kimi zaman hışımla inen bir deli yağmur olup gövdemi tepeden tırnağa sırılsıklam ıslatıyor,... kimi zaman da uğul uğul uğuldayan uçsuz bucaksız bir orman kılığına girip beni ısrarla derinliklerine, o uğultuların gitgide sessizliğe dönüştüğü ıssız yerlere çağırıyordu*" (TOPTAŞ, 2015: 65-66). Zamanın məkana dönüşməsi prosesinə tanıq oluruq. Zaman və məkan sərhədinin yox olması hadisəsi ilə müəllif oxucusunu bu sərhədsiz şüur axınında sərbəst buraxır və biz müəllifin gözümüzün önünə sərdiyi ucsuz-bucaqsız zaman-məkan qarışımının içində Alaaddini axtarmağa, əsrarəngiz nağıllara tanıq olmağa, hər vəchlə yol qət etməyə davam edirik. "*Ve işte o zaman, zamanın yavaş-yavaş*

toprağa dönüştüğünü gördüm" (TOPTAŞ, 2015: 65). Torpağa çevrilən zaman... Torpaqdan yaranan insan, torpağa dönən insan... Bəlkə də, insanın yaranmasından torpağa dönüşünə qədərki zaman dilimidir göz önündə canlanan. Zaman torpaq obrazına bürünərək qarşımıza keçir və biz zamanın bir insan ömrü qədər var oluşunu görə bilərik. Yazıçı yenə də bu məfhumları anlamağı oxuyucunun anlayış tərzinə buraxır. Əsərdə baş verən hadisələri, rastımıza çıxan obrazları, məkan-zaman anlayışını istədiyimiz kimi qavramağımız üçün müəllif bizə gen-bol şərait yaradıb.

"*...artık ben bir yanımla acaba hâlâ şehirde miyim kuşkusunu taşıyor, bir yanımla bu kuşkuyu şiddetle reddediyor, bir yanımla da ormanı şehre ait görüntülerin karmaşasından kurtarıp yalnızca orman olarak algılayabilmek için büyük bir çaba harcıyordum*" (TOPTAŞ, 2015: 69). Burada bir-birinə pərçimlənmiş 2 fərqli, zidd məkanlar tablo şəklində göz önündə dayanır. Müəllif çıxılmaz küçələri, həbsxanaları, cinayət saatları, görüş gecələri və aydınlıq sabahları olan şəhəri, yaşılın cürbəcür tonlarına bəzənmiş ağıla, xəyala sığmayan geniş meşəni ayrı-ayrı məkanlar olaraq təsvir etməkdən qaçınaraq onları birləşdirib bir bütün halında oxucusuna təqdim edir. Beləliklə, biz şəhərin meşəyə, meşənin şəhərə qarışıb bir-birinin içində sanki əriyərək bir məkana çevrilməsini rahatca təsəvvürümüzdə canlandıra bilirik.

Modernizmin ağlın və rasionallığın gərəyi olaraq vacib qıldığı məkan tabusu yıxılaraq eynən zaman qavramının bəlirsizləşməsi kimi təhkiyə sonsuz bir özgürlük əhatəsi ilə təmin edilmişdir (YILDIRIM, 2015: 20).

Təhkiyəçi kimdir?

Əsərin oxunuşuna başladığımız andan hadisələri bütün əsərlərdə olduğu kimi birinci şəxsin dilindən dinlədiyimizi sanırıq. "*Hatta, "Güldürme bizi ilahi Alaaddin, güldürme!" dercesine kafalarını sallayıp bana doğru oldukça tuhaf el hareketleri yapıyorlar*" (TOPTAŞ, 2015: 5) – bu cümlədən sonra nəql edənin Alaaddin olduğunu qəbul edir, birinci şəxs qisminə onu qoyuruq. Hadisələr irəlilədikcə təhkiyəçinin əslində Alaaddinin axtarışında olduğunu, onu tapmaq üçün yola çıxdığının şahidi oluruq. Bundan sonra artıq beyində müxtəlif suallar meydana çıxır: Təhkiyəçi kimdir? Alaaddin kimdir? Alaaddini axtaran kimdir?

Romanı nəql edən birdən çox şəxs vardır. Bu həm müəllif, həm Alaaddin, həm də bəzi məqamlarda Tatar qızı kimi qəbul oluna bilər. Təhkiyəçi romanın müxtəlif hissələrində müxtəlif obrazlar şəklində təzahür edir.

Əsər boyunca Alaaddinin kim və ya nə olduğunu, var olub olmadığını yazıçı ilə bir yerdə oxuyucu da axtarmaqdadır (YILDIRIM, 2015: 13). Alaaddinin kim olması ilə bağlı mətndə məlumat verilmir, oxuyucu və müəllif sadəcə onu axtarır. Niyə Alaaddini axtarmağımız isə tamamilə fərqli bir mövzuya qapı açır. "*Hayallerimi ve geleceğimi kaybetmeye hazır olsam bile, henüz Alaaddin'in yokluğunu kaybetmeyi göze alamıyorum*" (TOPTAŞ, 2015: 23). Müəllif yenə bizi postmodern mətnlərdən tanıdığımız təsvirlə qarşılaşdırır: var olmayan məfhumu obyektləşdirmək. Yoxluq axtarılan, itə bilən bir obyekt olaraq təqdim olunur: "*Elimde, o yokluktan başka hiçbir şey yok çünkü...*" (TOPTAŞ, 2015: 24).

Təhkiyəçi özü də Alaaddinin kimliyi haqqında ən kiçik bir bilgiyə belə sahib deyildir, az öncə də bunu vurğuladıq. "*Ne iş yaptığını bilmiyorum, dedim. Yüzünü de hiç görmedim... Arada bir sesini işitiyorum, dedim*" (TOPTAŞ, 2015: 37-38). O, heç görmədiyi, varlığından xəbərdar olmadığı bir gerçəyin və ya xəyalın axtarışındadır. "*Ona göre, ruhumda uğuldayıp duran boşluğu doldurabilmek, giderek dipsiz bir boğuntu kuyusuna dönüşen şu lanet olası hayatın ağırlığına katlanabilmek, ya da içimde açılan çeşitli yaralan onarabilmek için, belki de farkına bile varmadan ben yaratmışım bu serabı...*" (TOPTAŞ, 2015: 39) cümləsində oxucu da yazarla birgə Alaaddinin varlığına şübhə edir, onun bir xəyaldan ibarət olması ehtimalı daha real görünür. Lakin xəyal və gerçək arasındakı sərhədlər aradan götürüldüyü üçün onu fərqli zaman və məkanlarda bütün varlığımızla axtarmağa yenə də davam edirik. Yazıçı, bəlkə də, həyatın ağırlığına qatlana bilmək, ruhundakı boşluğu doldura bilmək, içindəki yaraları sağaltmaq üçün Alaaddin kimi ikinci təhkiyəçini əsərə daxil edərək özünə yoldaş seçmiş, fərqinə varmadan yaratdığı irreal həqiqəti əsərin müəllifinə - özünə çevirmişdir.

Nəticə

Postmodernizmdə şəxsilik yox edilmiş və insan sadəcə özünə deyil, hər şeyə özgələşmişdir (SEYHAN, 2017: 12). Oxuyucu öyrəşdiyi sujetli təhkiyə ilə bu mətndə qarşılaşmır. Müəllif başdan sonacan axtarışdadır, hətta bəzən axtaranın da kimliyini sorğulamağa şərait yaradır, lakin kimin, nəyin axtarışında olduğumuz da zaman-zaman bilinmir. Sujetli mətnlərin strukturunun parçası olan zaman və məkan qavramları da öz mövcudluğunu itirir.

Romanda, həmçinin, nağıl ünsürlərinin olması da oxucuya aşkardır. Nağıla məxsus bir sıra xüsusiyyətlərlə qarşılaşırıq. Talha Çiçek bu mövzuda çox geniş araşdırma etmişdir. Romanda zamanı və məkanı önəmsiz qılmaq, qeyri-adiliklərin olması romanda nağıl ünsürlərinin varlığından bəhs edilməsinə imkan verir (ÇİÇEK, 2018: 9). Nağıllarda olduğu kimi, postmodern əsərlərdə də reallıq və irreallıq anlayışları bir-birinə qarışır və oxuyucu mətni oxuduqca özünü nağıllar dünyasında hiss etməsi üçün müəllif ona şərait yaradır.

Romanın ilk səhifələrindən artıq yazarla birgə bir axtarışa başlayırıq. Alaaddinlə birgə başladığımız axtarış mətnin sonlarına doğru təhkiyəçi ilə davam edərkən sonda artıq təhkiyəçinin də kimliyi bizə məlum olmur. Naməlum sonluq postmodern əsərlərin əsas xüsusiyyətlərindən biridir, yəni əsəri oxuyucu özü öz beynində tamamlayır. Asiye Çığrı Yıldırım öz araşdırmasında qeyd edir ki, belə çoxlu baxış bucaqlarının olması bir daha postmodern əsərlə qarşı-qarşıya olduğunu oxucuya xatırladır.

Postmodernistlərin bütün bu sadalanan sərhədləri aşmaları, sabitliyi qəbul etməmələri çox zaman ədəbi tənqidçilər tərəfindən kəskin tənqidlərə zəmin yaradır.

Qaynaqlar

- ÇİÇEK, Talha. (2018). "Postmodern Bir Anlatı Olan Bin Hüzünlü Haz' Da Masal Unsurları", *Sosyal Bilimler Enstitüsü Dergisi*, S.41, s.117-132

❖ DURMUŞ, Gülşah. (2015). “Fatih -Harbiye Romanı Ve Bin Hüzünlü Haz Anlatısının Geleneksel- Modern- Postmodern Anlatı Düzleminde Yorumlanması”, *Turkish Studies*, s. 949-964

❖ SEYHAN, Recep. (2017). “Bin Hüzünlü Haz Üzerinden Kurmaca Metinlerde Metaforla Gelen Belirsizlikler ve Boşluklar”, *Sosyal Bilimler Enstitüsü Dergisi*. S.67, s.19-30

❖ TOPTAŞ, Hasan Ali. (2015). *Bin Hüzünlü Haz*, İstanbul: İletişim

❖ YILDIRIM, Asiye Çığrı. (2015). “Arayış Hazzının Postmodern Hüznü: Bin Hüzünlü Haz”, *Turkish Studies*, s. 271-294

Abstract

Hasan Ali Toptaş is one of the important authors of contemporary world literature, as well as postmodern literature, in addition to contemporary Turkish literature. Among his works, the novel "Bin Hüzünlü Haz" can be considered the most suitable for the form of postmodern narration.

In the novel, worldly truths remain in the background, while unreal elements come to the fore. In his work, the author who turns life into a fairy tale makes references to "The Arabian Nights" and the characters of authors such as Kafka and Cervantes. It is obvious that the events do not take place in specific times and places. The writer has completely eliminated the concepts of time and space, even the identity of the narrator is not known to the reader from time to time. It is difficult to understand from whose language the novel was narrated. The author has used the creative elements of postmodern literature in such a way that the reader is lost in the magic of his work and does not get tired, and also allows the reader to understand the work at his own level of understanding. Our study covers the issues of time, spatial concepts, the identity of the narrator, and real and unreal elements in Hasan Ali Toptash's novel "Bin Hüzünlü Haz". In the research, we will see how Toptash addresses the postmodern form of incitement.

Keywords: Postmodern narration, fairy tale, time, space, narrator, Aladdin, reality, unreality

CƏFƏR CABBARLININ ROMANTİK POEZİYASINDA TURANÇILIQ

Ülviyyə ABDULLAYEVA
Xəzər Universiteti

Özət

Məqalədə C.Cabbarlının romantik şeirlərində türkçülük və turançılıq problemi araşdırılır. Qeyd olunur ki, C.Cabbarlı Cümhuriyyət dönəmində həm dramaturgiyasında, həm də poeziyasında mövzularını dəyişir; üzünü türk dünyasına tutur. "Trablis müharibəsi" pyesində Nuri Paşanın bədii obrazını yaratmışdır. C.Cabbarlının romantik poeziyasında da türkçü və turançı bir yol izləmişdir. Şairin bu illərdə yazdığı "Sevdiyim" (Azərbaycan bayrağına), "Azərbaycan bayrağına", "Sevimli ölkəm", "Salam", "Dün o gözlərdə", "Yaşamaq" və s. şeirlərində türkçülük, turançılıq düşüncəsini tərənnüm edir. C.Cabbarlı yaradıcılığında Turançılığın ən yaxşı poetik təsvirinin şahidi oluruq. Şairin bu ideyanı tərənnüm etməsi onun həm fəaliyyətinin, həm də yaradıcılığının məntiqi davamı kimi görünür. Göründüyü kimi, C.Cabbarlının bu dövrdə yazdığı şeirlərin iki əsas xüsusiyyəti vardır; birincisi, şair yaradıcılığında lirik şeirə müraciət edir; ikincisi, istiqlalını qazanmış xalqı tərənnüm edir, üçüncüsü, xalqın keçmişinə qayıdaraq Turançılıq ideyasını təsvir edir; dördüncüsü, şeirlərində simvollardan geniş istifadə edir. Bu simvolların hamısı, demək olar, türkçülüyün, Turançılığın simvoları, rəmzləri kimi mənalanır. Belə ki, C.Cabbarlı hələ gənc yaşlarından yazdığı şeirlərində, hekayələrində və pyeslərində xalq düşüncəsini, onun taleyini ifadə etmişdir. Şairin bu dövrdə Cümhuriyyətin qurulmasında yaxından iştiurak etməsi, Milli məclisin ilk stenoqrafçılarından biri olması da onun bu işə cani-dildən qoşulduğunu göstərir. C.Cabbarlının ölkəsinin azad yaşadığı dövrü məhz türkçülüyn ən yaxşı dövrünü, Turançılığın bərqərar olduğu dövrü xatırlatması təsadüfi deyil. Turançılıq türklər üçün yalnız bir ideya olmayıb, həm də tarixi bir reallıq olmuşdur.

Açar sözlər: Cabbarlı, romantik, Turançılıq

Giriş

Birinci Dünya savaşı zamanı dünyada baş verən ictimai-siyasi proseslər ədəbiyyata da öz təsirini göstərdi. Əsrin əvvəllərindən ictimai fikirdə özünə getdikcə yer edən türkçülük bir qədər də şəkillənməyə başlayır. Buna səbəb Türkiyənin sınırlarından kənarda yaşayan türklərin hücumlara məruz qalması və öz yaşayış yerini tərk etmələri olmuşdu. Dünyanın müxtəlif yerlərindən türklərin vəziyyətinin ağır olması onun keçmiş şöhrətini geri qaytarmağı zəruri etdi. Trablis qərbdə, Balkanlarda gedən müharibələr türklərin bu əraziləri tərk etmələri ilə nəticələndi. Rusiya daxilində yaşayan türklərin böyük bir qisminin müstəqilliyini, bir hissəsinin isə milli muxtariyyətini qazanması turançılıq fikrinin geniş yayılmasına səbəb oldu. Z.Göyalpın hələ 1911-ci ildə yazdığı "Turan" şeirində "Vətən nə Türkiyədir türklərə, nə Türkistan,Vətən böyük bir müəbbət bir ölkədir: Turan" fikri ictimai-siyasi düşüncəni də etkiləmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövründə bu düşüncə istiqlal, müstəqillik istiqamətində fokuslanmışdır. Ədəbiyyat da öz problematikasında bu mövzulara geniş yer verirdi. Azərbaycan Cümhuriyyətinin öz bayrağında türkçülüyü birinci sıraya qoyması, ölkənin yeni yaranmış müstəqilliyinə düşmən təhdidləri poeziyanın bu mövzulara yer verməsini şərtləndirdi. Baş verən hadisələr poeziyada öz əksini dərhal tapırdı; Azərbaycan əsgərinin vətəni qoruması, Qafqaz İslam ordusunun Bakını xilas etməsi, istiqlal, müstəqillik poeziyanın əsas mövzularından idi. Lakin bu dövrdə əsas mövzulardan biri də turançılığın

tərənnümü idi. Azərbaycan ədəbiyyatının heç bir mərhələsində turançılıq bu şəkildə poeziyanın mövzusuna çevrilməmişdi. M.Hadi, A.Şaiq, C.Cabbarlı, Ə.Cavad, Umgülsüm, Ə.Müznib, Əliyusif, S.Mümtaz, Davud, İ.Şakir və başqalarının şeirlərində türkçülük, turançılıq ideyası tərənnüm olunurdu. Əslində, türkçülüklə turançılıq eyni məqsədə xidmət edir. Türkçülüyün uzaq məfkurəsi türkçülük çox azaman poetik dərkdə eyniləşir. Ziya Göyalpın yazdığı kimi: "Türkçülərin uzaq ülgüsü-məfkurəsi Turan adı altında birləşən oğuzları, tatarları, qırğızları, özbəkləri, yakutları dildə, ədəbiyyatda və kültürdə-harsda birləşdirməkdir" (Göyalp, 1991, s. 38).

Cəfər Cabbarlı Cümhuriyyət dönəmində həm dramaturgiyasında, həm də poeziyasında mövzularını dəyişir; üzünü türk dünyasına tutur. "Trablis müharibəsi", "Ədirnə fəthi" pyeslərini yazaraq ilk dəfə türk dünyasında baş verən prosesləri dramaturgiyaya gətirir. "Trablis müharibəsi" pyesində Nuri Paşanın bədii obrazını yaratmışdır. "İsmailiyyə" binasında göstərilən tamaşada Nuru Paşanın özü də iştirak etmişdir. Cabbarlışünas alim Asif Rüstəmlinin tədqiqatlarında bu görüş barədə deyilir: "Ənvər Paşanın qiyafəsində monoloq söyləyən görkəmli səhnə ustası Abbas Mirzə Şərifzadə idi. Alqış səsləri altında Fətəli xan "Ədirnə fəthi" əsərinin müəllifi, Bakı Sənaye məktəbinin müəllimi, gənc dramaturq Cəfər Cabbarlını Nuru Paşaya təqdim etdi. Əsər isə Azərbaycan səhnəsində bir il öncə-1917-ci il dekabrın 15-də uğurla nümayiş etdirildi.

Nuru Paşa ayağa duraraq bu bəstəboy, qarayanız dağlı balasını bağrına basdı. Bakının 29 yaşlı fatehi Nuru Paşa "Ədirnə fəthi"nin 19 yaşlı müəllifi, söz sərkərdəsi Cəfərlə qucaqlaşdı. İki böyük türk övladının doğma qardaş kimi bir-birinə sarılmasını qələmlə qılıncın birlik rəmzi kimi dəyərləndirənlər də oldu" (Rüstəmli, s.33).

Bu əsərlərin ilk tamaşalarından sonra verilən ziyafətdə C.Cabbarlı çıxış edərək türk xalqlarının qədimliyindən və böyük bir tarixə mənsub olmasından söhbət açmışdır. Onun bu nitqi Nuru Paşanın da diqqətini cəlb etmiş və xoş münasibət yaranmışdır. Hətta o, C.Cabbarlını evində ziyarət etmiş və ona yazı stolu bağışlamışdır. Bütün bunlar yeni atmosferdə C.Cabbarlının türkçü və turançı bir yol izlədiyini göstərir. Bu yolu onun poeziyasında daha aydın görmək olar. Şairin bu illərdə yazdığı "Sevdiyim" (Azərbaycan bayrağına), "Azərbaycan bayrağına", "Sevimli ölkəm", "Salam", "Dün o gözlərdə", "Yaşamaq" və s. şeirlərində türkçülük, turançılıq düşüncəsini tərənnüm edir. Bu tərənnüm həm şairin Vətənə sevgisindən, həm də yaradıcılığının ilk mərhələsində malik olduğu romantik əhvali ruhiyyədən irəli gəlirdi. Romantizmşünas alim Vəli Osmanlı şairin yaradıcılığındakı bu romantik başlanğıc haqqında yazır: "...Cabbarlının şeir yaradıcılığı, əsasən, onun sənətindəki romantik istiqamətin başlanğıcı kimi əlamətdardır. Biz hələ onun ilkin təsəvvürlərində nəsə bir kövrəkliyin izlərini görürük. Müəyyən olur ki, həssa təbiətli bu yeniyetmənin düşüncə tərzindəki bədiiliyə də kövrək sədalar qoşulub. Bəzən ara-sıra, ya ardıcıllıqla kövrəklik özünü biruzə verir" (Osmanlı, 2014, s. 417).

Cümhuriyyətin yaranması, xalqın milli müstəqilliyi gənc dramaturq və şairi daha da ruhlandırır. Dramaturgiyada olduğu kimi, poeziyasında da yeni mövzu və problematika daxil olur. Cəmi bir neçə il əvvəl satirik şeirlər yazan C.Cabbarlı bu dəfə tərənnüm şeirləri yazmağa başlayır. Şeirlərinin mövzu və ideyası, obrazları da dəyişir və yeniləşir. Azərbaycan bayrağına həsr etdiyi "Sevdiyim" şeirində yeni obrazlar və rəmzlərdən istifadə edilir; yeni yaranmış Cümhuriyyəti Turan elləri hesab edən şairin bədii təsvir və ifadə vasitələri dəyişir, onu "yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim" adlandırır. Bu təsvirlər poeziyada ilk dəfə idi ki, yer tuturdu:

Altun köksün hilal, yıldız işıqları yanınca
Zirvəsində Şahdağının gün doğuşu diniyor.
Rəhm allahı gpzılliklər tanrısıtək pək incə,
Bir siyaqla könüllərə hey salamlar söylüyor.
O yerlərdə qardaşları, dostları var, pək sevir,
Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim (Cabbarlı, 2005, s. 62).

Şairin lirik qəhrəmanı çox xoşbəxtdi; onu "bahar yelləri" bütün Turan ellərini oxşayır, "Altaylardan Altundağdan" doğma hosslər gözləyir. Deməli ki, şair Azərbaycan bayrağını kiçik bir məkanda görmür, daha geniş bir əraziya şamil edir. Bu, Turan elləridi, o Turan elləri ki, bütün türk xalqlarını mənəvi cəhətdən birləşdirir. İstəyir ki, bu yüksələn bayraqlar bütün türk ellərini, xalqlarını qucaqlasın, onlarla buluşsun:

Can alıcı bir görkəmlə dağ başında durduqca,
Oxşadıqca baha yeli açıq, dağnıq tellərin,
Nazlı yelin omuzunda saçlarına vurduqca
Birər-birər oxşayırsan bütün Turan ellərin.
Altaylardan, Altundağdan doğma hisslər bəkləyir,
Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim.
Rümuz ilə dörd bir yandan işıq saçmaq istiyor,
Ara-sıra tərpəniyor, yüksək uçmaq istiyor,
Qollarilə türk ellərin bütün qucmaq istiyor,
Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim (Cabbarlı, 2005, s. 62).

Cəfər Cabbarlının Cümhuriyyət bayrağına bununla da yetinməyib yeni bir "Azərbaycan bayrağına" adlı şeir yazması da göstərir ki, şair bayrağa böyük bir ucalıq kimi baxır və onu tərənnüm etməkdən doymur və "Buraxınız, seyr edəlim, düşünəlim, oxşayalım,//Şu sevgili, üç boyalı, üç mənalı bayrağı",-deyə ona baxmaqdan doymur, onu düşünür, oxşayır. Çünki bu sadəcə bayraq deyil, tarixdən gələn böyük dövlətçilik ənənəsini yaşadan bir mənadır. Şairin təqdimatında o, müqəddəsdir, Odlar yurdundan bizə ərməğandır, onu yaşatmaq, ucalara qaldırmaq lazımdır. Bu bayraq ucaları çox sevir, həmişə yüksəklərdə dalğalanır. Azərbaycan bayrağının böyük mənalar ifadə etdiyini tərənnüm edən şair, bu böyük mənaları açır:

Mələklərin qanadımı üzərinə kölgə salan?
Nə imiş bu? Aman allah! Od yurdunun yarpağı,
Kök yarpaqlar, al çiçəklər, yaşıl otlar topasımı?
Xayır! Xayır! Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları çox sevir.
Yıldızlardan, hilaldan da yüksəklərdə fırlanır.
Kölgəsində ay əyilib bu gözəli qucmada,
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada (Cabbarlı, 2005, s. 63).

Şair Azərbaycan bayrağında yer almış rənglərin mənasını da "Bu ay, yıldız boyaların qurultayı nə demək?",-deyə sual edir və sonra da bu rənglərin mənasını poetik şəkildə ifadə edir. Şair bu boyaların mənasını türklüyün, Turançılığın tarixinə bağlayır və göy rəngi "Moğoldan qalmış bir türk nişanı, Bir türk oğlu olmalı", -deyə mənalandırır. Şairə görə yaşıl

boya “islamlığın sarsılmayan inamı”, al boya, yəni qırmızı rəng isə “azadlığın, təcəddünün fərmanı”, yəni “mədəniyyət bulmalı”. Rəmzlərlə dolu şeirdə türklüyün və Turançılığın əlamətləri poetik şəkildə ifadə edilir. Alxan Bayramoğlu bu rəmz və simvollar barədə belə bir doğru qənaətə gəlir: “...bayraqdakı rənglər öz “qurulaty”larında türklüyümüzün əlaməti, islamın ürəklərə hakim kəsilməli olan sarsılmaz inamıdırsa, səkkiz guşəli ulduzla onu qucaqlayan hilal, ay od yurdunun azadlqı eşqinin və ütrk milli təfəkkürünün dünyəvi bilikləri mənimsəyən işıqlı zəkasının ifadəsidir. Bütün bunlar aşiqi həm də ona görə məftun edir ki, onlar bizim mənəviyyatımıza yad olmayıb , özündə ütrk milli şüurunun ürəklərdə bəzlədiyi azadlqı və istilaliyyət idealının rəmzlərini birləşdirmişlər” (Bayramoğlu, 2003, s. 65-66). Şair burada təkcə Azərbaycan bayrağını tərənnüm etmir, həm də onun simvollarının- göy rəngin, yəni türklüyün rənginin tezliklə bütün Turan ellərində açılmasını istəyir:

Səkkiz uclu şu yıldız da səkkiz hərfli “Od yurdu”
Əsarətin gecəsindən fürsət bulmuş quş kibi,
Səhralara uçmuşdur.
Şu hilalda türk bilgizi düzgün sevgi nişanı
Yurdumuzu qucmuşdur.
Allah, əməllərin edib şu bayrağa intiqal
Birər-birər toğru olmuş, bir od almış: istiqlal.
Yürəgimdə bir dilək var, o da doğru kəsilsin
O gün olsun bir gög bayraq Turan üstə açılsın (Cabbarlı, 2005, s. 63).

C.Cabbarlının bu dövrdə ədəbi turançılığıa meyil etməsi həm ictimai-siyasi hadisələrin inkişafından, həm də romantizmə meyilindən irəli gəlirdi. Ə.Hüseynzadənin əsrin əvvəllərində, bir qədər sonra isə Z.Göyalpın yaradıcılığında mühüm yer tutan siyasi Turançılıq cəmiyyəti yeni hadisələrə hazırlamış və Cümhuriyyətin qurulması ilə nəticələnmişdi. Xüsusilə, 1910-cu ildən sonra Türk ocaqlarının yaranması və Z.Göyalpın “Türkləşmək, islamlaşmaq, müasirləşmək” silisilə məqalələrinin dərc edilməsi cəmiyyəti bu istiqamətdə hadisələrə hazırladı. Z.Göyalp yalnız siyasi Turançılıqla məşğul olmur, həm də ədəbi Turançılığı təşviq edirdi. Məhz onun “Turan” şeirindən sonra Türkiyə və Azərbaycan poeziyasında ədəbi Turançılıq boy göstərir. A.Kəngərlinin yazdığı kimi: “Azərbaycan Turançılarından, ədəbiyyatda Turançılığı başlatmış ideioloqlardan fərqli olaraq Göyalp Turançılığı hətta bu qədər ünlü bir şeirlə də məhdudlaşıb qalmırdı, o, Turançılığı sistemli şəkildə, qətiyyətlə, ardıcıl olaraq, dönə-dönə öz əsərlərində təbliğ və tərənnüm edir, bu mövzuda saysız əsərlər yazırdı. Buna görə də, I Cahan hərbi dövründə nə qədər qəribə görünsə də, Azərbaycan romantikləri Turançılığı məhz Göyalpdan öyrənmiş oldular” (Kəngərli, 2002, s. 297).

Turançılıq ideyasının C.Cabbarlı yaradıcılığında bədii əksini tapması təsadüfi deyildi; gənc şair hələ hekayə və ilk pyeslərində hadisələrə romantikcəsinə yanaşırdı. Cümhuriyyət dönəminə qədər əsasən satirik şeirlər yazsa da, bu dövrdə tərənnüm uolunu tutmuş və xalqın istiqlal və milli mücadiləsini tərənnüm etmişdir. “Sevimli ölkəm”, “Salam”, “Dün o gözlərdə”, “Yaşamaq” şeirlərində, eləcə də “Qız qalası” poemasında xalqın tarixi və bugününü bir-birinə qovuşdurur. “Sevimli ölkəm” şeirində ölkəsinin bugünün tərənnüm edir və tarixinə baş vurur. Bu şeir də yeni yaranmış cümhuriyyəti tərənnüm edən ilk şeirlərdəndir. Vətənin “göy otlaqlardan ipək paltar geyinən” tarlaları, düzlərini, təbiətini, “maral gözlü

qızları”nı tərənnüm edən şair onun tarixinə də baş vurur, digər romantiklər kimi “quzğun dəniz”ini, “yanardağları”ını tərənnüm edir:

“Quzğun dəniz” oynar ayaqlarında,
İşıq saçan nefti torpaqlarında,
Tarixlərin altln yarpaqlarında
Dadlı-dadlı sözləri var ölkəmin.

“Yanardağ”larında yalov qoşarmış,
Onu tapınmaya ellər qoşarmış,
Bir çağ varmış, ölkəm azad yaşarmış,
Bu yollarda izləri var ölkəmin (Cabbarlı, 2005, s. 67).

“Məhəmmədzadə Mirzəbala qardaşıma töhfə” yazaraq ona həsr etdiyi “Salam” şeirində şair keçmişə gedərək Turan ellərinə salam söyləyir. Şair burada “Turan eli” dedikdə bütün türk dünyasını nəzərdə tutur və Azərbaycanı da onun bir parçası hesab edirdi. Bir ucu Xəzər dənizi,bir tərəfi Baykal gölü, bir tərəfi Altundağdan, Yanardağdan keçən həsrət yelləri şairin salamını çatdırır, xalqın sahib olduğu istiqlalın müjdəsini verirdi:

Əməl quşu Şərqə doğru uçarkən,
Gündoğuşda murad suyu içərkən,
Sabah yeli Altundağdan keçərkən
Turan ellərinə salam söyləyin.

Baykalda görsəniz ördək izləri,
Unutmayın tapşırdığım sözləri.
And verirəm, durnalarım, sizləri
Turan ellərinə salam söyləyin (Cabbarlı, 2005, s. 64).

Şair “Od yurdunun yavrularının” dili ilə bütün türk dünyasına salam göndərir və yenicə qazanılmış istiqlalın müjdəsini verir. O, bu yurdu “göylər eli” adlandırır və Turan dillərinin bundan sonra da bu ellərdə səslənəcəyini poetik şəkildə ifadə edirdi:

İntizar gözlərdən Xəzər doğuldu,
Həsrət yürəyimiz Yanardağ oldu,
Dillərimiz Turan diyə yarıldı
Turan ellərinə salam söyləyin.

Yıldızlı bəz, göy tac üstü aypara,
Bir al yaylıq verim, yetirin yara,
Durnalar, durnalar bizdən dübara
Turan ellərinə salam söyləyin (Cabbarlı, 2005, s. 64).

Beləliklə, C.Cabbarlı yaradıcılığında Turançılığın ən yaxşı poetik təsvirinin şahidi oluruq. Şairin bu ideyanı tərənnüm etməsi onun həm fəaliyyətinin, həm də yaradıcılığının məntiqi davamı kimi görünür. Belə ki, C.Cabbarlı hələ gənc yaşlarından yazdığı şeirlərində,

hekayələrində və pyeslərində xalq düşüncəsini, onun taleyini ifadə etmişdir. Cümhuriyyət dönəmində isə pyeslərində və lirik şeirlərində türkçülük və Turançılığı tərənnüm etmiş və bu istiqamətdə ən yaxşı poetik nümunələrini yaratmışdır. Şairin bu dövrdə Cümhuriyyətin qurulmasında yaxından iştiurak etməsi, Milli məclisin ilk stenoqrafçılarından biri olması da onun bu işə cani-dildən qoşulduğunu göstərir.

Qaynaqlar

❖ BAYRAMOĞLU, Alxan. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. Bakı: Elm, 2004.-276 s.

❖ CABBARLI, Cəfər. Əsərləri. 4 cilddə, I c., Bakı, Şərq-Qərb, 2005, 328 s.

• GÖYALP, Ziya. Türkçülüyün əsasları /Z.Göyalp. -Bakı: -Maarif. -1991. -175 s.

❖ KƏNGƏRLİ, Aybəniz. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük/A.Kəngərli. –Bakı:-Elm.- -2002.- 332 s.

❖ OSMANLI, Vəli. Azərbaycan romantizmi. 2 cilddə, II c., Bakı: -Elm, 2014, 452 s.

❖ RÜSTƏMLİ, Asif. Bədii həqiqətlər ustası//Cabbarlı C. Seçilmiş əsərləri. 4 cilddə, I c., Bakı, Şərq-Qərb, 2005, 328 s., -s. 5-43.

Abstract

The article examines the problem of Turkism and Turanism in J. Jabbarli's romantic poems. It is noted that J. Jabbarlı changed the themes of both his dramaturgy and poetry during the period of the Republic; faces the Turkish world. He created the artistic image of Nuri Pasha in the play "War of Trablis". C. Jabbarli's romantic poetry also followed a Turkic and Turanic path. The poet wrote in these years "Sevdiyim" (to the flag of Azerbaijan), "to the flag of Azerbaijan", "My beloved country", "Hello", "Yesterday in those eyes", "Yashamaq", etc. glorifies the thought of Turkism and Turanism in his poems. We witness the best poetic description of Turanism in the work of J. Jabbarlı. The poet's glorification of this idea seems to be a logical continuation of both his activity and creativity. As it can be seen, the poems written by J. Jabbarli in this period have two main features; the first refers to lyrical poetry in the poet's work; secondly, it glorifies the nation that won its independence, thirdly, it describes the idea of Turanism by going back to the nation's past; fourthly, he makes extensive use of symbols in his poems. All of these symbols can be said to be interpreted as symbols of Turkism and Turanism. Thus, J. Jabbarli expressed the people's thought and destiny in his poems, stories and plays written from his youth. The fact that the poet was closely involved in the establishment of the Republic in this period, and that he was one of the first stenographers of the National Assembly, also shows that he was actively involved in this work. It is no coincidence that J. Jabbarli's country's period of freedom reminds us of the best period of Turkicism, the period when Turanism was established. Turanism was not only an idea for Turks, but also a historical reality.

Keywords: Jabbarli, romantic, Turanism

“DA VİNÇİ ŞİFRƏSİ” ROMANI VƏ “DEN BRAUN BƏDİİ ÜÇBUCAĞI”

Yeqzar CƏFƏRLİ
Xəzər Universiteti

Özət

Den Braun bədii üçbucağı ədəbi və nəzəri olaraq elmi, dini və sosial xətlərin birləşməsidir. Əsasən, Den Braunun “Mələklər və İblislər”, “Da Vinçi şifrəsi”, “Cəhənnəm” və “Başlanğıc” romanlarında əks olunur. Bu termin “Da Vinçi şifrəsi” romanında daha çox nəzərə çarpır. Romanda Den Braun bədii üçbucağının strukturu Robert Lenqdonun iştirakı ilə güclənir. Robert Lenqdon Den Braunun yaratdığı xəyali obrazdır. Bu obrazı müəllifin proobrazı kimi də düşünmək mümkündür. Robert Lenqdon intellektual bir şəxs kimi hadisələrə daha operativ və dinamik təsir göstərir. Jak Sonyerin qətlinin araşdırılması ətrafında qurulan kompozisiya detektiv-intellektual nəsrin xüsusiyyətləri daşıyır. Müqəddəs Qraalın axtarışı, gerçəkliklə absurdun qarşılaşdırılması Den Braun bədii üçbucağının vacib komponentləridir. Romanda verilən məlumatlar oxuculara fakt kimi yox, ehtimal olaraq təqdim edilir. Məqalədə Den Braun bədii üçbucağının strukturu “Da Vinçi şifrəsi” romanı əsasında təhlil olunur.

Açar sözlər: Den Braun, Robert Lenqdon, absurd, həqiqət.

Giriş

Romanın əsas mövzusu İsa Məsihin həyatından götürülmüşdür. Romanda Den Braun müxtəlif elmi və dini məlumatları fərdiləşdirərək hadisəyə fərqli baxış sərgiləyir. Bu fərqlilik romanın intellektual nəsr nümunəsi kimi diqqəti cəlb etməsinə səbəb olur. Bu tipli romanlar, adətən hazırlıqlı oxucular tərəfindən mütaliə olunur. Den Braun bədii üçbucağı elmi, dini və sosial xətlərin bədii kombinasiyasıdır. Bu kombinasiyanın qurulması Robert Lenqdon obrazı hesabına başa gəlir. Yazıçının təxəyyül məhsulu olan bu surət vasitəsilə əsərin fabulası təyin olunur. Romanın süjet xəttində hadisələrin ən yüksək inkişaf mərhələsi olan kulminasiya da Robert Lenqdonun iştirakı ilə formalaşır. Robert Lenqdon intellekti təmsil edir. Sözün digər mənasında müəllif detektiv hadisəni intellektual obraz vasitəsilə açmağa çalışır. Bu xüsusiyyət detektiv nəsrin fərqli versiyası kimi təqdim oluna bilər.

Əsas

Robert Lenqdonu bu mübarizədə qətlə yetirilmiş Jak Sonyerin nəvəsi Sofi Neve izləyir. Bu iki obrazın apardıqları mübarizə Jak Sonyerin qətlə yetirilməsi ilə başlayır, Qraalın axtarışı ilə bitir. Bununla da romanda səbəb-nəticə ardıcıllığının əsasını qoyulur. Robert Lenqdon surəti vasitəsilə (URL-1) ümumiləşən proseslər Sofi Nevenin, eləcə də Saylasın fəaliyyəti Den Braun bədii üçbucağının strukturunu müəyyən etmək üçün baza rolunu oynayır. Robert Lenqdonun intellekti hadisələrdə sağlam fikir yürütməsi üçün əsasdır. O, Saylasdan fərqli olaraq dini fanatizmin təsirində deyil. Robert Lenqdon mövcud proseslərdə bitərəfliyini və obyektivliyini qoruyur. Bu mənada Robert Lenqdonu Den Braunun prototipi kimi düşünmək olar.

“Da Vinçi şifrəsi” romanında Den Braun bədii üçbucağının xətləri arasında var-gəl edən proseslər intellektual və intertekstual təsir bağışlayır. İsa Məsih mövzusu ümumi olduğu üçün romandakı intertekstuallığı konkret olaraq bir mətnə bağlamaq mümkün deyil. Romanda mətn anlayışını İsa Məsih haqqındakı məlumatlar toplusu kimi qəbul etmək bədii baxımdan daha doğru olar. Den Braun Qraaldan simvol kimi istifadə edərək sosial xəttin mexanizmini

möhkəmləndirir. Robert Lenqdon alternativ tarixin mümkün modellərini təqdim edir. Romanın detektiv olması sosial xəttin istiqamətlərini asan müəyyən etməyə kömək edir. Elmi və bədii xətlərin ədəbi-nəzəri trayektoriyası isə intellektuallıq vasitəsilə təyin edilir.

Robert Lenqdonun hadisələrə obyektiv münasibəti sosial xətti vizuallaşdırır. İntellektuallıqla detektivliyin hibridi polifonik səciyyə daşıyır. Bunların bir obraz vasitəsilə verilməsi Den Braun bədii üçbucağı baxımından fərqli detektiv nümunəsi sayıla bilər. Məsələn, Kapitan Faş əvvəlcə Lenqdon və Sofidən şübhələnir. Lakin sonradan onların günahsız olduğuna inanır. Romanda istintaq idarəsinin fəaliyyəti neytraldır. Sosial xətt ali həqiqətə doğru aparan yoldur. Ali həqiqətin məzmununu müəyyən edən Den Braun bədii üçbucağının dini və elmi xətləridir. Romanda dini xətt absurdu, elmi xətt isə faktı təmsil edir. Den Brauna görə, Mariya Maqdalina İsanın həyat yoldaşı olub. Onların evliliyindən Sara adlı qızları doğulub. Orta əsrlər Fransasını 300 ilə yaxın idarə etmiş Merovinqlər sülaləsinin soyu da Mariyadan törəmişdir. Mariya Maqdalinanın fonunda (URL-2) davam edən sosial və dini xətlər Qadın başlanğıcı konseptini alternativ tarixin kodlarından birinə çevirir. Romanda İsa Məsih zamanında və nisbətən sonrakı dövrlərdə qadınlara münasibətin birmənalı olmaması dini xəttin tərkib hissəsidir. Bu məlumatlar romanın fabulasını təyin etmək baxımından önəmlidir (URL-3). Kişi və Qadın başlanğıclarına romanda münasibət Den Braun bədii üçbucağının hər üç xəttinin iştirakı ilə tamamlanır. Den Braun bu başlanğıcları dünyanın harmoniyasını balanslaşdıran faktorlar kimi təqdim edir. Belə olduqda, gerçəkliyin postmodern strukturu pərakəndəlikdən tamlığa, bütövə doğru dəyişir. "Yazıçı belə hesab edir ki, bəşər mədəniyyəti qadın və kişi başlanğıclarının dialektik münasibətləri zəminində formalaşır. Onun fikrincə, bəşər tarixi inandırıcı şəkildə sübuta yetirir ki, bu başlanğıcların birinin iştirakı məhdudlaşanda labüd şəkildə mədəniyyətin harmonik vəhdəti pozulur" (Rəhimova, 2018: 17). Den Braunun harmonik vəhdəti müasir dövrün sosial problemlərini simvolizə etmək baxımından maraqlıdır. İnsan hər iki cinsin xüsusiyyətlərini daşıyır.

Roman boyu absurddan fakta keçid Den Braun bədii üçbucağının müvafiq olaraq dini və elmi xətləri ilə icra olunur. Romanda Qadın başlanğıcına münasibət Robert Lenqdonu konstruktiv obraza çevirir. Robert Lenqdon hadisələrdəki qeyri-müəyyənliyi aradan qaldırmaq baxımından aparıcı surətdir. Robert Lenqdonun aparıcı obraz kimi xarakterizəsi onun Den Braun bədii üçbucağında harmoniyanı balanslaşdırmaq cəhdi ilə sıx əlaqəlidir. Qraal məhdud mənada Mariya Maqdalinanın məzarının önündə baş əymək, geniş mənada isə katarsisdir. Den Braun bu katarsisi İsanın şəxsiyyətinə fərqli münasibət kimi ortaya qoyur. Başqa sözlə, Den Braun Mariya Maqdalinanı "fahişə"likdən xilas edir. Sosial xətlə dini xəttin arasındakı bədii sərhəd problemlərini Den Braun simvolların köməyi ilə fakta çevirməyə çalışır. Məsələn, Mariya Maqdalina İsanın çarmıxa çəkilməsinə şahid olmuşdu. Pravoslavlar Mariyanı sülh müjdəçisi kimi qəbul etsə də, katoliklər Maqdalanlı fahişə adlandırırdılar. "Kişi və qadın nəinki cismani, hətta öz təbii seksual hisslərindən belə qorxurlar, bunu şeytan əməli sayırlar. Guya şeytan öz öz sadiq köməkçisi olan qadının vasitəsilə kişiləri yoldan çıxarır" (Braun, 2012:149).

Den Braun Robert Lenqdonu xəyali qəhrəman kimi təqdim edərək tarixi qorumağa çalışır. Onun bu təşəbbüsü Robert Lenqdonun hadisələrə obyektiv münasibəti ilə düz mütənasibdir. Den Braun tarixə müraciət edərək absurdu məhv etməyə çalışır. Robert Lenqdon modern qəhrəman kimi postmodern tələtümlərin daxilindədir. Onun mübarizəsi ümumidir. Robert Lenqdon xarakteri romanın məzmun və forma vəhdətini ümumiləşdirərək icra edir.

Müəllif Den Braun bədii üçbucağını simvollarla zənginləşdirərək həqiqət axtarışına məntiqi qiymət verməyə çalışır. Den Braun bədii üçbucağının tətbiqi Leonardo da Vinçinin

rəsmlərində gizlənən sirlər vasitəsilə bədii oyuna çevrilir. Romana görə, "Mona Liza" əsəri bütpərəst simvollarla zəngindir. Rəsm əsərinin Kişi və Qadın başlanğıclarına işarə olması fərziyyə-fakt keçidini möhkəmləndirir. "Madonna mağarada" əsərində körpə İsa, Madonna (Məryəm) və körpə İohann təsvir olunur. Den Brauna görə, bu rəsm əsəri də "Mona Liza" rəsmi kimi bütpərəst simvollarla doludur. "Əksər incəsənətşünasların fikrincə Sofinin özünə sipər etdiyi Da Vinçinin "Madonna Mağarada" əsəri, eynilə "Mona Liza" kimi gizli bütpərəst simvolları ilə doludur" (Braun, 2012:159).

Nəticə

Den Braun bədii üçbucağının konsepsiya olaraq üç istiqamətdən təşkil olunduğu qeyd olundu. Bu üç komponent bədii düstür olaraq digər romanlarda da tətbiq oluna bilər. "Da Vinçi şifrəsi" romanının baş qəhrəmanı Robert Lenqdon Den Braun bədii üçbucağının əsas icrasıçı rolunda fəal iştirak etsə də, onun fəaliyyətinə qənaətbəxş qiymət vermək olar. Bu müəllifin alternativ tarixə olan obyektiv münasibətinin təzahürüdür. Den Braun bu obraz vasitəsilə absurd və həqiqət arasındakı fərqləri müəyyən etməyə çalışır. Demək, Den Braun bədii üçbucağını formalaşdıran hər üç xəttin kəsişdiyi nöqtə insan məntiqidir. Hər bir fərd sosial həyatın, dinin və elmin məntiqli tərəflərini mənimsəməlidir. Belə olduqda hadisələri daha rahat həzm etmək, gündəlik həyata tətbiq etmək asanlaşır.

Den Braun əsərdə bitərəfliyini qoruyur. Heç bir fikrin tərəfində durmasa da, müəllifin həqiqəti tapmaq cəhdi həqiqət və absurd arasında dövr edir. Müəllif İsa Məsih haqqında oxuculara fərqli məlumatlar verməklə onları mifdən xilas etməyə çalışır. Nəticədə İsa da Allahın bir elçisidir. Onun məqsədi ilahi vəhyi insanlara çatdırmaqdır. Onu müqəddəsləş-dirmək lazım deyil. İsa Məsihi insan kimi qəbul etmək onu qorumağın ən doğru yoludur. Den Braun dinin xurafat tərəfini rədd edir. Bunu əsəri oxuduqca aydın görmək olur. Ümumilikdə Den Braun bədii üçbucağını dini xurafatı rədd edən bir ədəbi düstur kimi də qəbul etmək olar. Elmi inkişaf, dini həqiqətlər və bu ikisinin əsasında formalaşan cəmiyyət, sosial idarəetmə mexanizmləri daha sağlam bir həyatın, düşüncənin komponentləridir. Nəhayət, əsərdə Den Braun bədii üçbucağı dini, elmi və sosial xətlərin birləşməsi kimi detektiv yazı üslubunun xüsusiyyətləri çərçivəsində uğurla işlənmişdir.

Qaynaqlar

- BRAUN, Den. (2012). Da Vinçi şifrəsi. (tərc. Samir Bulut). Bakı: Qanun.
- DİNDAR, İhsan. (2017). "D. Robert Langdon geri dönüyör". https://www.milliyet.com.tr/pembenar/ihsan-dindar/robert-langdon-geri-donuyor-2470757
- RƏHİMOVA, Fəxriyyə. (2018). Çağdaş Amerikan detektiv janrının ədəbi-bədii xüsusiyyətləri (Dən Braun yaradıcılığı əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. Bakı.
- URL-1. "Robert Langdon". https://danbrown.fandom.com/wiki/Robert_Langdon
- URL-2. National Geographic. (2014). "Efsane mi? Gerçek mi? Da Vinci'nin Şifresi". https://www.youtube.com/watch?v=fx1_sfyfyGY

Abstract

Literary triangle of Dan Brown is the combination of scientific, religious and social lines from artistic and theoretical point of view. It is mainly reflected in the novels “Angels and Demons”, “The Da Vinci Code”, “Inferno” and “Origin”. This term is highlighted most in the novel “The Da Vinci Code”. The structure of Dan Brown’s literary triangle is strengthened with the participation of Robert Langdon in the novel. Robert Langdon is an imaginary character created by Dan Brown. We can count this character as the prototype of the author as well. As an intellectual person Robert Langdon has an impact on events in a more operational and dynamic way. The composition built around the questioning of Jacques Saunier’s murder contains the features of detective-intellectual prose. The search for Saint Graal, comparing reality and absurdity are the important components of Dan Brown’s literary triangle. The data given in the novel is presented to the readers not as a fact, but as an assumption. In the article the structure of Dan Brown’s literary triangle is analyzed based on the novel “The Da Vinci Code”.

Keywords: Dan Brown, Robert Langdon, absurdity, reality.

“MƏLƏKLƏR VƏ İBLİSLƏR” VƏ “HEYVANISTAN” ROMANLARINDA ZAMANIN BƏDİİ STRUKTURU

Yeqzar Cəfərli, Xanım Cəfərli

Xəzər Universiteti, Bakı Mühəndislik Universiteti

Özət

Corc Oruellin “Heyvanıstan” və Den Braunun “Mələklər və İblislər” romanında zamanın bədii strukturu həqiqətlə yalanın mübarizəsi kimi də qavranıla bilər. “Heyvanıstan” romanı alleqorik bədii mətndir. Romanda hadisələrin iştirakıçıları, əsasən, heyvanlardır. Onların apardıqları mübarizə konkret zamanda deyil. Romanda hadisələrin forması sürətlə dəyişdikcə zamanın bədii strukturu təkmilləşir. “Mələklər və İblislər” romanında həqiqətlə yalanın mübarizəsi Kilsə ilə İllüminatinin mübarizəsi ilə müəyyən olunur. Kilsə və İllüminatinin hansının həqiqəti, hansının yalanı təmsil etməsini söyləmək olmur. Müəllif bu iki anlayışı zamanın bədii strukturunu müəyyən etmək üçün bir bədii vasitə kimi istifadə edir. Corc Oruellin və Den Braunun zaman məfhumları nisbidir. Onlar mövcud zamandan sadəcə təhkiyə üsulu kimi istifadə edirlər. Əsərlərin ideyası isə zamanüstüdür. Əsərlər janr baxımından fərqli olsalar da, zamanın bədii strukturu baxımından ortaq bədii məziyyətlərə sahibdilər. Məqalədə hər iki romanın ideyası zamanın bədii strukturu ətrafında təhlil olunur.

Açar sözlər: Zaman, həqiqət, yalan, utopiya.

Giriş

Yaşadığımız dövrdə hər şey sürətlə baş verir. İnformasiya transferi gücləndikcə zaman nisbiləşir. Dünya əhalisinin sürətlə çoxalması da bu nisbiliyə təsirsiz ötüşmür. Belə olduqca insan kapitalı da zəifləməyə doğru gedir. Müasir dövrün xaosunun, qeyri-müəyyənliyinin əsas səbəblərindən biri də məhz budur. Zaman vaxt olaraq deyil, məfhum olaraq dəyişməkdədir. Nəticədə, ciddi sosial-mənəvi çətinliklər yaranır. Bu kimi problemlər mövcud cəmiyyətlərin də inkişafını ləngidir. Bu mənada zamanın bədii strukturunu daha dəqiq analiz etmək üçün Corc Oruellin “Heyvanıstan” və Den Braunun “Da Vinçi şifrəsi” romanları önəm kəsb edir.

“Heyvanıstan” romanının ideyası zamanüstüdür. Bu yanaşmanı ümumbəşəriliklə də birləşdirmək mümkündür. Zaman və onun strukturu romanda geniş planda düşünülə bilər. “Mələklər və İblislər” romanında müəllif Kilsə-İllüminati mübarizəsi əsasında zaman məsələsini qabardır. Hər iki roman bu mənada eyni xətti izləyir: Hər bir şeyin öz zamanı var. Fürsətlərdən zamanında istifadə etmək zəruridir.

Əsərə qısa baxış

Corc Oruellin romanı 1945-ci ildə qələmə almışdır. "1984" romanına hazırlıq hesab edilən "Heyvanıstan" satirik və alleqorik roman nümunəsidir. Əsərdə insan fermerə qarşı üsyan edən və öz hakimiyyətlərini quran bir qrup heyvandan bəhs olunur. Romandakı məkan vizual olaraq Çar Rusiyasıdır. Heyvanların timsalında aparılan mübarizə bu vizuallığı möhkəmləndirir. Hadisələr dar mənada Çar Rusiyası və SSRİ ilə bağlı olsa da, geniş mənada "Heyvanıstan" hər hansı bir ədalətsiz insan cəmiyyətidir. İnsanlar tarix boyunca yeni yaranmış bütün quruluşlardan rifah, sülh, bərabərlik, azadlıq və əmin-amanlıq gözləntisi içində olmuşlar. İnsan digər varlıqlardan fərqləndirən əsas cəhəti şüurlu varlıq olması olsa da, bəzən bundan düzgün olmayan formada istifadə edilmişdir.

"Heyvanıstan" romanında zamanın bədii strukturu alleqorik dəst-xəttin köməyi ilə bədii çalar qazanır. "Heyvanıstan"ın sakinləri qanunsuz, ciddi boşluqları olan bir cəmiyyətin sakinləridir. Onların yaşadıqları zaman da utopikdir. "Mələklər və İblislər" romanında isə bu prosesi adi detektiv xətt izləyir. "Mələklər və İblislər" romanında zamanın bədii strukrturu Den Braunun zaman məfhumuna faktoloji və real yanaşma tərzi ilə müəyyən olunur.

Oruell əsərdə ideal bir siyasi quruluş və dövlətin mövcud olmadığını (mövcud ola bilməyəcəyini) göstərir. Belə bir cəmiyyətin utopiya olacağını Oruell də qəbul edir. O, ilk baxışda bütün həqiqətləri olduğu kimi təqdim edərək dövrünün realist yazıçısı olduğunu təsdiqləyir. Əslində isə müəllifin idela cəmiyyət axtarışı romantik məzmundadır. Belə demək mümkündür ki, realist Oruellin zamanı konkretdir. Romantik Oruell isə zamanüstünün təhkiyəsini yazır. Bu mənada bir təzadla qarşılaşmaq mümkündür. Digər bir təzad isə əsərin ideyası ilə əlaqəlidir. Müəllif yazır ki, bəzən insan azad olduğu illuziyasına qapılsa belə, insana tam azadlıq verən heç bir dünya quruluşu mövcud deyil və olmayacaq. Bu fikir ideal cəmiyyətlə real cəmiyyətin arasındakı məsafəni müəyyən etməkdə çətinlik yaradır. Den Braun da romanda utopiyaya meyil edir. Müəllifin utopik cəhdləri onun realizminin arxasında gizlənir. "Mələklər və şeytanlar" romanında zaman konsepti həqiqət uğrunda mübarizənin davamı kimi romanın təyinedici obyektidir. Zamanın həqiqəti nisbiləşdirməsi bu təyinetmənin əsas səbəbidir. Den Braun bədii üçbucağının tətbiqi ilə zaman konsepti mərkəzçilik statusu yaradır. Romanda zaman konsepti Robert Lenqdonun iştirakı ilə kulminasiyaya çatır.

"Heyvanıstan" romanında ferma Çar Rusiyası, Mister Cons isə çarlığın sonuncu nümayəndəsi II Nikolaydır. Marks və ya Leninin prototipi olan Qoca Mayor obrazının timsalında müəllif bütün heyvanların bərabər olduğu ideyasını önə sürməklə insanları birliyə

səsləyir. Hər kəsin öz ideologiyasını doğru hesab etməsi sonda faciəyə səbəb olur. Qoca Mayor düşünür ki, *"marksizm fəlsəfəsi – materialist dünyagörüşünün ən yüksək formasıdır*" (Konstantinov, 1980: 28). Onun fəlsəfəsi animizm adlanır. O, sosialist-kommunist ideyaları təmsil edir. Sonradan bu ideologiya hakimiyyət və güc hərisi olan Napoleon (Stalin) tərəfindən sui-istifadə olunur. O, sosializmi yaxşı formada reallaşdıran həmkarı Snovbolu sürgün edir.

"Mələklər və İblislər" romanında Kilsə ilə İlluminatinin qarşılıqlı ittihamları zamanın bədii strukturunu bir dövrün mərkəzindən çıxararaq gələcəyə ötürür. Hər iki quruluşun öz ideologiyasını düzgün hesab etməsi böyük bir mübarizənin başlanğıcını qoyur. Den Braun bu mübarizəni xeyirlə şərin mübarizəsi kimi təqdim etsə də, bitərəf qalır. Müəllif bu mübarizədə elm faktorunu qabardaraq onu həm günahsız, həm də günahkar akt kimi (URL-1) irəli sürür. Oruell məsələyə daha geniş prizmadan yanaşaraq heyvanların timsalında insan cəmiyyətinin problemlərini qabardır. Den Braun isə həqiqət-yalan mübarizəsinin nəticələrini məhdud bədii prizmadan həll etməyə çalışır. Bu mənada Den Braun tarixi faktlara da müraciət etməyi unutmadan iki fərqli quruluşun timsalında vahid zamanı tapmağa cəhd edir. *"1900-cu illərin əvvəllərində Vatikan o həddə çatmışdı ki, birliyi xəstə təxəyyülün məhsulu adlandırırdı."* (Braun, 2015:302).

"Heyvanıstan" əsərində müəllif, demək olar ki, yalnış idarəetmənin bütün tərəflərindən söz açır. Xüsusi dəstələrin mövcudluğu, dindən sui-istifadə, həqiqətlərin saxtalaşdırılması, qanunsuz ittihamlar, ölüm, siyasi korrupsiya kimi problemlər romanda zamanın bədii strukturunu müəyyən edən komponentlərdir. Bütün bu problemlərin yaradıcısı insandır. Bu yanaşmanı əsərdə hər iki müəllifin insan problemini qabardaraq mükəmməl zaman yaratmaq cəhdi izləyir. Corc Oruell Den Braundan fərqli olaraq tarixi faktların saxtalaşdırılması məsələsini qabardır. Corc Oruellin "Heyvanıstan"ında müsbət nə varsa məhv edilməyə məhkumdur. Müəllif dilin xalqı idarə etmək üçün ən güclü vasitə olduğunu əsərdə bədiiləşdirməklə problemin hansı həddə olduğunu göstərir. Oruell düşünürdü ki, idarəçilər hər zaman öz mənafeləri naminə dili vasitəyə çevirirlər. Bu fikir müəllifin "Kommunizm insanların bərabərliyini iddia edən utopik bir sistemdir" fikri ilə qarşı-qarşıya qoyulur. Əsərdə donuzlar ədalətsizliyi yaradan heyvanlardır. Müəllif donuzun mənfi xüsusiyyətlərini insana köçürərək əsərin bədiiliyini artırır. Zamanın bədii strukturunun hansı formada olması ilk növbədə, mətnin aid olduğu cərəyanın xüsusiyyətləri ilə bağlıdır. Detektiv nümunəsi olan "Mələklər və şeytanlar" alleqorik roman olan "Heyvanıstan" ilə fərqli estetikanı bölüşür.

Oruell əsərdə sadəcə hakimiyyəti deyil, hakimiyyətə etiraz etməyən kütləni də tənqid edir. Onları öz güclərinin və potensiallarının fərqində olmağa səsləyir. Əsərin alleqorik mesajlarından biri də məhz budur: heyvanlar güclərinin fərqində olmadıqları üçün biz onlara hökmranlıq edə bilirik. Necə ki, çoxluq təşkil edən işçi sinfi və ya proletariat öz gücünün fərqində olmadığı üçün hakimiyyət onları istədiyi formada idarə edir. Oruell düşünür ki, insanlar idarə etməklə idarə olunmaq arasındakı önəmli məqamı tutmaqda çətinlik çəkirlər. Bu mənada insanların xüsusiyyətləri heyvani instinktlərə bənzəməyə başlayır. Oruell sadəcə totalitarizmin düşməni deyildi, o, insan nəslini də tənqid edirdi. İnsanların əksəriyyəti gətirəcəyi məsuliyyətlərdən uzaq olmaq üçün azadlıqdan imtina edirlər, ondan qorxurlar. *"Bu insanlarda qatil və əzab verən şəxsə, cəllada qarşı gizli bir heyranlıq, itaət, başqa sözlə, sado-mazoxizm münasibətinə bənzəyir."* (Hitchens, 2007:201)

Den Braun İllüminatinin fəaliyyətindəki elmi faktları məqsədə çevirir. Bununla belə, Kilsənin savadlı nümayəndələrinin olması faktı ilə birləşdirməyi də unutmur. Kilsə-İllüminati mübarizəsi müəllifin empirik cəhdlərinin komponentləridir. Den Braunun zamanı Kilsə-İllüminati arasında dövr etsə də, onun strukturu xeyrin qələbəsi ilə müəyyən olunur. Den Brauna görə, Kilsə və İllüminati mübarizəsində kimin qalib gəlməsinin bir önəmi yoxdur. Əsas məsələ həqiqətin tapılmasıdır. Bu mübarizədə hər iki təşkilat həqiqəti fərdiləşdirməklə məşğuldurlar. Müəllif elmdən də məharətlə istifadə edərək həqiqətin vahidliyi prinisipini ortaya qoyur.*"- Bununla razılaşa bilmərəm, - qız etiraz etdi. – On yeddinci əsrin əvvəllərində dünyada ən savadlı adamlar kilsə xadimləri idi. Əgər həmin işarələr ictimai yerlərdə yerləşdirilmişdisə, Vatikanda onların mənasını açа biləcək adamlar mütləq olmalı idi"* (Braun, 2015:271).

"Heyvanıstan" romanı məzmun və mövzu olaraq uşaqlar üçün yazılmış təmsil təsiri bağışlayır. Lakin əsərin ideyası bunun əksini deyir. Müəyyən tarixi-siyasi biliyə malik olmadan əsərin məqsədini anlamaq mümkünsüzdür. Məhz bu xüsusiyyətinə görə bu romanı intellektual nəsr nümunəsi kimi qəbul etmək mümkündür. Corc Oruell şüura təsirin önəmli fakt olmasını yaxşı başa düşürdü. Buna görə də romanda təkcə ideoloji mübarizədən söz açmır, onun istiqamətlərini də göstərirdi. Oruellin obrazlarının fikirləri, mübarizələri, qorxuları və arzuları bütün dövrlər üçün aktualdır, zamanüstüdür. *"Oruellin əsərlərini oxuduqca, oradakı fikirlərin bir oxucu olaraq özünə məxsus olduğunu iddia etmək istəyirsən. Sanki Oruell sənin beynindən keçirdiyin qorxulardan və mübarizələrdən yazıb. Sanki onun əsərlərinin müəllifi sənsən."* (Rodden, 2007:183)

Nəticə

Zamanın bədii strukturu hər iki romanda həqiqət uğrunda mübarizənin bir modeli kimi iştirak edir. "Mələklər və şeytanlar" romanında zamanın bədii strukturu Kilsə-İllüminati mübarizəsi vasitəsilə bədii həllini tapır. "Heyvanıstan" romanında isə zamanın bədii strukturu intellektual nəsr komponentlərinin, eləcə də, alleqoriyanın daxilində təşəkkül tapır. İnsanın təmizlənərək özünü yenidən kəşf etməsi hər iki əsərdə həqiqət axtarışının əsas düsturu hesab oluna bilər. Den Braun həqiqətləri tarixin dərinlikdən tapmağa cəhd edərək keçmişdən indiki zamana gətirir. Corc Oruell isə dövrünün hadisələrini gələcəyə transfer edərək indiki zaman-gələcək zaman keçidi yaradır. Den Braun dövrün real mənzərəsini məlum həqiqətləri saf-çürük etməklə yaratmağa cəhd edir. Corc Oruellin qəhrəmanları isə utopiyanı reallığa birbaşa və ya dolayısı ilə çevirən müəyyən mənada özgələşmiş insanlardır. Hər iki romanda zamanın bədii strukturu nizamsızlığın nizamı, zamansızlığın zamanı kimi absurd reallıqlar ətrafında birləşir. Nəticədə, zamanın keyfiyyətini müəyyən edən insandır. İnsan faktoru bu mənada bütün problemlərin mərkəzi qüvvəsini təşkil edir.

Qaynaqlar

- Konstantinov, F.V. (1980). Marksizm – Leninizm fəlsəfəsinin əsasları, Bakı: Maarif.
- URL-1: Nidhal Guessoum. (2011). "Science and religion in Dan Brown's 'Angels and Demons"
  - http://nidhalguessoum.org/science-and-religion-in-dan-browns-angels-and-demons/
- Hitchens, Christopher, Rodden John. (2007). Why Orwell Still Matters. The Cambridge Companion to George Orwell, New York: Basic Books; Reprint edition
- Rodden, John. (2007). Orwell for Today's Reader: an Open Letter. The Cambridge Companion to George Orwell, New York: Basic Books; Reprint edition.
- Braun D. (2015). Mələklər və İblislər. (tərc. Yaşar Əsədov). Bakı: Qanun.

Abstract

The structure of time in the works "Animal Farm" by George Orwell and "Angels and Demons" by Dan Brown can be perceived as the struggle between truth and absurdity as well. The novel "Animal Farm" is an allegorical literary text. The main characters in the novel are mainly animals. Their struggle is not in the certain time period. As the form of the events in the novel changes speedily, the structure of time improves. The struggle between truth and absurdity in the novel "Angels and Demons" is defined by the fight between the Church and the Illuminati. It is impossible to tell whether the Church or the Illuminati represents truth or absurdity. The author uses both the

concepts to determine the structure of time as a literary means. Time concepts of George Orwell and Dan Brown are relative. They use the existing time only as a means of narration. The idea of the works is timeless. Though the works are different in terms of their genres, they have common literary features in the point of time structure. The idea of both the novels is analyzed around the time structure in the article.

Keywords: *Time, truth, absurdity, utopia.*

DEN BROUNUN "CƏHƏNNƏM" ROMANINDA "MALTUS" NƏZƏRİYYƏSİNİN BƏDİİ İFADƏSİ

Lalə YUSİFOVA
Xəzər Universiteti
Elmi rəhbər: : fil.ü.f.d. Ülvi Babasoy

Özət

"Cəhənnəm" romanında dünyada insan sayını azaltmaq üçün yayılan və nə vaxt, harada, kimdə və nə vaxta qədər ortaya çıxacağı qeyri-müəyyən olan sonsuzluq virusunun İstanbulda suda həll olunan torbadan azad edilərək atmosferə necə yayıldığı izah edilir. Məqalədə "Maltus" nəzəriyəsinə görə dünya əhalisinin sürətlə artması, qidanın tədricən yoxa çıxmasından və son olaraq insanlığın məhvinə gətirib çıxarmasından bəhs olunur. Həmçinin yaxın keçmişdə dünyanı saran, qlobal problemə çevrilən "Korona" virus pandemiyası "Maltus" nəzəriyyəsi ilə əlaqələndirilir. Məqalədə "Cəhənnəm" əsərinin Dante Aligyerinin "İlahi komediya" əsəri ilə bağlılığı əks etdirilir.

Açar sözlər: "Maltus" nəzəriyyəsi, əhali artımı, sonsuzluq, "İlahi komediya"

Giriş

Den Brounun qələm məhsulu olan "Cəhənnəm" romanı 2013-cü ildə yazıya alınmışdır. Robert Lenqdon haqqında "Mələklər və iblislər", "Da Vinçi şifrəsi", "İtirilmiş simvol" əsərlərindən sonra dördüncü romanıdır. Kitab həddindən artıq əhalinin fəlsəfi fikirləri və onun potensial həlli yolları ilə bağlı alt süjetə malikdir. Müəllif öz povest texnikası vasitəsilə hərtərəfli, inandırıcı, ağlasığmaz nağıl yaratmağı bacarır, oxucunu onun uydurmasına məhəl qoymamağa vadar edir, eyni zamanda onu inamsızlığın dayandırılmasına sövq edir. İlkin olaraq hekayə üsulları və süjet nöqtələri vasitəsilə müəllif zəngin materialla ehtimal olunan hekayə yaradır.

Əsərin baş personajı olan Robert Lenqdon İtaliyada bir xəstəxanada yaddaşını itirmiş halda yuxudan oyanır. Bu an Lenqdon nəinki xəstəxanada, hətta İtaliyada olduğunu belə xatırlaya bilmir. Həkim nəzarətində saxlanılır. Yorğun günlərdən sonra professor Lenqdon adətən tez yuxuya gedir. Sonra kabuslar görür. Daima kabuslarında qan-qırmızı çayın o tayından ona səslənən gümüşü saçlı gözəl qadın və baş üstü torpağa basdırılmış, ölməkdə olan cəsədləri görür. Kabuslar həmişə insanları oyadır. Bu, gözəldir, amma Robert oyanarkən yeni bir kabusa qərq olduğunu hiss edir. İnsanlar adətən kabuslarını dayandırmaq üçün oyanırlar, lakin Lenqdon kabusun məhz oyananda başladığını hiss edir. Sirlərin axtarışı Robert üçün həmişə əsl kabus kimi görünür. Onun başına gələnləri anlamağa çalışarkən xəstəxanaya hücum edilir. Yüksək İQ-yə malik qadın həkimimiz Lenqdonu xəstəxanadan qaçırdır və evinə aparır. Professorumuz hadisələrin davamında dünyanın epidemiya təhlükəsi altında olduğunu öyrənir. Epidemiyanın qarşısını cəhənnəmi təsvir edən şəkildəki tapmacanı həll etməklə almaq olar.

Hekayəboyu vəba maskaları görünür. Bu, vətəndaşların Zobristin dünyaya buraxmağı planlaşdırdığı vəba ilə bağlı qorxusunu simvollaşdırır. Dərin olaraq, bu, bəşər övladının dünya miqyasında məhv edilməsi ilə bağlı insanın qorxusunu anladır. Bununla belə, Robert Lenqdon Zobristin virusun olduğu yeri tapmasına səbəb olan mesajını tərcümə etmək üçün bu simvollardan istifadə edir.

Müəllifin dediyi kimi, infeksiyanın yalnız bir forması var ki, virusdan daha tez yayılır. Bu, qorxudur. Qorxu qəhrəmanlarımızı istənilən şəraitdə narahat olmağa məcbur edən bir xəstəlikdir. Onlarda ən pis duyğular yaşadır və tez həll olunmayan hər bir problem üçün narahat edir. Sienna Bruks və professor Lenqdon başa düşürlər ki, qorxu onları çox tez mənimsəyir. Lakin onları öz cəsarəti sağaldacaq. Yalnız cəsarət minlərlə insanın canını qurtarmağa kömək edəcək.

Əsər postmodern kontekstdə yazıldığı üçün Dante Aligyerinin "İlahi komediya" əsərinin əsasında yazıldığını düşünə bilərik. Oxucu əsərlə tanış olarkən zaman və məkan olaraq ardıcıllığın pozulduğunu görür. Lakin ayrı-ayrılıqda zamanlar və məkanlar bu əsərdə birləşərək ümumi məzmuna özünəməxsus təsir göstərir.

Dantenin təsvir etdiyi konusvari cəhənnəm doqquz mərtəbəlidir. Konusun ucu yerin mərkəzinə doğru enir və bu qıvrımlar dərinləşdikcə daralır. Hansı mərtəbədə qalmağınız günahlarınızdan asılıdır. Zərərlilər, fırıldaqçılar və belə insanlar üçün xüsusi mərtəbələr var.

Den Braunun İstanbulla əlaqəsi olmayan şəkildə bağladığı "Cəhənnəm" romanı bəşəriyyətin əhali planlamasında uğursuzluğa düçar olduğu iddiasına əsaslanan və oxuculara ciddi təhlükə ilə üz-üzə olduqlarını düşündürmək məqsədi daşıyan bir romandır. Romanda reallığı manipulyasiya edən, insanları aldadan bir sistem nümayəndəsi kimi bir təşkilat, konsorsium var. Gəminin adı "The Mendacium", yəni "Saxta" deməkdir.

"Konsorsiumun uğurunun əsasında şəxsilik dayanırdı. Öhdənə düşəni etməlisən. Heç nəyi paylaşmaq olmaz". (Braun, 2014: 34)

Bəşəriyyətin xilası problemi romanda başlıca problemlərdəndir.

"*Əgər adambaşına düşən təmiz suyun miqdarını artırmaq istəyirsinizsə, o zaman yer üzündə adamların sayını azaltmalısınız". (Braun, 2014: 175)*

Əsərin "Maltus" nəzəriyyəsi ilə əlaqəli olduğunu deyə bilərik. Pessimist düşüncələrə malik olan Maltus bir iqtisad alimi kimi şöhrət qazanmışdır. O, bu gün dünya tarixində formalaşdırdığı "Maltus" nəzəriyyəsi ilə iz buraxmışdır. O, 1798-ci ildə yazdığı "Əhalinin sayı nəzəriyyəsi" kitabı ilə gündəmə gəlmişdir. Elə kitabın ilk səhifələrində biz onun əhalinin artması haqqında nəzəriyyəsi ilə tanış ola bilərik. Onun fikrincə əhalinin sayının tənzimlənməyəcəyi halda aclıq, səfalət və böhran qaçınılmaz olacaqdır. Maltus əhalinin sayının qida maddələrinin kəmiyyəti ilə uzlaşmadığını söyləyir və fikrinə sübut olaraq bir düstur irəli sürür. Bu prinsipə görə Maltus, gec evlənmək, az uşaq sahibi olmaq kimi təkliflərin dövlət tərəfindən tətbiqini mütləq hesab edirdi.

Bu pik nöqtədə Maltus əhalinin artımının nəzarətə götürülməsi deyərkən doğumu azaltmağı deyil, əslində əhalinin müharibələrlə, epidemiyalarla, kütləvi qırğın silahları ilə aradan götürülməsini nəzərdə tuturdu.

"Kütləvi qırğının əsas səbəbi elə insanların öz səhvləri, nöqsanlarıdır. Onlar böyük dağıdıcı ordunun sələflərididirlər və bu tükürpədici işi özləri tamamlaya bilərlər. Lakin onlar özləri özlərini qırıb qutara bilməsələr, xəstəliklərlə dolu fəsillər, epidemiyalar, taun, vəba işə qarışacaq və minlərlə, on minlərlə insan tələfatına səbəb olacaq. (Braun, 2014: 182)

İnsanın icad etdiyi müharibə onu özünü məhv etməsə, xəstəliklər, epidemiyalar onu məhv edəcək. Çünki insanların sayının çoxalması dünyadakı qida ehtiyatını tükədir. Yaxın zamanlarda tanış olduğumuz "Korona" virus adlı böyük pandemiya hələ də dünyada öz izini buraxmışdır. Bu virus nəticəsində dünya əhalisi sayında böyük azalma müşahidə olunmuşdur. Bunların hər biri ölkələrə iqtisadi, sosial zərərlər vermişdir. Əsəri oxuduğum zaman Zobristin gördüyü tədbirlər mənə yaşadığımız bu fəlakəti xatırladı. Onun bəşəriyyət üçün etmək istədiyi yaxşılığın pandemiyada şahidi olduq.

Lenqdon uğursuzluğa düçar olur, lakin hər kəs virusun "yaxşı" virus olduğunu başa düşür. O heç kimi öldürməyəcək, lakin əhalinin yalnız üçdə birinin çoxalmasını təmin edəcək.

"Cəhənnəm" romanında memarlıq abidələrinin bədii təsviri oxucuları hadisələr və obrazların xarakteri ilə tanış etməyə şərait yaradır. Bir vaxtlar Venesiya Avropanın ticarət mərkəzi kimi şərəflə hökmranlıq edirdi. Bütün hesablamalara görə, "dünyada bundan gözəl şəhər yox idi", əhalisinin zənginliyi və mədəniyyəti misilsizdir. Bu heyrətamiz şəhər həmişə müxtəlif gözəl ənənələri və dəbdəbəli əşyaları götürməyə çalışırdı.

"Lenqdon orta əsr memarlığına yaxşı bələd idi". (Braun, 2014: 19)

Əsərdə həmçinin simvolizm müşahidə edilir. Bertrand Zobrist obrazı əsərdə oxuculara canlı şəkildə təqdim edilir. Bəzi məqamlarda obrazın xarakterinə bənzətmələr verilməsi simvolik hadisədir. İntiharının romandakı hadisələrdən əvvəl baş verdiyini nəzərə alsaq, o, povestdə fiziki olaraq görünmür. "Biokimyaçı və Dante fanatı olan" Bertrand Zobrist bütün bəşəriyyətin dərin böhran içində olmayacağını xəyal edir. İstəyir ki, əhali sıxlıq və aclıqdan əziyyət çəkməsin, günah və ümidsizlik bataqlığında olmasın. Əsərdə Zobristin virusun köməyi ilə bir hissəsini məhv edərək bütün bəşəriyyəti xilas etmək istəməsi əks olunub. O, Den Braunun yaratdığı uydurma obrazdır. Bertrand Zobrist transhumanist elm xadimi idi. Həmçinin Dante vurğunu olduğu üçün öz tapmacalarını "Cəhənnəm" üzərində bəzi dəyişikliklər edərək yerləşdirir. Dantenin Cəhənnəminin ideyası bir insanın sevgisini, Beatrisi tapmaq və sonra Cənnətə getmək üçün Cəhənnəmdən keçən səyahətindən bəhs edən "İlahi Komediyadan" gəlir. Zobrist həddindən artıq əhali problemi nəzarət altına alınmasa, yer üzündə nə olacağını təsvir etmək üçün Dantenin cəhənnəmə baxışından istifadə etdi. Bu şəxsin kimliyi, hansı planı qurması, bəşəriyyətin xilası üçün hansı tədbirlər görməsi kimi bənzər məsələlər diqqətimizi cəlb edir.

"Burada və bu tarixdə dünya əbədi dəyişdi". (Braun, 2014: 35)

Bertrand Zobristin yanaşması və görüş şəraiti ən yaxşı halda qaranlıq olsa da, o, qlobal sağlamlıq məsələlərində dünyanın ən nüfuzlu adamından əməkdaşlıq və dəstək axtarırdı. Ona görə də ÜST-nin direktoru Elizabet Sinskey ilə görüş təşkil edir.

Kitab transhumanizm, genetik manipulyasiya və pandemiya potensialı ilə özünü əhatə edir. "Cəhənnəm" qara taunu, onun qurbanlarının sayını və bəşəriyyəti məhv edən təsirini əsas götürərək vəba ideyasını önə və mərkəzinə qoyur.

"Bizim genetikamız kartlar evi kimidir – hər bir parça saysız-hesabsız digər parçalara bağlıdır və dəstəklənir". Bir insan xüsusiyyətini aradan qaldırmağa çalışsaq, yüzlərlə başqasının eyni vaxtda dəyişməsinə səbəb ola bilərik. Bu da fəlakətli təsirə səbəb ola bilər.

Nəticə

Əsərdə qoyulan başlıca problem öz aktuallığını bu gün də qorumaqdadır. Yəni insanların sayının azaldılması, bu azalmanın bəşəriyyətin gələcəyinə verəcəyi zərər indinin özündə də müzakirə mövzusudur. Məlumdur ki, bəzi ölkələrdə baş verən müharibələr nəticəsində insanların sayı azaldığı müşahidə edilir. Təbii ki, bu da yerin təbii ehtiyatlarından istifadənin tənzimlənməsinə gətirib çıxardacaq. Kapitalizmin hakim olduğu cəmiyyətlərdə kapitalın gücü ilə müəyyən olunan bir sıra prinsiplər nisbətən kapitaldan məhrum olan insanların taleyinin kölgə altına düşməsinə təsir edir.

"Yer üzünün hər bir qəsəbəsinin sakinləri harada olduqlarını anlamayıb başqa yerə köçə bilməyəcəkləri qədər artdıqlarını qavradıqları an, dünya özü-özünü təmizləyəcəkdir". (Braun, 2014: 131)

Den Brounun Danteyə nəzərən yazdığı bu əsər insanları günahlardan təmizləməyə səsləyir. Bu gün biz öz çirkinliyimizi təmizləməsək, özümüzlə gələcəyə aparsaq, gələcəyimizi "cəhənnəm"ə çevirmiş olarıq.

"Cənnətə yetişmək üçün insan cəhənnəmdən keçməlidir". (Braun, 2014: 60)

Qaynaqlar

❖ ANONİM. (2013*). "Dante`den Dan Brown`a Cehennem Tesvirleri".* BBC News Türkçe. 15 Mayıs,

❖ ANONİM. (2022). *Dante`nin Cehennemi (Dan Brown – Cehennem Eleştirisi).* Parlak Jurnal Internet Dergisi.

- BRAUN, Den. (2014*). "Cəhənnəm"*, Bakı: Qanun Nəşriyyatı.

❖ DENİZ, Seçkin. (Nisan, 2022). *The Mendasium; Sahte Kurgu – Konsorsiyum: "Cehennem`in Kapıları İstanbul`a Açılıyor!"* İstanbul: Sonsuz Ark.

Abstract

In the novel "Inferno", it is explained how the infinity virus, which is spread to reduce the number of people in the world and is uncertain when, where, in whom and for how long it will appear, was released from a water-soluble bag in Istanbul and spread into the atmosphere. According to the theory of "Malthus", the article talks about the rapid increase of the world's population, the gradual disappearance of food and finally the destruction of humanity. Also, the "Corona" virus pandemic, which surrounded the world in the recent past and became a global problem, is associated with the "Malthus" theory. The article reflects the connection between the work "Inferno" and the work "Divine Comedy" by Dante Alighieri.

Keywords: "Malthusian" theory, population growth, infertility, "Divine Comedy".

HAMLET İSAXANLININ "ZİYARƏT" POEMASINDA ONOMASTİK VAHİDLƏR

Fil.ü. f.d., dos Zivər HÜSEYNLİ BAYLAN
Xəzər Universiteti

Özət

Qədimdən bəri zəngin nümunələri ilə dünya ədəbiyyatları arasında yer tutmuş Azərbaycan ədəbiyyatı müasir dövrdə də öz zənginliyini qorumaqdadır. XX-XXI əsrlərdə öz qələmləri ilə bu yolda çalışan, yazıb-yaradan şəxsiyyətlər vardır. Onlardan biri Professor Hamlet İsaxanlıdır.

Fizika-riyaziyyat elmləri doktoru, professor, Hamlet İsaxanlı Humanitar elmlər sahəsinə olan dərin marağı nəticəsində müasir dövrün şairi, yazıçısı, publisisti, tərcüməçisi, elm, mədəniyyət və təhsil tarixi üzrə mütəxəssisi, ədəbiyyat və dilçilik, tarix və fəlsəfə tədqiqatçısı olaraq fəaliyyət göstərir və tanınır. Hamlet İsaxanlının adı gedən sahələrə aid bir çox yazılı kitab və məqalələri mövcuddur. Ədəbiyyat sahəsində olan ən məşhur əsərlərindən biri "Ziyarət" poemasıdır.

Şairin xeyirxah, incə qəlbinin, həyat yolunun, idea və düşüncəsinin məhsulu olan "Ziyarət" poeması müasir Azərbaycan ədəbiyyatı sahəsinə verdiyi töhfələrdən biridir. Əsər ədəbi əhəmiyyəti ilə yanaşı dilçilik sahəsində tədqiqat üçün də dəyərli əsərlər sırasındaıdr.

"Ziyarət" əsərində çox sayda onomastik vahidlər işlənmişdir. Azərbaycan onomastik vahidlərinin ayrılıdğı əsas qruplardan olan antroponim, toponim, etnonim, hidronim, zoonim, kosmonim, ktematonimlərə aid olan sözlərin hər biri seçilərək ayrı-ayrılıqda araşdırılacaq və hər bir vahid haqqında lazımi izahlar veriləcəkdir.

Bu tədqiqatın Azərbaycan dilçilik sahəsinə bir töhfə olacağının ümid edirik.

Açar sözlər: Hamlet İsaxanlı, Ziyarət poeması, dilçilik, onomastika.

Giriş

Onomastika dünya dilləri, habelə Azərbaycan dilçiliyində əsas sahələrdən biridir. Xüsusi ismilər, habelə bir isimin adını bildirən bu sahə Azərbaycan dilçilik elmində "onomalogiya" və ya "advermə elmi" adlandırılır.

Azərbaycan dilçiliyində bu mövzuda öz sözünü demiş professor Afad Qurbanova görə dildəki xüsusi adların cəmi onomastik leksikadır… Hər bir xüsusi ad onomastik vahid ictimai-tarixi inkişafın məhsuludur. Xüsusi adlar keçmişin izlərini özündə mühafizə edib müasir zamana kimi gətirən real faktlardır, tarixin canlı şahidləridir. (Qurbanov, 2019: 1/9). A. Qurbanov onomastik tədqiqatın əhəmiyyətini və həmin qədər də məsuliyyətini nəzərə alaraq bu sahədə ciddi elmi tədqiqatları sistemli, ardıcıl şəkildə apararaq Azərbaycan dilçilik elmində onomastika məktəbini yarada bildi. (URL-3)

Qeyd edək ki, onomalogiya mövzusunda dünya dilçiliyi sahəsində bir çox tədqiqatlar aparılmış, bir-birindən dəyərli nəticələr əldə edilmişdir.

Onomastik vahidlərin tərkibi

Onomastikaya aid edilən sözlər dünya dilçiliik elmində fərqli şəkildə sinifləndirilmişdir. Azərbaycan dilçiliyində A. Qurbanov onomastik vahidlərin sinifləndirilməsi sahəsində apardığı geniş tədqiqatlarına dayanaraq bu yöndə lazım olan kriteriyalırı yazır: "Dilin başqa sahələrində olduğu kimi, onomastik vahidləri təsnif edərkən ilk növbədə məna və məzmun nəzərə alınmalıdır. Yəni eyni xarakter və eyni xarakterli onomastik vahidlər müəyyən sətir və

konkret başlıq altında qruplaşdırılır. Yuxarıda göstərilən xüsusiyyətləri nəzərə alaraq dilimizdəki xüsusi sözlər- onomastik vahidləri hələlik aşağıdakı müstəqil qruplara bölmək olar:

1. Antroponimlər: Şəxs adları, soyadları, ata adları, ləqəblər, təxəllüs və s.

2. Etonimlər: Qəbilə, xalq və xalq adları.

3. Toponimlər: Ölkə, vilayət, şəhər, qəsəbə, küçə, kənd, məhəllə, dağ, dərə, təpə, düzənlik, körpü, bina, yurd, qışlaq, yaylaq adları.

4. Hidronimlər: Təbii və süni su obyektlərinin adları.

5. Zoonimlər: Heyvanların, quşların, balıqların, həşəratların, sürünənlərin, gəmiricilərin adları.

6. Kosmonimlər: Göy cisimləri; Günəş, Ay, Yer, ulduzlar, bürclər, krater planet adları.

7. Ktematonimlər: Maddi mədəniyyət strukturları, elm və texnologiya, mənəvi mədəniyyətə aid əsərlər, şəxsi əşyalar, fəxri adlar, inzibati idarə, müəssisə və bu kimi adları bildirən adlar" (Qurbanov, 2019: 2/13).

A. Qurbanovun yuxarıda apardığı təsnifatda bitki adları, fitonimlərə yer verilməmişdir, lakin poemada bəzi bitki, meyvə və çiçək adları olduğu üçün fitonimləri ayrı başlıq altında əlavə edirik.

Aşağıda "Ziyarət"poemasında işlədilmiş onomsatik vahidləri ayrı-ayrılıqta yazıb hər sözün qarşısında izahı veriləcəkdir.

Ziyarət poeması

2009-cu ildə Xəzər universitetinin nəşriyyatında yayınlanmış "Ziyarət" poeması Hamlet İsaxanlının ən dəyərli əsərlərindən biridir. Poema şairin uşaqlıq illəri, doğulduğu kənd, gənclik illərinə aid təəssüratlar, doğulduğu kəndə səyahəti haqqında xatirələrdən ibarətdir. Aşağıdakı misralar poemanın ümumi mövzusunu əhatə edir:

Doğulduğum boy atdığım,
Arzularla qucaqlaşıb
Öz dünyamı yaratdığım
Doğma eldə-obadayam.
Yığılıbdır xeyli adam,
Bu ülfətə mən də şadam.
Üz- gözlərdə hörmət, izzət,
Hər damlaya dərya qiymət..
Ey tanrıdan aldığım nur,
Sən göstərən yol doğrudur,
Hər damlaya dərya qiymət…
Bu yerlərə çox gəlmişəm,
Gəldikcə də kövrəlmişəm,
Nəşəm qəmlə görüşübdür,
Sevincimə xal düşübdür.
Ey tanrıdan aldığım nur,
Sən göstərən yol doğrudur,
De, keçmişdənmi gəlmişəm,
Ya mən özüm köhnəlmişəm? (İsaxanlı, 2009: 141)

Ziyarət poeması vəzn baxımından daha çox heca və sərbəst vəzndə yazılmışdır. Əsərdə şairin zaman-zaman duyğularından doğan şeirlər romantik şeir nümunəsi olaraq dəyərləndirilə bilər. Bu poemada yer alan şeirlərin bəziləri qəm-kədər duyğularını aşıladığı kimi bəzi şeirləri insanda sevinc və xoş əhval-ruhiyyə oyadır. Poemada fəlsəfə, tarix, sosiologiya, mədəniyyət və zaman-zaman baş vermiş tarixi, siyasi, ictimai məsələlərə dair şeir və misrlar şairin geniş dünya görüşünün göstəricisidir.

"Ziyarət" poemasını oxuyarkən şairin təsvir etdiyi hadisələr, duyğular, obrazlar öz orginallığı ilə film kadrları kimi insanın gözü önündə canlanır, bu da müəllifin yaradıcılığı və ustalığını orataya qoyur.

Əsər haqqında yuxarıda sadaladığımız dəyərlərindən başqa, Azərbaycan dilçiliyi sahəsi üçün dəyərini də qeyd etmək lazımdır. Epik-lirik janrda yazılmış əsərdə mövcud olan zəngin söz ehtiyatı dilçilik sahəsində tədqiqat aparmaq üçün bir mənbə sayılır. Bu səbəblə əsərdə işlənmiş onomastik vahidləri araşdırmaq zərurəti ortaya çıxdı.

Antroponimlər

Bülbül- (İsaxanlı, 2009: 73, 137) Əsl adı Murtuza Rza oğlu Məmmədov Azərbaycan professional vokal məktəbinin banisi, dünya şöhrətli müğənni, musiqi folkloru tədqiqatçısı, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. (22 iyun 1897- 26 sentyabr 1961) (Vəliyeva, İbrahimova, 2017: 344)

Corc Buş- (İsaxanlı, 2009: 64) Corc Herbert Volker Buş- ABŞ-ın 41-ci prezidenti və Corc Volker Buş -ABŞ-ın 43-cü prezidenti. (Bayramzadə, 2012: 248)

Ələsgər- (İsaxanlı, 2009: 68) Azərbaycan şifahi xalq ədəbiyyatının tanınmış aşığı,1821-ci ildə Qədim Oğuz yurdunda- Göyçə mahalının Ağkilsə kəndində Alməmməd adlı kasıb bir kişinin ailəsində anadan olub. Ermənilərin bölgədə törədikləri soyğırımlarından maddi və mənəvi zərər görmüş Aşıq Ələsgər tərki- vətən olsa da 1926-ci il 7 martda vəfat edir və doğulduğu kənddə dəfn edilir. (Zimistanlı, 2014: 4-8)

Əsli- (İsaxanlı, 2009: 32) "Əsli və Kərəm" dastanının qadın qəhrəmanı. (Əcəmi, 2011; Türkmen, 2022: 25/ 283-284)

İsaxan- (İsaxanlı, 2009: 118, 124) Müəllifin babası.

Kərəm- (İsaxanlı, 2009: 32) "Əsli və Kərəm" dastanının kişi qəhrəmanı. (Əcəmi, 2011; Türkmen, 2022: 25/ 283-284)

Loğman- (İsaxanlı, 2009: 106) Peyğəmbər. (Quran. Loğman surəsi). Burada: Əfsanəvi bir həkim adı olub, klassik ədəbiyyatda və canlı dildə bütün dərdlərə çarə edən, adamlara yol göstərən bilici şəxs mənasında işlənmişdir. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3. 268)

Rəşid- (İsaxanlı, 2009: 137) Rəşid Məcid oğlu Behbudov. (14 dekabr 1915 Tiflis – 9 iyun 1989 Moskva) Dünya şöhrətli musiqi xadimi, görkəmli müğənni və tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı. (Vəliyeva, 2016)

Mövlanə- (İsaxanlı, 2009: 40) Əsl adı Cəlaəddin Rumi olan şair daha çox Mövlana adı ilə tanınmışdır. (604/1207 Bəlx – 672/1273 Konya). Dövrünün ən məşhur şairlərindən biri olub çox sayda əsərlər yazmışdır. Bu poemada adı çəkilən "Məsnəvi" şairin ən məşhur əsəridir. (Öngören, 2004: 29/ 441-448)

Mustafa- (İsaxanlı, 2009: 41) Mustafa Kamal Atatürk (1881Selanik-1938 İstanbul) Türkiyəli hərbçi və dövlət xadimi, Türkiyə "Qurtuluş Savaşı"nın baş komandanı və Türkiyə Cümhuriyyətinin qurucusudur. (Fayda, 2020: 30/ 477-479)

Nizami- (İsaxanlı, 2009: 40) XII əsrdə (1141-1209. Gəncə) yaşamış dünyaşöhrətli Azərbaycan şairi. (İbrahimova, Misirova, 2012: 8-10)

Nyuton- (İsaxanlı, 2009: 40) Tanınmış ingilis fiziki, riyaziyyatçısı, astronomu, filosofu və kimyaçı alimdir. (1643- 1727). (URL-4)

Putin- (İsaxanlı, 2009: 64) Rusiya Federasiyasının prezidenti.

Şekspir- (İsaxanlı, 2009: 40) Uilliam Şekspir (1564-1616 İngiltərə) İngiltərənin xalq şairi, dramaturqu və aktyoru. (URL-2)

Süleyman- (İsaxanlı, 2009: 96) Peyğəmbər. Həzrəti- Davud peyğəmbərin oğlu, İsrail oğullarına göndərilmiş hökmdar-peyğəmbər. (Harman, 2010: 38/60-62)

Şövkət- (İsaxanlı, 2009: 137) Şövkət Feyzulla qızı Ələkbərova (20 oktyabr 1922, Bakı – 7 fevral 1993, Bakı) — Azərbaycan müğənnisi, Azərbaycan SSR xalq artisti. (Qaramollayeva, 2012: 65-67)

Tolstoy- (İsaxanlı, 2009: 40) Lev Nikolayeviç Tolstoy, (1828-1910 Rusiya) rus yazıçısı, realistik fantastika ustası və dünyanın ən böyük roman yazıçılarından biri. (Şəmsizadə, 2006: 4-6)

Vaqif- (İsaxanlı, 2009: 68) Molla Pənah Vaqif (1717-1797) XVIII əsr Azərbaycan şairi, məşhur siyasi və ictimai xadim, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri. (Araslı, 2004: 5)

Xançoban- (İsaxanlı, 2009: 52, 137) Xançoban təxəllüsü ilə məşhur olan Həkim Əbülqasım Nəbati 1799-cü cu ildə Azərbaycanda Qaradağin Uştəbin kəndində anadan olmuşdur. (Səfərov, 2010: 22-23)

Zeynəb ana- (İsaxanlı, 2009: 118) Şairin nənəsi.

Etnonim

Çin- (İsaxanlı, 2009: 60) burada: çinli

Hind- (İsaxanlı, 2009: 60) burada: hindistanlı

Toponim

Amerika- (İsaxanlı, 2009: 56) Amerika Birləşmiş Ştatları Şimali Amerika qitəsində yerləşən böyük dövlət.

Avropa- (İsaxanlı, 2009: 56,57) Avropa qitəsi

Bakı- (İsaxanlı, 2009: 92) Azərbaycan Respublikasının paytaxtı

Çin- (İsaxanlı, 2009: 98) Çin Xalq Respublikası Şərqi Asiyada yerləşən böyük əraziyə sahib dövlət.

İran- (İsaxanlı, 2009: 60) İran İslam Respublikası Qərbi-Asiyada yerləşən dövlət.

İsveç- (İsaxanlı, 2009: 61) İsveç Krallığı Şimali Avropa Skandinaviya yarımadasında yerləşən Avropa birliyinin üçüncü böyük dövləti.

Məkkə- (İsaxanlı, 2009: 133) Ərəbistan yarımadasının şimalında Batnimekke (Bekke) adlı vadidə qurulmuşdur. Mərkəzində Kəbənin yerləşdiyi bu vadinin ortasındakı çuxura "Bəthâü Məkkə" (sel yatağındakı qum) deyilir. (Bozkurt, Küçükaşcı, 2003: 28/ 572)

Misir- (İsaxanlı, 2009: 94) Misir Ərəb Respublikası böyük hissəsi Afrikada yerləşən qitələrarası dövlətdir.

Norveç- (İsaxanlı, 2009: 61) Norveç Krallığı- Şimali Avropa Skandinaviya yarımadasının qərb hissəsində və ona yaxın adalarda yerləşən dövlət.

Qarayazı- (İsaxanlı, 2009: 120) Gürcüstanın Qardabani rayonunun keçmiş adı.

Kazaxstan- (İsaxanlı, 2009: 125) Qazaxıstan Respublikası Mərkəzi Asiyada ərazisinə görə ən böyük dövlət.

Qərb- (İsaxanlı, 2009: 98)

Qırğızıstan- (İsaxanlı, 2009: 125) Qırğız Respublikası Mərkəzi Asiyada dövlət.

Rusiya- (İsaxanlı, 2009: 60) Rusiya Federasiyası Şərqi Avropa və Şimali Asiyada yerləşən, ərazi baxımından dünyanın ən böyük dövləti.

Şərq- (İsaxanlı, 2009: 98)

Turan- (İsaxanlı, 2009: 60) Mərkəzi Asiyada tarixi bir ərazidir. (Elekberli, 2017: 512)

Hidronimlər

Sarı bulaq- (İsaxanlı, 2009: 17, 94) Ermənistanın şimalında Qaraxaç yaylağı adlanan dağ yerində, Gürcüstandan yaylağa gələn azərbaycanlıların seçdiyi yerlərdən birində məşhur bulaq. (İsaxanlı, 2009: 94)

Zəm-zəm- (İsaxanlı, 2009: 12) Məscidi- Haramda Həcərüləsvadla üz-üzə, Kəbəyə 19 metr uzaqlıqda yerləşir. Müsəlmanların çox dəyər verdiyi Kəbənin yanında quyudan çıxan su. (Küçükaşcı, 2013: 44/ 242-246)

Zoonimlər

At- (İsaxanlı, 2009: 111, 138) Qoşulan və minilən ev heyvanı. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/156)

Böcək- *[ər.]* (İsaxanlı, 2009: 20) Sərtqanadlı kiçik cücü. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/ 346)

Çaqqal- *[fars.]* (İsaxanlı, 2009: 121) Əsasən cəmdəklə qidalanan itkimilər ailəsindən vəhşi heyvan. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/ 438)

Ceyran- (İsaxanlı, 2009: 120, 121) Antilop cinsindən irigözlü, incəayaqlı, sürətlə qaçan zərif heyvan. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/ 396)

İlan- (İsaxanlı, 2009: 131) Bədəni uzun və qıvrılan ayaqsız, adətən zəhərli dişləri olan sürünən heyvan. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 2/ 526)

Pərvanə- *[fars.]* (İsaxanlı, 2009: 3,87) Fars dilində kəpənək. Adətən işiğin ətrafında dolaşan kiçik gecə kəpənəyi. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/ 598)

Qurd- (İsaxanlı, 2009: 121) Canavar. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 215)

Kosmonimlər

Ay- (İsaxanlı, 2009: 45, 48, 100) Burada: Yer kürəsinin peyki olub, onunla birlikdə Günəşin ətrafında fırlanan və gecələr inikas edən Günəş işığı ilə işıqlanan göy cismi. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/170)

Dünya- *[ər.]* (İsaxanlı, 2009: 18, 115, 121) 1. Bir küll olaraq maddənin bütün formalarının məcmusu; kainat. 2. Yer kürəsi, yer üzü, aləm. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/ 716)

Fələk- *[ər.]* (İsaxanlı, 2009: 51) 1. Göy, səma, asiman. 2. Tale, qismət, bəxt, uğur. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 2/181)

Günəş- (İsaxanlı, 2009: 5,17,48,73,74,86,100, 134) 1. Planet sisteminin işıq və istilik verən, közərmiş böyük şar şəklində olan mərkəzi göy cismi; gün. 2. Günəşin verdiyi işiq, istilik. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 2/ 313)

Ulduz- (İsaxanlı, 2009: 48) Öz təbiəti etibarı ilə günəşə bənzəyən və gecələr göydə parıldayaraq nöqtə kimi görünən göy cismi. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 4/ 401)

Qəmər-*[ər.]* (İsaxanlı, 2009: 83) Ərəb dilində ay. Bax: Ay.

Ktematonimlər

Ağbirçək- (İsaxanlı, 2009: 97) Saçı ağarmış yaşlı, qoca, hörmətli (qadın haqqında), dünyagörmüş, təcrübəli qadın, yaşlı qadın. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/57)Burada: məcazi mənada ad kimi işlənmişdir.

Ağsaqqal- (İsaxanlı, 2009: 87,97)1. Saqqalı ağarmış, qoca. 2. Bir ailənin, elin, cəmiyyətin ən yaxşı və hörmətli adamı, başçısı. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/71-72) Burada: məcazi mənada ad kimi işlənmişdir.

Alosman- *[ər.]* (İsaxanlı, 2009: 89) Ali Osman, Osmanlı dövləti mənasında. Qərbi Anadolunun şimalında bir Türkmen bəyliyi olaraq ortaya çıxıb üç qitədə yayılan və qurucusunun adı ilə tanılan Türk-İslam dünyasında en uzun ömürlü dövlət (1300-1922). (Emecen, 2007: 33/ 580-589)

Hakim- *[ər.]* (İsaxanlı, 2009: 55) 1. Məhkəmə orqanlarında baxılan iş haqqında hökm və ya qərar çıxaran vəzifəli şəxs. Xalq hakimi. 2. Oyunda, yarışda hakimlik edən şəxs. Futbol hakimi. Hakimin qərarı. Beynəlxalq dərəcəli hakim. 3. Bir ölkənin başında duran, onu idarə edən şəxs (padşah, hökmdar, xan və s.). (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 2/320)

İngilis - (İsaxanlı, 2009: 60) İngilis dili. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 2/550)

Kamalist- (İsaxanlı, 2009: 41) Atatürkçülük. (URL-1)

Marksist- (İsaxanlı, 2009: 41) [K. Marksın adından] Təbiət və cəmiyyətin inkişaf qanunları, məzlum və istismar olunan kütlələrin inqilabı haqqında dünyagörüşü. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/292)

Məsnəvi- *[ər.]* (İaxanlı, 2009: 40) Hər iki misrası həmqafiyə olan böyük şeir, mənzumə. Burada: Mövlanə Cəlaləddin Ruminin məsnəvisi. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/ 352

Milli məclis- *[ər.]* (İsaxanlı, 2009: 64) bax: parlament

Nazir- *[ər.]* (İsaxanlı, 2009: 57) 1. Nazirliyə başçılıq edən hökümət üzvü. 2.Nəzarət edən, baxan, idarə edən. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/465)

Parliament- *[fr.]* (İsaxanlı, 2009: 64) Bütünlüklə və ya qismən seçimiş nümayəndəllərdən təşkil olunmuş ali qanunverici məclis. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/577)

Polis- *[alm.]* (İsaxanlı, 2009: 55,57) 1. Plisiyada xidmət edən adam. 2. Polisiya, polis idarəsi. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/614)

Rus- (İsaxanlı, 2009: 60) burada: rus dili. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/666)

Sentimental- *[fr.]* (İsaxanlı, 2009: 97) 1. Sentimentalizmlə əlaqədar olan, sentimentalizimlə bağlı olan. 2. Çox tez təsirlənən, mütəəssir olan, həddindən artıq həssas olan, hissə qapılan. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 4/59)

Sosyalist- (İsaxanlı, 2009: 41) 1. Sosializm. 2. Sosialist partiyasının üzvü. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 4/ 139)

Şura hökümәti- *[ər.]* (İsaxanlı, 2009: 126) Sovet hökümәti.

Tolstoyçu- (İsaxanlı, 2009, 41) [Yazıçı L.N. Tolstoyun adından] Öz dövrünün ictimai quruluşunu və mədəniyyətini partiarxal kəndli mövqeyini ən tənqid və inkar edən və əxlaqi təkmilləşmə və pisliyə qarşı müqavimət göstərməmək ideyasını təbliğ edən dini-etik nəzəriyyəsi. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 4/ 352)

Xəzər- (İsaxanlı, 2009: 61) Xəzər Universiteti. 1992-ci ildə Azərbayca təsis edilmiş ilk özəl universitet.

Yanıq Kərəm- (İsaxanlı, 2009: 32) "Əsli və Kərəm" dastanın kişi qəhrəmanı. (tərtib edənlər: Məhəmmədhüseyn, Axundov, 2005: 2/11)

Ziyarət - *[ər.]* (İsaxanlı, 2009: 121) Hamlet İsaxanlı tərfindən yazılmış poema.

Fitonimlər

Çiçək- (İsaxanlı, 2009: 6) Çiçəkləri olan bitki; gül. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/481)

Gül- *[fars.]* (İsaxanlı, 2009: 5,13) bax: çiçək

Kartof- *[alm.]* (İsaxanlı, 2009: 106) (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 2/ 643)

Ot- (İsaxanlı, 2009: 5,6) Ağaclara və kollara mənsub olmayan yaşıl gövdəli incə bitki. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/531)

Qərənfil- *[ər.]* (İsaxanlı, 2009: 11,13) Rəngbərəng növləri olan ətirli gözəl bir çiçək. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/118)

Qızılgül- *[türk-fars.]* (İsaxanlı, 2009: 11) Kicik, tikanlı kolda bitən, müxtəlif rənglərdə olan ətirli bir gül. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/158)

Söyüd- (İsaxanlı, 2009: 105, 111, 115) Adətən sulaq yerlərdə bitən, ensiz yarpaqları, elastikli budaqları olan ağac və ya kol. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 4/ 148)

Tənək- (İsaxanlı, 2009: 105) Üzüm ağacı, meynə. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 4/ 312)

Yarpaq- (İsaxanlı, 2009: 105,108) Ağac və s. bitkilərin yastı və cinsinə görə müxtəlif şəkildə olan yaşıl rəngli tənəffüs orqanı. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 4/ 545)

Yarpız- (İsaxanlı, 2009: 17, 94) Əksərən su kənarında bitən, ağ və qırmızı çiçəkləri olan çox ətirli bitki; çölnanəsi. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 4/546)

Yasəmən- *[fars.]* (İsaxanlı, 2009: 17,94) Ağ, qırmızı və bönövşəyi rəngdə ətirli salxımvari çiçəklər açan köl. Yasəmən ağacı. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 4/547)

Yuxarıda A. Qurbanovun onomastik sinifləndirməsi əsasında tədqiq edilmiş sözlərdən başqa bəzi xüsusi isim bildirən sözlər də əsərdə mövcuddur. Həmin sözlər inanc haqqında, ilin fəsilləri və digər isimlər bildirən sözlərdir:

Allah- *[ər.]* (İsaxanlı, 2009: 4, 22, 25, 47, 73, 78, 88, 124, 130, 132) Bütün kainatın yeganə yaradıcısı və idarə edəni; Yaradan, Tanrı, Rəbb. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/102)

Əzrayıl-[ər.] (İsaxanlı. H. 2009. s.96) 1. Dini etiqadlara görə, bütün insanların ölmək vaxtı çatanda onların canını alan mələk, ölüm mələyi. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 2/167-168)

İblis- *[ər.]* (İsaxanlı, 2009: 55) 1. Şeytan. 2. məc. Araqarışdıran, fitnə salan, fitnəkar, hiyləgər. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 2/492)

Aşıq- [ər.] (İsaxanlı. H. 2009. s.140) Xalq xanəndəsi; həm oxuyan, həm çalan, həm də söz qoşan el sənətkarı. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/151)

Qarq zurna- (İsaxanlı. H. 2009. s.140) 1. Zil səsli zurna növü. 2. İki zurnaçının birgə çalması. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/55)

Saz- *[fars.]* (İsaxanlı. H. 2009. s.140) Mizrabla çalınan, armudvari çanağı olan simli xalq çalğı aləti. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 4/52)

Bahar- [fars.] (İsaxanlı. H. 2009. s.4) Yaz fəsli. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 1/206)

Qış- (İsaxanlı. H. 2009. s.4, 115) İlin payızdan sonra gələn ən soyuq fəsli. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/150)

Payız- [fars.] (İsaxanlı, 2009: 4) İlin yaydan sonra gələn fəsli. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/584)

İlham pərim- (İsaxanlı, 2009: 6.) Şairləri ilhama gətirən hiss.

Qara yel- (İsaxanlı, 2009: 96) Hər şeyi qurudub xarab edən şiddətli isti və quru külək. (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 3/55)

Nəticə

Poemada ümumilikdə doxsan beş onomastik vahid işlənmişdir. Bunlardan iyirmisi antroponimdir və bu antroponimlərdən yalız biri, Xançoban türk mənşəli, qalan sözlər isə

dilimizə keçmiş ərəb, fars, latın və slavyan dillərindən olan sözlərdir. On altı topnim, iki etnomim və iki hidronim işlənmiş, hidronimlərdən biri türk, biri isə ərəbmənşəlidir. Poemada movcud olan yeddi zoonimdən dördü türk, biri ərəb, ikisi isə farsmənşəlidir. Kosmonimlərdən üçü türkmənşəli, üçü isə ərəbmənşəlidir. Poemada ən çox işlənmiş, iyirmi ktematonimdən dördü türkmənşəli, yeddisi dilimizdə ərəb dilindən keçmiş sözlər, digər doqquz söz isə latın mənşəli sözlərdir. Fitonimlərdən altısı türkmənşəli, biri türk-fars mənşəli, digər beş söz isə dilimizə ərəb-fars dillərindən keçmiş sözlərdi. Digər kateqoraiyalara aid isimlərin sayı isə on birdir.

Qaynaqlar

❖ ARASLI Həmid, (2004). *"Molla Pənah Vaqif. Əsərləri",* Bakı: "Şərq-Qərb" nəşriyyatı

❖ BAYRAMZADƏ, Elşən, (2012). *Amerika prezidentləri*. Bakı: «Apostrof» çap evi

❖ BOZKURT, Nebi, Küçükaşci Mustafa Sabri, (2003). "Mekke". *Türkiye Diyanet Vakfı İslâm Ansiklopedisi* Ankara: TDV Yayınları, 28

❖ ELEKBERLI, Faiq, (2017), *Turan sivilizasiyasina giriş: Turan məfkurəsi və Tanriçiliq*. Bakı: Xan nəşriyyatı

❖ EMECEN, Feridun. (2007). "Osmanlılar". *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi* Ankara: TDV Yayınları, 33

❖ ƏCƏMİ, Səlahəddin, (2011). *"Əsli və Kərəm" poeması.* Bakı: Ağrıdağ nəşriyyatı..

❖ HARMAN, Ömer Faruk, (2010). "Süleyman". *Türkiye Diyanet Vakfı İslâm Ansiklopedis*i Ankara: TDV Yayınları, 38

❖ İBRAHIMOVA, Mətanət, MISIROVA, Gülbahar, (2012). *Biblioqrafiya, Nizami Gəncəvi*. Bakı: Zərdabi LTD MMC

❖ İSAXANLI, Hamlet, (2009). *Ziyarət*. Bakı: Xəzər universitetinin nəşriyyatı.

❖ KÜÇÜKAŞCI Mustafa Sabri, (2013). "Zemzem". *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi* Ankara: TDV Yayınları, 44

❖ QARAMOLLAYEVA, Kəmalə. (2012). "Şövkət Ələkbərova yaradıcılığına nəzər". *Mədəni həyat*. S. 11. s.65-67)

❖ QURBANOV, Afad, (2019). *Azərbaycan onomalogiyasının əsasları (Seçilmiş əsərləri)*. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası. C.1

❖ QURBANOV, Afad, (2019). Azərbaycan onomalogiyasının əsasları (Seçilmiş əsərləri). Bakı: Azərbaycan Milli Elmlər Akademiyası. C. 2

❖ MƏHƏMMƏDHÜSEYN Təhmasib, AXUNDOV Əhliman, (2005). *Azərbaycan dastanları*, Lider nəşriyyatı

❖ ORUCOV, Əliheydər. (2006). Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Şərq-Qərb nəşriyyatı, Cild 1.

❖ ORUCOV, Əliheydər. (2006a). Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Şərq-Qərb nəşriyyatı, Cild 2.

❖ ORUCOV, Əliheydər. (2006b). Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Şərq-Qərb nəşriyyatı, Cild 3.

❖ ORUCOV, Əliheydər. (2006c). Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Şərq-Qərb nəşriyyatı, Cild 4.

❖ ÖNGÖREN, Reşat, (2004). "Mevlana Celaleddin-i Rumi" *Türkiye Diyanet Vakfı İslâm Ansiklopedis*i Ankara: TDV Yayınları, 29

❖ SƏFƏROV, Yusif. (2010) “Xançobani” təxəllüsü haqqında,” *Mədəni maarif*. S.3. s.22-23

❖ ŞƏMSIZADƏ, Nizaməddin, (2006). *Aleksey Nikolayeviç Tolstoy*, Bakı: Şərq-Qərb nəşriyyatı

❖ TURAN, Şerafettin, (2020). “Mustafa Kemal Atatürk”. *Türkiye Diyanet Vakfı İslâm Ansiklopedis*i Ankara: TDV Yayınları, 31

❖ TÜRKMEN, Fikret, (2022). “Kerem ile Asli”. *Türkiye Diyanet Vakfı İslâm Ansiklopedis*i Ankara: TDV Yayınları, 25

❖ VƏLIYEVA, Mədinə, (2016). *Biblioqrafiya (Behbudov Rəşid Məcid oğlu).* Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası,

❖ VƏLIYEVA, Mədinə, (2017). *Biblioqrafiya. (Bülbül (Murtuza Rza Oğlu Məmmədov),*Bakı: M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası.

❖ ZİMİSTANLI, Qabil, (2014). *Aşıq Ələsgər. Bütün əsərləri*. Bakı: “OL” MMC

❖ URL1. ALBAYRAK Mustafa, “Kemalizm’in Düşünsel Temelleri Ve Tarihsel Oluşumu” https://dergipark.org.tr/en/download/article-file/994155

❖ URL2. BEVİNGTON David, SPENCER Terence John Bew, RUSSELL BROWN John, Encyclopaedia Britannica. https://www.britannica.com/biography/William-Shakespeare

❖ URL3. HÜSEYNOVA, https://www.muallim.edu.az/news.php?id=4206

❖ URL4. WESTFALL Richard. Encyclopedia Britannica. https://www.britannica.com/biography/Isaac-Newton/International-prominence

Abstract

Azerbaijani literature, which has been among the world's literatures with its rich examples since ancient times, maintains its richness even in modern times.

In the 20th-21st centuries, there are personalities who work and write in this field with their pens. One of them is Professor Hamlet Isakhan.

Doctor of physical and mathematical sciences, professor, Hamlet Isaxanli works as a contemporary poet, writer, publicist, translator, specialist in the history of science, culture and education, researcher of literature and linguistics, history and philosophy as a result of his deep interest in the field of humanitarian sciences and creative ability. Hamlet Isaxanli has many written books and articles related to the mentioned fields. One of his most famous works in the field of literature is the poem "Ziyarat". The poem "Ziyarat", which is a product of the poet's kind and tender heart, way of life, ideas and thoughts, and worldview, is one of his contributions to the field of modern Azerbaijani literature.

In addition to its literary importance, the work is also among the valuable works for research in the field of linguistics, especially onomastics. Thus, the author used a large number of onomastic units such as anthroponyms, toponyms, ktematonyms, and phytonyms in the poem and enriched the vocabulary of his work.

In the article, the onomastic units used in the poem are classified under a separate title, the page of the word in the poem is given in parentheses in front of each word, and then the explanation of the words is given, stopping at the isna.

Key words: Hamlet Isakhanli, poem of Ziyarat, linguistics, onomastics.

İÇİNDƏKİLƏR

Almaz BƏDƏLOVA. Ədəbi Dil üçün Arxaikləşən Qərbi Azərbaycan Şivələri və Onların Tarixi-Linqvistik Xüsusiyyətləri *7*

Aytən QURBANOVA. "Səs-Küy Və Qəzəb" Romanında Şüur Axını *16*

Azhar SHALDARBEKOVA. National Features Of The Nauryz Holiday In Kazakhstan: «Korisu» -A Manifestation Of Friendship And Harmony In Relations *20*

Cəmilə ƏLİYEVA. İohann Volfqanq Höte: "Gənc Verterin İztirabları" *25*

Emin ZEYNALOV. Aşıq Ələsgər Yaradıcılığında Divan Ədəbiyyatına Xas Poetik Fiqurlar *28*

Əliş NİFTƏLİYEV. The Impact Of History On Political Decision-Making And Security: The Case Of Russia-Ukraine Conflict…….....*34*

Əsmər ƏLİYEVA. Oğuz Atayın "Tutunamayanlar" Əsəri Kokteyl Roman Kimi *39*

Fatimə ABDULLAYEVA. Jerome David Salingerin "Çovdarlıqda Uçurumdan Qoruyan" Romanında Holden Xarakterinin Kölgə Arxetipi *43*

Fəridə ABDULLAYEVA. Joze Saramaqo "Təxirə Salınmış Ölüm" Romanı..... *47*

Fidan ƏLİZADƏ. Xarici Dillərin Öyrənilməsində Musiqi Mətninin Rolu *53*

Firəngiz HADİ. Psixolinqvistika Yeni Elm Sahəsi Kimi *59*

Humay HÜSEYNOVA. Mario Varqas Lyosanın "Yaramaz Qızın Sərgüzəştləri" Romanında Elitarlıq və Kütləvilik.....*62*

Günay YEDİYARLI. Nəsrdə Qaçqınlıq Konseptinin Sosial - Psixoloji Aspektləri (Elçin Əfəndiyevin "Bayraqdar" Povesti Əsasında) *66*

Günay YUSİFOVA. Vilyam Qoldinqin "Milçəklər Tanrısı" Romanında Yumor və Sarkazm..... *70*

Günel ALİZADA. Multiple Epic Techniques In "Light In August" By William Faulkner And "The Feast Of The Goat" By Mario Vargas Llosa..... *74*

Könül HƏSƏNOVA. "Tiflis Əyalətinin Müfəssəl Dəftəri"ndə İşlənən Toponimlərin Konseptual Baxımdan Təhlili..... *80*

Layə MUSTAFAYEVA. İmplekatur və Məna. *85*

Ləman ƏSGƏROVA. Naxçıvan Dialekt və Şivələrində İşlədilən Qədim Türk Sözlər..... *89*

Ləman MƏMMƏDOVA. Hamlet İsaxanlı: dördlüklərdə ədəbi-estetik minimalizm.....*95*

Leyla SALMANOVA. Kurtuaz Ədəbiyyatının Şah Əsəri - "Tristan və İzolda" *100*

Leyla SALMANOVA. Vətənimin Haqq Bağıran Səsi-Əhməd Cavad *105*

Minəxanım ƏFQAN. "Dil Oyun"larının Manipulyativ Xarakteri.....*110*

Nərmin ƏHMƏDOVA. Koqnitiv Qrammatika və onun Komponentləri.....*113*

Nuray ƏHƏDOVA. Həsən Əli Toptaş "Kölgəsizlər" Romanında Magik və Postmodern Elementlər.....*117*

Samet ÖNDER, Melike KARATEKE. Ahmed Cavad Ahundzade'nin şiirlerinde Kolektif Bilinç ve Turan ülküsü *121*

Sahilə Mustafayeva. Emosiyanın Koqnitiv Proseslərə Təsiri.....*127*

Səma MEHTİYEVA. Jose Saramaqonun "Korluq" Əsərində Korluğun Bədii Təsviri.....*131*

Siyuan WANG (Çin) Çin Dilindəki Xüsusi İsimlərin Azərbaycan Dilinə Transliterasiyası Məsələsi Və Qaydaların Müəyyənləşdirilməsinə Dair Bəzi Təkliflər *137*

Şəbnəm AĞAYAROVA. Anarın Əsərlərində İsimin Məna Növlərinin İşlədilməsi *149*

Yuxuan TANG (Çin). Azərbaycan və Çin Dilindəki Alınma Sözlərin Nitq Hissələri və Tematika Baxımından Müqayisəli Təhlili..... *154*

Türfə VƏLİYEVA. İhsan Oktay Anarın "Əfrasiyabın Hekayələri" Romanında Cezzar Dede Emprik Təhkiyəçi Kimi… *159*

Türkan NAĞIYEVA. Hasan Ali Toptaşın "Bin Hüzünlü Haz" Romanında Postmodern Təhkiyə.....1*64*

Ülviyyə ABDULLAYEVA. Cəfər Cabbarlının Romantik Poeziyasında Turançılıq..... *168*

Yeqzar CƏFƏRLİ. "Da Vinçi Şifrəsi" Romanı və "Den Braun Bədii Üçbucağı"..... *174*

Yeqzar CƏFƏRLİ, Xanım CƏFƏRLİ. "Mələklər və İblislər" və "Heyvanıstan" Romanlarında zamanın bədii strukturu.....*185*

Yusifova LALƏ. Den Brounun “Cəhənnəm” Romanında “Maltus” Nəzəriyyəsinin Bədii İfadəsi *191*

Zivər HÜSEYNLİ BAYLAN. Hamlet İsaxanlının “Ziyarət” Poemasında Onomastik Vahidlər..... *195*